european youth information
and counselling agency

# GÜC BİRLİKDƏDİR

## gənclərin məlumatlandırılması vasitəsi ilə zorakı ekstremizmin qarşısının alınmasına dair bələdçi



Müəllif hüquqları, ERYICA asbl 2018. Bütün hüquqlar qorunur.
Şəkil: gənc rəssam Emi Scheyvaertsə məxsusdur
ISBN: 978-2-9199585-5-9

*‘Cahillik qorxuya, qorxu nifrətə, nifrət isə, zorakılığa səbəb olur. Bu qədər sadə bir tənlik’.*

**İbn Rüşd, Averroes (1126–1198)**

**Yuxarıda verilmiş fikrə əsaslanaraq, Avropa Gəncləri Məlumatlandırma və Məsləhət Agentliyi (ERYICA) və onun fransızdilli üzvləri (CIDJ Fransa, CIJ Lüksemburq, CIDJ Belçika və Infor Jeunes Brüssel) gəncləri məlumatlandıraraq onları zorakı ekstremizmdən qorumaq məqsədi ilə bu bələdçini tərtib etmişdir.**

**Nəşr rəhbəri:**
Eva Reina

**Redaktor:**
Jessica Walker

**Müəlliflər:**
Nicolas Vaslin, Simon Therer, Didace Kalisa, Franck Chabriak, Angèle Deheyn,
Laetitia Rensonnet, Juliette Brassard, Manfred Zentner,
Eva Reina, Jessica Walker, Claire Conlon.

**Fransız dilindən İngilis dilinə tərcümə edən:**
Brittany Freeman

**Adaptasiya və korrektə:**
Eva Reina, Jessica Walker, Cloé Juigné

**İllüstrasiya:**
Fikri təsvirlər, Emi Scheyvaerts (furet1318@live.be)

**Dizayn:**
Ismet Lisica (www.studiolisica.com), Jasmin Leventa

**İngilis dilindəki nəşrlə bağlı qeyd:**

**Bu bələdçi Avropa Şurası və Beynəlxalq Gənclər Bürosunun ("Bureau International Jeunesse", BIJ) (Valoniya-Brüssel Federasiyası, Belçika) dəstəyi əsasında ərsəyə gəlmişdir.**

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**Avropa Şurası və ERYICA, habelə Avropa Gəncləri Məlumatlandırma və Məsləhət Agentliyi arasında bağlanan Tərəfdaşlıq Sazişi əsasında nəşr edilmişdir.**

*Bu təlimat kitabçasında verilmiş fikirlər Avropa Şurasının rəyini ifadə etmir.*

Bu nəşrin müəllif hüquqları ERYICA-ya aiddir. Müəllif hüquqları sahibindən yazılı surətdə icazə almadan bu nəşrin hər hansı bir hissəsi tərcümə edilə, yaxud hər hansı formada və ya vasitə ilə, elektron, mexaniki, o cümlədən fotosurətinin çıxarılması, yazılması (səs və videoyazı) yolu ilə və ya istənilən məlumat saxlancı, məlumat axtarış sistemi vasitəsi ilə surəti çıxarıla bilməz. Bu sənədin tam və ya bir hissəsinin surətinin çıxarılması, yaxud tərcüməsi ilə bağlı istənilən müraciət ERYICA qeyri-kommersiya təşkilatına ünvanlanmalıdır:
European Youth Information and Counselling Agency,
87 Route de Thionville
L-2611 Luxembourg
secretariat@eryica.org

Bu nəşrdə verilmiş mətnlərin surəti qeyri-kommersiya yönümlü maarifləndirmə məqsədləri üçün yalnız mənbəyini müvafiq şəkildə göstərməklə çıxarıla bilər.

**Azərbaycan dilindəki nəşrlə bağlı qeyd:**

**“Güc birlikdədir: gənclərin məlumatlandırılması vasitəsi ilə zorakı ekstremizmin qarşısının alınmasına dair bələdçi”** nəşri Amerika xalqının Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) vasitəsilə ayırdığı səxavətli yardım sayəsində ərsəyə gəlib. Bu vəsait USAID-nin maliyyə dəstəyi ilə BMqT-nin Azərbaycandakı Nümayəndəliyi tərəfindən Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilən “Dayanıqlıq naminə ictimai fəaliyyət” layihəsi çərçivəsində EYRICA-nın rəsmi icazəsi əsasında Azərbaycan dilinə tərcümə edilərək hazırlanıb.

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) miqrantlara və cəmiyyətlərə fayda verən miqrasiya prosesinin humanist və nizamlı şəkildə təşkili prinsipinə aid müvafiq öhdəliklərinə sadiqdir. Hökumətlərarası təşkilat olaraq BMqT miqrasiya sahəsində yaranan çağırışların operativ həllinə yardım, miqrasiya məsələlərinin daha da dərindən mənimsənilməsinin qabaqcıl şəkildə təşkili, miqrasiya prosesləri vasitəsi ilə sosial-iqtisadi inkişaf üçün lazımi şəraitin yaradılması, həmçinin miqrantların ləyaqət və rifahının təmin edilməsi istiqamətində beynəlxalq ictimaiyyətdən tərəfdaşları ilə birlikdə fəaliyyət gostərir.

Nəşrdə ifadə olunmuş fikirlər müəllifə məxsusdur və o, heç bir halda BMqT və ya USAID-nin rəsmi mövqeyini əks etdirmir. Vəsaitdə verilmiş qeydlər və təqdim olunmuş materiallar hər hansı bir ölkə, ərazi, şəhər, bölgə və ya əlaqədar orqanın hüquqi statusu, yaxud onun sərhədləri və ya səlahiyyət çərçivələrinə dair BMqT və ya USAID tərəfindən hər hansı bir fikrin ifadə olunmasını nəzərdə tutmur. BMqT, USAID və ERYICA vəsaitin Azərbaycan dilinə tərcüməsi zamanı yaranmış ola biləcək hər hansı uyğunsuzluğa görə məsuliyyət daşımır.

Naşir: Beynəlxalq Miqrasiya Təşkilatının
Azərbaycan Respublikasındakı Nümayəndəliyi
Azərbaycan Respublikası
Yaşar Hüseynov küç. 18, Bakı şəhəri, AZ1069
Tel: +994 12 4659071/72
Faks: +994 12 465 90 73
E-poçt: iombaku@iom.int
Veb-səhifə: www.iom.int ; www.iom.az

© Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT), 2019-cu il

Bütün hüquqlar qorunur. Bu nəşrin heç bir hissəsi naşirin müvafiq yazılı razılığı olmadan yenidən dərc edilə, digər informasiya sistemlərində saxlanıla, istənilən formada və ya elektron, mexaniki, surətçıxarma, yazma və ya digər vasitələrlə ötürülə bilməz.

USAID
AMERİKA XALQINDAN

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)
BMT-nin Miqrasiya Agentliyi

# Nəşr tərəfdaşları

Avropa Gəncləri Məlumatlandırma və Məsləhət Agentliyi (ERYICA) gənclərin məlumatlandırılması fəaliyyətlərini əlaqələndirən milli qurum və şəbəkələrdən ibarət müstəqil bir Avropa təşkilatıdır. ERYICA-nın vəzifələri: gənclərin məlumatlandırılması ilə əlaqədar görülən iş və xidmətlər sahəsində əməkdaşlığı dəstəkləmək; ümumilikdə, gənclərin maarifləndirilməsi üzrə məqsədəuyğun siyasət və təcrübələri bütün fəaliyyət istiqamətləri üzrə artırmaq, dəstəkləmək və təşviq etmək; gənclərin məlumat ehtiyaclarının qarşılandığını və Avropa Gəncləri Məlumatlandırma Nizamnaməsinin prinsiplərinə əməl olunduğunu təmin etmək. 1986-cı ildə təsis olunduqdan sonra ERYICA öz şəbəkəsini daim genişləndirmişdir; bu nəşrin buraxıldığı tarixdə təşkilatın 27 ölkədə 36 üzvü olmuşdur (http://www.eryica.org).

"Fédération de Centres d'Information et de Documentation pour Jeunes" (CIDJ) Belçikanın Fransızdilli İcması (Valoniya-Brüssel Federasiyası) nəzdində fəaliyyət göstərən gənclərin məlumatlandırılması mərkəzi, habelə gənclər üçün ümumi məlumat xidməti göstərən bir təşkilatdır. CIDJ-in vəzifəsi məlumatlandırma layihələri və alətləri, habelə maarifləndirmə materiallarını reallaşdırmaq, eyni zamanda, təşkilat üzvlərinin xidmətlərini vurğulamaq və aidiyyəti sektorların təmsilçiliyni təmin etməkdir (www.cidj.be).

*"Centre d'information et de documentation jeunesse"* (CIDJ) Fransanın Təhsil Nazirliyinin dəstəyi ilə yaradılmış birlikdir. 1969-cu ildə yaradılmış bu birliyin missiyası gənclərin müstəqil bir fərd kimi yetişməsi üçün onlara lazım olan məlumatlara bərabərhüquqlu çıxış imkanlarını təmin etməkdir. Bu missiyanı dörd əsas hissəyə bölmək olar: ictimai məlumat mərkəzləri, gənclərin məlumatlandırılması və təlimatlandırılması üçün resursların nəşr edilməsi, nəzarət və resurslar, şəbəkələşmə, proqram fəaliyyətlərinin koordinasiyası və təlim (www.cidj.com).

1987-ci ildə təsis edilən "Centre Information pour Jeunes" (CIJ) Böyük Lüksemburq Hersoqluğunun Təhsil, Uşaqlar və Gənclər Nazirliyi tərəfindən maliyyələşdirilən birlikdir. Bu birliyin missiyası hər bir gəncin tam əhatəli, obyektiv və etibarlı informasiya almasını təmin etmək, həmin informasiyaya çıxış hüququnu təşviq etmək, gənclərə peşəkar dəstək göstərmək və onların müstəqilliyini artırmaqdır. CIJ həmçinin gənclərin məlumatlandırılmasının əhəmiyyətini vurğulamaq məqsədi ilə aidiyyəti sektorda fəaliyyət göstərən siyasi orqanlar və mütəxəssislərlə də əməkdaşlıq edir (www.cij.lu).

*"Le Centre d'Accueil et d'Information Jeunesse de Bruxelles"*, qısa ifadə etsək, *"Infor Jeunes Bruxelles"* 12-26 yaşlı gənclərin məlumatlandırılması mərkəzidir. Məqsədi gənclərlə əlaqədar bütün məsələlər barədə (məşğulluq, təlim, təhsil, mobillik, istirahət, səhiyyə və s.) onları məlumatlandırmaqdır. Bu birlik Valoniya-Brüssel Federasiyası tərəfindən gənclərin məlumatlandırılması mərkəzi kimi tanınır (www.ijbxl.be).

# Minnətdarlıq

Bu təlimat kitabçasının ərsəyə gəlməsində rolu olan bütün şəxslərə, xüsusilə də 2016 və 2017-ci illərdə Brüsseldə təşkil olunmuş iki Açıq Dialoq yığıncağında iştirak edən təşkilat və şəxslərə öz minnətdarlığımızı bildiririk.

*Annoncer La Couleur, Association des Parents turcs de Belgique (TOVAP), AVISCENE ASBL, BePax, Bureau International Jeunesse (BIJ), Cellule de prévention du radicalisme de la Ville de Bruxelles (BRAVVO), Centre d'Information et d'Avis sur les Organisations Sectaires Nuisibles (CIAOSN), Centre Infor Jeunes d'Eupen (Infotreff), Centre Information Jeunesse de Laval, Centre régional d'Information Jeunesse Lyon Rhône-Alpes, Centre régional d'Information Jeunesse Toulouse Midi-Pyrénées, Commission européenne, Commune d'Anderlecht — Service de Prévention, Commune de Molenbeek-Saint-Jean — Service de la Jeunesse et de la Cohésion sociale, Commune de Schaerbeek — Service d'Appui Thématique et Territorial, Coordination Nationale d'Action pour la Paix et la Démocratie (CNAPD), De Ambrassade, Département Cultura, Jeugd en Media — Vlaamse Overheid, Direction de la Prévention et de la Sécurité de la Ville de Charleroi, Direction générale de l'enseignement obligatoire et Service de la Jeunesse — Fédération Wallonie-Bruxelles, Dounia Bouzar (Anthropologue du fait religieux/gestion de la laïcité), European Peer Training Organisation (EPTO), Fédération Infor Jeunes Wallonie-Bruxelles, Forum Belge pour la Prévention et la Sécurité Urbaine, Institut de Recherche, Formation et Action sur les Migrations (IRFAM), Interfédérale des Centres de Jeunes Belgique (FMJ), Le Foyer de Jeunes des Marolles, Les Parents Concernés ASBL, Mairie de Viry-Châtillon — Service Jeunesse, Maison des jeunes de Rodange, Manfred Zentner (chercheur, Danube-University Krems), Mourad Benchellali (témoin), Observatoire International de Justice Juvénile (OIJJ), Point Information Jeunesse de la Ville de Lille, Service de Prévention de la Ville de Mons, SPF Intérieur, UCLAT Unité de coordination de la lutte antiterroriste — Police nationale (France) et Université de la Paix.*

Həmçinin bu layihənin icrası prosesində göstərdiyi etimad və dəstəyə görə Avropa Şurasına minnətdarıq. Avropa Şurasının Avropa İttifaqı üzrə Əməkdaşlıq Büroları, "Nifrət Nitqinə Yox" kampaniyasının nümayəndələri, Gənclər üzrə Avropa Rəhbər Komissiyasının (CDEJ) üzvləri, Gənclər üzrə Məsləhət Şurası və Gənclər Departamentinin üzvləri.

Eyni zamanda, tapşırıqlar və sənədləşmədə istifadə olunmuş materialları təqdim edən müəssisə və şəxslərə öz təşəkkürümüzü bildiririk.
Fərqli Dünya, BePax, Conseil Supérieur de l'Éducation aux Médias — Fédération Wallonie-Bruxelles, La Coordination pour l'éducation à la non-violence et à la paix, Təhsil Komissiyası, Educanet Belgique, Avropa Ekspert Təlim Təşkilatı (EPTO), Gérard Pirotton, Média Animation, Mutualités chrétiennes, SPF Intérieur, Università degli Studi di Firenze, Université de la Paix və Vivre ensemble Bruxelles.

Bu bələdçi kitabçasının kreativ və ecazkar illustrasiyalarını hazırladığını görə gənc rəssam Emi Şeyvaertsə (Vaterlo Gənclər Klubu, Belçika) xüsusi təşəkkürümüzü bildiririk.

Bələdçidə verilmiş mətn və tapşırıqların müəlliflərini göstərməyə və onlara lazım olan haqqı verməyə çalışmışıq. Hər hansı xətaya görə əvvəlcədən üzr istəyir və növbəti nəşrimizdə istənilən xətanı aradan qaldıracağımıza söz veririk.




# Mündəricat


**Ön söz** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **13**

**Avropa Şurası və gənclərə qarşı zorakı ekstremizmlə mübarizə** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **14**

**"Güc birlikdədir" bələdçisi haqqında** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **17**

- **Məqsəd və struktur** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **18**
- **Bələdçidən istifadə** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **19**

## Nəzəri aspektlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22

- **1. Anlayışın təhlili və qavranılması** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **24**
  - 1.1 Radikallaşma və ekstremizm: ümumi təhlil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 24
  - 1.2. Radikallaşma prosesi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25
  - 1.3. Zorakı ekstremizmin səbəbləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 28
  - 1.4. Zorakı ekstremizmə aparan radikallaşma ilə mübarizə yanaşmaları . . . . . . . . . . . . . . . . . . . 30

- **2. Zorakı ekstremizmin qarşısının alınmasında gənclərin məlumatlı olmasının rolu** . . . . . . . . . . . . **33**
  - 2.1 Gənclərin məlumatlandırılması (GM) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33
  - 2.2. Problemin daha geniş şəbəkəsinin bir parçası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
  - 2.3. Müdaxilə üsulları: profilaktika, aşkarlama . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36

**İstinadlar** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **41**

- **1. Mövzu haqqında qısa biblioqrafiya** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **41**
- **2. Əsas siyasi sənədlər** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **42**





## Toplu . . . . . . . . . . 44

**Bölmə 1. Özünəhörmət, özünəinam və özünüdərk . . . . . 47**

1.1. Mənim kimliyim . . . . . 50

1.1.1. Mən haradayam və kiməm? . . . . . 51

1.1.2. Rol modeller və resurslar . . . . . 55

1.1.3. Böyüklərim məni məlumatlandırır . . . . . 58

1.1.4. Mədəniyyətim . . . . . 60

1.2. Güclü cəhətlərim, istedadlarım, bacarıqlarım . . . . . 61

1.2.1. Dostum bunu edə bilər . . . . . 62

1.2.2. İstedad və güclü cəhətlər kvarteti . . . . . 70

1.2.3. Siluetlər . . . . . 77

1.3 İstəklər və ehtiyaclar . . . . . 78

1.3.1. Zövqüm və hobbilərim . . . . . 79

1.3.2. Müsbət yönümlü məqsəd . . . . . 81

1.3.3. Xoşlayıram, xoşlamıram: Şəkil dili tapşırığı . . . . . 83

1.3.4. Avtoportret . . . . . 86

**Bölmə 2. Fərqlilik və birlikdə yaşamaq . . . . . 89**

2.1. Bizə bənzəməyənlərlə qarşılaşmaq: oxşar və fərqli cəhətlərin dəyərləndirilməsi . . . . . 92

2.1.1. Qarşılıqlı münasibətlər . . . . . 93

2.1.2. Naharda qonağımız olacaq . . . . . 95

2.2. Stereotiplər və qərəzlər . . . . . 98

2.2.1. Stereotiplər, qərəz və ayrı-seçkilik . . . . . 99

2.2.2. Stereotiplər 1-2-3 . . . . . 101

2.3. Ayrı-seçkilik . . . . . 105

2.3.1. Düzgün davranış . . . . . 106

2.3.2. Dairə . . . 110
2.3.3. Məzlum . . . 112
2.3.4. Mədəni və iqtisadi münaqişələr I . . . 121
2.3.5. Mədəni və iqtisadi münaqişələr II . . . 124
2.3.6. Dörd kvadrat . . . 127
2.4. Mədəniyyətlərarası əlaqələr . . . 131
2.4.1. "Əridici qazan" . . . 132
2.4.2. "Birlikdə yaşayışı təsvir edən ağac" . . . 134

**Bölmə 3. Şəxslərarası ünsiyyət . . . 141**
3.1. Özünüifadə (kreativlik, emosiyalar, hisslər, ehtiyaclar, düşüncələr, ideyalar...) . . . 144
3.1.1. Fikrini əsaslandırmaq . . . 146
3.1.2 Konsentrik dairələr . . . 150
3.2. Debat (kontekst, metodlar, alətlər...) . . . 153
3.2.1. Qrup tapşırıqları üçün bir neçə texnika . . . 155
3.2.2. "Frizbi" . . . 159
3.2.3. Harada dayanmısınız? . . . 162
3.3. Münaqişələrin idarə edilməsi . . . 165
3.3.1 Qatar . . . 168
3.3.2. Münaqişə oyunu . . . 176
3.3.3 Azadlıqların toqquşması . . . 178

**Bölmə 4. Mətbuat və informasiya savadlılığı . . . 185**
4.1. Tənqidi təfəkkür . . . 188
4.1.1. Nə gördünüz? . . . 190
4.2. Mətbuat . . . 192
4.2.1. Başlıq . . . 193
4.2.2. Mətbuatın 6 bölmədə təhlili . . . 196
4.2.3. Məlumatlandırma, yoxsa hiyləgərlik? . . . 199
4.2.4. Faktların araşdırılması . . . 201
4.3 Təbliğat . . . 209
4.3.1. Təbliğat posterinin təhlili . . . 210
4.3.2. Təbliğat nitqinin təhlili . . . 220
4.3.3. Nifrət nitqinin qavranılması . . . 222
4.4 Konspirasiya nəzəriyyələri . . . 226
4.4.1. Konspirasiyaya inanırıqmı? . . . 227
4.4.2. İndi siz özünüz konspirasiya nəzəriyyəsini yaradın! . . . 229

**Lüğət . . . 232**

# Ön söz

*"Güc birlikdədir"* bələdçisi **Avropa Şurası və Avropa Gəncləri Məlumatlandırma və Məsləhət Agentliyi** (ERYICA). arasında bağlanan Tərəfdaşlıq sazişinin məhsuludur. Bu Tərəfdaşlığın məqsədi gənclərin məlumatlandırılması və onlara məsləhətlərin verilməsi sahəsində Avropa əməkdaşlığını təşviq və inkişaf etdirməkdir. Avropa Şurasının üzv dövlətləri və Avropa Mədəniyyət Konvensiyasına öz imzasını atan digər ölkələrin bildirdiyi ehtiyac və tələblərə uyğun olaraq, xüsusilə də gənclər sektorunda çalışanlar üçün nəzərdə tutulan təlim fəaliyyətləri və resurslarının hazırlanması sözügedən təşviq və inkişaf metodlarıdır.

Hal-hazırda siyasət və gənclər sektorunda çalışanlar gənclər arasında radikallaşma və zorakı ekstremizmin yaranmasının qarşısını almaq və onunla mübarizə aparmaq məqsədi ilə müvafiq mexanizmləri, struktur və tədbirlər planlarını işləyib hazırlamağa çalışır. Avropa Şurası, ERYICA və onun fransızdilli üzvləri (CIDJ Fransa, CIJ Lüksemburq, CIDJ Belçika və Infor Jeunes Bruxelles) bu məqsədə nail olmaq üçün **gənclərin məlumatlandırılması və onlara məsləhətlərin verilməsi** kimi fəaliyyətlərin əhəmiyyətini, habelə əsas maraqlı tərəflərlə əməkdaşlığın belə bir fenomenlə mübarizədəki rolunu vurğulayır.

Radikal olmaq öz-özlüyündə qeyri-qanuni və ya zərərli olmaq demək deyildir, lakin zorakı hərəkətlərlə radikallaşma prosesindən bir vasitə kimi istifadə edən tərəf qanun qarşısında ittiham olunur. Bu fikirdən bir sıra suallar doğur: *gənclərin məlumatlandırılması və gənclərlə iş sahəsində çalışan işçi kimi bu prosesin qarşısını almaqda nə kimi rol oynamalıyıq? Digər sektorlarda işləyərək bu problemi həll etməyə çalışan həmkarlarımıza necə kömək edə və onlarla necə əməkdaşlıq edə bilərik?* Əlbəttə ki, gənclərlə iş və gənclərin məlumatlandırılması kimi xidmətlər təkcə gənclər üçün deyil, həmçinin bütünlükdə vətəndaş cəmiyyəti üçün də **preventiv rol** oynayır. Nə zaman və necə müdaxilə etməli? - sual budur.

Bundan başqa, radikallaşma və cihadın birgə peyda olması o deməkdir ki, görülmüş tədbirlər çox vaxt dini kontekstdə birmənalı şəkildə, demək olar ki, radikallaşmaya istiqamətlənir. Qəbul etmək lazımdır ki, zorakı ekstremizm bir çox formalarda təzahür edə və özünü **dini prizma hüdudlarından kənara** çıxara bilər.

Çox zaman bu problemlə mübarizədə heç bir vasitənin olmadığı şəraitdə gənclər sektorunun getdikcə artan tələbini qarşılamaq məqsədi ilə hazırlanmış bu bələdçi **maarifləndirmə xarakterli bir resursdur**. *"Güc birlikdədir"* sektor nümayəndələrinə təqdim edilmiş əsasən praktik resurslardan ibarət bir kataloq olsa da, zorakı ekstremizmin bəzi aspektlərinin başa düşülməsində əhəmiyyətli rol oynayır. Ümidvarıq ki, gənclərlə bağlı həyata keçirdiyiniz işlərdə bu resurs sizin əlinizdən tutacaq, müstəqil və məlumatlı bir gənc nəslin formalaşması üçün faydalı olacaq.

Eva Reyna,
Direktor, ERYICA

# Avropa Şurası və gənclərə qarşı zorakı ekstremizmlə mübarizə

**Avropa İnsan Hüquqları Konvensiyası**, habelə bir sıra digər konvensiyalara əsaslanaraq, Avropa Şurası demokratiya, insan hüquqları və qanunun aliliyini təşviq etmək məqsədi ilə müvafiq proqram və tədbirləri hazırlayıb qəbul edir. Bu təşkilat müstəqil ekspertlər vasitəsi ilə müvafiq tövsiyələri verərək, üzv dövlətlərin insan hüquqları ilə bağlı müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlərə öz nəzarətini həyata keçirir.

Avropa Şurası həmçinin **uşaq və gənclərin hüquqlarının** müdafiəçisi kimi çıxış edir. Demokratik Vətəndaşlıq və İştirak Direktoratlığının struktur bölməsi olan Gənclər Departamenti **gənclər üçün nəzərdə tutulan** ardıcıl və effektiv siyasətlərin yerli, milli və Avropa səviyyəsində ərsəyə gəlməsi məqsədi ilə müvafiq təlimatları, proqram və hüquqi alətləri işləyib hazırlayır. Sözügedən Departament **Avropa Gənclər Fondu** vasitəsi ilə maliyyələşməni təmin edir, eyni zamanda, Budapeşt və Strasburqda yerləşən Avropa Gənclər Mərkəzləri vasitəsi ilə gənclərə aid beynəlxalq tədbirlərə maarifləndirmə xarakterli dəstək göstərir. Məqsədi gənc vətəndaşlar, gənclərin mobilliyi, habelə insan hüquqları, demokratiya və mədəni plüralizm dəyərlərini təşviq etməkdir. Bu fəaliyyətlər barədə ətraflı məlumat **Gənclər Departamentinin** veb səhifəsində verilmişdir (www.coe.int/youth).




### Tədbirlər Planı

Avropa Şurası terrorizmə səbəb olan zorakı ekstremizm və radikallaşma ilə mübarizə üçün **Tədbirlər Planını** (2015-2017) qəbul etmişdir. Terrorizm və zorakı ekstremizm əleyhinə **hüquqi bazanı** gücləndirmək, **ictimai sektorda konkret tədbirləri** həyata keçirməklə, zorakı radikallaşmanın qarşısını almaq və onunla mübarizə aparmaq bu Planın ən ümdə məqsədləri olmuşdur. Tədbirlər Planında təsbit edilir ki, "formal və informal təhsil, gənclərə istiqamətlənmiş fəaliyyətlər və əsas iştirakçıların (habelə mətbuat, siyasi nümayəndələr və sosial sektorlar) təlimləndirilməsi bu baxımdan zəruri rol oynayır". Ardınca isə **İnklüziv Cəmiyyətin Qurulması Naminə Tdəbrilər Planı (2016-2019)** hazırlandı. Bu Plan **təhsilə, ayrı-seçklik əleyhinə tədbirlərə və effektiv inteqrasiyaya** istiqamətlənmişdir. Aidiyyəti Tədbirlər Planının məqsədi stereotiplərə və ayrı-seçkiliyə qarşı mübarizə aparmaq, inklüzivlik istiqamətində həyata keçirilən strategiyaları dəstəkləmək, sosial və mədəni müxtəliflik baxımından vətəndaşlar arasında etimadı formalaşdırmaq, habelə mədəniyyətlərarası ünsiyyət və bacarıqları dəstəkləməkdir.

## Avropa Şurası və gənclərin məlumatlandırılması

Avropa Şurası Avropa gənclər siyasətinin təməlini qoyan bir təşkilatdır. Bu, Avropada (Gənclərin məlumatlandırılması və onlara məsləhətlərin verilməsi haqqında CM\Rec (1990) saylı Tövsiyə 7) gənclərin məlumatlandırılması və onlara məsləhətlərin verilməsinin əhəmiyyət və prinsiplərini vurğulayan sənədi qəbul etmiş ilk təşkilat olmuşdur. 2010-cu ilin iyun ayında bu tövsiyənin ardınca üzv dövlətlərin Nazirlər Komissiyası tərəfindən CM\Rec (2010) saylı Tövsiyə 8 hazırlandı ki, onun da məqsədi gənclərin məlumatlandırılması və onlara məsləhətlərin verilməsi ilə bağlı mövcud xidmətləri birləşdirmək və zənginləşdirmək idi. 1997-ci il aprel tarixində Avropa Şurası gənclərin məlumatlandırılması və onlara məsləhətlərin verilməsi sahəsində Avropa əməkdaşlığını təşviq və inkişaf etdirmək məqsədi ilə ERYICA ilə Tərəfdaşlıq Sazişi imzaladı. Gənclərin məlumatlandırılması istiqamətində Avropa Şurasının spesifik yanaşmasının məğzində belə bir inanc dayanır ki, **informasiya əldə etmək insanın hüququdur** (ümumi formada Avropa İnsan Hüquqları Konvensiyasında, xüsusi formada isə Uşaq Hüquqları Konvensiyasında müəyyənləşdirildiyi kimi), eyni zamanda, gənclər xüsusi və həssas hədəf qrupudur. Bundan başqa, Avropa Şurasının birgə idarəetmə sistemi ilə (bu sistem vasitəsi ilə gənc liderlər qərarvermədə hökumət nümayəndələri ilə yanaşı iştirak edir) təzahür etdiyi kimi, gənclərin bütün aidiyyəti sahələrdə iştirakını vurğulayan həmin dəyərləri bir daha gücləndirir.

Gənclər üçün məlumat və məsləhətlərin verilməsi ilə birbaşa bağlı olan tövsiyələrdən əlavə, gənclərin iştirakının dəstəklənməsi və onlara öz hüquqlarından istifadə etməkdə informasiyanın rolu həmçinin Avropa Yerli və Regional Qurumların Konqresinin **“Gənclərin Yerli və Regional Fəaliyyətlərdə İştirakı haqqında Yeni Avropa Nizamnaməsi”**ndə, habelə Avropa Şurasının **“Uşaq Hüquqları Strategiyası”nda** (2012-2015) ifadə edilmişdir. Avropa Şurası qəbul edir ki, gənclərin tam, əhatəli və etibarlı informasiyaya çıxış hüququ vardır, bununla onlar tam **sərbəst seçim** imkanından yararlanır, informasiya əldə etmək onların **cəmiyyətə cəlb edilməsi** və **fəal iştirakı**, habelə məsuliyyətli bir vətəndaş olması üçün ilkin şərtdir. Bu təşkilat həmçinin gənclərin ehtiyacları üzrə nəzərdə tutulmuş informasiya və məsləhətin verilməsini də onların hüquqlarının təmin edilməsi və müstəqilliyinin təşviqi istiqamətində mühüm bir faktor hesab edir.

Üzv dövlətlərin Nazirlər Komissiyasının aztəminatlı gənclərin sosial hüquqlarının təmin edilməsi haqqında CM\Rec(2015) saylı Tövsiyəsi 3 **aztəminatlı gənclərin sosial inteqrasiyası və fəal iştirakı** istiqamətində çox mühüm bir addım olmaqla yanaşı, **gənclərin məlumatlandırılması** işini xüsusilə vurğulayır. Gənclər üçün yeni informasiyanı təmin edən, tam çıxış imkanı verən informasiya sistemlərini təkmilləşdirmək, belə bir sistemi olmadığı halda, onu yaratmaq, habelə mövcud icma infrastrukturu vasitəsi ilə informasiya və məsləhət xidmətlərini göstərmək, qəbul olunmuş standartlara əsasən gənclərin məlumatlandırılması və onlara məsləhətlərin verilməsi fəaliyyətlərinin keyfiyyət və effektivliyinin təmin olunması istiqamətində müvafiq tədbirləri icra etmək əsas məqsədlərdir.

Avropa Şurası həmçinin həddən artıq informasiya axını və bu axını idarə etmək zərurəti, habelə elmtutumlu cəmiyyətin texniki aspektləri səbəbindən bugünkü **rəqəmsal erada** gənclərin üzləşdiyi yeni çətinliklərə də reaksiya vermişdir. Uşaqların zərərli məlumat və davranışlardan qorunması, onların yeni informasiya və kommunikasiya mühitinə fəal cəlb edilməsinin təşviqi istiqamətində görüləcək tədbirlər haqqında CM/

Rec(2009) 5 saylı Tövsiyə buna misal ola bilər.

Üzv dövlətlərin Nazirlər Komissiyası isə 28 sentyabr 2016-cı il tarixində gənclərin hüquqlara çıxış imkanı haqqında CM/Rec(2016) 7 saylı Tövsiyəni qəbul etmişdir. **İnformasiyaya çıxışdan** danışılarkən (Bölmə 3.6) bu Tövsiyə "gənclərin hüquqlarının pozulduğu və ya yerinə yetirilmədiyi təqdirdə, onları öz hüquqları və təzminat imkanları barədə məlumatlandırmaq və məsləhət vermək üçün effektiv mexanizmlər"ə dəlalət edir.

Üzv dövlətlərin Nazirlər Komissiyasının gənclərlə iş haqqında CM/REC(2017) saylı, 31 may 2017-ci il tarixli Tövsiyəsi 4 hazırki dövrdə xüsusilə də **keyfiyyətli iş icrası** ilə gənclərə müvafiq dəstəyin göstərilməsinin əhəmiyyətini vurğulayır. Məqsədi mənfi xarakterli davranış və təsirlərə məruz qala biləcək **ümidsiz və işsiz gənclərin "itmiş nəsli"nin** formalaşmasının qarşısını almaq istiqamətində üzv dövlətlərə dəstək göstərməkdir. Bu tövsiyənin mətnində kreativlik, tənqidi təfəkkür, münaqişələrin idarə edilməsi, **rəqəmsal və informasiya bacarığı** təşviq olunur, eyni zamanda, "gəncləri onların hüquqları, mövcud imkan və xidmətlər barədə məlumatlandırmağın", eləcə də "qeyri-formal və informal təhsili genişləndirməyin" əhəmiyyəti qəbul edilir. Günümüzün miqrasiya, işsizlik, sosial təcridolunma və zorakı ekstremizm kimi bəzi əsas çətinliklərinin qarşısını effektiv surətdə almaqda gənclərlə həyata keçirilən fəaliyyətlərin rolu bu tövsiyədə vurğulanır.

**"Nifrətə Yox" Nitqi**

Avropa Şurasının gənclərlə iş sektoru tərəfindən həyata keçirilən və onlayn fəaliyyət zamanı insan hüquqlarına hörmət etməyə çağıran «Nifrətə Yox Nitqi» hərəkatı (www.nohatespeechmovement.org) ilk dəfə 2012-ci ildən 2014-cü ilə qədər planlaşdırılmışdır. Hərəkat uğurlu nəticə verdiyinə görə əlavə 3 il müddətinə (2015-2017) uzadılmışdır. Bu hərəkatın məqsədi onlayn mühitdə istənilən formada təzahür edən, o cümlədən əsasən gənclərə istiqamətlənən nifrət nitqinə qarşı mübarizə aparmaqdır. Hərəkatın əhatə dairəsi genişdir; təxminən 39 üzv dövlət kampaniyaya qoşulmuş, Avropa Şurasının üzvü olmayan ölkələr də cəlb edilməkdədir. Kampaniya **insan hüquqlarının öyrənilməsi, gənclərin iştirakı və mətbuat bacarıqlarına** əsaslanır. Əlavə 3 ildə isə, əsas diqqət mövcud və yeni Milli Kampaniya Komitələrinin dəstəklənməsinə, habelə radikallaşma və terrorizmlə mübarizə aparmaq üçün Avropa Şurasının standartları və alətləri haqqında informasiyanı ehtiva edən veb səhifəni yeniləməyə və təbliğ etməyə istiqamətlənəcək. Kampaniyanın Avropa üzrə koordinasiyası 2018-ci ilin əvvəllərində yekunlaşdırılsa da, milli səviyyədə kampaniyalar davam edə bilər.

NO HATE
NO HATE SPEECH MOVEMENT

# “Güc birlikdədir” bələdçisi haqqında




2015-ci ilin noyabrında baş verən Paris hadisələrindən dörd gün sonra ERYICA-nın fransızdilli üzvlərindən təşkil olunan işçi qrupu toplandı. Həmin iclasda qərara alındı ki, xüsusilə də gənclərlə iş sektorunda çalışanlar üçün qabaqlayıcı (preventiv) bir resursun hazırlanması məsələsi Avropa Şurası qarşısında qaldırılsın.

Bu layihə çərçivəsində müxtəlif ölkələrdən olan, **gənclərlə iş və zorakı ekstremizm sahələrində** fərqli təcrübələrə malik olan iştirakçı qrupu 21 iyun 2016 və 3 aprel 2017-ci il tarixlərində Brüsseldə təşkil olunmuş iki günlük müzakirələrdə iştirak etmişdir. İştirakçılar gənclərə qarşı zorakı ekstremizm problemini müxtəlif aspektlərdən araşdırmışdır. Bu problemin məğzini aydınlaşdırdıqdan, habelə gənclərlə iş aparmaq və **gəncləri məlumatlandırmaqla** zorakı ekstremizmin qarşısını almağın mümkünlüyünü aşkar etdikdən sonra ayrı-ayrı iştirakçının gənclərlə iş sektoru daxilindəki müdaxilə fəaliyyətləri ən yaxşı formada müəyyənləşdirilmişdir. Daha sonra redaktə komandası gənclərin tənqidi təfəkkür və müqavimət qabiliyyətinin formalaşdırılması üçün əsas bacarıqların mənimsənilməsi istiqamətində ən münasib alətlərin seçimini aparmışdır.

Zorakı ekstremizm tendensiyalarının artmasında bir sıra əsas aspektlər risk faktoru hesab edilmişdir. Bura daxildir: ailə və dostlar, tanışlar, sosial status, dəyərlər, emosiyalar, məqsəd və arzular. Kütləvi surətdə qəbul olunmuşdur ki, zorakı ekstremizmin qarşısının alınması istiqamətində aparılan fəaliyyətlər zamanı



bütün bu aspektlər nəzərə alınmalıdır ki, mövcud problem **çoxtərəfli yanaşma** əsasında həll edilə bilsin.

Komanda həmçinin gənc auditoriya ilə işləyənlərin tez-tez qarşılaşdığı spesifik problemləri də nəzərdən keçirmişdir. Beləliklə, gənclərin güclü cəhətləri, habelə gənclərlə bağlı başlıca problemləri həll edərkən çətin vəziyyət yaradan "boz zonalar" da müəyyənləşdirildi.

Müzakirələrin 2017-ci il aprel tarixində təşkil olunan ikinci mərhələsi ərzində redaktorlar qrupu bələdçinin ilkin versiyasını gənclərlə iş üzrə fərqli təcrübələrə malik əməkdaşlara və təhsil resurslarının hazırlanması sahəsində fəaliyyət göstərən ekspertlərə təqdim etdi. "Güc birlikdədir" adlı bu sənəd cari problemlərin həlli zamanı meydana gələn sektorlararası və çoxsəviyyəli müzakirələrə əsaslanır.

### Məqsəd və struktur

"Güc birlikdədir" sənədinin məqsədi zorakı ekstremizmin xüsusiyyətlərini izah və təhlil etmək deyildir. Bu mövzuya dair artıq dərc edilmiş onlarla ədəbiyyat vardır ki, ERYICA-nın veb səhifəsinin 'Resurslar' bölməsində yerləşdirilmişdir. Əvvəla, "Güc birlikdədir" **gənclərlə iş sektorunda** çalışan hər bir kəsin (gənclərlə iş sektorunun əməkdaşları, gəncləri məlumatlandıran işçilər, təhsilverənlər, müəllimlər, sosial işçilər, dəstə başçıları, könüllülər və b.) **zorakı ekstremizm kontekstində risk faktorlarının** aradan qaldırılması zamanı istifadə edilə biləcək **praktik bir resursdur.**

Öz məqsədinə tam nail olmaq üçün aidiyyəti yanaşma birbaşa xarakter daşımamalıdır; əslində belə həssas mövzu üçün hətta əks nəticələr verə bilər. Məsələn, bu mövzuya əxlaqi bucaqdan (məsələn, qadağalar) baxmaq və ya təsisat mülahizəsi yürütmək səmərəli nəticə verməzdi. Bu təlimat şəxsiyyət, fərqlilik, özünüdərk, müzakirə mədəniyyəti, mətbuat və informasiya savadlılığı kimi məsələləri nəzərə alaraq, daha dərin və uzunmüddətli yanaşmanı təklif edir.

Bu, iddialı bir vəzifədir, çünki məqsədi **gəncləri aşağıdakı mövzular barədə məlumatlandırmaqdır:**
- Fərqlilik müsbət keyfiyyətdir;
- Fikir müxtəlifliyi sərbəst fikir mübadiləsinə şərait yaradır və cəmiyyətə dəyişiklik gətirir;
- Tənqidi təfəkkür müstəqillik və azadlığı təşviq edir;
- Özünəinam özünürealizənin təməlində dayanır və fərdin cəmiyyətdə öz yerini tapması üçün zəruri şərtdir;
- Bu elementlərin hamısı (və digərləri) birgə yaşamaq üçün mühümdür, müvafiq olaraq, ehtiramlı və proqressiv multikultural cəmiyyətin qurulmasında zəruridir!

"Güc birlikdədir" **iki hissədən** ibarətdir. Birinci hissə **nəzəri xarakter** daşıyır. Nəzəri hissənin məqsədi radikallaşma, zorakı ekstremizm, prosesin qarşısını alma və müqavimət kimi terminlərin qavranılmasına çalışmaqdır. Zorakı ekstremizm kontekstində çox spesifik mexanizmlər və müzakirədə olan problemlər bərabər şəkildə nəzərdən keçirilir. Nəhayət, gənclərlə iş və gənclərin məlumatlandırılması üzrə fəaliyyət göstərən əməkdaşların öz vəzifə və bacarıqları çərçivəsində nə kimi müdaxilə tədbirləri görə biləcəyini daha yaxşı formada aydınlaşdırmaqla, zorakılığa səbəb olan radikallaşma ilə mübarizədə həmin əməkdaşların rolunun müəyyənləşdirilməsində bu bələdçi münasib bir vasitə olacaq.

Bələdçinin ikinci hissəsi isə **praktiki xarakterlidir**. Bu hissə uyğunluq, istifadə rahatlığı və gənc auditoriyaya müsbət təsir göstərmək bacarığı baxımından seçilmiş **tapşırıq toplusundan** ibarətdir. Bu tapşırıqlar kataloqu tam deyildir, buna görə də gənc insanlarla yaxından işləyənlər digər uyğun vasitələri də tətbiq edə bilər. Bununla belə, hesab edirik ki, bu bələdçiyə daxil etdiyimiz **40-dan çox tapşırıq** geniş auditoriya tərəfindən istifadə edilə və fərqli kontekstlərdə spesifik auditoriyaların ehtiyacları üçün uyğunlaşdırıla bilər. Bu tapşırıqlar yeni imkanlar axtarışında olanların təfəkkürünü genişləndirmək və bilik bazasını zənginləşdirmək məqsədi daşıyır. Hər bir tapşırıqda pedaqoji məqsədlər, habelə tapşırığın ən yaxşı formada necə icra ediləcəyi, onun istənilən spesifik ehtiyaca necə uyğunlaşdırılacağı barədə praktik informasiya (məsələn, hədəf auditoriya, tələb olunan materiallar, qrupun həcmi və s.) oxucunun diqqətinə çatdırılır. Bütün tapşırıqlar istifadəyə hazırdır. Həmçinin ERYICA veb səhifəsində onlayn verilən əlavə praktiki **resurslar** bazası da mövcuddur.

Gənclərlə iş sektorunda çalışan əməkdaşlar gənclərlə qurduğu yaxın münasibət və etimad əsasında risk faktorlarını müyyənləşdirə, radikallaşma və zorakı ekstremizm tendensiyalarının qarşısını ala bilər. Bu, əlbəttə ki, çətin bir tapşırıq olsa da, cari sosial problemlərin həlli üçün çox zəruridir. Nəticə etibarilə, ümid edirik ki, *“Güc birlikdədir”* bələdçisi gündəlik fəaliyyətlərdə qarşılaşdıqları problemlərin həll edilməsində gənclərlə işləyən şəxslərə yardım göstərəcək.

## Bələdçidən istifadə

*“Güc birlikdədir”* **təlimatlar toplusu** kimi çıxış edərək öz məqsədləriniz, ehtiyaclarınız, auditoriya və vasitələriniz (məsələn, işçi heyət, zaman, məkan və avadanlıq) üçün ən uyğun gələn tapşırıqları seçməyə imkan verir. Müxtəlif tapşırıqlar silsiləsi müəyyən bir qayda əsasında tərtib olunsa da, onlara xronoloji yanaşmaq vacib deyil. Hər bir tapşırıq öz-özlüyündə unikaldır və digərlərindən ayrı şəkildə yerinə yetirilə bilər.

Hər bir tapşırıqda verilmiş **praktiki informasiya** (məsələn, qrup həcmi, müddət, hədəf auditoriya və s.) məcburi xarakter daşımır, sadəcə təklif kimi göstərilir. Tapşırığın necə yerinə yetiriləcəyinə bir çox dəyişənlər təsir göstərəcək və hər bir tapşırıq müvafiq auditoriyanın spesifik ehtiyaclarına əsasən uyğunlaşdırılmalıdır.

Başqa formada göstərilmədiyi təqdirdə, verilmiş tapşırıqlar hər hansı mütəxəssis biliklərini tələb etmir. Auditoriyaya daha münasib şəkildə uyğunlaşdırılması məqsədi ilə əvvəlcədən materialla tanış olmaq tövsiyə edilir.

Ətraflı məlumatı ehtiva edən əlavə **dəstək silsilələri** də “Güc birlikdədir”də öz əksini tapmışdır ki, zənnimizcə, tapşırıqların yerinə yetirilməsində bu da sizə yardımçı olacaq. Sizin vəzifəniz meydana gələ biləcək yeni suallara, mövqelərə və hətta potensial münaqişələrə hazır olmaqla yanaşı, informasiyanı məntiqi şəkildə çatdırmaqdır.

Hər şeydən əvvəl, sizin vəzifəniz etimad və rəğbəti itirməməkdir - tapşırıqları idarə edərkən bunu daim ağlınızda saxlamalısınız. Həmçinin onu da bilməlisiniz ki, hər bir tapşırıq iştirakçıların **daha çox məlumatlanmasına** səbəb olur.

Növbəti tapşırıqların məqsədi iştirakçıları bir sıra mövzulara dair fikir yürütməsi və qərar qəbul etməsi üçün həvəsləndirməkdir. Gənclərə imkan verilir ki, çoxsaylı mövzularla bağlı təcrübə əldə etsin, fikir yürütsün, təhlil və tənqid etsin, ələlxüsus da, özlərini ifadə etsin.

Tapşırıqlar zamanı bildirilən bəzi fikirlər gənclərlə aparılan işlərin dəyəri ilə təzad təşkil edə və buna görə də sizi çıxılmaz bir vəziyyətə sala bilər. Lakin elə bir mühit yaratmaq lazımdır ki, iştirakçılar senzura və ya mühakiməyə məruz qalmadan özlərini müstəqil şəkildə ifadə edə bilsin. *Əsas məqsəd odur ki, söz azadlığı və qarşılıqlı hörmət arasındakı düzgün balansı qoruyub saxlayasınız.*

Bəzi tapşırıqları spesifik kontekstə gətirmək üçün peşəkarlıq və kreativliyi birləşdirərək xüsusi tövsiyələrimizi vermişik. Sizə yardımçı olacaq digər link və resursları ERYICA veb səhifəsindən əldə edə bilərsiniz: İnternet səhifələri, maarifləndirmə qovluqları və alətləri, istinad kitabları və s.




Diqqət:

*Özünü qurban kimi təqdim etmək* radikal hərəkatların təbliğat strategiyasının əsas təməl daşlarından biridir. Bu isə çox vaxt konspirologiya nəzəriyyələrinə əsaslanır. Empatiya göstərmək və söz azadlığına həvəsləndirərkən bu tip nitqə yol verməmək zəruridir. Bu tapşırığın öhdəsindən gəlmək üçün bələdçidə bir sıra maarifləndirici tövsiyələr verilir ki, bunların da bəzilərinə aşağıdakılar daxildir:

- Doqmatik və ya ideoloji debatlara girməyin (dini, siyasi, mədəni və digərləri).
- Zəruri olarsa, verilmiş mövzu ilə bağlı məlumatsız olduğunuzu gizlətməyin.
- Mövzuya təkcə sosial aspektdən yanaşmayın. Əsas məsələ doqma və ya ideologiyalar deyil, məhz onların *demokratik və fərqli cəmiyyətə sirayət etmək üsullarıdır.*

| Nəyi etməli: | Nəyi etməməli: |
| --- | --- |
| İştirakçıları öz təcrübəsinə əsaslanaraq müna–sibət və fikirlərini birdirməyə həvəsləndirmək. | Verilən təkliflərin 'faydasız', 'qeyri-münasib' və ya 'səfeh' olduğunu iddia etməyin! |
| Hər bir kəsin fikrini ifadə etməsi üçün özünü rahat hiss etdiyi, qarşılıqlı hörmətə əsaslanan təhlükəsiz bir mühiti yaratmağa çalışın. | Digərlərini çıxdaş etmək, saymamaq, əsassız mühakimə etmək və ya hörmət etməmək kimi münasibətlərə qrup daxilində yol verilməməlidir: bəzi əsas prinsipləri lap əvvəldən qoymağa çalışın. |
| Müzakirə etmək və sual verməyə həvəslən–dirin: iştirakçılar öz şübhələrini və ya tərəd–düdlərini ifadə edərək öyrənəcək. | Uzun-uzadı təqdimat etməyə çalışmayın: əks halda, iştirakçıların diqqəti yayınacaq! |
| İştirakçıların qarşılaşdığı reallıqlar və aidiyyəti mühitdəki real problemlərlə müqayisələr aparın. | Onlara məlum olmayan ümumiləşdirmələrə yol verməyin. |
| Doqmadan kənarlaşın! Həm özünüzə, həm də iştirakçılara 'oturuşmuş həqiqətlər'i sorğulamağa imkan verin. | Müzakirəni yekunlaşdırmaq üçün 'moizə oxumayın' və ya öz vəzifənizdən sui-istifdə etməyin. |
| Vicdanlı olun. Onlar məhz buna görə sizə daha çox hörmət edəcək və öz fikirlərini daha rahat şəkildə çatdıracaq. | Nəyəsə əmin deyilsinizsə, özünüzü bilmiş kimi göstərməyin! Onlara deyin ki, həmin məsələni araşdıracaqsınız və yaxud onları həvəsləndirin ki, həmin məsələni özləri araşdırsın. |
| İştirakçılara etimad göstərin. Onlar cavabları özləri tapmalıdır. | Onları susdurmayın və özlərini tapa bilməyəcəyi istiqamətlərə yönləndirməyin. |
| Verilən təkliflərə ciddi yanaşın: iştirakçılar sahiblik hissi olarsa, müzakirəyə qoşulacaq. | Planlara tam riayət etməyə çalışmayın: iştirakçılar başqa bir mövzuya yönəlmək istəsə, onların marağını istiqamətləndirin. |
| Onların təbii simpatiyalarını dəyərləndirin. Onların nə kimi hisslər keçirdiyini və ya ...olacağı təqdirdə, nə kimi hisslər keçirəcəyini soruşun | Onların fikirləri sərt və ya düşünülməmiş olarsa, ruhdan düşməyin. Onlara başqa bir perspektivdən yanaşmağı tapşırın. |
| Bütün iştirakçılarla eyni cür davranın - onlar bir-biri ilə və sizinlə eyni hüquqlara malikdir. Hamımız insanıq! | İştirakçıları onların edə bildiyi və ya bilmədiyi nələrəsə görə çıxdaş etməyin və yaxud mülahizə yürütməyin. İnsanları proqnozlaşdırmaq mümkün deyil! |

Mənbə

"Bookmarks" - İnsan hüquqları üzrə maarifləndirmə aparmaqla onlayn mühitdə nifrət nitqi ilə mübarizə haqqında təlimat, Avropa Şurası, Strasburq, 2014

# NƏZƏRİ ASPEKTLƏR


Görək
burda nə
var?!

# Nəzəri aspektlər

## 1. Anlayışın təhlili və qavranılması

Zorakı radikalizm və ekstremizmə qarşı mübarizə getdikcə daha çox subyektin ümdə vəzifəsinə çevrilmişdir ki, təhsil sahəsində fəaliyyət göstərən müəssisə və maraqlı tərəflər bu subyektlər arasında özünəməxsus rol oynayır. Aydındır ki, təhsil sektorunun başlıca məqsədi **zorakı ekstremizmə aparan radikallaşmanın qarşısını almağa** əsaslanır. Zorakı radikallaşmanın qarşısını almağa çalışarkən radikallaşma prosesini, habelə onun mahiyyətini və əsaslandığı məqsədləri götür-qoy etmək yerinə düşərdi. Lakin radikallaşma və de-radikallaşma (əks-radikallaşma) prosesləri barədə yeni ədəbiyyatı nəzərdən keçirdikdə görürük ki, əsas terminlərin izahı ilə bağlı vahid bir yanaşma mövcud deyil.

### *1.1 Radikallaşma və ekstremizm: ümumi təhlil*




"Radikallaşma" Latın sözü olan "radiks" sözündən götürülüb, "kök" deməkdir. Bu sözün mənası hansısa cərəyanda kök salmaq demək deyil, əksinə, **radikal dəyişikliyə** can atmaq, nəyisə kökündən dəyişmək və beləliklə, sosial dəyişikliyə nail olmaqdır. Bu səbəbdən də radikal olan şəxs cəmiyyətdə gördüyü problemləri kökündən dəyişməyə çalışır. Nəticə etibarilə, cəmiyyətin radikal dəyişikliyi həmin cəmiyyətin əsaslarını kökündən dəyişmək deməkdir və tamamilə yeni - əvvəllər həmin cəmiyyətin tərkib hissəsi olmamış bir sistemin qurulmasına gətirib çıxarır. Keçmişdə, məsələn, demokratik cəmiyyətin qurulması (vətəndaş müharibələri və ya inqilablar vasitəsi ilə), habelə qadın hüquqlarının qorunması, quldarlığın ləğvi, yaxud 1917-ci ildə Çar Rusiyasında Oktyabr inqilabı kimi hadisələr radikal dəyişikliklər hesab edilmişdir. Radikal dəyişiklik həmişə yeni nəsnələrin qurulmasına gətirib çıxarır və həmin nəsnələr **mövcud təcrübələrlə ziddiyyət** təşkil edir. Belə ki, radikal dəyişikliyin qarşısını almaq istənilən halda mövcud təcrübələrin qorunub saxlanılması baxımından "mühafizəkar" bir yanaşmadır. Digər tərəfdən, radikallaşma öz-özlüyündə "proqressiv" yanaşma deyildir. Çünki belə dəyişiklik ideyası artıq qarşısı alınmış qeyri-demokratik idarəetmə formaları kimi anlayışları yenidən ərsəyə gətirə bilər.

Radikal yanaşmalar **institusionallaşmış və ya oturuşmuş forma və təcrübələri** kökündən dəyişməyə, onların transformasiyasına çalışır. Belə yanaşmalar həyatın müxtəlif sahələrinə istiqamətlənə bilər: nikah, tərəfdaşlıqlar və hətta ən dərin ailə məfhumu kimi şəxsi münasibətlərə; ölkə vətəndaşlarının hüquqlarına yönələ bilər. Radikal yanaşmalar iştirak və məşğulluq formalarını, həmçinin istehlakçı vərdişlərini dəyişməyə istiqamətlənə bilər. Buna görə də radikallaşma istənilən təsisat üçün çətin bir tapşırıq ola bilər, lakin bu, göründüyü kimi, **heç də hər zaman zorakılıqla bağlı** olmur.

Radikallaşma bir çox baxımdan zorakılıqla əlaqədardır. *"Radikallaşma ekstremist dünya görüşünün qəbul edil-*

*məsidir. Belə cərəyan cəmiyyətin böyük bir qismi tərəfindən rədd edilsə də, qarşı tərəf cəmiyyət və siyasi dəyişikliyə təsir metodu kimi zorakılığın tətbiqini legitim hesab edir. Radikallaşmanın ən yaxşı formada konseptuallaşdırılmasına dair müəyyən müzakirələr aparılsa da, vahid fikir odur ki, bu məfhumun dəqiq təsviri üçün üç əsas aspektə istiqamətlənmək lazımdır. Radikallaşma adətən (1) tədricən baş verən bir "proses" olub sosiallaşmanı (2) ekstremist inanclar sisteminə aid edərək, hətta labüd olmadığı halda belə, (3) zorakılığa əsas yaradır".* (Hafiz və Müllins, 2015, 960). Zorakı olmaq radikallığın ayrılmaz bir hissəsi kimi görünməsə də, zorakılığın qəbulu adətən radikal olmağa dəlalət edir. Şmid (2013, 6) Della Porta və LaFree tərəfindən izah olunan və hər biri zorakılığı, yaxud fiziki güc tətbiqini xatırladan yeddi fərqli anlayışa istinad edir. Lakin Şmid həmçinin radikalizm termininin tarixi təzahürünə işarə edərək Sufrajistlər kimi qeyri-zorakı xarakterli müxtəlif hərəkatların olduğunu da bildirir.

Radikallaşma anlayışının izahına istiqamətlənmiş alternativ yanaşma cəmiyyətdə istənilən dəyişikliyi ön plana çıxarır, həmin dəyişikliklərin ayrı-ayrı fəaliyyətlərin nəticəsi kimi təzahür edə bilməsi faktını vurğulayır. Məsələn, Xosroxavara görə: "Bu prosesdə fərd və ya fərdlər qrupu birbaşa siyasi, sosial və dini xarakterli ekstremist ideologiya ilə əlaqədar olan zorakı davranış nümayiş etdirir, mövcud siyasi, sosial və mədəni qaydalarla mübarizə aparır" (Xosroxavar, 2014).

**Avropa Komissiyasının Zorakı Radikallaşma üzrə Ekspert Qrupu** (2006) aşağıdakı təsvirdən istifadə etmişdir: "Radikalizm dəyişiklik gətirmək, siyasi və sosial təsisatları yenidən qurmaq kimi fəaliyyətləri müdafiə edərək və bunu özünə bir vəzifə borcu kimi görərək, tarixən solçu və sağçı siyasi partiyalarla, bəzən hətta sentrist və liberal ideologiyalarla bağlı olmuş, status-kvonu dəstəkləyən ənənəvi və prosedural məhdudiyyətlərin aradan qaldırılmasına can atmışdır. Bir ideologiya kimi radikalizm mövcud norma və siyasətlərin legitimliyini tələb etsə də, öz-özlüyündə zorakılığa səbəb olmur. [...] Başqa sözlə desək, sosial və siyasi dəyişiklik naminə zorakılıq davranışlarını dəstəkləmədən radikalizm meydana gələ bilər". Buna görə də hökumət nümayəndələri və aidiyyəti tendensiya ilə mübarizə fəaliyyətlərinə qoşulan əməkdaşlar cəmiyyətin hərtərəfli dəyişikliyini hədəfə alan qanuni, qeyri-zorakı, sosial və siyasi ideologiyalar və dəyişiklik naminə zorakı tədbirləri qəbul edəcək, dəstəkləyəcək və hətta özündə ehtiva edəcək qeyri-qanuni davranışları fərqləndirmək üçün zorakı radikallaşma terminindən istifadə edir.

Moskalenko və MakKoli (2010) tərəfindən qeyd edildiyi kimi, qanuni və qeyri-qanuni fəaliyyətlərdəki iştirakı fərqləndirməklə aktivizm və radikalizmi də bir-birindən ayırmaq olar. İstənilən halda, qəbul etməliyik ki, radikal, habelə ekstremist olmaq, cəmiyyətdəki mövcud norma və anlayışlardan asılı olaraq, bir-birinə yaxın terminlərdir.

Deməli, radikallaşma mövcud normalar əleyhinə çıxış edərək, cəmiyyətdə ekstremist dəyişikliklər aparmaq və həmin dəyişiklikləri dəstəkləmək istəyinin güclənməsi və ya müvafiq hazırlığın artması kimi təsvir olunur. Bu səbəbdən mövcud standart və təcrübələrə zidd olan dəyər və münasibətlərin qəbul edilməsi istiqamətində irəliləyiş hesab olunur.

### *1.2. Radikallaşma prosesi*

Zorakı radikallaşmanın qarşısını almaq məqsədi ilə uğurlu yanaşmalar hazırlamaq üçün radikallaşma prosesini anlamaq və onun səbəblərini bilmək çox vacibdir. Bununla yanaşı kimlərin radikallaşmaya meyilli ola biləcəyinə dair biliklər də böyük əhəmiyyət kəsb edir..

İstənilən yanaşmada radikallaşma prosesi qəbul olunan əsas fikirlərdən yayınan ekstrim (siyasi, sosial və dini) təfəkkürün qəbulu kimi başa düşülür. Şmid (2013, 9) ekstremizmi aşağıdakı elementlərlə təsvir edir: "Demokratik cəmiyyət kontekstində (zorakı) ekstremist qruplar, hərəkatlar və partiyalar aşağıdakı elementlərin bir çoxunu özündə birləşdirən siyasi proqrama meyl edir:

- Anti-konstitusional, anti-demokratik, anti-plüralist, avtoritar;
- Fanatik, qeyri-tolerant, güzəştə getməyən, qatı maksimalist;
- "Qaliblər mühakimə olunmur" fəlsəfəsini rəhbər tutaraq qanunun aliliyini rədd edir;
- Öz məqsədlərini istənilən yolla, o cümlədən, fürsət düşərsə, öz rəqiblərinə qarşı kütləvi siyasi zorakılıqdan istifadə etməklə reallaşdırmağa can atır".

Bu proses **müxtəlif mərhələlərə** bölünə bilər - ekstremist ideologiyalara maraqdan başlayaraq zorakılığın dəstəklənməsinə və nəhayət, zorakı ekstremist hərəkatlərə yol verilməsinə qədər. Bu mərhələlər həm fərdi, həm də qrup radikallaşmasının təsvirlərində təhlil olunub. Radikallaşma mərhələlərindən biri piramida kimi təsfir olunur (MakKoli, Moskalenko, 2008). Bu piramidanın əsasını ekstremistlərin məqsədləri ilə həmfikir olanlar təşkil edir, lakin terror hadisələrini törətmək istəyən bir neçə şəxs piramidanın təpəsində dayanır. Bu piramidanın özülündən təpə hissəsinə qədərki trayektoriyanı radikallaşma prosesi kimi təsvir etmək olar. Bu proses xüsusilə də fərdi radikallaşma baxımından tədqiq edilmişdir, lakin daha ekstremist münasibətlərə meyl göstərən qrup və kütlələrin artdığını, qeyri-tolerantlıq və zorakılığın qəbulunun getdikcə genişləndiyini nəzərə almaq yerinə düşərdi.




*Fərdi səviyyədə mexanizmlər*

Bu mexanizmlər həm səbəblərə, həm də radikallaşma prosesinə aiddir. Radikallaşma prosesinin fərdi səviyyədəki mexanizmləri müxtəlif faktorlarla hərəkətə gətirilə bilər. **Şəxsin viktimizasiyası** dar sosial çərçivədə bir fərdə qarşı ayrı-seçkilik, ədalətsizlik, yaxud zorakılıq və travmatik xarakterli davranışın nümayiş etdirilməsi deməkdir. Digər tərəfdən, **siyasi narazılıq** cəmiyyətdəki siyasi hadisə və tendensiyalara fərdi reaksiyanın verilməsidir. Radikal qrupa qoşulmağın "təhlükəli yol" kimi təsviri müəyyən bir qrupda **hakim**

**zorakı davranışın tədricən qəbul edilməsi** deməkdir - qrupa aidiyyəti olmaq, qrupdan və avtoritarlıqdan kənarda sosial statusa malik olmamaq, şəxsin aliliyini və hakimiyyətini qəbul etmək müvafiq səbəblərə daxildir. Sevgi gücü kimi təsvir edilən mexanizm dostlar arasında və ya münasibətlərdə etimad və bağlılığın əhəmiyyətini vurğulayır. Bu cür etimad və bağlılıq isə belə mühüm sosial əlaqələrin zorakı davranışının qəbuluna və onun dəstəklənməsinə gətirib çıxarır.

*Qrupdaxili radikallaşma mexanizmləri*

Qrupdaxili radikallaşmanın ekstremistlik baxımından izahı sosial psixologiya ilə müşahidə edilən fakta diqqət çəkir. Sözügedən psixologiya göstərir ki, bir-birinə yad olan adamlardan ibarət qruplar ümumi razılığa daha tez gəlir və əldə edilən **ümumi fikir daha geniş ekstremistliyə meyllənir**. Belə ki, ümumi qavrayış əldə edilir, lakin daha ekstremist münasibət göstərən qrup üzvləri daha çox rəğbət qazanır və buna görə də daha çox təsirə malik olur. Təcridolunma və təhlükə şəraitində qrup üzvlərinin ekstremist davranışlarının artması kiçik quru qoşunlarında müşahidə edilə bilər. Bu zaman zahiri sosial nəzarət azalır və ya zorakı hərəkətlər etməklə bağlı göstəriş hətta kənar rəhbərdən gəlir. Bu iki mexanizm eyni həmfikirlər qrupu üçün rəqabətdən fərqlənir. Burada **radikal qruplar dəstəkçilər naminə rəqabət aparır** və daha çox şəxsi cəlb etmək üçün digər qruplardan daha ekstremal qəbul edilmək istəyir. Dövlət hakimiyyəti ilə rəqabət aparmaq qanuni və ya qeyri-qanuni, lakin sülhməramlı siyasi hərəkat qruplarının dövlət tərəfindən sıxılmasına qarşı reaksiyadır. Bu isə, hakimiyyətlə hərəkat qrupu arasında qarşılıqlı zorakılığın artmasına gətirib çıxarır. Radikallaşma **qrupun birliyi və həmrəyliyindən**, habelə dövlət zorakılığına qarşı şəxsin qisas almaq istəyindən asılıdır. Digər tərəfdən, təfriqə zorakılığı qrupdaxili münaqişəyə reaksiya kimi izah edir.

*Kütləvi radikallaşma mexanizmləri*

“Ciu-citsu” siyasəti əsasında kütləvi radikallaşma kənar həmlələrə qarşı reaksiya kimi qiymətləndirilir və strategiya kimi istifadə edilə biləcək qədər etibarlı hesab olunur. Belə ki, daha sonra yeni həmfikirlərin hərəkatə gətirilməsi məqsədi ilə zorakı hərəkatə qarşı dövlət hətta sərt reaksiya verir. Nifrət - digər qrupların düşmən kimi müəyyənləşdirilməsi və eyni zamanda, rəqiblərin insansızlaşdırılması, onları heyvan, robot və ya sadəcə qeyri-insan adlandırmaqla kütləvi radikallaşma vasitəsidir. Şəhidlik faktoru isə qurban gedən radikalların sayını artırır (zorakı davranışlarına görə həbs olunan və ya öldürülən) və onların **viktimizasiyasını** vurğulayır. **Şəhidlik məsələsi** aktivistin ya şəxsi seçimi, ya da günahsızlara qarşı ədalətsizlik kimi qəbul edilə bilər; hər iki halda şəhidlik qəhrəmanlıq haqqında əfsanələri meydana gətirə bilər.

| Siyasi radikallaşma və zorakı ekstremizmə səbəb olan 12 mexanizm | | |
|---|---|---|
| **Fərdi səviyyə**<br>Şəxsin viktimizasiyası<br>Siyasi narazılıq<br>Radikal qrupa qoşulmaq - təhlükəli yol<br>Radikal qrupa qoşulmaq - sevgi gücü | **Qrup səviyyəsində**<br>Vahid təfəkkürə malik qruplarda ekstremizm<br>Təcridolunma və təhlükə şəraitində ekstremist birləşmə<br>Eyni dəstək bazası üçün rəqabət<br>Dövlət hakimiyyəti ilə rəqabət - vəziyyəti qəlizləşdirmək<br>Qrupdaxili rəqabət - parçalanma | **Kütləvi radikallaşma**<br>Ciu-citsu siyasəti<br>Nifrət<br>Şəhidlik |

Mənbə: MakKoli və Moskalenko (2008)

### *1.3. Zorakı ekstremizmin səbəbləri*

Prosesi başa düşmək üçün təkcə mexanizmləri “necə ?” deyil, həmçinin “nə üçün ?” sualının cavabını, yəni təsir faktorları və ya səbəbləri də öyrənmək maraqlıdır. Radikallaşma prosesi və səbəbləri müxtəlif istiqamətlərdə təhlil edilir, bu səbəbdən fərqli göstəricilər və təhrikedici faktorlar ön plana çəkilir.

Başlıca fərqlər mikro, mezo və makro səviyyəli izahatlarda təzahür edir. Fərdi psixologiya və sosio-psixologiya inkişafa təsir göstərən fərdi faktorları ehtiva edən mikro səviyyəyə yönəlir. Siyasət elmi və sosiologiya makro səviyyə üzrə nəticə və təsirləri təhlil edir (xüsusilə də coğrafi-siyasi səviyyədə). Həm fərdi, həm də cəmiyyət səviyyəsini əks etdirən (mədəni nəzəriyyə) mezo səviyyə isə sosial fəaliyyət, təhsil və kriminologiya kimi elmi istiqamətlərdə təhlil olunur.

| Səviyyə | İstiqamətlər | Yanaşmalar | Nümunələr |
|---|---|---|---|
| **Mikro** | Psixologiya | Radikallaşmaya aparan fərdi faktorlar | Şəxsiyyət problemləri, təkvalideynli ailələr, zorakılıq təcrübəsi, təhsil problemi, uğursuz inteqrasiya, yadlıq hissi və ya ayrı-seçkilik... |
| **Mezo** | Sosial fəaliyyət, təhsil və kriminologiya kimi elmi istiqamətlər | Fərdi və cəmiyyət səviyyəsində<br>Radikal (qrup) dəyərləri qəbul edərək tədricən sosiallaşma | Ədalətsizliyə məruz qalmış və bu səbəbdən qisas vasitəsi kimi zorakı radikallaşmanı formalaşdıran bir qrupun üzvü olmaq |
| **Makro** | Siyasət elmi və sosiologiya | Sosial və siyasi bərabərsizliklər<br>Sosial qruplar və ya dövlətlər arasında ədalətsizliklər | Sosial qrupun və ya sinfin üzləşdiyi bərabərsizlik və ədalətsizliyə, hətta zorakılığa qarşı reaksiyalar |

Digər tərəfdən, cəmi bir amillə fərdin radikallaşdığı ehtimal edilmir.




**Mikro səviyyədə** şəxsiyyət, təkvalideynli ailələr, zorakılıq təcrübəsi, təhsil, uğursuz inteqrasiya, yadlıq hissi və ya ayrı-seçkilik kimi problemlərin təsiri radikallaşma üçün mühüm faktorlar (digərləri ilə yanaşı) hesab edilir. Ayrı-seçkiliyə gəldikdə isə, maraqlıdır ki, ədalətsizlik təkcə bir nəfərin şəxsi məsələsi deyildir, bütünlükdə qrup özünü qurban hesab edə bilər. Buna görə də hətta başqa bir ölkədə olsa belə, **sıxışdırılan və ya sərt davranışa məruz qalan** bir şəxsin qrup üzvü olması kifayətdir. Avtoritar və\ya özünəvurğun şəxslərin radikallaşmaya təsiri də təhlil edilmişdir. Bundan başqa, fərdə şəxsi mənfəətlər gətirən (maddi, habelə qeyri-maddi) müəyyən faktorlar səbəbindən radikal davranışın tanınması və qəbulu nisbi seçim yanaşmasında izah edilir.

**Mezo səviyyəli** yanaşmalar fərdin əhatəsinə köklənir və iddia edir ki, fərd radikal (qrup) dəyərləri qəbul edərək **tədricən sosiallaşmaya** doğru gedir. Bu proses müxtəlif alt və əks mədəniyyətləri təhlil etməklə quruluş nəzəriyyəsində təsvir olunur. Tədqiqatlar göstərir ki, ədalətsizliklə üzləşmiş bir qrupda qisas vasitəsi kimi zorakı radikallaşma qəbul edilə bilər.

**Makro səviyyəli** yanaşmalar radikallaşmanı **təcridolunma, marjinlaşma** və **dezinteqrasiyaya** səbəb olaraq, cəmiyyətdə sosial qruplar və siniflər arasında bərabərsizlik və ədalətsizliklə izah etməyə çalışır. Bu nəzəriyyə ilə bağlı tənqidi fikir odur ki, belə sosial sinif və qrupların yalnız bəzi üzvləri radikal olur. Makro səviyyəyə dair digər izahlarda isə, radikallaşma dövlətin xarici siyasəti, digər ölkələrdəki siyasi, hərbi və iqtisadi fəaliyyətlərinə olan reaksiya kimi qəbul edilir.

Hazırda ümumi şəkildə qəbul edilir ki, bu nəzəriyyələrdən heç biri radikallaşmaya vahid bir izahat vermir. Mikro səviyyədə radikallaşmaya aparan fərdi faktorlarla birlikdə makro və mezo səviyyəli “səbəblər” toplusu kimi izah edilir.

Bir tərəfdən müxtəlif radikallaşma formaları, digər tərəfdən, müxtəlif hədəf qrupları üçün preventiv yanaşmaları hazırlayarkən bu toplular nəzərə alınmalıdır.

Radikallaşmanın bütün formalarında əsas yanaşmada təzahür etməyən müəyyən dəyərlərlə, ideologiya ilə müəyyənləşdirmə mühüm bir elementdir. Bu xüsusilə də mikro və mezo səviyyəli yanaşmaların bütünləşməsində vacibdir, belə ki, fərdin müəyyən bir əhatə dairəsinə və ya qrupa qoşulması barədə məlumat verir.

Xüsusilə də əsaslı fərdiləşdirmə vərdişlərinin hökm sürdüyü Qərb cəmiyyətlərində şəxsiyyətin formalaşdırılması işi gənclərlə yekunlaşmır, əksinə, bu iş cəmiyyətdəki dəyişikliklərə reaksiya verilməsi, habelə tendensiyalara və inkişafa uyğunlaşma, yaxud etiraz formasında təzahür edən davamlı bir prosesdir. Gənclik dövrü böyüklərdən tam asılılıq vaxtı olan uşaqlıqla (bir qayda olaraq, ailədə) tam sərbəstlik vaxtı olan yetkinlik arasındakı mərhələdir. Belə yarımasılı olduğu bir dövrdə istənilən gənc böyüklərdən və digər gənclərdən fərqli olan bir individuala çevrilmək və eyni zamanda, qrupun bir üzvü kimi cəmiyyətdə öz yerini tapmaq üçün (belə olduqda nəyəsə bağlı olduğunu hiss edir) **özünün kimliyini formalaşdırmalıdır**.

Özünü müxtəlif səbəblərdən cəmiyyətin əsas hissəsinə qoşulmuş və ya inteqrasiya olunmuş kimi hiss etməyən gənclər **alternativ özünütəsdiq formalarına** baş vurur. Beləliklə, özünü təsdiq edə biləcəyi qruplara qoşulmaqla gənclər özünəhörməti formalaşdıra və rəğbət qazana bilər. Sağçı esktremizm haqqında aparılan tədqiqatlar göstərir ki, adətən bu şərh digər dairələrə qəbul olunmamış bəzi gənc kişilərə aiddir. Sağçı gənc aktivistlər arasında onlar özünü qrupun bir hissəsi hesab etmiş, təhsilsizlik, sosial vəziyyəti və yaxud digər qruplara qoşulmaq üçün əngəl hesab etdikləri digər faktorlara görə onlara xor baxılmamışdır. Müəyyən bir qrupa aid olmaq hissi **ideyanın müəyyənləşdirilməsində** mühüm faktordur - ələlxüsus da bu ideya qrupdaxili ideologiyanı istiqamətləndirirsə. Bəzi hallarda radikallaşmış şəxslərdən ibarət qruplar ailə və ya digər dost qruplarını əvəz edə bilər. Müəyyən vaxtdan sonra qrupda yeni bir ideya hakim ideologiyaya çevrilir, əsas üçüncü tərəflərin heç bir etirazı olmadığına və yaxud çox az etirazı olduğuna görə həmin fikirlər sanki düzgünmüş kimi qəbul edilir.

Bu cür aid olmaq hissi və bu səbəbdən **həmin qrup üzvü kimi kimliyin formalaşdırılması**, hətta həmin qrup cəmiyyətdə qəbul edilmədikdə, özünü daha güclü formada büruzə verir, buna görə də bütün qrup üzvləri özlərini qurban kimi hiss edir.

Əksər hallarda gəncliklə yetkinlik arasındakı keçid dövrü çətinləşdikdə simpatiya əlamətləri və radikal fikirlərin dəstəklənməsi liberal dövrdə gənclərin etiraz formasından başqa bir şey deyil. Bu həmçinin **cəmiyyətin əsas hissəsinə aid olmamaq** və özünütəcrid hissini ifadə edən etiraz və ya əsaslı əlamət ola bilər. Buna görə də müəyyən ekstremist qrupların **simvollarından istifadə** həmin qrupun dəyərlərinin qəbulundan daha çox, etiraz və narazılığı ifadə edə bilər. Bu etiraz müqavimət göstərən ekstremist qruplarda asanlıqla təzahür edə bilər, çünki ideologiya (yaxud din) yox, məhz cəmiyyətin əsas hissəsinə qarşı çıxmaq cəlbedicidir.

Bununla belə, quruluş nəzəriyyəsinə əsasən, cəmiyyətdən təcridolunma hissi, yadlıq hissi və etiraz qrupuna üzvlük etiraz mədəniyyətinin ideologiyası və dəyər sisteminə tam uyğunlaşmaq üçün əsas yarada bilər.

### *1.4. Zorakı ekstremizmə aparan radikallaşma ilə mübarizə yanaşmaları*

Yuxarıda deyilənləri, radikallaşma və zorakı radikallaşma anlayışlarının açıqlaması, radikallaşma prosesləri-nin fərqli təsviri, onların yaranması üçün şirnikləndirici faktorları və mexanizmləri nəzərə alaraq, belə nəticə çıxarmaq olar ki, zorakı ekstremizmin qarşısını almaq və\ya onunla mübarizə aparmaq üçün vahid bir həll yolu yoxdur. Bundan başqa, aydındır ki, zorakı radikallaşma ilə mübarizə aparmaq üçün sadəcə bir iştirak-çının olması kifayət etmir. Radikallaşma proseslərinin müxtəlif səviyyələri və mərhələlərində fərqli hədəf qruplarına çatmaq üçün strategiyaları hazırlamaq məqsədi ilə təhsil, gənclərlə iş, sosial iş, təhlükəsizlik və kəşfiyyat kimi sahələrdə iştirakçılarla maraqlı tərəflər arasında **məqsədə müvafiq əməkdaşlığın** qurulması zəruridir. Vahid yanaşma nə cəmiyyətdəki bütün fərdlər və qruplara, nə də hər bir ölkəyə uyğun gəlməyəcək.




Bundan əlavə, gənclərlə işə cəlb olunan bir çox tərəflərin məqsədi **cəmiyyətdə radikal dəyişiklik** yaratmaqdır - effektiv davranışların dəstəklənməsi, qeyri-tolerantlığın azaldılması, bərabər imkanların artırılması və hətta hakim siyasi ideologiyalara etiraz adətən bəyan edilmiş məqsədlərdir. Buna görə də **gənclərlə iş sektorunun vəzifəsi** radikallaşma ilə deyil, sadəcə radikallaşma prosesinin zorakı elementi ilə mübarizə aparmaq və onun qarşısını almaqdır.

*Qarşısını almaq əvvəlki vəziyyətinə qaytarmaqdan daha yaxşıdır.* Zorakı ekstremizmə səbəb olan radikallaşmanın qarşısını almaq və onunla mübarizə aparmaqda gənclərlə iş sektorunun vəzifəsi digər

aidiyyəti sektorlarla əməkdaşlıq şəklində maarifləndirmə və sosial işlə yanaşı, gəncləri məlumatlandırmaq üçün yalnız əlavə bir element kimi başa düşülə bilər.

Onu da bilmək vacibdir ki, zorakı radikallaşmanın qarşısını almaq onunla mübarizə aparmaqdan tamamilə fərqlənir. Hər hansı bir prosesin qarşısını almaq (ehtiyat tədbiri), hərfi mənada, arzuolunmaz davranış təzahür etmədən əvvəl, yaxud arzuolunmaz davranışın ilk əlamətlərinin təzahüründən əvvəl və ya ilkin mərhələlərdə baş verir. Beləliklə, zorakı ekstremizmə səbəb olan radikallaşmanın qarşısını alarkən **ümumi əhalini**, habelə **"riskli"** fərd və qrupları diqqət mərkəzində saxlamaq lazımdır, yaxud da radikallaşma prosesinin başlanğıcında fərdləri hədəfə almaq olar.

İlk preventiv yanaşma çox vaxt **ilkin ehtiyat tədbirləri** adlanır, ümumi və xüsusi informasiyanı, fərd və qrupların yaşayış şəraitinin yaxşılaşdırılmasını, habelə şəxslərlə dialoq və onların səlahiyyətləndirilməsi kimi məsələləri ehtiva edir. Belə mənfi bir prosesin bərqərar olmasının qarşısını almaq və arzuolunan təkamülü dəstəkləmək məqsədi ilə müxtəlif iştirakçı və maraqlı tərəflər vasitəsi ilə elə erkən dövrlərdən məqsədyönlü tədbirlər görülə bilər və görülməlidir. Yaşayış şəraitinin yaxşılaşdırılması təkcə fərdlərlə həyata keçirilən fəaliyyət deyil, həmçinin cəmiyyətdəki dəyişikliklərə yönələn siyasi tədbirləri də ehtiva edir.

İkinci ən geniş əhatəli preventiv yanaşma çox vaxt **"ikinci dərəcəli ehtiyat tədbiri"** adlanır. Bu zaman **arzuolunmaz davranışın ilkin simptomlarını** büruzə vermiş fərd və ya qruplar hədəfə alınır. Fərdlərlə iş, şəxsi mübadilə, səlahiyyətləndirmə, iştirak təklifləri və şəxsiyyətin formalaşdırılmasına dəstək kimi məsələlər burada vacib əhəmiyyət daşıyır.

Üçüncü preventiv yanaşma forması - **üçüncü dərəcəli ehtiyat tədbirləri** artıq mövcud olan bir davranışın **mənfi nəticələrinin azaldılmasını** ön plana çəkir. Gənclərlə iş sektoru bu sahədə işləmək üçün heç də həmişə ən uyğun tərəf olmur, çünki fərdi səviyyədə edilən istənilən müdaxilə **könüllü iştirak** prinsipini təhlükə altında qoya bilər. Bundan başqa, üçüncü dərəcəli ehtiyat tədbirləri çox vaxt islahedici tədbirlər, zorakı davranış olduqda isə, mənfi sanksiyalarla bağlı olur. Hər iki yanaşma etimad və münasibətin əsas olduğu gənclərlə iş sektorunun prinsipləri ilə təzad təşkil edə bilər. Zorakı ekstremizmlə mübarizə dövlətin islahedici tədbirlərindən tutmuş sanksiya və məhdudiyyətlərinə, hətta həbsə qədər yolu olan sərt müdaxilə tədbirləri kimi təfsir oluna bilər. Gənclərlə iş aparan və təhsil sahəsində çalışan əməkdaşlardan başqa, digər sahələr (sosial xidmətlər, təhlükəsizlik və kəşfiyyat) bu tip vəzifələrin yerinə yetirilməsi üçün daha münasibdir.

İlk iki ehtiyat tədbirində gənclərlə iş sektoru gənclərlə bağlı həyata keçirilən istənilən fəaliyyətin zəruri elementi olduğuna görə mühüm rol oynaya bilər. Lakin gənclərlə iş sektorunun preventiv rolu gənclərin gündəlik həyatında hər zaman özünü büruzə verməlidir - məktəblər, universitetlər, əmək bazarı, dini qruplar, ailələr, sosial iş, idman klubları, hətta təhlükəsizlik və kəşfiyyat kimi müxtəlif təsisatlarla əməkdaşlıq edilməli və ya dəstək göstərilməlidir. Gənclərlə işləyənlər qəbul etməlidir ki, tək hərəkət etməklə uğura nail olmayacaqlar, onlar gənclərlə və qruplarla işləməyin verdiyi imkanları dəyərləndirməlidir.

*Nə zaman nə etməli?* İlkin ehtiyat tədbirində istifadə edilən metodlar zorakı radikallaşma prosesinin təfsirinin müxtəlif səviyyələrini, ekstremizm formalarını və ya mexanizmləri əks etdirə bilər. Buna görə də hədəf fərd və qrupların ehtiyac və istəkləri, qorxuları və problemləri, habelə ekstremist ideologiyaların dəyər sistemləri, hədəf qrupların yaşayış şəraiti ehtiyat tədbirinin görülməsi zamanı nəzərə alınır. Radikallaşma proseslərinin mikro səviyyəli izahlarını əks etdirməklə, ilkin ehtiyat tədbirləri **kimliyin formalaşdırılması**, özünəhörmətin




gücləndirilməsi, müxtəlif qruplar arasında tolerantlıq və **qəbul hissinin dəstəklənməsi**, yaxud ümumiyyətlə, **insan hüquqları və bərabərlik** prinsipinin əhəmiyyətinin vurğulanmasını ön plana çıxarır. Makro səviyyədə ayrı-seçkilik və yadlaşmaqla mübarizə mühüm elementlərdir, habelə etibarlı informasiyanı tapmaq və təfsir etmək, təbliğat anlayışı və prinsiplərini qavramaq üçün gənclərin **mətbuat və informasiya savadlılığını** olması da zəruri əhəmiyyət kəsb edir. Mezo səviyyədə **qrupun fəal üzvü** kimi fərdin gücləndirilməsi, müsbət özünüqiymətləndirmənin formalaşdırılması və müqavimət qabiliyyətinin artırılması mühüm elementlərdir. İnformasiya və dialoq yanaşmaları da ilkin ehtiyat tədbirinin əsas elementləridir.

**İkinci dərəcəli ehtiyat tədbirləri** spesifik qrupları hədəfə alır və bu səbəbdən gənclərlə iş sahəsində fəaliyyət göstərən istənilən tərəfə istiqamətlənə bilməz. Çünki zorakılığa aparan radikallaşma riski altında olan gənclər bir çox hallarda gənclərlə iş sahəsində çalışan əməkdaşlarla ünsiyyətdən qaçır. Gənclərlə iş sahəsində çalışan əməkdaşlar ikinci dərəcəli ehtiyat tədbirinin xüsusi hədəf qrupları ilə təmasa keçərsə, bu sahədə fəaliyyət göstərən **ekspert və digər maraqlı tərəflərlə əməkdaşlığın** intensivləşdirilməsi ümdə məsələyə çevrilir. Gənclərlə iş sahəsində çalışan əməkdaşlar daha intensiv ehtiyat tədbirlərinin həyata keçirilməsi üçün lazımi platformanı təmin edə bilər, çünki gənclər həmin əməkdaşlara etibar edir; gənclərlə həmin əməkdaşların arasındakı etibarlılıq və sıx münasibətlərin olması bu tip ehtiyat tədbirləri üçün ən mühüm elementdir.

Ümumiyyətlə, aydındır ki, gənclərlə iş sahəsinin əsas prinsipləri fərdi səviyyədə zorakı radikallaşmanın ilkin profilaktikasının mühüm elementlərini təmin edə bilər, lakin gənclərlə işləyən bütün qruplar (o cümlədən məktəblər, din, idman klubları, sosial iş) bu fəaliyyətdə əlavə tərəfdaş kimi qəbul edilməlidir. Digər tərəfdən, o da aydındır ki, gənclərin yaşayış şəraitinin dəyişdirilməsi, sosial təcridolunmanın aradan qaldırılması və ayrı-seçkiliyin kökünün kəsilməsi gənclərlə iş sahəsinin tək şəkildə görə bilməyəcəyi yüksək səviyyəli tapşırıqlardır, halbuki gənclərlə iş sahəsi bu məqsəd naminə öz köməkliyini göstərə bilər.

> "Gənclər demokratiya, bərabərlik, insan ləyaqətinə hörmət, insan hüquqları, plüralizm və fərqlilik kimi anlayışları bilməli və başa düşməli, mətbuat və informasiya savadlılığına malik olmalıdır. Bu, təbliğatın geniş vüsətdə yayılması məqsədi ilə zorakı ekstremist qruplar tərəfindən informasiyanın necə əsaslandırıla və istifadə edilə biləcəyi barədə agahlığa və məlumata, tənqidi təfəkkürün yaranmasına kömək edir".
>
> *Avropa İttifaqı Şurasının çıxarışı (9640/16), Şura və üzv dövlətlərin hökumət nümayəndələrinin rəyləri, gənclərin zorakı radikallaşmaya məruz qalmasının qarşısını almaq və onunla mübarizə aparmaq istiqamətində vahid və sektorlararası yanaşmada gənclərlə iş sektorunun roluna dair Şura çərçivəsində iclas (30 may 2016).*[1]

1 Avropa İttifaqı Şurası, Brüssel, 2016, http://data.consilium.europa.eu/doc/document/ST-9640-2016-INIT/en/pdf

## 2. Zorakı ekstremizmin qarşısının alınmasında gənclərin məlumatlı olmasının rolu

### *2.1 Gənclərin Məlumatlandırılması (GM)*




**Gənclərin Məlumatlandırılması** fəaliyyəti (GM) 1960-cı illərin sonlarında model olaraq yaradılmış, 1970 və 1980-ci illərdə bütünlükdə Avropanı ehtiva etmişdir. Avropa Şurası gənclərin məlumatlandırılması sahəsi üzrə ekspertlər komissiyasını bir araya gətirmiş, 1986-cı ildə Gənclər üçün Avropa Məlumat və Məsləhət Agentliyi (ERYICA) məhz bu fəaliyyət əsasında təsis edilmişdir. Bu komissiya gənclərin məlumatlandırılması modelini yerli və milli struktur şəbəkələrinə qədər genişləndirməyə yardım etmişdir ki, bu da hazırda bir çox ölkələrdə gənclərlə iş sahəsinin ayrılmaz tərkib hissəsidir.

ERYICA 27 ölkə üzrə gənclər üçün məlumat və məsləhət strukturlarının təqribən 36 şəbəkəsindən ibarətdir. Təşkilatın məqsədi milliyyətindən, cinsindən, dinindən və sosial vəziyyətindən asılı olmayaraq, **gənclərin tam və etibarlı informasiya almaq hüquqlarını** təmin etməkdir (Gənclərin Məlumatlandırılması haqqında Avropa Nizamnaməsi).

*Daha geniş müstəqilliyinin təmin edilməsi.* Gənclərin məlumatlandırılmasının məqsədi keçid və çətin dövr olan yetkinliyə problemsiz keçid barədə **gəncləri məlumatlandırmaq və onları bu yolda dəstəkləməkdir**. Nisbətən belə qısa bir vaxtda gənclər öz gələcəyinə, şübhəsiz ki, çox təsir göstərəcək saysız-hesabsız mühüm qərarlar verməli olur. ERYICA hesab edir ki, gənclər məlumatlı olduqda **müstəqil hərəkət edə**, şəxsi, sosial və peşəkar inkişafına uzunmüddətli perspektivdə təsir göstərən qərarları daha rahat şəkildə verə bilir. Eyni zamanda, gənclər öz bacarığına uyğun olan ayrı-ayrı seçimləri qiymətləndirə bilməlidir. Bu, gənclərin məlumatlandırılması işinin əsasında dayanır; bunun məğzi odur ki, yalnız mövcud olan **seçim və alternativlər barədə məlumatlı olduqdan** sonra düzgün qərar verilə bilər. ERYICA və tərəfdaşlarının qəbul etdiyi yanaşma - gənclərin ümumi məlumatlandırılması fəaliyyətinin spesifik xüsusiyyəti odur ki, qərar verən zaman gənclər istiqamətləndirilsin və beləliklə, fərdlər özlərinin spesifik ehtiyaclarına uyğun olan məqsədyönlü seçimlər edə bilsin. Bu, istifadəçiyə yönümlü bir yanaşmaya əsaslanır və bu səbəbdən gəncləri maraqlandıra biləcək çoxsaylı mövzuları əhatə edir.

Zaman keçdikcə gənclərin məlumatlandırılması sektoru onların **tələb və informasiya ehtiyaclarına uyğunlaşdı**. Eyni zamanda, gənclərin məlumatlandırılması sektoru da dəyişən cəmiyyətlər, texnoloji və informasiya irəliləyişləri, habelə cəmiyyətdəki yerlərini tapmağa çalışarkən gənclərin üzləşdiyi çətinliklər və yetkinlik yaşına çatdıqda yönləndirilməyə artan tələbə uyğunlaşmalı olur. Hal-hazırda bu sektor inkişaf etmək və uyğunlaşmaq prosesindədir.

**Gənclərin Məlumatlandırılması sahəsinin məqsədləri (digər məqsədlərlə yanaşı):**

- Etibarlı, dəqiq və aydın informasiya vermək;
- Müxtəlif informasiya mənbələri və kanallarına çıxış imkanını təmin etmək;
- Gənclərə aidiyyəti olan mövzular üzrə mövcud seçimlərin izahını vermək;
- Müasir cəmiyyətdə informasiya axınını idarə etməkdə gənclərə yardım göstərmək;
- Gənclərin öz hüquqları, mövcud xidmətlər və onlardan necə istifadə edəcəkləri barədə məlumatlı olduğunu təmin etmək;
- Mövcud informasiyanın və onun keyfiyyətinin qiymətləndirilməsinə dəstək göstərmək;
- Mövcud olan ən yaxşı alternativləri seçmək və öz qərarlarını verməkdə gəncləri istiqamətləndirmək;
- İnformasiya və bilik axtarışında olan gənclərə birbaşa dəstək göstərmək üçün müxtəlif kommunikasiya və dialoq kanallarını təklif etmək;
- Mətbuat və informasiya savadlılığı sahəsində maarifləndirmə işlərini həyata keçirmək.




*Cəmiyyətdə öz yerini tapmaq.* Gənclərin məlumatlandırılmasının məqsədi təkcə ümumi əhalinin ehtiyaclarını qarşılamaq (onun ümdə vəzifəsi) deyil, həmçinin onların ehtiyaclarını proqnozlaşdırmaq və müvafiq qabaqlayıcı tədbirləri görməkdir. Bu ehtiyacların bəziləri, cəmiyyətin başlıca problemləri, xüsusilə də fiziki və əqli sağlamlıq, yüksək riskli davranış, şəxslərarası əlaqələr, ayrı-seçkilik, vətəndaşlıq, cəmiyyətdə fəal iştirak və sosial hüquqlardan istifadə imkanı kimi məsələlərə aid olur. Yalnız öz hüquq və vəzifələrini tam bildikdə cəmiyyətdə öz yerini tapmaq və tam məlumatlı vətəndaş olmaq mümkündür.

*İnformasiya mədəniyyətinin formalaşdırılması.* Hazırda gənclərin beyni **informasiya ilə doludur** və onlar **çoxsaylı mətbuat vasitələrinin təqdim etdiyi məlumatlarla üzləşir**. Hələ belə informasiya imkanları görülməyib! Bu, əvvəllər olmayan bir tendensiyanı da özü ilə gətirir - çox vaxt şəxsi və nəzarətsiz qaydada informasiya kontentini yaratmaq istəyi. Şüurlu bir vətəndaş olmaq üçün vacibdir ki, belə bir kontentə tənqidi gözlə baxılsın, onun keyfiyyəti, etibarlılığı, bu informasiyanı ərsəyə gətirənlərin strategiya və maraqları qiymətləndirilsin (Landi və Lö Telyer, 2016). Bu baxımdan gənclərin məlumatlandırılması sahəsi yeni bir məqsədi öz çiyinlərinə alır - **gənclərin mətbuat və informasiya savadlılığı** istiqamətində maarifləndirilməsi. Araşdırmanı necə aparmalı, informasiyanı necə qiymətləndirib dəyərləndirməli və onun etibarlı olduğunu necə bilməli - bu məsələlər barədə gənclərə məsləhət vermək üçün gənclərin məlumatlandırılması xidmətləri tam təchiz edilmişdir. Bu məqsədlə mətbuat və informasiya savadlılığı bu bələdçinin mühüm bir hissəsidir və gənclər arasında zorakı ekstremizmin qarşısını almağa istiqamətlənən geniş miqyaslı tədbirlərin bir hissəsini təşkil edir.




Mənbə: Mətbuat və İnformasiya Savadlılığının Beş Qanunu

### *2.2. Problemin daha geniş şəbəkəsinin bir parçası*

Hal-hazırda gənclər arasında radikallaşma və zorakı ekstremizm prosesinin formalaşmasına maneə olmaq üçün Avropada siyasi fiqur və dövlətlər müvafiq mexanizm, struktur və tədbirlər planlarını hazırlayır. Belə bir şəraitdə ümumilikdə gənclərlə iş sektoru və xüsusilə də gənclərin məlumatlandırılmasının rolu, əlbəttə ki, əhəmiyyətlidir.

Əvvəl qeyd edildiyi kimi belə bir problemlə başa çıxmaq üçün mövcud təsisatların işi kifayət deyildir; bu problemə eyni anda **bir neçə bucaqdan** baxmaq lazımdır. Gənclərlə iş sahəsində işləyənlər adətən çox az resursla bu cür problemlərin həllinə çalışmışlar. Onlar çox vaxt qaynar nöqtəyə qədər gəlib çıxır - yüksək həddə çıxmış hörmətsizlik, uzaqlaşma və zorakılığa aparan radikallaşmaya tədrici keçid problemlərini həll etməklə məşğul olurlar.

Verilən vədlərin yerinə yetirilməməsinə görə çox vaxt ümidləri puça çıxan və yorulan həssas gənclər üçün yeganə əlaqə vasitəsi kimi **gənclərin məlumatlandırılması sahəsi üzrə çalışan işçilər** özünəməxsus rola malikdir (təhsil, iş imkanları və s. baxımından təcridolunma, ayrı-seçkilik, imtina və bərabərsizliklər). Belə əlverişsiz bir şəraitdə olan gənclər üçün ilk və bəzən yeganə əlaqə vasitəsi kimi gənclərin məlumatlandırılması sahəsinin əməkdaşları gənclərlə iş sektoru ilə birlikdə həmin həssas gənclərlə yaratdıqları zəruri sosial ünsiyyəti saxlamalı və onlar üçün proqressiv bir gələcəyin qurulmasına öz yardım əllərini uzatmalıdır.

Gənclərlə iş sektoru zorakı ekstremizmə qarşı mübarizə aparıb-aparmamaq kimi seçimə malik deyil. **Reallıq** budur ki, onların bu fəaliyyətə cəlb olunması qaçılmazdır. Bununla onlar həmçinin müvafiq vəzifəsini yerinə yetirmək üçün tam səlahiyyət əldə etmiş olur. Əlbəttə ki, bu kimi problemlərin hamısının həlli üçün təkcə gənclərin məlumatlandırılması fəaliyyətləri kifayət etmir. Bu, daha çox, hər kəs üçün əlverişli imkanları və inteqrasiyanı təmin etmək məqsədini daşıyan qlobal gənclər siyasəti və sahələrarası əməkdaşlığın zəruri bir komponenti hesab edilməlidir.

### *2.3. Müdaxilə üsulları: Profilaktika, aşkarlama*

Radikallaşma və zorakı ekstremizmə qarşı mübarizədə gənclərin məlumatlandırılmasının zəruri bir element olduğunu hesab ediriksə, o zaman qəbul etməliyik ki, bu yalnız gənclərlə işləyən hər bir əməkdaşın vəzifə öhdəliyi və aidiyyəti **davranış kodeksi** çərçivəsində həyata keçirilə bilər.

Biz gənclərlə işləyən əməkdaşların polis və ya xəfiyyə işlərini görməsini istəmirik. Bu, gənclərlə işləyənlərin təşviq ediyi etimad mühiti ilə əslində paradoks olardı. Gənclərin anonimliyini qorumaqla, onları dinləmək və öz dəstəyini göstərmək həmin əməkdaşların vəzifəsidir. *Avropa Gəncləri Məlumatlandırma Nizamnaməsində təsbit edildiyi kimi, informasiya elə üsulla verilməlidir ki, istifadəçilərin şəxsi həyatı və kimliyinin anonim saxlanılması hüququ qorunsun.*

Gənclərlə işləyən əməkdaşlar, gəncləri məlumatlandırma mərkəzləri və onların istifadəçiləri arasında bərqərar olmuş etimad davranış kodeksi ilə təmin edilmiş münasibətlərə əsaslanır. Bununla belə, habelə yetkinlik və müstəqillik dövrünə keçid prosesində olan gənclərə dəstək göstərərək müvafiq dialoqların qurulmasını təşviq edən inkluziv və təhlükəsiz, açıq və əlverişli bir mühiti formalaşdırmaq üçün bu xidmətlərin mövcudluğu da bu etimadın əsasını təşkil edir.

Həqiqətən də, hazırki siyasi və sosial iqlim tələb edir ki, bütün vətəndaşlar zorakılıq riski ilə mübarizə aparsın. Gənclərlə iş sektorunun ümdə məqsədi yüksək riskli davranışların qarşısını almaq olsa da, həmin davranışların qarşısı alınmadıqda belə **davranışlara dair məlumat da verməlidir**. Zorakı ekstremizmə qarşı mübarizə - ümdə məqsədin effektivliyini təmin etmək üçün bu iki missiya, yəni profilaktika və aşkarlama bir-biri ilə yanaşı işləyir.

*Zorakı ekstremizmə aparan risklərin qarşısının alınması.* Risklərinin qarşısının alınması və daha ümumi formada desək, riskli davranışların qarşısının alınması gəncləri məlumatlandırma fəaliyyətinin əsas məğzində dayanır. Gəncləri məlumatlandırma modeli bu sahədə onlarla il təcrübəyə malikdir: digər mövzularla yanaşı, həmçinin özlərini daha yaxşı ifadə edə bilməsi üçün gənclərə əlverişli şərait yaratmaq, mövhumat və stereotiplərə qarşı mübarizə, ayrı-seçkiliyə qarşı mübarizə, fərqliliyi dəyərləndirmək, etimad və özünəhörməti təşviq etmək, münaqişələrin idarə edilməsi sahəsində məlumatlılığı artırmaq, mətbuat və informasiya savadlılığı üzrə təlim.

*"Gəncləri radikallaşdıran məfhum mətbuatda və ya internetdə gedən məlumatlar deyil, daha çox, gənclərin həmin informasiyanı obyektiv surətdə və tənqidi nöqteyi-nəzərdən qiymətləndirə, habelə onları real təhlükəyə sürükləyən informasiyanı müəyyənləşdirə bilməməyidir".*

Elian Teillaumas, Terrorizmlə Mübarizə Koordinasiya Qrupunun psixoloqu. Daxili İşlər Naziri (Fransa).

Gəncin zorakı hərəkətinə səbəb ola biləcək **risk faktorlarının** qarşısını ala bilmək üçün radikallaşmanın səbəbləri barədə hərtərəfli məlumata malik olmaq lazımdır. Əvvəl qeyd edildiyi kimi, bu səbəblər çoxüzlü olmaqla, hər bir şəxs və zonada fərqlidir. Bura aşağıdakılar daxil ola bilər: ekstremist ideologiya\fanatizm (dini, əxlaqi, siyasi, idman və s.) səhifələrinə abunəçilik; öz vədini yerinə yetirməyən (imtina, işsizlik və ayrı-seçkiliyə səbəb olan - real və ya nəzərdə tutulan) cəmiyyət və ya sistemdən qisas almaq istəyi; sosial qrup və ya azlığı rüsvay etmək (ksenofobiya, rasizm, homofobiya, anti-semitizm, İslamofobiya və s.); ekstremal olmaq; birinin həyatında məqsəd axtarmaq; təsisat axtarışında olmaq (xüsusilə də psixi rahatsızlığı ola biləcək şəxslər üçün); "ailə" axtarışında olmaq (xüsusilə də əlverişsiz sosial həyatı olanlar üçün); Xüsusilə də **effektiv təşviqat və daha geniş dezinformasiya** ilə müşayiət edildiyi halda, bu səbəblər şirnikləndirici faktora çevrilə bilər. Bu baxımdan gəncləri məlumatlandırma sahəsində (habelə gənclərlə iş sahəsində) fəaliyyət göstərən əməkdaşlar bu spesifik hallara qarşı xüsusi həssaslıqla yanaşaraq, öz vəzifə öhdəliklərini yerinə yetirməlidir.

*Empatiya quraraq dinləmə.* Dinləmə gənclərlə iş və gəncləri məlumatlandırma sahəsinin əsasında dayanır. Empatiya quraraq dinləmə isə danışan şəxsə məsləhət, mühakimə və ya təsir etmədən real maraq göstərməkdir. Belə dinləmə ünsiyyəti və fikir mübadiləsini asanlaşdırır, tərəflər arasında etimad yaradır. Qeyd etmək lazımdır ki, empatiya mövzu ilə bağlı mütləq şəkildə razılığa gəlinməli olduğuna dəlalət etmir: "Səninlə razı olub-olmamağım vacib deyil, amma öz fikirlərini tam sərbəst ifadə edə bilərsən". Əgər həmin mövzu cəmiyyətdə rədd edilirsə, haqq qazandırılmırsa və ya özünü doğrultmursa, bu yanaşma daha vacib xarakter alır, bu kimi hisslərə səbəb ola biləcək şəxsiyyət problemlərinin və yüksək riskli davranışların qarşısını almağa istiqamətlənmiş fəaliyyətin mühüm bir hissəsini təşkil edir.

*Özlərini sərbəst şəkildə ifadə edə bilməsi üçün iştirakçılara şərait yaratmaq.* Gənclərə öz fikirlərini sərbəst şəkildə ifadə etməyə imkan vermək zəruri məsələdir - xüsusilə də onların deyəcəyi məsələlər insanları narahat edirsə. Belə dəstək strategiyası effektiv nəticələr verə bilər. Bu, o, deməkdir ki, bizi bir-birimizdən uzaqlaşdıran mövzular barədə fərqli fikirlər yürütməklə, qarşı tərəfi dinləməklə və bir-birimizə hörmət edərək fikir mübadiləsi aparmaqla yenidən bir araya gəlmiş olacağıq. Bu isə iştirakçılara imkan verəcək ki, daha fərqli yanaşma əsasında fikir yürüdə və özlərini ifadə edə bilsin.

Xüsusilə də **müzakirə** olunacaq mövzular üzrə gənclərin təşəbbüsü öz əlinə aldığı zaman gənclərlə iş və gəncləri məlumatlandırma fəaliyyətlərində bu kimi müzakirə məqamları mühüm əhəmiyyət kəsb edir. Gəncləri məlumatlandırma sahəsində fəaliyyət göstərən bir sıra mərkəzlər xudmani bir mühitdə həftəlik və aylıq debatları təşkil edir, sərbəst müzakirə və fikir mübadiləsi üçün əlverişli şərait yaradır. İrqi ayrı-seçkilik, vətəndaşlıq, cəmiyyətdə dinin rolu, gender problemləri və immiqrasiya kimi məsələlər debatların aidiyyəti mövzularıdır. Debatlara həmçinin valideyn və ya tərəfdaşlar da dəvət edilə bilər. Gənclərlə iş sektorunun vəzifə öhdəliyi dəstəyin göstərilməsi ilə məhdudlaşır. Lakin vətəndaşlıq, demokratiya, mədəniyyətlərarası dialoq və s. kimi mövzularda daha uzunmüddətli layihəni planlaşdırmaq və hazırlamaq üçün bu cür fikir mübadilələri zamanı əldə edilən məlumatlardan növbəti mərhələlərdə istifadə etmək olar.

*Sosial və peşəkar inteqrasiyası boyu gəncin yanında olub ona istiqamət göstərmək.* Özünütəcrid hissi keçirən həssas gənclərlə ünsiyyət saxlamaq üçün **fəal dinləmə** prosesi mühüm əhəmiyyət kəsb edir. Lakin fəal dinləmə öz-özlüyündə real bir həll yolu deyildir; bu, gənclərə yönələn real bir layihənin hazırlanması üçün daha əsaslı işin bir hissəsidir. Zorakı radikallaşma ilə mübarizədə ən etibarlı yol məşğulluq və təlim vasitəsi ilə inteqrasiyadır. Bu, gənclərlə iş sektorunun gündəlik missiyasının başlıca hissəsidir. Gənclərə yönələn bir layihənin hazırlanması işinin prioritetləşdirilməsi və bu layihənin icrasında onlara yardım göstərilməsi ilə həmin gənclər həyatdakı məqsədlərini daha yaxşı başa düşəcək, öz əhatəsində özünü faydalı bir fərd kimi hiss edəcək və görəcək ki, həmyaşıdları da onu bu cür qəbul edir. Aydındır ki, həssas vəziyyətdə olan gənclərin heç də hamısı radikallaşmır, lakin hər hansı bir məqsədin olmaması və cəmiyyətdə özünü fəal subyekt kimi görə bilməməsi zorakı ekstremizmin səbəblərindən biri kimi qəbul edilir. Gənclərə cəmiyyətdə **iştirak və öz yerini tapmaq** imkanını vermək gənclərlə iş və gəncləri məlumatandırma sahələrinin daha geniş miqyaslı missiyasının ayrılmaz bir hissəsidir.

> *«Gənclərlə iş və gəncləri məlumatlandırma sektorunun gənclər üçün real alternativlər təklif etməsi zəruri məsələdir».*
>
> Manfred Zentner




*Zorakı ekstremizmə doğru sürüklənmək.* Fərdin **radikal, yoxsa fanatik ideologiyaları qəbul etməkdə olduğuna** işarə edən əlamətləri fərqləndirmək üçün həm təcrübə, həm də tədbirlilik lazımdır. Kiminsə ekstremist davranışa sürüklənə biləcəyinə dair məlum əlamətlərin bəzilərini bilməklə gənclərlə birlikdə belə xəbərdarlıq əlamətlərini daha yaxşı formada müəyyənləşdirmək mümkündür. Belə xəbərdarlıq əlamətlərini müəyyənləşdirə bilmək təkcə gənclərlə iş sektorunun vəzifəsi deyil, bu, elə bir nəsnədir ki, vətəndaşların bu barədə məlumatı olmalıdır. Bu səbəbdən də bir sıra Avropa dövlətləri sevdiyi yaxınının zorakı ekstremizmə sürüklənmək riskindən narahat olan adamlara dəstək üçün milli mərkəzlər yaratmışdır.

Radikallaşma prosesi sadəcə bir əlamətlə deyil, məhz **müxtəlif faktorlar toplusu** ilə müəyyənləşdirilə bilər. Riski təsdiqləmək üçün sadəcə bir davranış kifayət deyil və hər bir göstəriciyə eyni formada yanaşılmamalıdır. Məsələn, ekstremist davranış riski olduğunu demək üçün fərdin xarici görünüşü və geyimi kimi əlamətlər heç bir vəchlə kifayət deyildir. Məhz bir münasibət, fakt və tərkib hissəsi öz-özlüyündə radikallaşma prosesinin göstəricisi ola bilməz. Həmçinin gənclik dövrünün özünəməxsus xüsusiyyətlərini də nəzərə almalıyıq. Bu, elə bir yaş dövrüdür ki, şəxsiyyətinin dəyişməsi ilə gənclər diqqət cəlb etmək üçün qəsdən təxribat xarakterli davranış nümayiş etdirə bilər.

*Ekstremist davranışa dair xəbərdarlıq faktorları.* Aşağıdakı faktorlar ekstremist davranışa sürüklənməyin əsas göstəriciləri hesab olunur - əvvəlki kimi, belə bir prosesin mövcud olduğunu göstərmək üçün hər bir faktor ayrı-ayrılıqda kifayət deyil. Faktorlar aşağıdakılardır, lakin bunlarla məhdudlaşmır: insanlar prosesin aşkarlanmağına mane ola və öz fəaliyyətlərini gizlədə bildiyi üçün bu faktorlar müntəzəm olaraq nəzərdən keçirilməli və uyğunlaşdırılmalıdır.

**Ekstremist davranışa dair xəbərdarlıq faktorları**

1. Normanın dəyişməsi və ya normadan kənarlaşma (ənənəvi mühitdən uzaqlaşmaq və ya xarici görünüşdə fərqlilik).
2. Şəxsi mühitlə bağlı faktorlar (zəif ailə təsisatı, qeyri-stabil şəxsiyyət, yüksək nüfuzlu sosial şəbəkə).
3. Nəzəriyyə və müzakirələr (konspiroloji nəzəriyyələr, özünü qurban kimi göstərmək, şəxsiyyətin dəyişməsi, digərlərini də dəyişmək cəhdləri).
4. Texnikalar (virtual və ya real şəbəkələrdən istifadə, “maskalanma” strategiyaları).
5. Məhkumluq faktları (xüsusilə də əvvəllər həbsxana mühitində olması)

**Fransa hadisələri: CNAPR**

Fransada radikallaşma ilə mübarizə planı 29 aprel 2014-cü ildə dərc olunan bəyannnamədə vurğulanır: Terrorizmlə Mübarizə üzrə Koordinasiya Qrupu (UCLAT) aidiyyəti planda təsbit edilmiş bütün tədbirlərin koordinasiyasına cavabdehdir.

Başlıca məqamlardan biri Radikallaşma üzrə Milli Yardım və Profilaktika Mərkəzinin (CNAPR) yaradılmasıdır. Bu, telefon vasitəsi ilə istifadəçilərin üzünə açıq olan bir dəstək platformasıdır. Məqsədi: ekstremist davranışa sürükləndiyinə işarə edən faktorların bəzilərini özündə daşıyan fərdlərin ailə üzvlərini və yaxınlarını dinləmək, onlara məlumat vermək və dəstək göstərməkdir. Bu ödənişsiz xidmət həftənin Bazar ertəsindən Cümə gününə qədər səhər saat 9.00-dan axşam saat 5.00-a qədər telefon zənglərini qəbul edir. CNAPR ilə həmçinin www.stop-djihadisme.gouv.fr səhifəsindəki elektron üsulla da əlaqə saxlamaq mümkündür.

Sözügedən platforma 2014-cü ilin aprelində istifadəyə verildikdən sonra 11 000-dən çox müraciət qeydə alınmışdır. Bu müraciətlərin yarısından çoxu ailələr tərəfindən edilmişdir. Müraciətlərin 70%-indən çoxu kişilərə, 19%-i azlıqlara aid olmuşdur. Aidiyyəti xidmət mərkəzləri bildirmişdir ki, daxil olan zənglərin əksəriyyəti zorakı ekstremizmlə birbaşa bağlı olmadığına görə müraciətlərin, demək olar ki, yarısının arxasına düşülməmişdir.

Vəziyyət, həqiqətən də, narahat olmağa dəyərsə, bu zaman əlaqədar şəxsə və onun ailəsinə vəziyyətə uyğun dəstək göstərilir. Məqsəd radikal fərdin, onların sevdiklərinin qayğısına qalmaq və nəticə etibarilə, potensial faciənin qarşısını almaqdır.

# İstinadlar

## 1. Mövzu haqqında qısa biblioqrafiya

« Radicalisme violent comprendre, prévenir au-delà de l'urgence », L'observatoire, trimestriel n° 86/2015, March 2016.

Andersen Lars Erslev, « Terrorisme et contre-radicalisation : le modèle danois », Politique étrangère, n° 2, 2015, pp. 173-183.

Borum Randy, « Radicalization into Violent Extremism I : A Review of Social Science Theories », Journal of Strategic Security, vol. 4, n° 4, 2011, pp. 7-36.

Bouzar Dounia, « Les professionnels de la jeunesse face au discours radical musulman », La nouvelle revue de l'adaptation et de la scolarisation, vol. 38, n° 2, 2007, pp. 125-139.

Chalvin, Dominique, Tensions et conflits dans les relations personnelles, ESF Editeur, 1999.

El Ghabri Mohssin et Gharbaoui Soufian, « Qui sont ces Belges partis combattre en Syrie ? », Analyses Etopia, juin 2014, www.etopia.be/spip.php?article2663 consulted on 7 June 2017.

Fastrès Jacqueline, Blairon Jean et Watillon Laurence, « Radicalisation, prévention et milieu ouvert », Analyse et études RTA ASBL, septembre 2015, www.intermag.be/518 consulted on 8 June 2017.

Fiez Michel, Radicalisation de la jeunesse. La montée des extrêmes, Eyrolles, Paris, 2016.

Hafez Mohammed et Mullins Creighton, « The radicalization puzzle: a theoretical synthesis of empirical approaches to homegrown extremism », Studies in Conflict and Terrorism, vol. 38, 2015, pp. 958-975.

Khosrokhavar Farhad, Radicalisation, Éditions de la Maison des sciences de l'Homme, Paris, 2014.

Landy Normand et Letellier Anne-Sophie, L'éducation aux médias à l'ère numérique : entre fondations et renouvellement, Les Presses de l'Université de Montréal, 2016.

Manço Altay et Gülver Murat, « Causes de la radicalisation à travers le recrutement du Hizbullah turc : quelles pistes de prévention ? », Revue internationale de criminologie et de police technique et scientifique, n° 1, p. 19-60, 2016.

Marret Jean-Luc et coll., « An overview of the SAFIRE Project: A Scientific Approach to Finding Indicators and Responses to Radicalization », Journal EXIT-Deutschland, Zeitschrift für Deradikalisierung und demokratische Kultur, n° 2, 2013, pp. 123-148.

McCauley Clark et Moskalenko Sophia «Measuring Political Mobilization: The Distinction Between Activism and Radicalism », Terrorism and Political Violence, vol. 21, n° 2, 2009, pp. 239-260.

McCauley Clark et Moskalenko Sophia, « Mechanisms of political radicalization: Pathways towards terrorism », Terrorism and Political Violence, vol. 20, n° 3, 2008, pp. 415-433.

Pisoiu Daniela et Köhler Daniel, « Individelle Loslösung von Radikalisierungsprozessen. Stand der Forschung und eine Überprüfung bestehender Theorien anhand eines Ausstiegsfalls aus dem militanten Salafismus », Journal EXIT-Deutschland, Zeitschrift für Deradikalisierung und demokratische Kultur, n° 2, 2013, pp. 241-274.

Pisoiu Daniela, « Theoretische Ansätze zur Erklärung individueller Radikalisierungsprozesse: eine kritische Beurteilung und Überblick der Kontroversen », Journal EXIT-Deutschland, Zeitschrift für Deradikalisierung und demokratische Kultur, n° 1, 2013, pp. 41-87.

Rosenberg Marshall, Les mots sont des fenêtres (ou des murs). Introduction à la communication non-violente, éditions Jouvence, Paris, 1999.

Schmid Alex, P., « Radicalisation, De-Radicalisation, Counter-Radicalisation : A Conceptual Discussion and Literature Review », ICCT Research Paper, International Center for Counter-Terrorism, La Haye, 2013.

Silber Mitchel D. et Bhatt Arvin, « Radicalization in the West : The homegrown threat », rapport, New York City Police Department, Intelligence Division, New York, 2007.

Vallet Cédric, « Radicalisation : le secteur jeunesse, un acteur de prévention ? », l'Agence Alter, Alterechos, n° 421, avril 2016.

Vivre Ensemble, Djihadisme « Made in Belgium » : un terrorisme religieux?, Bruxelles, 2016. www.vivre-ensemble.be/IMG/pdf/2016-15_jihadisme.pdf, consulted on 7 June 2017.

Weißgerber Christian Ernst, « Das Kaleidoskop der Radikalisierung. Ein Plädoyer für die Verabschiedung des Extremismusbegriffs », Journal EXIT-Deutschland, Zeitschrift für Deradikalisierung und demokratische Kultur, n° 1, 2014, pp. 187-227.

Wilner Alex S. et Dubouloz Claire-Jehanne, « Homegrown terrorism and transformative learning:an interdisciplanary approach to understanding radicalization ». Global Change, Peace and Security, vol. 22, n° 1, février 2010, pp. 33-51, www.tandfonline.com/doi/full/10.1080/14781150903487956

## 2. Əsas siyasi sənədlər

Uşaqları zərərli məlumat və davranışlardan qorumaq, yeni informasiya və kommunikasiya mühitində onların fəal iştirakını genişləndirmək istiqamətində tədbirlər haqqında Avropa Şurası, Üzv dövlətlərin Nazirlər Komissiyasının CM\Rec (2009) 5 saylı Tövsiyəsi, Avropa Şurası, Strasburq, 2009.

Avropa Şurası, Uşaq Hüquqları Strategiyası (2012-2015), Avropa Şurası, Strasburq, 2012.

Avropa Şurası, Uşaq Hüquqları Strategiyası (2016-2021), Avropa Şurası, Strasburq, 2016.

Avropa Şurası, Yerli və regional həyatda gənclərin iştirakı haqqında yeni Avropa Nizamnaməsi, Avropa Şurası, Strasburq, 2015.

Avropa Şurası, Avropa Uşaq Hüquqları Konvensiyası, Avropa Şurası, Strasburq, Strasburq, 1996.

Avropa Şurası, Gənclər üçün nəzərdə tutulmuş informasiya və məsləhət xidmətləri haqqında CM\Rec (1990) 7 saylı Tövsiyə, Strasburq, 1990.

Avropa Şurası, Üzv dövlətlərin Nazirlər Komissiyasının Gənclərin Məlumatlandırılması haqqında CM\Rec (2010) 8 saylı Tövsiyəsi, Avropa Şurası, Strasburq, 2010.

Avropa Şurası, Avropa İnsan Hüquqları Konvensiyası, Avropa Şurası, Strasburq, 1950.

Avropa Şurası, İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası, 11 və 14 saylı Protokol əsasında yenilənib, 4 noyabr 1950, ETS 5, [konsultasiya - 20 iyun 2017].

Avropa Şurası, Terrorizmə aparan zorakı ekstremizm və radikallaşmaya qarşı Tədbirlər Planı (2015-2017), Avropa Şurası, Strasburq, 2015.

Avropa Şurası, Avropada qaçqın və miqrant uşaqların müdafiəsi üzrə Tədbirlər Planı (2017-2019), Avropa Şurası, Strasburq, 2017.

Avropa Şurası, Üzv dövlətlərin Nazirlər Komissiyasının aztəminatlı gənclərin sosial hüquqlarının təmin

edilməsi haqqında CM\Rec(2015) 3 saylı Tövsiyəsi, Avropa Şurası, Strasburq, 2015.

Avropa Şurası, CM (2015) 74 yekun. Avropa Şurası Nazirlər Komissiyasının Bəyannaməsi, "Terrorizmə aparan zorakı ekstremizm və radikallaşma əleyhinə müəyyənləşdirdiyimiz prinsiplər", Avropa Şurası, Brüssel, 2015.

Avropa Şurası, CM (2016)25.2.4 İnklüziv cəmiyyətin qurulması üzrə Tədbirlər Planı (2016-2019), Avropa Şurası, Strasburq, 2016.

Avropa Şurası, Tövsiyə CM\Rec (2016)7 və izahlı memorandum. Gənclərin hüquqlarının təmin edilməsi, Avropa Şurası, Strasburq, 2016.

Avropa Şurası, Üzv dövlətlərin Nazirlər Komissiyasının gənclərlə iş haqqında CM\Rec (2017) 4 saylı Tövsiyəsi, Avropa Şurası, Strasburq, 2017.

Avropa İttifaqı Şurası (9640/16), Şura və üzv dövlətlərin hökumət nümayəndələrinin rəyləri, gənclərin zorakı radikallaşmaya məruz qalmasının qarşısını almaq və onunla mübarizə aparmaq istiqamətində vahid və sektorlararası yanaşmada gənclərlə iş sektorunun roluna dair Şura çərçivəsində iclas, Avropa İttifaqı Şurası, Brüssel, 2016.

Avropa Gənclər Kartı Assosiasiyası, Avropa Gəncləri Məlumatlandırma və Məsləhət Agentliyi, Eurodesk, İştirak et. Məlumatlandır. Şərait yarat. Analitik sənəd - Əsas Avropa Gəncləri Məlumatlandırma və Mobillik şəbəkələrinin Aİ-nin yeni Gənclər Strategiyası ilə bağlı tövsiyələri, ERYICA, Eurodesk, Brüssel, 2016.

ERYICA (2004), Avropa Gəncləri Məlumatlandırma Nizamnaməsi https://static1.squarespace.com/static/59ab1130ff7c50083fc9736c/t/59bd4c3749fc2b0ba8d68fbe/1505578044656/European+Youth+Information+Charter_English+Version.pdf

ERYICA (2011), Gəncləri Məlumatlandırma haqqında yeni başlayanlar üçün resurs https://static1.squarespace.com/static/59ab1130ff7c50083fc9736c/t/59d76c9b1f318db8c85e80e9/1507290279523/2010_Youth_Information_Starter_Kit_II_en.pdf

UNESCO, (Birləşmiş Millətlərin Təhsil, Elm və Mədəniyyət məsələləri Təşkilatı) Maarifləndirmə vasitəsi ilə zorakı ekstremizmin qarşısını almaq - Hökumət nümayəndələri üçün bələdçi, Paris, 2017, http://unesdoc.unesco.org/images/0024/002477/247764e.pdf consulté le 7 juin 2017.

# TOPLU



## Bölmə 1.

# ÖZÜNƏHÖRMƏT, ÖZÜNƏİNAM VƏ ÖZÜNÜDƏRK

Kimliyin formalaşmasında özünəinam zəruri bir elementdir. Özünəinam olduqda biz özümüzü bacarıqlı hesab edir və cəmiyyətin fəal bir üzvünə çevrilmək istəyirik: "Bilirəm ki, istənilən problemin öhdəsindən gəlmək üçün lazım olan bütün resurslarım var". Özünəinam olmadan irəliləyiş əldə etmək qeyri-mümkündür. Özünəinam öz dəyərlərinə uyğun yaşamaq bacarığından irəli gəlir; bu, əksər hallarda özünü hansı yerdə görmək deməkdir. Burada özünəinam özünü dəyərli hiss etməyə imkan verir: "Kömək etməyi bacaracağımı və başqalarının mənə arxayın ola biləcəyini bilirəm". Özünəinam olmadan xoşbəxtliyi tapmaq çox çətindir. Özünəhörmət kimi, özünəinam da sosial əlaqələrin qurulmasında zəruri bir aspektdir. Bu, qrupdakı yerini tapmaq, başqalarının dəyər və istəklərini qiymətləndirmək, özünün fərqliliklərini qorumaq, bununla yanaşı, qarşılıqlı hörmət mühitini qoruyub saxlamaq üçün zəruridir.

Əksinə, özünəinam və özünəhörmət olmadıqda süstlük yaranır. Hər şey planlaşdırıldığı kimi getmədikdə bu, özünəqapanıqlığa, çarəsizlik və hətta qəzəbə səbəb ola bilər. İşə qəbul mütəxəssisləri, ekstremist qruplar və təbliğatçılar bunu çox yaxşı başa düşür: ümidsizlik və çarəsizlik radikal fikirlərin və zorakı ekstremizmin əsasında dayanır, buna görə də adətən özünü ümidsiz və çarəsiz görən şəxslər hədəfə alınır.

Özünəinam və özünəhörmət yaşandıqca əldə edilən hisslərdir; kimliyin formalaşması üçün zəruri olsa da, bu hisslər bizə doğuşdan verilmir. Özünəinam və özünəhörmət hissinə təsir göstərən bir sıra fərqli faktorlar mövcuddur: ehtiyac və fikirlərin təsdiqlənməsi, başqaları tərəfindən fərd kimi qəbul edilmək, güvən hissi, həyatda irəli getmək üçün risk almağa imkan verən mühit.

Fərdin şəxsiyyətinin formalaşması və cəmiyyətdə irəli getməsi üçün zəruri olan bəzi aspektlər növbəti tapşırıqlarda nəzərə alınır. Onlar aşağıdakılara yönləndirir:

- özünüdərk və özünəəminlik;
- öz resurslarını bilmək \ başa düşmək;
- özünəinam və öz ehtiyaclarının təsdiqlənməsi.



## 1.1. Mənim kimliyim

Gənclərlə işləyən əməkdaşların ümdə vəzifələrindən biri də gənclərdə özünüdərkin formalaşmasına nail olmaqdır. Bu vəzifə kimliyin müəyyənləşdirilməsi (kiminsə sənin əvəzinə işləməsi yox) və şəxsin kimliyinin özünəməxsusluğunun dəyərləndirilməsini ehtiva edir.




**Gənclərlə preventiv işlər apararkən "biz kimik?", "biz nəyik?", "biz nə edirik?", "biz nə bilirik?", "biz nəyi necə edəcəyimizi bilirikmi?" və s. kimi məsələləri dəyərləndirmək lazımdır.**

Aşağıdakı tapşırıqlar iştirakçılara bir-birini daha yaxşı tanımağa, özlərini təsdiqləməyə və bir-birinə layiqincə hörmət göstərməyə kömək edəcək.

# 1.1.1. MƏN HARADAYAM VƏ KIMƏM?

*Məqsədlər*

**Bu tapşırıq əsasında iştirakçılar özlərini daha yaxşı dərk edə və kimlik anlayışını başa düşə biləcək.**

**Tapşırığın məqsədlərinə daxildir:**

- **Kimlik və vəzifələrin müxtəlif məkan və zamanlarda fərqli olduğunu bilmək.**
- **Kimliyin dəyişə biləcəyindən agah olmaq.**
- **Kimliyin çoxtərəfli olduğunu bilmək.**

**Hədəf auditoriya**

**Yaşı 12-dən çox olan şəxslər.**

**Qrup həcmi**

**10-20 nəfər.**

**Materiallar**

- **Dünya xəritəsi (1-ci material): iki nəfərə bir material.**
- **Avropa xəritəsi (2-ci material): iki nəfərə bir material.**
- **Təlimin təşkil olunduğu ölkənin xəritəsi: iki nəfərə bir xəritə.**
- **Təlimin təşkil olunduğu şəhərin xəritəsi: iki nəfərə bir xəritə.**
- **Markerlər.**

**Vaxt**

**40-50 dəqiqə.**

*Tapşırıq*

- İki nəfərlik qruplar yığılır. Hər qrupa dörd xəritə və bir neçə marker verilir. Müzakirə sualı: 'Mən haradayam / mən kiməm?'
  - 'Harada': İştirakçılar getmiş olduğu yerləri, hansı yerlərlə bağlantısı olduğunu, onlar üçün mahiyyət kəsb edən, onlara məlum olan, getdikləri yerləri - indiki, keçmiş və gələcək zamanlarda - göstərirlər. Bu həmçinin onların arzuladığı, müəyyən planlarının olduğu və yaxud başqalarının bağlantısı olan əhəmiyyətli yerlər də ola bilər.
  - 'Kim': İştirakçılar yuxarıda qeyd olunan yerlərdəki rolunu (rollarını) göstərir (kimliyin bir və ya daha çox aspekti). Bu, onların hazırda malik olduğu, arzuladığı, malik olacağı və ya vaxtilə malik olduğu rol ola bilər. (Məsələn: Mərakeşdə turist kimi olmuşam, Brüsseldə tələbə idim, xizək parkında xizək sürənəm və s.).
- Qrup daxilində iştirakçılar göstərdikləri yer və rolun (rolların) mənasını müzakirə etməlidir.
- Daha sonra iştirakçılar həmin yer və rollar (onların bəziləri) barədə qısa şəkildə qrupa təqdimat edir.

*Tapşırığın qiymətləndirilməsi*

Müzakirəyə başlamaq üçün aşağıdakı suallardan istifadə etmək olar:

- Vaxtilə məlumatınız olmayan bu məkan və\ya işləri kimdən eşitmisiniz?
- Eyni məkanda fərqli rollara kim malik olub?
- Hansı məkanları işarələmisiniz? Hansı işləri qeydə almısınız?
- Birdən çox rolunuz olan məkanlar hansılardır? Yalnız bir rolun mühüm olduğu məkanlar varmı?

Bütün məkanlarda istifadə etdiyiniz eyni rol varmı?

- Keçmişdə malik olduğunuz, lakin hazırda malik olmadığınız rol varmı? Gələcəkdə malik olacağınız rollar varmı?
- Belə fərqli rollara malik olmaqla, bu fərqli məkanlarda kimliyinizin hansı aspektlərində dəyişiklik baş verir? (Məsələn, kimliyin zahiri aspektləri: görünüş, davranış və s. Daxili aspektlər: nə düşünürsən, nə hiss edirsən və s.)

*Tövsiyələr*

Hansı rollara malik olduğunuzu, bu rolların hansı yerlərlə bağlantısı olduğunu nəzərdən keçirmək maraqlı ola bilər. İdentikliyinizin fərqli aspektləri fərqli məkan və hallarda az və ya çox dərəcədə zahiri xarakterə malik ola, mühüm və faydalı ola bilər. Biz bunu 'çoxşaxəli kimlik' adlandırırıq.

Müxtəlif qatları olan soğanı təsəvvürünüzə gətirin. Soğan qabığı görünür və özünəməxsus cəhətləri büruzə verə bilir. Soğanın üst qabığı də müəyyən vaxtdan sonra və müxtəlif yerlərdə dəyişə bilir, lakin həmin üst qabığın altında daha çox qat var. Alt hissədə yerləşən qatları ilk baxışdan görmək olmur, hətta müəyyən vaxtdan sonra da o qabıqları görməyə bilərik. Bu tapşırıqlar əsasında həmin fərqli qatları öyrənə bilərik. Soğanın ortasında özək hissəciyi vardır. Həmin özək kimliyin ən güclü hissəsidir, inandığımız, can atdığımız, heç vaxt dəyişə bilməyəcək ən əsas dəyərlər məhz orada yatır.

*Mənbə*

www.bounce-resilience-tools.eu ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

***Əlavə məlumat üçün:***

Əlaqə vasitəsi:: bounce-support@ibz.fgov.be.

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

1-ci material: **Dünya xəritəsi**



2-ci material: **Avropa xəritəsi**



# 1.1.2. ROL MODELLƏR VƏ RESURSLAR

*Məqsədlər*

**Bu tapşırıq əsasında iştirakçılar özlərini daha yaxşı dərk edə bilir. Tapşırığın məqsədlərinə daxildir:**

- **Çətin vəziyyətlərdə istifadə etdiyimiz resurslardan xəbərdar olmaq.**
- **Çətin vəziyyətlərdə istifadə etdiyimiz resurslar barədə bir-birimizlə müzakirə aparmaq.**
- **Bizim üçün nümunəvi şəxs olan insanlar barədə fikirləşmək.**
- **Nümunəvi şəxslərin bizim şəxsiyyətə göstərdiyi təsirlərdən xəbərdar olmaq.**
- **Nümunəvi şəxslər və resurslarla olan əlaqələri öyrənmək.**

*Hədəf auditoriya*

**12-15 yaşlı şəxslər.**

*Qrup həcmi*

**8-16 nəfər.**

*Materiallar*

- **Hər bir «yaşayış mühiti» üzrə A4 vərəqi (tapşırıq üçün material).**

*Vaxt*

**40-50 dəqiqə.**

*Hazırlıq*

Otaqda on nöqtəni seçib işarələyin, hər bir nöqtə A4 vərəqi ilə bir "yaşayış mühiti"ni təmsil edir. Yaşayış mühiti: ailə, dostlar, məktəb\iş, hobbilər, mətbuat, assosiasiyalar, mədəniyyət, təbiət, mənəvilik, dünya.

*Tapşırıq (1)*

- İştirakçılar hər biri bir yaşayış mühitini təmsil edən nöqtələrin üzərinə keçir (təsadüfi seçim). Bir nöqtənin üzərində ən azı iki iştirakçı dayanmalıdır (bəzi nöqtələrdə heç kəs dayanmaya da bilər).
- Aşağıda verilmiş nümunəvi şəxslər və resurslar barədə sualların bəzilərini soruşun. İştirakçılar üzərində dayandıqları nöqtənin mövzusuna uyğun sualları cavablandıra bilər.
- İştirakçılar digər nöqtəyə keçir. Bəzi suallar təkrar soruşulur və ya bir neçə yeni sual verilir. Bu, istifadə edilən nöqtələrin sayına görə təkrarlanır. Bir neçə nöqtəyə keçdikdən sonra iştirakçılar dayanmaq istədikləri yeri seçə bilər.

Verilmiş yaşayış mühitindəki rol modellər barədə suallar:

- *Sizin üçün ideal\nümunəvi şəxs kimdir?*
- *Başqaları üçün əsas ideal\nümunəvi şəxs kimdir?*
- *Kimi özünüzə nümunə bilirsiniz?*
- *Özünüzü kimin yerində görürsünüz?*
- *Kimə oxşamaq istəyirsiniz?*
- *Kimə inanırsınız?*

*Tapşırıq (2)*

Suallar verildikdən sonra iştirakçılar fərqli nöqtələr arasından istədiklərini seçir.

Resurslar haqqında suallar:
Aşağıdakı hallarda dəstək\yardım\məsləhət\təskinlik\rahatlıq tapmaq üçün ən yaxşı resurs kimdir və ya nədir:

- Aşağı qiymət almısınız.
- Dalaşmısınız.
- Ən yaxın dostunuz sizinlə elə bir sirr paylaşıb ki, onu içinizdə saxlaya bilmirsiniz.
- Valideynləriniz mübahisə edib.
- Nəsə axmaq bir iş tutmusunuz.
- Aşiq olmusunuz.
- Vacib bir seçim etməlisiniz (məsələn: hansı sahədə təhsil almalı).

*Tapşırığın qiymətləndirilməsi*

İştirakçılar hər dəfə digər nöqtəyə keçdikdə, bir neçə dəfə yer dəyişdikdə və ya tapşırıq tam başa çatdıqda qiymətləndirmə aparıla bilər.
Suallar:

- Bu nümunəvi şəxs və ya resursla bağlı şəxsi təcrübənizi paylaşmaq istəyirsinizmi?
- Bu nümunəvi şəxs və ya resursdan nə öyrənmisiniz?
- Bu nümunəvi şəxs və ya resursdan nələri görüb-götürmüsünüz? Onlar sizin hazırda şəxsi keyfiyyətlərinizin bir hissəsidirmi?
- Başqaları sizi nümunəvi şəxs və ya resurs kimi qəbul edirmi?

*Tövsiyələr*

- Hər bir iştirakçı verilən bütün sualları cavablandırmalı deyil. Öz yerini tutmaq və suallar barədə fikirləşmək bəzi iştirakçılar üçün kifayət edə bilər.
- Bacarıq və maraqlarla yanaşı, qrupla istifadə etmək istədiyiniz spesifik mövzuları seçin.
- İştirakçıların yaş və maraqlarından asılı olaraq, sualları və yaşayış mühitlərini dəyişə bilərsiniz.

*Dəyişənlər*

- İştirakçılar hər bir nöqtədə olduğu zaman onlara yönləndirilən suallara verdiyi cavabları iri vərəqdə yaza bilər. Növbəti qrup və ya şəxs həmin vərəqə öz cavabını əlavə edə bilər.
- Kiçik qruplardakı bütün iştirakçılara bir nöqtədən digərinə birlikdə keçməyə icazə verin.
- Başqa nümunələr təklif edə bilərsiniz. Məsələn, özünüzü idmançı kimi görürsünüz?

*Mənbə*

www.bounce-resilience-tools.eu ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

*Əlavə məlumat üçün:*

Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be.

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

## Material: **Həyatın sahələri**



AİLƏ



DOSTLAR



MƏKTƏB\İŞ



İSTİRAHƏT



MƏTBUAT



ASSOSİASİYALAR



MƏDƏNİYYƏT



KEÇMİŞ\İNDİKİ\GƏLƏCƏK



TƏBİƏT



MƏNƏVİLİK

# 1.1.3. BÖYÜKLƏRİM MƏNİ MƏLUMATLANDIRIR

***Məqsədlər***

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Haradan gəldiyimiz, ailəmiz barədə məlumat və bu məlumatların bizim şəxsi keyfiyyətlərimiz barədə nə dedikləri haqqında informasiya toplamaq.**
- **Öz həyat hekayəmizi bilmək və mədəni fərqliliklərimiz barədə məlumatlı olmaq.**
- **Xüsusilə də mənşə və ailə tarixçəsi ilə bağlı gənclərdə özünəinam və özünəhörmət hisslərini aşılamaq.**

*Hədəf auditoriya*

**12-15 yaş.**

***Qrup həcmi***

**5-20 nəfər.**

***Materiallar***

- **Stul, kağız, qələm.**

**Bu tapşırıq 3 hissədən ibarətdir:**

- **Məlumatlandırma (15 dəq).**
- **Evdə araşdırma (1 saat).**
- **Qrup müzakirəsi (qrupun həcmindən asılı olaraq, 1-2 saat).**

*Hazırlıq*

- İştirakçılar özlərini təqdim edir və bir-birini tanıyır.
- İştirakçılara tapşırıq barədə məlumat verin: müsahibə ideyasını izah edin və bildirin ki, özlərini jurnalist olaraq təsvir etsinlər.
- Bu tapşırıq valideynlərin və mümkün olarsa, nənə-babaların müsahibəsi barədədir. Sorğu anketi hazırlaya, onlarla razılaşdıra bilərsiniz. Daha sonra onlar həmin anketi qrup şəklində cavablandırmalıdır.
- Sorğu anketi üçün aşağıda bəzi təkliflərimizi veririk. Əlbəttə ki, iştirakçılar anketə öz əlavələrini edə bilər:

  *- Ata və ana tərəfdən nənə-babalarınızın ad və soyadını deyə bilərsinizmi?*
  *- Onların doğulduğu il?*
  *- Hazırda harada yaşayırlar?*
  *- Əvvəllər harada yaşayıblar?*
  *- Hansı bölgədəndirlər? (ölkə, şəhər, rayon)*
  *- Doğulduğu rayonu tərk ediblərsə, bunun səbəbi nə idi?*
  *- Nə işlə məşğuldurlar?*
  *- Necə tanış olublar?*
  *- Onların məktəb təhsili varmı?*
  *- Uşaqlığınızla bağlı hansısa hekayəni danışın.*
  *- Onların neçə uşağı var?*

- Onların ailə tarixçəsi barədə məlumat aldıqda iştirakçılar aşağıdakı məsələlərə xüsusi diqqət etməlidir:

- *Valideyn və ya nənə-babaların miqrasiyası.*
- *Ailə tarixçəsinə yazılmış xoş xatirələr və pozitiv hadisələr.*
- *Onların hazırki arzu və istəkləri.*

- Öz ailəsindən müsahibə almaq üçün iştirakçılara bir həftə vaxt verin.

*Tapşırıq*

- Müsahibələr başa çatdıqdan sonra iştirakçılar topladığı məlumatları paylaşır.
- Ailə tarixçələri barədə aşkarladığı məsələləri paylaşması üçün iştirakçıları həvəsləndirin.
- Əvvəl olduğu kimi, pozitiv hadisələri, lətifələri, xoş xatirələri xüsusi diqqətdə saxlamaq lazımdır. İştirakçıların valideynlərinin mənşəyi digər ölkələrdəndirsə, ailələrinin immiqrasiya tarixçəsini danışa bilər.

*Tapşırığın qiymətləndirilməsi*

- *Valideynlərinizi müsahibəyə çəkmək asan\çətin oldu?*
- *Müsahibədə rahatlıqla iştirak etdilərmi?*
- *İştirakçılar hansı çətinliklərlə qarşılaşdı?*
- *Bu tapşırığı icra edərkən ailəniz barədə nələri aşkarladınız?*
- *Bu tapşırıq sizə nə öyrətdi?*

*Tövsiyələr*

- İştirakçılar danışarkən onlara hörmət edilməlidir.
- İştirakçılar əldə etdiyi təcrübələrini paylaşmaq istəməzsə, onları buna məcbur etmək olmaz. Onlar məlumat vermək istəmədikləri halda, buna özlərini məcbur hiss etməməlidir.
- İştirakçıların öz hekayələrinin müsbət aspektlərinə kökləndiyini təmin edin.

*Mənbə*

*Centre d'Information et de Documentation pour Jeunes (CIDJ Belçika ), Mes tissages de vie. Une réflexion sur les identités jeunes. Dossier pédagogique, Brüssel, 2005.*

*Əlavə məlumat üçün:*

www.cidj.be

cidj info jeunesse

## 1.1.4. MƏDƏNIYYƏTİM

*Məqsədlər*

**Dünyaya gəldiyimiz mədəniyyət bizi formalaşdırır, əvəzində isə, biz öz mədəniyyətimizi formalaşdırırıq. Hər birimiz fərqli mədəniyyət, xüsusiyyət və şəxsi təcrübələrin yetirməsiyik. Mədəniyyətin qavranılması istiqamətində edilən cəhdlər həyatın müxtəlif aspektlərini özündə birləşdirir. Bu aspektlərin bəzisi göz önündə olsa da, digər bir qismi daha dərin araşdırmanı tələb edir. Növbəti tapşırığın məqsədi:**

- **«mədəniyyət» məfhumunun iştirakçılar tərəfindən qavranılmasını və bununla da bir-birini daha yaxşı tanımasını təmin etmək.**
- **mədəniyyətin fərqli aspektlərini müəyyənləşdirmək**
- **aid olduğumuz mədəniyyətlə və hazırda yaşadığımız ölkə, yaxud şəhərlə əlaqəsi olan aspektləri müəyyənləşdirmək.**

*Hədəf auditoriya*

**Yaşı 15-dən yuxarı olan şəxslər. Bu tapşırıq xüsusən çoxmillətli qrup üçün uyğundur.**

*Qrup həcmi*

**Maksimum 12 nəfər.**

*Materiallar*

**Kağız və qələm\flipçart.**

*Vaxt*

**1 saat.**

*Tapşırıq*

- “Mədəniyyət” sözünün iştirakçılar üçün nə məna kəsb etdiyini onlardan soruşun (ümumqrup tapşırığı).
- Verilən bütün cavabları qeyd edin və onları 6 kateqoriya üzrə qruplaşdırın: incəsənət, elm, dini inanclar, ədalət, dəyər və ənənələr.
- İştirakçıların şəxsi fikirlərini soruşun və aşağıdakı sualları verməklə, onların ailələrindən qaynaqlanan mədəni aspektləri müəyyənləşdirməkdə qrupa yardım edin:
  - *Mədəniyyətimdə “yaxşı” və “pis” olan nələr var?*
  - *Ailə strukturumuz necədir?*
  - *Kişi və qadınlar arasındakı əlaqələr mənim mədəniyyətimdə necə xarakterizə olunur?*
  - *Əsas ənənələrdən bir neçəsini qeyd edə bilərsinizmi?*
  - *Hansı dillərdə danışılır?*
  - *Ailə başçısı rolu kimdədir və bu rol necə əldə edilir?*
  - *Mənim mədəniyyətimdə yumor hissi necə xarakterizə olunur?*
  - *Dinin nə kimi rolu var?*
  - *Mənim mədəniyyətim digər mədəniyyətləri necə dərk edir?*

*Tapşırığın qiymətləndirilməsi*

İştirakçıların əsas fikirlərini təkrarlamaqla və multikultural cəmiyyətdə birlikdə yaşamaq üçün zəruri olan tolerantlıq, hörmət, ayrı-seçkiliyin olmadığı şərait və dünyəvilik kimi prinsipləri xatırlamaqla tapşırıq yekunlaşdırılır.

*Tövsiyələr*

Xüsusilə də meydana gələ biləcək hər hansı stereotiplərlə əlaqədar qrupda qarşılıqlı hörmətin qorunub saxlanılmasına diqqət edin.

*Mənbə*

Centre d’Information et de Documentation pour Jeunes (CIDJ Belçika ), *Mes tissages de vie. Une réflexion sur les identités jeunes*. Dossier pédagogique, Brüssel, 2005.

# 1.2. Güclü cəhətlərim, istedadlarım, bacarıqlarım




**Özünü o vaxt tanıya bilirsən ki, bunu sənin yerinə başqası etmir.**

Özünəhörmətlə bağlı bacarıqları artırmaq üçün aşağıdakı tapşırıqlar verilir.

1.2.1.

# 1.2.1. DOSTUM BUNU EDƏ BİLƏR

***Məqsədlər***

**Bu tapşırıq iştirakçılar üçün nəzərdə tutulmuş qəliz tapşırıqlar silsiləsindən ibarətdir. Bununla onlar aşağıdakıları bacaracaq:**

- **Özlərinin istedadlarını və güclü cəhətlərini üzə çıxarmaq.**
- **Qrupun onlarda sezdiyi istedadlardan və güclü cəhətlərdən xəbərdar olmaq.**
- **Başqalarının istedadlarını və güclü cəhətlərini bilmək.**
- **Etimadı gücləndirmək.**
- **Başqalarına etibar etmək.**

***Hədəf auditoriya***

**12-16 yaşlı şəxslər. Bir-birini tanıyan şəxslər (məsələn, sinif).**

***Qrup həcmi***

**20-25 nəfər.**

***Materiallar***

**1-ci material: çalışmalar**
**2-ci material: çalışmalar üçün istedadlar və güclü cəhətlər**
**3-cü material: hesablama**
**4-cü material: şəkillər**
**Əlavə materiallar:**
**3-cü çalışma üçün: bir dəstə kart**
**6-cı çalışma üçün: 2 bıçaq, 2 alma**
**7-ci çalışma üçün: mahnı ifa etmək üçün hər hansı alət, məşhur bir mahnı**
**8-ci çalışma üçün: bir stol, iki stul**
**9-cu çalışma üçün: 1 stolüstü tennis topu, iki fincan, bir stol**

***Vaxt***

**1 saat. İştirakçı və çalışma sayından asılı olaraq, bu vaxt dəyişdirilə bilər.**

*Hazırlıq*

- Hər bir çalışma üçün lazımi materialları yerləşdirin.
- Bir neçə çalışma olacağını əvvəlcədən bildirin. Hər bir çalışma üçün öz istedad və güclü cəhətlərindən istifadə edəcək iki iştirakçı lazımdır. Hər bir iştirakçı ən azı bir çalışmanı yerinə yetirməlidir.
- Aşağıda verilmiş çalışma siyahısından istifadə edərək, qrupa həvalə edin ki, hər bir çalışmanı yerinə yetirməsi üçün iki iştirakçı seçsin.
- Hər bir çalışmanın kim tərəfindən yerinə yetiriləcəyini müzakirə edərkən iştirakçılar öz istedadlarını və güclü cəhətlərini əsas gətirərək könüllü olaraq ortaya atılmamalı, yaxud öz istedad və güclü cəhətlərini nümayiş etdirməməlidir.
- ‘Dostum bunu edə bilər’ o, deməkdir ki, hər bir iştirakçının istedad və güclü cəhətlərindən asılı olaraq, qrup hər bir çalışma üçün iki nəfərin seçimini müzakirə edir və onları təqdim edir.
  - *Çalışma 1: Diqqətin toplanması, konsentrasiya*
  - *Çalışma 2: Riyaziyyat*
  - *Çalışma 3: Sadə motorika bacarıqları*
  - *Çalışma 4: Diqqətlilik*
  - *Çalışma 5: Fiziki güc və çevik reaksiya*

- *Çalışma 6: Mətbəx bacarıqları*
- *Çalışma 7: Musiqi qabiliyyəti*
- *Çalışma 8: Güc və azm*
- *Çalışma 9: Fiziki nəzarət*
- *Çalışma 10: Sürət*

***Tapşırıq***

- Hər iştirakçıya rol verildikdən sonra çalışmanı izah edin (aşağıdakı materiala baxın) və tapşırığa start verin.
- Hər bir çalışma yerinə yetirilib yekunlaşdırıldıqdan sonra növbəti çalışmaya keçməzdən öncə qısa təhlil verilə bilər.

***Tapşırığın qiymətləndirilməsi***

Bütün çalışmalar yekunlaşdırıldıqdan sonra aşağıdakı suallar ətrafında müzakirəyə başlayın:

- *Qrup müzakirəsi necə oldu?*
- *Çalışmanı yerinə yetirmək üçün öz istedad və güclü cəhətlərinizi əsas gətirməklə qabağa atılmamaq nə dərəcədə çətin (yaxud asan) oldu?*
- *Başqalarının sizi istedadlı şəxs kimi təklif etməsini qəbul etmək sizin üçün nə dərəcədə çətin (yaxud asan) oldu? Buna necə reaksiya verdiniz?*
- *Çalışmanın yerinə yetirilməsi zamanı rəqabət apararkən nə dərəcədə özünəinamlı oldunuz?*
- *Çalışmadakı şəxsi nəticənizdən nə dərəcədə razısınız?*
- *Bu spesifik istedadı qrupun məhz sizdə görməyi düzgün qərar idimi? Hansı istedadı istərdiniz və nə üçün?*
- *Həmin istedad və ya güclü cəhəti bu çalışmada istifadə edə bildinizmi?*
- *Həmin istedad və ya güclü cəhəti tətbiq edə biləcəyiniz hallara dair nümunə deyə bilərsinizmi?*
- *Həmin istedad və ya güclü cəhəti digər iştirakçılar niyə görə məhz sizdə gördü?*
- *Oyunun sizə görə ən mühüm hissəsi hansı idi? Çalışmaya hansı iştirakçıların cəlb olunmasımı? Çalışmada iştirakmı? Çalışmanı qazanmaqmı?*

***Tövsiyələr***

Qrupun həcmi və motivasiyasından asılı olaraq çalışmaların sayını azaltmaq olar. Bu çalışmalarda qalib olmaq sadəcə kiçik bir məqamdır. Hər bir çalışmada rəqabət elementi var, lakin qalib olmaq və ya uduzmaq burada əsas hədəf deyil. Özünün istedad və güclü cəhətlərini tətbiq edə biləcək şəxsin seçilməsi ilə bağlı qrup daxilində aparılan müzakirə, habelə çalışmalarda iştirak edən şəxslərin əldə etdiyi təcrübə daha vacibdir.

Güman ki, iştirakçılar öz istedad və güclü cəhətlərinin lazım olduğu çalışmalarda könüllü iştiraka meyl edəcək. Çalışmada kimin iştirak edəcəyinə dair qərarın bütünlükdə qrup tərəfindən verilməli olduğunu vurğulayaraq onların könüllü iştirakına müdaxilə edin.

***Dəyişən***

İştirakçıların maraqları, istedad və güclü cəhətlərinə uyğun olaraq, çalışmaları dəyişə və yaxud digər çalışmalardan istifadə edə bilərsiniz.

*Mənbə*

www.bounce-resilience-tools.eu ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

*Əlavə məlumat üçün:*

Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be.

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

## 1-ci material: **Çalışmalar**

**1-ci çalışma**

- İstedad\güclü cəhət: diqqətin toplanması, konsentrasiya
- İki iştirakçı bir-birinin qarşısında dayanır, aralarındakı məsafə bir metr olmalıdır. Onlar sərbəst, lakin sağlam dayanır (ayaqlarını geniş açır, belini və başını dik tutur, gərginlik olmur, sakit nəfəs alır). Digər qrup üzvləri bir qədər kənarda dayanır və səs salmır. Siqnal verildikdən sonra hər iki iştirakçı bir-birinin gözünün içinə baxır. Diqqətini toplamağı və hərəkətsiz dayanmağı bacaran iştirakçı geri dönür və gülür, beləliklə, çalışmanı qazanır.
- Dəyişən: bir iştirakçı üç dəfə qazanana qədər çalışmanı təkrar edin.

**2-ci çalışma:**

- İstedad\güclü cəhət: riyaziyyat
- İki iştirakçı üzərində hesablama olan örtüyün qarşısında bir-birinə yaxın dayanır (Bax: Əlavə 9. Hesablama). Örtük qaldırıldıqdan sonra iştirakçılar hesablayır və cavabı cəld şəkildə deyir. Düzgün nəticəni birinci və ucadan deyən iştirakçı qalib sayılır.

**3-cü çalışma:**

- İstedad\güclü cəhət: sadə motorika bacarıqları
- Kartlardan ibarət üç mərtəbəli ev hazırlayın. Beş saniyə dayana bilən kart evini ilk hazırla bilən iştirakçı çalışmanı qazanır.

**4-cü çalışma:**

- İstedad\güclü cəhət: diqqətlilik
- İki iştirakçı şəkilli iki örtüyün qarşısında dayanır (Bax: Əlavə 10. Şəkillər). Örtük 10 saniyə qaldırılır. On saniyədən sonra ən gənc iştirakçı (A) gödüyünü deməyə başlaya bilər: A bir şeyi deyir, B isə növbəti şeyi və beləcə, bir iştirakçı səhv edənə və ya uzun müddət tərəddüd edənə qədər davam edir. Ən çox düzgün cavabları vermiş iştirakçı qalib olur.

**5-ci çalışma:**

- İstedad\güclü cəhət: fiziki güc və cəld reaksiya
- Timsah döyüşü: iki iştirakçı bir-birinin qarşısında əlləri və ayaqları üzərində dayanır, bədəni düz, çiyinlər geniş açılır. Ayaqlar çalışma boyu tərpədilməməlidir. Siqnal işarəsindən sonra onlar bir-birinin əllərinə toxunmağa, qarşı tərəfin ona toxunmaması üçün əllərini kənarlaşdırmağa çalışır. Hər dəfə qarşı tərəfə əli ilə toxunanda, yaxud bir iştirakçının əl və ayaqlarından başqa tərəfi döşəməyə toxunanda xal qazanılır. Hər xal qazanıldıqdan sonra çalışmaya yenidən başlamaq lazımdır. Limit 3 xala qədərdir.
- Dəyişən: döşəməyə yıxılmaq üçün təhlükəsizdirsə, iştirakçılar tərəf müqabili yıxılana qədər onun əllərini tuta və darta bilər.



# 1-ci material: **Çalışmalar**

**6-cı çalışma**

- İstedad\güclü cəhət: mətbəx bacarıqları
- Almanın qabığını elə soymaq lazımdır ki, mümkün qədər uzun qabıq alınsın. Ən uzun qabıq soyan iştirakçı qalib olur.

**7-ci çalışma:**

- İstedad\güclü cəhət: musiqi qabiliyyəti
- Bir könüllü iştirakçı (çalışma iştirakçısı olmayan) məşhur bir mahnını zümzümə edir, digər iki iştirakçı mahnını və həmin mahnını oxuyan müğənnini tapır. Birinci tapan iştirakçı qalib hesab edilir.

**Dəyişən:**

- Mahnını kazuda ifadə etmək olar
- Məşhur bir mahnı çalınır. Kreativ qabiliyyətlərini göstərməsi üçün hər iki iştirakçıya beş dəqiqə vaxt verilir. Məsələn, mahnını zümzümə etmək, stol və ya başqa material üzərində tıqqıldatmaq, rəqs etmək, mahnını ağzında mırıldamaq, digərlərini də cəlb etmək... Birinci iştirakçı öz qabiliyyətini nümayiş etdirərkən digər iştirakçı kənarda gözləyir. Hər iki göstərişdən sonra kimin daha kreativ olduğunu qrup səsverməyə qoyur.
- Təlimçi üçün tövsiyələr: iştirakçılar mahnını özləri seçsin, mahnını çalmaq üçün öz musiqi alətindən istifadə etsin.

**8-ci çalışma:**

- İstedad\güclü cəhət: güc və inadkarlıq.
- Qol güləşi: üç oyunu udan şəxs qalib sayılır.

**9-cu çalışma:**

- İstedad\güclü cəhət: fiziki nəzarət.
- Stolüstü tennis: stolun başında bir iştirakçı dayanır, hər birinin qarşısında içində azacıq su olan fincan qoyulur. İştirakçılar tennis topunu qarşı tərəfin fincanına tullamağa çalışır. Topu bir dəfə stolun üzərinə tullamalı, bununla da həmi top gedib rəqib fincana daxil olmalı və orada qalmalıdır. Bunu birinci bacaran tərəf qalib hesab edilir.

**10-cu çalışma:**

- İstedad: Sürət
- Nömrələnmiş (1-dən 10-a qədər) kartları dairə şəklində təsadüfi olaraq düzün. Siqnal verildikdən sonra xronoloji sıraya start verilir. İştirakçı A 1-dən 10-a qədər kartlara, iştirakçı B isə 10-dan 1-ə qədər kartlara toxunmalıdır. Bir karta toxunduqdan sonra iştirakçılar növbəti karta toxunmaq üçün dairəyə geri qayıdır. Bu çalışmanı ən cəld və səhvsiz edən iştirakçı qalib sayılır. Hər səhv üçün əlavə vaxt verilir.

**11-ci çalışma:**

- Çalışmalar üçün əlavə ideyalar:
- İstedad: sadə motorika bacarıqları və kreativlik
- Kiçik bir incəsənət nümunəsi hazırlamaq üçün qarmaqcıqla toxuma\qalın sapla toxuma\başqa texnikadan istifadə etmək.
- İstedad: informasiyadan istifadə.
- İki iştirakçı telefon götürür (özlərinin telefonu, yaxud təlimçinin onlara verdiyi telefonu) və bir-birinin yanında dayanır. Onların qarşısında üzü aşağı qoyulmuş vərəq olur. Kağızın altında qısa mətn olur. Kağız çevrilir və iştirakçılar həmin mətni telefona köçürür. Təlimçi vaxta nəzarət edir. İştirakçılar mətni yazıb bitirdikdən sonra telefonu yerə qoyur. Təlimçi orfoqrafik qaydalara riayət edilib-edilmədiyini yoxlayır. Hər səhvə görə iştirakçıya vaxt əlavə edilir.
- İstedad: özünənəzarət və musiqi qabiliyyəti
- Ağıza su alaraq mahnını mırıldamaq.

2-ci material: **Çalışmalar üçün istedadlar və güclü cəhətlər**

| | |
|---|---|
| Diqqətin toplanması, konsentrasiya | Diqqətin toplanması, konsentrasiya |
| Riyaziyyat | Riyaziyyat |
| Sadə motorika bacarıqları | Sadə motorika bacarıqları |
| Diqqətlilik | Diqqətlilik |
| Fiziki güc və cəld reaksiya | Fiziki güc və cəld reaksiya |

2-ci material: **Çalışmalar üçün istedadlar və güclü cəhətlər**

| | |
|---|---|
| Mətbəx bacarıqları | Mətbəx bacarıqları |
| Musiqi qabiliyyəti | Musiqi qabiliyyəti |
| Güc və inadkarlıq | Güc və inadkarlıq |
| Fiziki nəzarət | Fiziki nəzarət |
| Sürət | Sürət |

3-cü material: **Hesablama**

3x6

+5

-3

/2

=

4-cü material: **Şəkillər**



# 1.2.2. İSTEDAD VƏ GÜCLÜ CƏHƏTLƏR KVARTETİ

***Məqsədlər***

**Bu tapşırığın məqsədi iştirakçıların öz istedad və güclü cəhətlərini dərk etməsi, habelə onlarda özünəhörmət və özünəinamı formalaşdırmaqdır. Onlar aşağıdakıları etməlidir:**

- **İstedad və güclü cəhətləri barədə fikirləşmək və bundan xəbərdar olmaq.**
- **Özlərinin istedadlarını və güclü cəhətlərini müzakirə etmək.**

***Hədəf auditoriya***

**12-18 yaş.**

***Qrup həcmi***

**8-12 nəfər.**

***Materiallar***

**Tapşırıq materialına bax.**

***Vaxt***

**30-40 dəqiqə.**

***Hazırlıq***

- İstedad kartlarını paylayın.
- Dairə yaradın.

***Tapşırıq***

- İştirakçılar istedad və güclü cəhətlərin qeyd edildiyi beş kartı təsadüfi seçim əsasında götürür. Tapşırığa başlamaq üçün işarə verin. İştirakçılar özlərinə heç uyğun olmayan istedad kartını sol tərəfdəki şəxsə ötürür. Bu qayda ilə kartlar bir neçə dəfə dövr edir, ən uyğunu saxlanılır, heç uyğun olmayanı isə digər tərəfə ötürülür.
- Kartlar bir neçə dəfə ötürüləndən sonra bütün iştirakçılar beş kartın içindən onlara heç uyğun olmayan bir kartı kənara qoya, az və ya çox dərəcədə uyğun olan dörd kartı özlərində saxlaya bilər. Bunu istedad kvarteti adlandırırıq.

***Tapşırığın qiymətləndirilməsi***

- İştirakçıların istedadları, güclü cəhətləri və şəxsi keyfiyyətlərini daha geniş formada araşdırmaq üçün onlarla müzakirəyə qoşulun. İştirakçılar özlərinin "istedad kvarteti"ni qrupa göstərə, yaxud onlara uyğun gələn bir istedad kartını seçib fikirlərini ifadə edə bilərlər. Onlar həmçinin müəyyən kartları seçməməklərinin səbəbini də deyə bilər.
- Müzakirəni qızışdırmaq üçün aşağıdakı suallardan istifadə edə bilərsiniz:
  - *Seçdiyiniz istedad kvarteti istedadlarınız, güclü cəhətləriniz, şəxsi keyfiyyətləriniz barədə yaxşı təəssürat yaradırmı?*
  - *Bu istedadlarınızdan necə yararlandığınıza dair nümunə deyə bilərsinizmi?*

*Mənbə*

www.bounce-resilience-tools.eu ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

*Əlavə məlumat üçün:*

Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be.

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

Tapşırıq materialı: **istedad və güclü cəhətlər kartı**

| | | |
|---|---|---|
| İradə | Güclü | Gözəl |
| Yumor hissi | Sadiq | Etibarlı |
| Dinləyici | Sakit | Maraqlı |
| Fantaziya dolu | İdeyalar irəli sürən | Çalışqan |

Tapşırıq materialı: **istedad və güclü cəhətlər kartı**

| | | |
|---|---|---|
| Heyranedici | Zirək | Açıq fikirli |
| Əyləncəli | İnandkar | Əməkdaşlıq edən |
| Vicdanlı | Təmiz | Sərhəd qoyan |
| Qəti | Həll yollarını tapan | Özünü müdafiə edən |

Tapşırıq materialı: **istedad və güclü cəhətlər kartı**

| | | |
|---|---|---|
| Dəqiq | Səbirli | Nikbin |
| Əlverişli şərait yaradan | Müstəqil | Alicənab |
| Qoruyucu | Rahatladıcı | Rahat |
| Planlayıcı | Mülayim | Müdrik |

Tapşırıq materialı: **istedad və güclü cəhətlər kartı**

| | | |
|---|---|---|
| Mehriban | Güclü | Hər şeyi bilməyə can atan |
| Tələbkar | İncə | Çevik |
| Həssas | Xeyirxah | Açıq |
| Xoşbəxt | Təhsilli | Xəyalpərəst |

Tapşırıq materialı: **istedad və güclü cəhətlər kartı**

| | | |
|---|---|---|
| Şövqlü | Kreativ | Şən |
| Dost | Səliqəli | Ağıllı |
| Ciddi | Məmnun | Ünsiyyətcil |
| Təvazökar | Diqqətli | Əyləncəli |

Tapşırıq materialı: **istedad və güclü cəhətlər kartı**

| | | |
|---|---|---|
| Gözəl | Spontan | Macəraparəst |
| İddialı | Səxavətli | Hər şeylə maraqlanan |
| ... | ... | ... |
| ... | ... | ... |

# 1.2.3. SİLUETLƏR

*Məqsədlər*

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

**• Özünü daha yaxşı tanımaq. Xüsusilə də güclü cəhətləri müəyyənləşdirmək.**

**• Özünəinam və özünühörməti formalaşdırmaq.**

**• Söz azadlığını təşviq etmək.**

*Hədəf auditoriya*

**12-15 yaş.**

*Qrup həcmi*

**8-16 nəfər.**

*Materiallar*

- **Boya, markerlər.**
- **Jurnallar, yapışqan, qayçı.**
- **Bir iştirakçıya bir böyük kağız və ya ağ kağız rulonu (kağız iştirakçının boyuna uyğun olmalıdır).**

*Vaxt*

1 saat.

*Hazırlıq*

- İştirakçılara iki-iki qrup yaratmağı tapşırın.
- Hər qrupa böyük kağız, boya, marker, jurnal, yapışqan və qayçı verin.
- Qrupun bir üzvü kağız üzərində uzanır, digəri onun siluetini çəkir, sonra isə əksinə (kağızın ölçüsü çox böyük olmazsa, siluet bir neçə vərəq üzərində çəkilir).

*Tapşırıq*

- Hər bir iştirakçıya tapşırın ki, özlərinin bilik və bacarıqları, güclü cəhətləri və şəxsi keyfiyyətinə dair nümunələri bədən üzvlərinə aid olmaqla siluetin üzərində çəksin və ya qeyd etsin (məsələn, əllərimlə .... etməyi bacarıram.... ürəyimlə, başımla....etməyi bacarıram). İştirakçılar həmçinin jurnallardan şəkillər kəsə və şəxsi keyfiyyətlərini ifadə etməsi üçün onları kağızın üzərinə yapışdıra bilər.
- İştirakçılar tapşırığı yekunlaşdırdıqdan sonra öz siluetini qrupa təqdim etməsi üçün hər bir kəsi həvəsləndirin ki, kağız üzərinə çəkdikləri\yapışdırdıqlarını izah etsinlər.

*Tapşırığın qiymətləndirilməsi*

Bacarıq və istedad anlayışı barədə müzakirəyə başlayın; özünüqiymətləndirmənin tam dəyərləndirilməsinin əhəmiyyətini vurğulamağa çalışın və bunun sosial mühitdə öz yerini tapmasında fərdə necə yardımçı olduğunu iştirakçılara izah edin.

*Dəyişənlər*

- Siluetlər, ilk növbədə, iki nəfərlik qruplarda, daha sonra bütünlükdə qrupa təqdim edilə bilər.
- Müvafiq olaraq, iştirakçılar öz tərəfdaşının siluetini də təqdim edə bilər. Bununla da təvazökar iştirakçılar müzakirədə iştirak etmək üçün özlərini daha rahat hiss edəcək.
- Siluetlər otaqda nümayiş etdirilə bilər.
- Vaxt və ya kağız məhduddursa, siluetlər bədəninin sadəcə yuxarı hissəsini, məsələn, üz\çiyinləri əhatə edə bilər.

Mənbə

Université de Paix ASBL, De la prévention à la gestion positive des conflits. Jeux de coopération, Namur, www.universitedepaix.org/pdf/jeuxdecooperation.pdf.

## 1.3. İstəklər və ehtiyaclar




**Qarşılaşdğımız maneələrin səbəbi bir çox faktorlar ola bilər: yanlış olmaq qorxusu, hər kəsi razı salmamaq qorxusu... lakin bir çox ekspertin fikrincə, asanlıqla qərar verməyən insanlarda özünəinam olmaya bilər. Bu isə bizim öz istək və ehtiyaclarımıza qulaq verməməyimizə səbəb olur. Xüsusilə də gənclər digərlərinin istəklərinin təsirinə düşərək və bununla da öz arzularının arxasınca düşməyərək risk edir.**

Aşağıdakı tapşırıqları yerinə yetirərkən iştirakçılar özləri üçün hədəf qoymaq məqsədi ilə 'İstəyirəm... İstəmirəm...', 'Xoşlayıram... Xoşlamıram' kimi fəndgir cümlələr üzərində işləyəcək.

# 1.3.1. ZÖVQÜM VƏ HOBBİLƏRİM

*Məqsədlər*

**Bu tapşırığın məqsədi iştirakçıların öz hədəf və ehtiyaclarını daha yaxşı başa düşməsinə, onlarda özünəhörmət amilini gücləndirməyə nail olmaqdır. Əlavə məqsədlərə həmçinin aşağıdakılar daxildir:**

- **Şəxsi zövq və hobbilərindən agah olmaq.**
- **Digərlərinin istedadları, hobbi və ehtiyaclarını bölüşmək və aşkarlamaq.**

*Hədəf auditoriya*

**12-18 yaş.**

*Qrup həcmi*

**8-16 nəfər.**

*Materiallar*

- **Kağız və qələm.**
- **Qalın karton lövhə və ya taxta lövhə.**

*Vaxt*

**Qrupun həcmindən və seçilmiş alternativlərdən asılı olaraq 1.5 - 2 saat.**

*Tapşırıq*

Bu tapşırıq 3 hissədən ibarətdir. Başlanğıc üçün hər bir iştirakçıya kağız və qələm verin.

1-ci hissə

- Hər bir iştirakçı bir dəqiqə ərzində fikirləşir və sonra beş hisslə bağlı öz zövqlərini qeyd edir: Ən çox nəyi eşitmək, nəyi görmək, nəyə toxunmaq, nəyi iyləmək və dadmağı sevirlər.
- Bütün iştirakçılar öz cavablarını yazıb bitirdikdən sonra hər kəs öz fikrini qrupa təqdim edir. Həmçinin təyin edilən aparıcı rəy də bildirə bilər.
- İkinci alternativ seçilərsə, iştirakçılara iki-iki qruplaşmağı tapşırın. Hər bir qrup müvafiq cavablarını sıra ilə öz tərəfdaşına təqdim edir. Daha sonra hər bir iştirakçıdan xahiş edin ki, tərəfdaşının fikirlərini bildirsin. İştirakçılar öz zövqləri barədə bütünlükdə qrupa məlumat verərkən özlərini narahat hiss edərsə, bu alternativ xüsusilə faydalı olar.
- Nəhayət, bu tapşırıqdan iştirakçıların əldə edəcəkləri barədə müzakirəyə qoşulun.

2-ci hissə

- Hər bir iştirakçı öz marağını və ya ən sevimli hobbisini, o cümlədən “bu, nədir?”, “harada icra edilir?”, “kiminlə?” və “nə qədər müddətə?” kimi sualların cavablarını da qrupa təqdim edir.
- Daha sonra aşağıdakı nümunədə olduğu kimi, hər bir fəaliyyəti mövzular üzrə təsnifatlaşdırın:

| İDMAN | MUSİQİ | ELM | TEXNOLOGİYA | TƏBİƏT | ƏMƏK | ƏDƏBİYYAT | ... |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

- Kölgələnmiş hər bir xana spesifik iştirakçıya aiddir. Hər bir iştirakçının adını və spesifik fəaliyyət növünü (futbol, tenis, skripka, caz və s.) lövhəyə yaza bilərsiniz. Bu mövzular heç bir halda tam əhatəli deyil və əlavə mövzular da salına bilər.
- Sonra qrup hər bir fəaliyyətin dəyərini və bu fərqli maraq dairələrinin iştirakçıları necə bir araya gətirə biləcəyini müəyyənləşdirməklə, bu çalışmanı təhlil edə bilər.

3-cü hissə

- Qrupun bütün "istedadları"nı siyahıya aldıqdan sonra (2-ci hissə) "bu maraqları və onun arxasında dayanan bilikləri necə paylaşmalı?" ətrafında müzakirəyə başlayın.
- İştirakçılardan xahiş edin ki, aşağıdakı mövzulara dair münasibət bildirsinlər və sonra öz düşüncələrini kağız üzərində qeyd etsinlər: "Sevdiyim işlərdən biri barədə digərlərinə danışmalı olsaydım, yaxud bu işi onlarla birlikdə görməli olsaydım, bunu necə edərdim?".
- Əvəzində, hər bir iştirakçıdan öz fikrini soruşun. Daha sonra digər iştirakçılara qısa bir vaxt verin ki, öz münasibətini bildirsin, rəy və təkliflərini versinlər.
- Bildirilən fikirlərə əsaslanaraq, digər iştirakçıların fərqli maraq dairələri və sevimli məşğuliyyətləri barədə daha çox məlumat almaq istəyib-istəmədiklərini soruşun.

***Tövsiyələr***

Başqalarının zövqləri, sevdiyi məşğuliyyət və maraq dairələri barədə iştirakçıların mühakimə yürütməmələrini diqqət edin. Həmçinin öz fikrini bildirməsi üçün hər bir iştirakçıya bərabər vaxt ayrılmalıdır.

***Dəyişən***

Əgər qrup digər bir tapşırıq üçün yenidən bir araya gəlirsə, öz istedad və ya sevdiyi məşğuliyyətlərini digərləri ilə paylaşması üçün hər bir iştirakçıya on beş dəqiqəlik təqdimat hazırlamağı tapşıra bilərsiniz.

*Mənbə*

La Coordination pour l'éducation à la non-violence et à la paix, Commission éducation, *L'apprentissage de l'estime de soi. Treize fiches pédagogiques pour l'éducation à la non-violence et à la paix*, Paris, 2009.

Əlavə məlumat üçün:

secretariat@education-nvp.org.

# 1.3.2. MÜSBƏT YÖNÜMLÜ MƏQSƏD

***Məqsədlər:***

**Bu tapşırığın məqsədi iştirakçılar üçün aşağıdakı imkanları yaratmaqdır:**

- **Özünü daha yaxşı tanımaq.**
- **Onlarda özünəinam və özünəhörmət hisslərini aşılamaq.**
- **Öz fikirlərini formalaşdırmaqda onlara yardım etmək.**
- **Onların öz istedadlarını üzə çıxarmaq və həmin istedadlar barədə müzakirə aparmaq.**
- **Qarşılarına müsbət yönümlü bir məqsəd qoymaq, onu təqdim etmək və həmin məqsədə necə nail olmaq barədə fikir yürütmək.**
- **Digər iştirakçılarla ünsiyyət qurmaq.**

***Hədəf auditoriya:***

**12-18 yaş.**

***Qrup həcmi***

**6-12 nəfər.**

***Materiallar***

- **Taxta parçaları (məsələn, şam ağacından, 20 x 10 sm).**
- **Markerlər.**
- **Kağız.**

***Vaxt***

**1-2 saat. Tapşırığın gedişatından asılı olaraq bu vaxt dəyişdirilə bilər.**

***Hazırlıq***

- İştirakçıların özlərini tam rahat hiss edə biləcəyi dairə yaradın.
- Daha sonra iştirakçılara bir taxta parçası və marker verin.

***Tapşırıq***

1-ci hissə

- Əldə etmək istədikləri bir şey barədə, nail olmaq istədikləri hədəf, inkişaf etdirmək istədikləri istedad, güclü cəhət və s. barədə müsbət yöndə fikirləşmək üçün iştiakçılara bir neçə dəqiqə vaxt verin.
- Taxtanın yuxarı hissəsində iştirakçılar həmin hədəfi markerlə qeyd edir\çəkir\simvollaşdırır. Aşağı hissədə isə digər qeydlərə də yer qoyaraq öz adlarını yazırlar.
- İştirakçıların müzakirəyə qoşulması üçün onlara aşağıdakı sualları verin:
    - Müsbət hədəfinizi bizimlə paylaşa bilərsinizmi?
    - Şəxsi bir hədəfə nail olmaq barədə fikirləşmək nə dərəcədə asan və ya çətindir?
    - Bu hədəfə nail olmağı çoxmu istəyirsiniz?
    - Bu hədəfə çatacağınızdan əminsinizmi?
- İştirakçılardan bəziləri öz müsbət hədəfini aydınlaşdırmaqda çətinlik çəkirsə, bu barədə fikirləşmək üçün başqa elementlərdən istifadə etməyə istiqamətləndirin. Aşağıdakı suallara cavab tapmaqla bunu etmək olar: “Mən nə istəyirəm?” “Mənim arzum nədir?”

2-ci hissə

- İştirakçılara ya ayrı-ayrılıqda, ya da iki nəfərlik qrup şəklində tapşırın ki, onların müsbət hədəflərinə nail olması üçün müvafiq əlverişli şəraitlərə dair öz fikirlərini bildirsinlər. Bunun üçün onlar aşağıdakı sualları kağız üzərində qeyd edə bilər:

- Bu hədəfə necə nail ola bilərəm?
- Bu, real bir məqsəddirmi? Bəlkə, qarşıma daha real bir məqsəd qoymalıyam?
- Bu hədəfə nail olmaq üçün nə etməliyəm?
- Bu hədəfə nail olmazdan əvvəl nə etməliyəm?
- Bu hədəfə daha rahat nail olmaq üçün hansı addımları fikirləşə bilərəm?
- Motivasiyamı alt-üst edə və hədəfimi dəyişə biləcək hansı maneələrlə üzləşə bilərəm?

Bu suallara verilən cavablarla iştirakçılar müsbət hədəflərinə nail olmaq üçün uyğun bir plan hazırlaya biləcək.

***Tapşırığın qiymətləndirilməsi***

Çalışmanın mövzusunu icmallaşdırmaq üçün iştirakçıları bir araya toplayın. Aşağıdakı sualları verməklə müzakirənin başlanmasına yardım edə bilərsiniz:

- Bu müsbət hədəfinizə nail olacağınıza hələ də əminsinizmi?
- Bu hədəf realdırmı?
- Özünüzə əmin olmaq üçün sizə nə lazımdır?
- Bu hədəfə nail olmaq üçün hansı addımları yerinə yetirməlisiniz?
- Bu hədəfə nail olmaq üçün sizə nə kömək lazımdır?
- Bu hədəfə nail olmağa çalışarkən qarşınıza hansı maneələr çıxa bilər?
- Bu maneələri necə dəf etmək olar?
- Bu hədəfə nail olmaq üçün sizə yardımçı ola biləcək hər hansı təlim və ya təhsil proqramı varmı?

***Tövsiyələr***

İştirakçılar taxta parçası üzərinə yazılacaq məsələləri düşünməkdə çətinlik çəkərsə:

- İştirakçı ilə bağlı şəxsi təcrübələrinizi işə sala bilərsiniz (onu yaxşı tanıyırsınızsa).
- İştirakçılar bir-birini yaxşı tanıyırsa, müsbət hədəfi müəyyənləşdirmək üçün qrupdan yardım istəyin.
- Əgər bu yolu seçsəniz, o zaman həmin müsbət hədəfin məhz iştirakçı tərəfindən düşünülməsi və özü üçün əhəmiyyətli hesab etməsini təmin edin.

Tapşırıq zamanı iştirakçılar taxta parçasına yeni hədəflər əlavə edə və ya hədəfləri dəyişə bilər.

*Mənbə*

www.bounce-resilience-tools.eu ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

*Əlavə məlumat üçün:*

Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be.

Avropa İttifaqının Cinayətlə Mübarizə və
onun qarşısının alınması üzrə proqramı
çərçivəsində birgə maliyyələşdirilmişdir.

# 1.3.3. XOŞLAYIRAM, XOŞLAMIRAM: ŞƏKİL DİLİ TAPŞIRIĞI

*Məqsədlər*

**Bu tapşırıq zamanı iştirakçılar nəyi bəyənib, nəyi bəyənmədikləri barədə qrup qarşısında danışır. Əlavə məqsədlərə həmçinin aşağıdakılar daxildir:**

- **Özünü və ətrafdakı insanları daha yaxşı tanımaq.**
- **Kütlə qarşısında danışarkən iştirakçıların özünəinamını artırmaq.**
- **Debat açmadan dinləmə bacarıqlarını formalaşdırmaq.**
- **Digərlərinin fikir və rəylərini dinləməyi və hörmət etməyi öyrənmək.**

*Hədəf auditoriya*

**12-18 yaş.**

*Qrup həcmi*

**15-25 nəfər.**

*Materiallar*

**Hər biri 5-6 nüsxədə olmaqla təxminən 30 ədəd fərqli şəkil.**

*Vaxt*

**1 saat.**

*Metoda dair qeyd*

Jak Nimyer, fransız psixoloq və müəllim (1929-2014) Şəkil dili prosesini aşağıdakı kimi müəyyənləşdirir: *"Şəkil proyeksiya obyektidir. Yəni, şəkli seçən şəxs müəyyən təfərrüatlara vararaq, əslində yalnız özünə aid olan xüsusiyyətləri həmin şəkil üzərində ifadə edir. Bununla da şəkil həmin şəxsin inikasına çevrilir; eyni zamanda, onlardan ayrı bir obyekt olaraq qalır. Bu proses şəxsə "qismən danışmağa" imkan verir. Yəni ki, o, şəkil barədə danışarkən eyni anda özü haqqında danışır. Şəkil həm şəxsi, həm də qeyri-şəxsi inikasdır. Bu proses çərçivəsində hər bir şəxs şəkil arxasında gizlənməklə özü haqqında danışa biləcək".*

*İstinad*

Alen Baptist, Kler Belisl, Jan-Mari Peçenart, Klodin Vaçeret, *Photolangage – Une méthode pour communiquer en groupe par la photo,* éd. Organisations Éditions, Paris, 1991.

*Hazırlıq*

- Tövsiyə edirik ki, iştirakçılar fərqli jurnallardan şəkilləri kəsib toplamaqla özlərinin şəkil dilini yaratsınlar. Məsələn, səyahət şəkilləri, incəsənət şəkilləri və kataloqların şəkilləri.
- Şəkilləri topladıqdan sonra onları karton lövhəciyə yapışdırsınlar.
- Karton lövhəciyin digər tərəfində şəkillərin hər biri nömrələnir. Hər bir şəklin sərlövhəsini ayrıca saxlamaq, lakin müzakirə zamanı lazım olduqda şəkillərə qayıtmaq üçün hazır olmaq lazımdır. Bu sərlövhə aşağıdakı məlumatları ehtiva edə bilər: yer, tarix, müəllif və mənbə.
- Yeni xəbər hadisələrindən şəkil kəsməməyə çalışın; bu, müzakirənin spesifik suallar üzərində deyil,

məhz real faktlar üzərində köklənməsinə səbəb ola bilər.

- Mümkün olarsa, hər kəsdən əvvəlcədən bir və ya daha artıq şəkil təqdim etməsini istəyin. Bununla da eyni mövzuya dair bir neçə şəkil, yaxud mövzular toplusuna dair fərqli şəkillər toplusu meydana gələcək.
- Hər iştirakçı üçün ən azı 4-5 şəkil ayırmaq və mümkün olarsa, hər birinə ayrı-ayrı surət vermək lazımdır.
- Şəkilləri stolun üzərinə elə düzmək lazımdır ki, hər bir silsilə aydın görünsün (eyni silsilədən olan kartları yuxarıdan aşağıya düzün).
- Tapşırığın əvvəlində iştirakçılar şəkillərlə tanış olur.
- Hər bir iştirakçı stoldan iki şəkil seçir:
  - Bəyəndikləri nəyisə ifadə edən və onları müsbət auraya bürüyən bir şəkli...
  - Bəyənmədikləri nəyisə ifadə edən və onları mənfi auraya sürükləyən digər bir şəkli...
- Şəkillərin düzüldüyü masanın ətrafı maneəsiz hərəkətə imkan verməlidir ki, iştirakçılar sərbəst hərəkət edə və bütün şəkilləri görə bilsinlər. Hər şəklin arasında nə qədər çox məsafə olarsa, bir o qədər yaxşıdır.

***Tapşırıq***

- Tapşırığın icra edildiyi mühit sakit və səssiz olmalıdır.
- Hər bir iştirakçı iki şəkil götürmək üçün dəvət edilir. (İştirakçı sayı çoxdursa, 5-6 nəfərlik kiçik qruplar şəklində stol başına dəvət edin).
- Hər kəs öz seçimini etdikdən sonra öz yerinə qayıdır. Onlar seçdikləri şəkilləri digər iştirakçılara göstərməməlidir.
- İlk olaraq, heç bir sıra qaydası olmadan hər kəsdən xahiş edin ki, bəyənmədikləri kartı bütünlükdə qrupa göstərsin. Daha sonra iştirakçılar həmin şəklin onlar üçün nə ifadə etdiyini və niyə görə onları mənfi auraya sürüklədiyini müzakirə edir. Hər bir iştirakçı müdaxilə olmadan və daha vacibi, tənqid, yaxud mühakimə edilmədən seçdikləri şəkil barədə sərbəst danışa bilməlidir.
- Sonra iştirakçıların bəyəndikləri şəkillə bağlı da eyni prosesi tətbiq edin. Onlar şəklə ad verməli, öz seçimlərinin səbəbini izah etməli və bu şəklin onları niyə sevindirdiyini bildirməlidir.

***Tapşırığın qiymətləndirilməsi***

- Bütün iştirakçılar danışdıqdan sonra çalışmaya dair münasibət bildirmək, o cümlədən iştirakçıların nə düşündüklərini, bu çalışmadan özləri və digərləri barədə nə öyrəndiklərini bildirmək üçün müəyyən vaxt ayırın. Burada da bütün iştirakçılar heç bir müdaxilə olmadan sərbəst surətdə öz fikrini bildirməlidir.
- Ola bilər ki, iştirakçılar eyni şəkli seçsin və oxşar, yaxud əks münasibət bildirsinlər. Bu zaman onlar fərqli fikirlərə hörmətlə yanaşmağı və ya əvvəl xəbərdar olmadıqları oxşarlıqları üzə çıxarmağı öyrənir.
- Bu çalışmanın qiymətləndirilməsi üçün aşağıdakı suallardan istifadə edə bilərsiniz. Məsələn:
  - Sizcə, dediklərinizi dinlədilərmi\başa düşdülərmi. Bununla siz nə öyrəndiniz?
  - Müzakirənin hansı hissəsi sizin üçün daha maraqlı oldu?
  - Müzakirə zamanı müdaxilə etmədən digərlərini dinlədinizmi?
  - Çalışma zamanı seçilməyən şəkil qaldımı?
  - Bu çalışmadan öyrəndiklərinizi necə təsvir edərdiniz?
  - Digər iştirakçı ilə eyni şəkil seçdinizmi? O zaman nə baş verdi və hansı hisslər keçirdiniz?

***Tövsiyələr***

Hər hansı ümumiləşdirmələrə yol vermədən müzakirənin bütün iştirakçıların öz təcrübəsinə əsaslanaraq şəxsi fikirlərini bildirməsinə köklənməsini təmin edin. Qeyd götürməyin və hər hansı mühakiməyə yol verməyin. İştirakçılar bir-birinin sözünü kəsməməlidir.

*Mənbə*

La Coordination pour l'éducation à la non-violence et à la paix, Commission éducation, *L'apprentissage de l'estime de soi. Treize fiches pédagogiques pour l'éducation à la non-violence et à la paix*, Paris, 2009.

*Əlavə məlumat üçün:*

secretariat@education-nvp.org.

# 1.3.4. AVTOPORTRET

*Məqsədlər*

**Bu tapşırığın məqsədi bir-birini daha yaxşı tanıması və gələcəklərini təsəvvür edə bilməsi üçün iştirakçılara şərait yaratmaqdır. Əlavə məqsədlərə həmçinin aşağıdakılar daxildir:**

- **İştirakçının şəxsiyyəti barədə təfərrüatları təsviri qaydada üzə çıxarmaq.**
- **İştirakçıların şəxsiyyətinin hansı aspektlərinin onlar üçün xüsusi əhəmiyyət kəsb etdiyini yoxlamaq.**

*Hədəf auditoriya*

**12-18 yaş.**

*Qrup həcmi*

**6-12 nəfər.**

*Materiallar*

- **İri vərəqlər (hər iştirakçıya 1 vərəq).**
- **Qələm, rəngli karandaşlar, qayçı.**
- **Çoxsaylı şəkilli jurnallar\qəzetlər (iştirakçılara tapşırmaq olar ki, jurnal və qəzetləri özləri ilə gətirsinlər).**
- **Yapışqan.**

*Vaxt*

**1 saat.**

*Hazırlıq*

- Hər bir iştirakçıya böyük vərəq verin. Materialı paylayın (jurnallar, qəzetlər və s.).

*Tapşırıq*

- Şəkil, eskiz, məktub və mətn çıxarışlarından istifadə etməklə, hər bir iştirakçı şəxsi kollajını vərəq üzərində hazırlayır. Bu kollaj aşağıdakıları ifadə edə və ya simvollaşdıra bilər:
  - Onlar kimdir və ya özlərini necə görür?
  - Bəyəndiklərim və bəyənmədiklərim
  - Bilik və ya istedadlarım
  - Onların həyatında vacib rol oynayan nəsnələr
  - Ümid və arzular
  - Gələcəyi necə görürlər və s.
- Hazırlanmış kollajlar otaqda nümayiş etdirilir. Hər nümayiş zamanı kollaj müəllifinin qrupun istənilən qeydinə münasibət bildirməsinə şərait yaradın.

***Tövsiyələr***

İştirakçıların bir-birini mühakimə etməsinə yol verməyin. Sadəcə şərhlərin bildirilməsinə, sual verilməsinə və hisslərin ifadə edilməsinə imkan verin.

*Mənbə*

La Coordination pour l'éducation à la non-violence et à la paix, Commission éducation, *L'apprentissage de l'estime de soi. Treize fiches pédagogiques pour l'éducation à la non-violence et à la paix*, Paris, 2009.

*Əlavə məlumat üçün:*

secretariat@education-nvp.org.

Bölmə 2.

# FƏRQLİLİK VƏ BİRLİKDƏ YAŞAMAQ

*Fərqlilik və birgə yaşayış kimi məsələləri necə qəbul edirik? Zorakı ekstremizmin qarşısını almaq baxımından bu kimi məsələlərin əhəmiyyəti varmı?*

Aydındır ki, bu iki məsələ bütövlükdə cəmiyyətimizin inikasıdır. Bir çox hallarda cəmiyyətdə oturuşmuş sosioloji və iqtisadi normalar sosial-mədəni fərqliliyə mane olur ki, bu da cəmiyyətdəki əngəllərin səbəbini izah edə bilər. Nəticə etibarilə, verilmiş ərazilərdə müəyyən əhali qruplarının homogenləşdiyini müşahidə edə bilərik.

Həqiqətən də, zorakı ekstremizm müəyyən bir cəmiyyətdə fərqliliyə qarşı radikal mübarizə kimi nəzərə alına bilər: spesifik ideologiyanı təmsil edən bir qrup özünü həmin fərqlilik aspektində tanıtmaq üçün mübarizə aparır və beləliklə, ona qarşı “hücumlar”ın olduğunu, yaxud tanınmadığını hiss etməyə başlayır, bununla da cəmiyyəti aradan qaldırmağa çalışır. Radikallaşmış fərdin üzləşdiyi bu imtina hissi adətən müəyyən bir qrupa aid olmaq kimi zəruri ehtiyacla müşayiət edilir.

Bu kimi imtina hisslərini qavramaq üçün ümumi ictimaiyyətdə lazımi vasitələr olmalı, belə hissləri dəf edə və fərqli cəmiyyətdə birlikdə yaşamağın faydalarını tanıya bilməlidir. Fərqliliyi qəbul etmək bacarığımızı artırmaqla, ekstremizmin qarşısını daha sadə şəkildə ala bilərik.

Həmçinin bu vəzifə üzrə maarifləndirmə yanaşmasına əsaslanmaq da vacibdir; bütün fərdlər ətrafında olan fərqlilik elementlərini təbii olaraq öz  şəxsi keyfiyyətlərinə əlavə edir. ‘Daxili müxtəliflik’ (fərdin müxtəlifliyi) amilindən xəbərdar olmaq real bir resursdur və müsbət mühitdə birlikdə yaşamağa, həqiqətən də, kömək edir.

*Hətta ilk baxışdan fərqlilikləri sezə bildiyimiz, lakin əslində bəzən bizə bənzəyən ‘digər biri’ ilə qarşılaşmağımıza həvəsləndirən alətlər bələdçinin bu bölməsində təqdim edilir... Təklif olunan tapşırıqlar imtina hisslərini arxada qoymaq, mədəniyyətlərarası əlaqələri və onun gətirdiyi əlavə dəyəri qəbul etmək məqsədi ilə stereotiplərin və ayrı-seçkiliyin arxasında dayanan prosesləri daha yaxşı başa düşməyimizə imkan verir.*

HAMIMIZ İNSANIQ



## 2.1. Bizə bənzəməyənlərlə qarşılaşmaq: oxşar və fərqli cəhətlərin dəyərləndirilməsi




**Özümü tanıyandan bəri hər kəsin bir fərd olduğunu qəbul etmişəm, həm fərqli, həm də oxşar cəhətləri görə bilmişəm.**

Aşağıdakı tapşırıqlar imkan verəcək ki, yeni insanlarla görüşən zaman onlar tərəfindən qəbul edilmək hissinin yaranması üçün iştirakçılar spesifik məlumatlarla tanış olsun və bununla da, daha tolerant bir cəmiyyət formalaşsın.

## 2.1.1. QARŞILIQLI MÜNASİBƏTLƏR

***Məqsədlər***

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **İnsanlar arasında əlaqələrin qurulmasına yardım etmək.**
- **Xüsusilə də oxşar və fərqlilikləri bölüşmək, digərləri ilə əlaqələr qurmaq baxımından iştirakçılara düzgün münasibət qurmağı göstərmək.**

***Hədəf auditoriya***

**Yaşı 12-dən çox olan şəxslər.**

***Qrup həcmi***

**Minimum 5 nəfər.**

***Materiallar***

**Stullar: iştirakçıların ümumi sayından bir stul az.**

***Vaxt***

**20-30 dəqiqə.**

***Tapşırıq***

İştirakçı sayına görə bir stul az qoymaqla dairə yaradın.

İştirakçılar stulda əyləşir, yalnız bir nəfər (A) dairənin mərkəzində dayanır. Həmin şəxs özü barədə məlumat verir: xarakteristikası, hobbisi, istedadı, zövqü və s. Qrupda kimdəsə eyni xarakteristika olarsa, həmin şəxslər də ayağa qalxır. Həmin şəxslərdən biri öz stulunu A-ya verir, sonra özü haqqında məlumat verməyə başlayır. Bu, bir neçə dəfə təkrarlana bilər. Heç kəs ayağa qalxmasa, bir nəfər dəvət olunur və həmin şəxs özü barədə məlumat verir.

***Tapşırığın qiymətləndirilməsi***

Müzakirə üçün aşağıdakı suallardan istifadə etmək olar:

- Digər iştirakçılarla oxşarlıqlarınız çox oldu, yoxsa az? Bu, sizin tapşırıq zamanı keçirdiyiniz hisslərə nə kimi təsir göstərdi? Sizcə, digərləri ilə oxşarlıqların olması vacibdir?
- Qrupun digər üzvləri ilə hansı oxşarlıqlarınızı və ya əlaqələrinizi aşkarladınız?
- Heç kəs ayağa qalxmadıqda qrupda hansısa ‘unikal’ elementlər oldumu? Yaxud elə oldumu ki, şəxs ayağa qalxmalı halda, heç qalxmadı?
- Başqaları ilə oxşarlıqlarınızı və ya əlaqələrinizi aşkar etdiyiniz hər hansı şəxsi təcrübəniz olubmu? Yeni birisi ilə görüşərkən oxşarlıqlara və fərqliliklərə diqqət edirsinizmi?
- Hansı oxşarlıqlar və ya bağlantılar səthidir?
- Hansı oxşarlıqlar sizin dəyərlərlə və ya vacib saydığınız nəsnələrlə əlaqəlidir?
- Hər kəs eyni olsaydı, dünya nəyə bənzəyərdi? Bəs hər kəs fərqli olsaydı, dünya nəyə bənzəyərdi?

***Tövsiyələr***

İştirakçıların çoxsaylı oxşarlıqlara malik olub-olmadığından asılı olmayaraq, onlarla bərabər şəkildə davranın. Düzgün ifadələr tapmaqda çətinlik çəkərsə, aşağıdakı kimi yardım edə bilərsiniz:

| | |
|---|---|
| *- Oğlanam\qızam* | *- Mənim ... yaşım var* |
| *- Saç rəngim ...* | *- ... qardaş və ... bacım var* |
| *- Azarkeşəm (futbol\reqbi klubu)...* | *- Mən ... ev heyvanı saxlayıram* |
| *- Mən ... yaxşı bacarıram* | *- Gecələr adətən ... saat yatıram* |
| *- ... xoşlayıram* | *- Küçəyə heç vaxt zibil atmıram* |
| *- Mən ...filankəsəm* | *- Yalnız\qrupda olmağa üstünlük verirəm* |
| *- Mənim ... varımdır* | *- Siqaret çəkmirəm* |
| *- Mən ... yeməyi sevirəm* | *- Mən vegetarianam* |
| *- Bir dəfə elə oldu ki, ...* | *- Müntəzəm şəkildə dua edirəm* |
| *- ... dinləməyi\baxmağı sevirəm* | *- Çöldə vaxt keçirməyi sevirəm* |
| *- Mən adətən ... gedirəm* | |

***Dəyişənlər***

- İştirakçılar hər dəfə yer dəyişdikdə adları fərqli rənglərlə göstərməklə hər hansı əlaqələri\oxşarlıqları kağız üzərində qeyd edin. Bununla da bütün iştirakçıların bir-biri ilə bağlantısının qurulduğu bir növ hörümçək toru yaranacaq (sosioqram).
- Bir nəfəri mərkəzə dəvət etmək əvəzinə, sıra ilə bir nəfəri çağıra bilərsiniz. Həmin şəxs stulda oturub özü barədə məlumat verə bilər. Kimdəsə eyni xarakteristika olarsa, həmin şəxs yaxınlaşır və danışanın dizi üstündə oturur. Sonra başqa biri dəvət olunur və o, özü haqqında danışır. Birinci iştirakçı yerini dəyişirsə, onun dizi üstündə olan şəxs də yerini dəyişməlidir.
- Nəhayət, iştirakçılar kiçik qruplar şəklində toplanır. Həmin qrupda mümkün olduğu qədər çox oxşarlıqları və əlaqələri yazmaq üçün onlara 2 dəqiqə verilir. Onlar həmçinin hansısa daha spesifik bir xarakteristikanı da yaza bilər (məsələn, hər kəsin sevdiyi yemək).

*Mənbə*

www.bounce-resilience-tools.eu ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

*Əlavə məlumat üçün:*

Contact: bounce-support@ibz.fgov.be.

Avropa İttifaqının Cinayətlə Mübarizə və
onun qarşısının alınması üzrə proqramı
çərçivəsində birgə maliyyələşdirilmişdir.

# 2.1.2. NAHARDA QONAĞIMIZ OLACAQ

***Məqsədlər***

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Fərqli mədəniyyət və fərqli sosial mənşəyə malik olan şəxslər barədə ailələrimizdən bizə ötürülən mesajları təhlil etmək.**
- **Həmin mesajlar arxasında dayanan dəyərləri təhlil etmək.**
- **Cəmiyyət dəyərlərinin ötürülməsində ailənin rolundan xəbərdar olmaq.**

***Hədəf auditoriya***

**14-18 yaş.**

***Qrup həcmi***

**15-25 nəfər.**

***Material***

**Rol kartları (tapşırıq üçün material).**

**Kağız və qələm.**

***Vaxt***

**45 dəqiqə.**

***Hazırlıq***

- 4 aktyor üçün rol kartı hazırlayın.
- 4 müşahidəçi üçün kağız və qələm hazırlayın.

***Tapşırıq***

- Qrupa izah edin ki, bu, digər sosial və mədəni mənşəyə aid olan insanlar barədə düşüncələrin ötürülməsində ailənin rolunu araşdırmaq üçün rollu oyundur.
- Rolu oynayacaq 4 nəfər könüllü (yaxşı olardı ki, iki qız, iki oğlan olsun) və xüsusi müşahidəçi qismində əlavə 4 nəfər seçilir. Qrupun digər üzvləri isə, ümumi müşahidəçilər olur.
- Hər bir xüsusi müşahidəçiyə tapşırın ki, rolu oynayanlardan birinə baxsın və onların istifadə etdiyi bütün ifadələri qeydə alsın. Hansı müşahidəçinin hansı oyunçuya baxacağına dair qərar verin.
- Hər bir oyunçuya bir rol kartı təqdim edin və rola girməsi üçün onlara 2-3 dəqiqə vaxt verin.
- Səhnəni hazırlayın: 4 stulu yarımdairə şəklində düzün və hər kəsə izah edin ki, bu, evin böyük otağıdır və bir azdan ailə müzakirəsinə baxacaqlar. Rollu oyuna başlamaq üçün işarə verin - məsələn, əl çalın.
- Gedişatdan asılı olaraq, rollu oyunun nə qədər müddətdə davam edəcəyinə siz qərar verin. 15 dəqiqə davam etməsi yaxşı olardı. Oyunun yekunlaşdığını bildirmək üçün konkret işarə verin.

***Tapşırığın qiymətləndirilməsi***

Oyunçuların nə hisslər keçirdiyini soruşaraq qiymətləndirməyə start verin.

Sonra digərlərini inandırmaq üçün hər bir oyunçunun istifadə etdiyi ifadələrin hər bir müşahidəçi tərəfindən oxunmasına imkan verin.

Hər kəslə ümumi müzakirəni davam etdirin. Aşağıdakıları soruşa bilərsiniz:

- İstifadə edilən sözlər öz ailənizdə eşitdiklərinizə bənzəyirdimi?
- Oğlanın dərisinin rəngi qara olmaq əvəzinə, qızla eyni dəri rənginə malik olsaydı, hər hansı fərq edərdimi?

- Qızın evə oğlan dostunu yox, oğlanın öz qız dostunu evə gətirməsi arasında hansısa fərq varmı?
- Bir qız digər bir qızla münasibət qurduğunu desə, nə baş verərdi?
- Bəs oğlan öz oğlan dostunun olduğunu bildirsə?
- Sizcə, bu cür məsələlər bugünkü günümüzdə hələ də aktualdır, yoxsa artıq keçmişdə qalıb?
- Sizin başınıza belə hadisə gəlibmi, yaxud oxşar problemlə qarşılaşmış hər hansı bir tanışınız varmı?

***Tövsiyələr***

Bu tapşırıq iştirakçıların mədəni və sosial mənsubluğuna uyğun olaraq asanlıqla dəyişdirilə bilər. Rolların həddən artıq göstərişverici olduğunu və ya sizin mədəni-sosial dəyərlərinizlə heç bir əlaqəsinin olmadığını hesab edirsinizsə, öz mədəniyyətinizlə əlaqədar ailənizə xas olan dörd ümumi davranışa işarə edərək özünüzün rol kartlarınızı hazırlaya bilərsiniz.

*Mənbə*

Avropa Şurası - Təhsil Paketi “hər kəs fərqlidir - hər kəs bərabərdir”, Gənclər və İdman Direktoratlığı, Avropa Şurası, 2-ci nəşr, 2004.

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Tapşırıq üçün material: **rol kartları**

## Kart 1: gənc qadın

Ailənizlə görüşüb qaradərili bir oğlanla birlikdə yaşamaq istədiyinizi onlara bildirirsiniz. Rollu oyuna başlayın. Qaradərili bir oğlanla yaşamaq istədiyiniz barədə ailənizi məlumatlandırırsınız. Verdiyiniz bu qərarı müdafiə etməyə çalışın və bildirin ki, gənclər, xüsusilə də fərqli mənşələrdən olan gənclər arasındakı münasibətlərə qarşı çıxanlarla mübarizə aparmağa hazırsınız.

## Kart 2: ana

Qızınızın çox yaxın münasibətdə olduğu qaradərili oğlan dostu var. Qızınızı çox sevirsiniz, lakin onun bu addımını heç cürə başa düşmürsünüz. Həyat yoldaşınızı hər bir qərarında dəstəkləyirsiniz. Qızınızı hürkütmürsünüz, əksinə, onun sizə qarşı etdiyi bu cür hərəkətə görə heyfsilənirsiniz. Sizə elə gəlir ki, qaradərili oğlan qızınızı tərk edəcək və qızınız çox əziyyət çəkəcək.

## Kart 3: böyük qardaş

Bacınızın çox yaxın münasibətdə olduğu qaradərili oğlan dostu var. Əslində bacınızın qaradərili oğlanla görüşüb-görüşməməyi sizə elə də maraqlı deyil və siz insanların şəxsi münasibətlərdə müstəqil qərar vermək hüququnu müdafiə edirsiniz. Buna baxmayaraq, ananız sizə deyəndə ki, həmin oğlan bacınızı tərk edə bilər, siz o oğlanın bacınızdan istifadə etdiyini düşünməyə başlayırsınız. Narahat olduğunuzu göstərir və bacınızı qorumaq istəyirsiniz.

## Kart 4: ata

Qızınızın çox yaxın münasibətə doğru getdiyi qaradərili oğlan dostu var. Ailədəki əsas qərarı siz verirsiniz və qızınızın bu cür münasibətini qəbul etmirsiniz. Siz əxlaqi dəyərləri təmsil edir və başqa insanların nə düşünəcəklərini fikirləşirsiniz. Özünüzü irqçi hesab etmirsiniz, lakin öz qızınızın qaradərili bir oğlanla görüşməyi tamam başqa bir şeydir. Sərt ata obrazına girin və mübahisə etməyə başlayın.

# 2.2. Stereotiplər və qərəzlər




**Stereotip və qərəz "refleksi"ndən qurtulmaq mümkün deyil, çünki beynimiz boşluqları doldurmaq üçün tanış məfhumlar axtarışındadır, kontenti avtomatik yaradır! Bunun bir həll yolu var: sınaqdan keçirməklə bunun necə işlədiyini bilmək...**

'Başqa'sı ilə görüşmək və onu həqiqətən də, başa düşmək, nəticədə, bizim şəxsiyyətimizi formalaşdıran oxşar və fərqlilikləri qəbul etməyimizə imkan verməyən məsələləri aradan qaldırmaq məqsədi ilə aşağıdakı tapşırıqlar stereotip xarakterli davranışımızı başa düşməkdə bizə yardım edəcək.

# 2.2.1. STEREOTİPLƏR, QƏRƏZ VƏ AYRI-SEÇKİLİK

***Məqsədlər***

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Qərəz, stereotip və ayrı-seçkilik arasındakı fərqləri vurğulamaq.**
- **Bu anlayışlar haqqında müzakirə və debat.**

***Hədəf auditoriya***

**12-15 yaş.**

***Qrup həcmi***

**5-10 nəfər.**

***Materiallar***

- **'Stereotiplər', 'qərəz' və 'ayrı-seçkilik' sözlərinin yazıldığı üç qutu və içərisində 18 top olan dördüncü qutu (yaxud ifadələrin yerləşdirilə biləcəyi başqa bir əşya).**
- **Qərəzə aid cümlələr olan altı top; stereotipə aid altı, ayrı-seçkiliyə aid əlavə altı top.**
- **Stol-stul.**

***Vaxt***

**Təxminən 30 dəqiqə.**

***Hazırlıq***

Topların içinə qoymaq üçün ifadələri hazırlayın.
3 qutu ayırın (stereotip, qərəz və ayrı-seçkilik).
Təsnifatlandırılacaq cümlələrin olduğu top qutusunu 3 'anlayış' qutusunun qarşısına qoyun.

***Tapşırıq***

- İştirakçılar qarşınızda yarımdairə formasında düzülür.
- İştirakçıların hər biri bir top götürüb oradakı cümləni ucadan oxuyur.
- Sonra iştirakçılar həmin cümlənin mənasına ən yaxın olan qutunu seçib ora qoyurlar.
- İştirakçılar topun hansı qutuya qoyulacağından əmin deyillərsə, onda onlara bildirin ki, digər iştirakçılardan kömək istəyə bilərlər.

Nümunə cümlələr:

Stereotiplər:

- Kişilər qadınlardan daha cəsarətlidirlər.
- Qadınlar kişilərdən daha həssasdır.
- Homoseksuallar qadına bənzəyir.
- Qadınlar maşın sürməyi bacarmır.
- Müsəlmanlar terroristdir.
- Yoxsullar tənbəldir.

Qərəz:

- Böyüklər uşaqlardan üstündür.
- Zənginlər yoxsullardan üstündür.
- Kişilər qadınlardan üstündür.
- Hündür biri alçaq boylu birindən daha güclüdür.

- Gənclər qanunları pozmağa meyllidir.
- Gənclər narkotik aludəçisidir.

Ayrı-seçkilik

- Qadın soyadına görə iş müsahibəsinə çağırılmır.
- Qadın hicablı olduğuna görə ondan müsahibə götürülmür.
- Kişi qadının dərisinin rənginə görə onun yanında oturmaq istəmir.
- İşçi (əcnəbi) işlədiyi şirkətdə oğurluq etdiyinə görə səhvən günahlandırılır.
- Ev sahibi hamilə qadına kirayə ev verməyi qadağan edir.
- Sağlamlıq məhdudiyyətləri olan uşaq ənənəvi məktəbdə təhsil almağa buraxılmır.
- İşəgötürmə prosesi zamanı sağlamlıq imkanları məhdud şəxslərə üstünlük verilir (müsbət xarakterli ayrı-seçkilik).

*Mənbə*

Fédération de Centres d'Information et de Documentation pour Jeunes (CIDJ Belgique) et Infor Jeunes Bruxelles, 2017

*Əlavə məlumat üçün:*

www.cidj.be et www.inforjeunesbruxelles.be

# 2.2.2. STEREOTİPLƏR 1-2-3

**Məqsədlər**

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Stereotipin nə olduğunu müəyyənləşdirmək.**
- **Stereotiplərlə əlaqədar tənqidi təfəkkürü formalaşdırmaq.**
- **Bu mövzunun əhəmiyyətini vurğulamaq (ümumiləşdirmələr aparmaqla reallıqların kataloqlaşdırılması, təsnifatlanması və sadələşdirilməsi).**
- **Stereotiplərin məhdudlaşdırıcı və qadağanedici aspektlərini nəzərdən keçirmək (stereotiplər onların tərəfdarları, habelə son nəticədə təsir etdikləri şəxslər üçün reallığı təhrif edir, müsbət və mənfi hisslər yaradır).**

**Hədəf auditoriya**

**12-18 yaş.**

**Qrup həcmi**

**15-25 nəfər.**

**Materiallar**

- **İki fərqli işıqla fərqli ölkələri təmsil edən şəkillər toplusu (təlimçi tərəfindən hazırlanır).**
- **Tapşırıq materialının fotosurətləri 2-ci hissə üçün nəzərdə tutulur.**

**Vaxt**

**Təxminən 2 saat.**

***Hazırlıq***

- Fərqli ölkələri təmsil edən şəkillər toplusunu hazırlayın. Hər bir ölkə iki fərqli işıqla göstərilməlidir, hətta bir-birinə zidd fikirlər olmalıdır (məsələn, ölkənin ictimai fikri və gizli reallıq). Yerin adını göstərən istənilən yazı kənarlaşdırılmalıdır.
- İştirakçılara tapşıra bilərsiniz ki, özləri ilə bir neçə şəkil gətirsin və onlarla işləsinlər.
- "Müsbət" şəkillər üçün A, "mənfi"lər üçün isə, B hərfindən istifadə edin.

***Tapşırıq***

1-ci hissə: "Stereotip, fikrin ifadəsi"

- 3-5 nəfərlik kiçik qruplar yaradın, hər bir qrupa A və B şəkillərini paylayın.
- Tapşırıq oyun şəklində yerinə yetirilir. Kiçik qruplar hər iki şəklin (A və B) hansı ölkəni təmsil etdiyini tapmalıdır.
- Hər bir qrupun bir iştirakçısından xahiş edin ki, A şəklini qrupa təqdim etsin. Qrupun digər üzvləri isə, təmsil olunan ölkələri, ilk növbədə, fərdi şəkildə tapmalı, daha sonra cavabı yazmalı, ən sonda isə, qrupu ilə birlikdə fikirləşərək tapmalıdır. Digər iştirakçı eyni tapşırığı B şəkli ilə yerinə yetirir.
- Bütün iştirakçılara bildirin ki, stolun başına yığışıb şəkillərə baxsınlar və aidiyyəti tapşırığın əsas məqamlarını müzakirə etsinlər.
- Hər bir qrupun bir iştirakçısından onların nəyi necə tapdığını soruşun.
- Sonra həmin iştirakçı cavab versin.
- Stereotiplər anlayışı ilə bağlı qrupun münasibətini öyrənin (stereotiplər bizə dünyanı başa düşməyə kömək etsə də, məsələləri çox məhdudlaşdıra da bilər). Səyahət agentliklərinin stereotiplərdən necə

yararlandığına baxmaq olar. Məsələn, arzunun reallaşdırılması, macəra, ekzotizm, kəşf və ya mənzərə dəyişikliyi.

- Qrupdan asılı olaraq, məsələn, kimsə səyahət edibsə, yaxud başqa bir ölkədə yaşayıbsa, həmin şəkilləri real həyat təcrübələri ilə müqayisə etmək də olar. Həmçinin fərqli stereotiplərin eyni ölkəni necə təmsil etdiyini də vurğulamaq maraqlı məqam olardı.
- Nəhayət, qrupa tapşırın ki, stereotipin tərifini versinlər. Bu tərif tapşırıq prosesi davam etdikcə düzəliş edilə bilən sadəcə bir versiya da ola bilər.

2-ci hissə: “Stereotip - müsbət, yoxsa mənfi?”

- İfadələrin yazıldığı vərəqləri paylayın (tapşırıq üçün material). Sonra hər bir iştirakçı 1-ci bəndi fərdi şəkildə doldurmalıdır.
- 4-5 nəfərlik kiçik qruplar yaradıb iştirakçılardan xahiş edin ki, özlərinin fərdi işlərini bir araya gətirərək yazdıqlarının ümumi təhlilini versinlər. Hər bir kiçik qrupun reaksiyalarını qeydə alın. Müsbət və mənfi cümlələrin tarazlığına diqqət etmək də maraqlı olardı. Böyük ehtimalla, mənfi cümlələr çoxluq təşkil edəcək.
- İştirakçıları iki-iki qruplaşdırın, hər iki iştirakçı eyni kiçik qrup üzvü olmamalıdır. İki nəfərlik qrup şəklində hər bir iştirakçı müsbət və ya mənfi reaksiyaya səbəb olan bir cümlə seçməlidir. Cütlüklər bir-birinin fikrini müqayisə edə bilər.
- Bütünlükdə qrupla bir daha işləyin:
  - Hər bir qrupun faiz göstəricilərinə baxmaqla, müsbət-mənfi tarazlığını və onun səbəblərini nəzərə alın. Həmçinin tapşırığın bir hissəsi kimi şəxsiyyət və özünəinam kimi məsələlərə də diqqət yetirə bilərsiniz.
  - Bir daha stereotipin mahiyyətinə geri qayıdın və bununla bağlı iştirakçıların tənqidi fikir bildirməsinə nail olun.
- Bir qrup olaraq stereotipin ilkin tərifini qiymətləndirin və nəyinsə dəyişməli olub-olmadığına dair qərar verin.

3-cü hissə: Stereotip - dünyaya məhdud çərçivədə və birtərəfli baxmaq

- Öz dilinizdəki və digər dillərdəki idiom və ya sabit söz birləşmələrinə nəzər yetirin. Mümkün olarsa, qrupun fərqliliyindən faydalanın və əhatənizi daha da genişləndirin.
- İştirakçılara tapşırın ki, müxtəlif millətlər haqqında öz dilinizdəki stereotipik sabit söz birləşmələrini desinlər. Məsələn, ‘türk kimi siqaret çəkmək’ - bəzi ölkələrdə çox siqaret çəkən insana deyilir.
- Onu da vurğulayın ki, belə birləşmələr insanları spesifik coğrafi mənsubiyyətlə əlaqələndirmək məqsədini daşımır, əksinə, mübaliğə və ya karikatura kimi işlədilir.
- Bildirin ki, bu birləşmələr bəzən mənasız ola, heç bir reallığı əks etdirməyə bilər.
- İştirakçılar fərqli dillərdə eyni millətə aid olan elə ifadələr səsləndirə bilər ki, həmin millətin tamamilə əksi olsun.
- Nəhayət, bildirin ki, həmin birləşmələr bir-birindən uzaq olan insanların/ölkələrin əksəriyyətinin dillərində mövcud olur. Həmin birləşmələr adətən “vaxta qənaət” etmək üçün müəyyən reallığı kateqoriyalaşdırır. Aşağıda bir neçə nümunə veririk, öz kontekstinizə uyğun olaraq əlavələrinizi edə bilərsiniz.
  - Fransız dilində “ingilis kimi tərk etmək” “tədbirli olmaq” deməkdir, eyni məna ispan dilində “fransız kimi tərk etmək” birləşməsi ilə ifadə olunur.
  - Braziliyalıların fikrincə, portuqaliyalılarda təxəyyül və bacarıq olmur. Belə bir fikir belçikalılar

təərəfindən fransızlar və hollandlar haqqında deyilir (“blagues belges”).

- Fransız dilində “polşalılar kimi içmək” cümləsi ingilis dilindəki “holland hünəri” ilə eyni mənaya gəlir.
- Ruandalılar yalançı insanları “Zairdən gələn yalançılar” adlandırır. Fransızlar isə, ruandalıları hiyləgər adlandırır.

- Onu da qeyd etmək lazımdır ki, bu stereotiplər çox spesifik bir nəzər nöqtəsini ifadə edir; heç də bütün portuqaliyalılar bu stereotip qəlibinin içinə girmir, eynilə də heç də bir braziliyalı bu stereotipin həqiqəti bildirdiyini düşünmür.

***Dəyişən***

İştirakçılara stereotiplərin mənfi tərəfini (məsələn, məhdudlaşdırıcı, etiket, mühakimə, sadələşdirmə) göstərən şəkillər, kollajlar və ya incəsənət nümunələrini hazırlamağı tapşırmaqla onlarda kreativlik hissinin formalaşmasına çalışın.

***Mənbə***

Centre d’information et de documentation pour jeunes (CIDJ Belgique), Racismes et discriminations. Fiches pédagogiques, Bruxelles, 2006, www.cidj.bewp-content/uploads/2014/01/animations.pdf.

cidj
info jeunesse

## Tapşırıq üçün material: **Fərdi anket (2-ci hissə üçün)**

**1. Aşağıdakı cümlələri tamamlayın:**

- Belçikalılar ____________________
- İngilislər ____________________
- Polşalılar ____________________
- İspaniyalılar ____________________
- Fransızlar ____________________
- Əcnəbilər ____________________
- Qızlar ____________________
- Oğlanlar ____________________
- Fəhlələr ____________________
- Müəllimlər... ____________________

2. (Şifahi çalışma) Qrupun digər üzvlərinin fikirlərini dinləyin:

Təkliflər:

____________________

____________________

**3. Hesablama**

| | Fərdi mətn üzrə | | Bütünlükdə qrup üzrə | |
|---|---|---|---|---|
| Müsbət sözlərin sayı | | % | | % |
| Mənfi sözlərin sayı | | % | | % |

4. Müsbət və mənfi sözlər arasındakı tarazlığı necə izah edərdiniz (öz mətniniz/qrup üzrə)?

____________________

____________________

____________________

5. «Stereotip»in əvvəl düşündüyünüz tərifinə düzəliş etmək istərdinizmi? Sizcə, hansı aspektlər dəyişdirilməlidir? Hansı əlavələri etmək istərdiniz?

____________________

____________________

# 2.3. Ayrı-seçkilik




**Ayrı-seçkilik qanunazidd olmaqdan əlavə, fərdlər qrupunu həssaslaşdıraraq və onları özlərini aid hiss edə biləcəkləri yeni yerləri axtarmağa təhrik edərək insanların təcrid olunmasına gətirib çıxarır. Bununla da zorakı ekstremizm və təqib əməllərini həyata keçirən təşkilatlanmş strukturlar həmin həssas şəxsləri "qamarlayır". Bunun baş verməsinin qarşısını almaq üçün yenə də maarifləndirmə aparmalı və məlumatlandırmalıyıq!**

Əvvəlki səhifələrdə real həyat problemlərinə dair informasiyanı təqdim edərək, iştirakçılara ayrı-seçkilik təcrübələrini yaşamağa imkan verən tapşırıqlar öz əksini tapıb.

# 2.3.1. DÜZGÜN DAVRANIŞ

**Məqsədlər**

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Ayrı-seçkilik və ədalətsizlik hisslərinin mənfi emosiyalara necə gətirib çıxardığını təhlil etmək.**
- **İştirakçıların həmin emosiyaları yaşamağına nail olmaq.**
- **Emosiyaların fiziki duyğusuna dair fikir yürütmək.**
- **Emosiyaların büruzə verilməsinə nəzarət barədə fikir yürütmək.**
- **Təcridolunma, ayrı-seçkilik və ədalətsiz davranış haqqında fikir mübadiləsi aparmaq.**

**Hədəf auditoriya**

**Bütün yaş qrupları.**

**Qrup həcmi**

**8-15 nəfər.**

**Materiallar**

- **Bəxşiş: kiçik hədiyyələr (məsələn: konfet)**
- **Asan Sudoku (tapşırıq üçün 1-ci material)**
- **Qəliz Sudoku (tapşırıq üçün 2-ci material)**
- **Qrupun yarısı üçün stol və stullar**

**Vaxt**

**Təxminən 45 dəqiqə.**

***Hazırlıq***

Qrupun yarısı üçün otağın mərkəzinə stol və stullar düzün.

***Tapşırıq***

- Dairə yaradın.
- İştirakçıların yarısını qeyd edin (məsələn, əllərindəki simvol ilə).
- Əlində heç bir işarə olmayan iştirakçılara şirniyyat verilir, digərlərinə isə yox. Hansısa iştirakçı onlara niyə görə şirniyyatın verilmədiyini soruşarsa, yaxud iki qrupa qarşı digər fərqli davranışlarla bağlı sorğu-suala tutarsa, bu zaman belə bir cavab verilməlidir: "Çünki sizin əlinizdə işarə yoxdur" və ya "Onların əlində işarə var".
- "İşarələnməyən" qrup stol ətrafına yığışa bilər. Bu zaman onlara həlli yolu izah edilən və A3 formatlı sadə Sudoku verilir. Onlara şirniyyat verilir. Dərhal Sudokunun həllinə başlaya bilərlər.
- Müəyyən vaxtdan sonra işarələnən qrupa əlavə izahı olmayan, A5 formatlı, daha qəliz Sudoku verilir. Onlara şirniyyat verilmir. Həmçinin otağın bir küncündə döşəmədə oturub Sudokunu həll etməlidir.
- Birinci qrup Sudokunu həll edir, onu sizə təqdim edir və əlavə şirniyyatlar götürür.

***Tapşırığın qiymətləndirilməsi***

İştirakçılardan aşağıdakı sualları soruşun:

- Sizin üçün müsbət təcrübə oldu, yoxsa mənfi?
- Müsbət, yoxsa mənfi emosiyalara büründünüz? Emosiyalarınız zahirən gözə çarpdımı? Belə emosiyanın əsas səbəbi nə oldu? Hansı emosiyaları yaşadınız? Həmin emosiyaları dilə gətirə bilərsinizmi? Digərlərinin emosiyalarını necə, görə bildinizmi? Bu emosiyaları idarə edə bildinizmi?
- Gündəlik həyatda yaşadığınız mənfi emosiyalara necə reaksiya verirsiniz (məsələn, ümidsizlik hissi,

təcridolunma, ayrı-seçkilik)?

- İki qrup bir-biri ilə necə davrandı? Müəyyən dərəcədə qütbləşmə oldumu? Qruplar arasında qütbləşmə yaşandımı? İştirakçılar ayrı-seçkilik, stiqmatizasiya, rasizmlə bağlı öz təcrübələrini paylaşa, bu kimi halların gətirdiyi hissləri və reaksiyaları müzakirə edə bilər.

***Tövsiyələr***

- Bu çalışmanın məqsədi odur ki, iştirakçıların əsaslı bir səbəb olmadan qeyri-bərabər davranışla qarşılaşması üçün şərait yaradılsın ("çünki əlinizdə işarə var/yoxdur").
- Tapşırıq zamanı hansısa qəzəbli çıxışların olmasına yol verməyin, bu, qrupun dinamikasına təsir edə bilər. Kimsə sərt reaksiya verərsə, əsas qaydalar barədə xatırlatma edin (qarşılıqlı hörmət, dinləmə və empatiya). Hər bir kəsə fikrini ifadə etməyə şərait yaradın və onları başa düşdüyünüzü bildirin.

***Dəyişənlər***

- Sudokunu daha fəal bir oyunla əvəzləmək olar (məsələn: fərqli materiallarla müəyyən bir model qurmaq, "işarələnməyən" qrupu materialların keyfiyyət və kəmiyyəti baxımından məhdud seçim qarşısında qoymaq).
- İştirakçılar ədalətsizliyə heç bir reaksiya verməsələr, yaxud o qədər də ciddiyə almasalar (çünki sizi artıq tanıyırlar və sizin "ədəbsiz" olduğunuza inanmırlar), tapşırığı idarə etmək üçün kənar bir şəxsi - "ekspert"i dəvət edə bilərsiniz.
- İki qrupu fərqləndirmək üçün markerdən istifadə etmək mütləq deyil. "Solaxay/sağaxay", "mavi gözlü/qəhvəyi gözlü" və s. kimi fərqli keyfiyyətlərdən istifadə edə bilərsiniz. İki qrupdakı iştirakçı sayının eyni olmağı vacib deyil. Mənfi münasibət görən qrupda iştirakçı sayı azdırsa, ədalətsizlik hissi onlarda daha güclü olacaq.

**Mənbə**

**www.bounce-resilience-tools.eu ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.**

**Əlavə məlumat üçün:**

**Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be.**

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

Əlavə məlumat üçün:

«Mavi gözlü/qəhvəyi gözlü» - Ceyn Elliot tərəfindən təklif edilən çalışma, www.janeelliot.com

1-ci material: **Sadə Sudoku**

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 5 | 7 | 2 | 3 | | 4 | |
| | 4 | 7 | | | 9 | 1 | 2 | |
| | 2 | | | 4 | | | | |
| | 5 | | 8 | 1 | 6 | | | 3 |
| 4 | | 8 | 3 | | 7 | | 1 | 6 |
| 1 | | | 4 | 9 | 2 | | 5 | |
| | | | | | 8 | | 3 | |
| 9 | 3 | 4 | 5 | | | 8 | | 2 |
| | 8 | | 2 | 3 | | 9 | 7 | |

2-ci material: **Qəliz Sudoku**

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 5 | | | 3 | | 4 | |
| | | 7 | | | 9 | 1 | 2 | |
| | 2 | | | | | | | |
| | 5 | | 8 | 1 | 6 | | | 3 |
| 4 | | | 3 | | 7 | | | 6 |
| 1 | | | 4 | 9 | 2 | | 5 | |
| | | | | | | | 3 | |
| | 3 | 4 | 5 | | | 8 | | |
| | 8 | | 2 | | | 9 | | |

# 2.3.2. DAİRƏ

Məqsədlər

**Bu tapşırığın vəzifəsi aşağıda göstərilən məqsədlər naminə iştirakçıların qəliz sosial vəziyyət və təcridolunma hisslərini keçirməsinə nail olmaqdır:**

- **İnsanların təcrid olunduğu halları nəzərdən keçirmək və ayrı-ayrı insanları təcrid etdiyimiz prinsipləri sorğulamaq.**
- **Qəliz sosial vəziyyətlərdə öz davranışından xəbərdar olmaq (münasibət, hisslər, reaksiyalar).**
- **Qəliz sosial vəziyyətlər üçün fərqli idarəetmə texnikalarını sınaqdan keçirmək və həmin halların idarə edilməsi üçün alternativ vasitələrdən məlumatlı olmaq.**
- **İnsanların qrup tərəfindən qəbul olunduğu halları təhlil etmək.**
- **Qrup çərçivəsində özünü rahat hiss etmək üçün zəruri şərtləri nəzərdən keçirmək.**
- **Qrupun bir üzvü olaraq sınaqdan keçmək.**
- **Qəliz sosial vəziyyətlərdə özünəinamı formalaşdırmaq.**

**Hədəf auditoriya**

**Bu tapşırıqda iştirak etmək üçün fərdlər müəyyən yetkinlik səviyyəsinə çatmalıdır, çünki tapşırığın icrası zamanı iştirakçılar asanlıqla məyus ola bilər. Yaşı 16 və daha çox olan şəxslərin bu tapşırıqda iştirakını tövsiyə edərdik.**

**Qrup həcmi**

**Minimum 6 nəfər.**

**Materiallar**

**Kağız və qələm.**

**Vaxt**

**Təxminən 1 saat.**

**Təlimçidən tələb olunan bacarıqlar/biliklər**

**Ünsiyyət bacarıqları və münaqişələrin idarə edilməsi prosesini başa düşmək (bax: Bölmə 3).**

***Tapşırıq***

- Qrup “yad insan”ı təyin edir.
- Qrupun digər üzvləri keçilməz dairə yaradır.
- Qrupa izah edin ki, yad insan dairəyə girməyə, digərləri isə, onu dayandırmağa çalışmalıdır.
- Yad insanın dairəyə girib-girməməyindən asılı olmayaraq, təxminən 2-3 dəqiqə sonra başqa bir iştirakçı “yad insan” obrazına girir.
- Bütün iştirakçılar dairəyə girməyə çalışdıqdan sonra bu tapşırıq yekunlaşır.
- Sosial hallarda özünü rahat hiss etməsi üçün lazım olan, ozünü narahat hiss etməyinə və utanmağına səbəb olan məsələlər barədə yazmağı iştirakçılara tapşırın. Qrup daxilində sizin özünüzün rahatlığınız və narahatlığınıza səbəb olan məsələlərə dair nümunələr göstərməklə start verə bilərsiniz.
- Müzakirə: tapşırığı və nə hisslər keçirdiyini müzakirə etmək üçün bütün iştirakçıları bir araya gətirin.
- Aşağıdakıları soruşa bilərsiniz:
  - Dairənin bir hissəsi olduqda nə hisslər keçirdiniz?
  - Yad insan obrazında olarkən hansı hisslər keçirdiniz?

- Dairəyə girməyə müvəffəq olan şəxslərlə müqayisədə müvəffəq olmayanlar hansı hisslər keçirib?
- Dairəyə girə bilmək üçün yad insanlar nə etdi? Ən effektiv strategiyalar hansı oldu?
- Yad insanlardan hansısa biri dairəyə daxil olmağı xahiş etdimi? İşə yaradımı?
- Dairədəki iştirakçılar yadların dairəyə daxil olmasının qarşısını almaq üçün hansı strategiyaları işə saldılar?
- Yad insanlar hansı məqamda təslim oldular?
- Onların hərəkətindən təəccüblənən iştirakçılar oldumu? Öz davranışımızdan nə öyrənə bilərik?
- Müəyyən bir qrupun üzvü olmaq istədiyiniz, lakin bunun çətin, hətta qeyri-mümkün olduğu gündəlik hallar realda heç baş verirmi? Həmin hallarda necə davranırsınız?
- Qrupun üzvü olmaqla sanki tələyə düşmüsünüz hissini keçirdiyiniz gündəlik hallar olurmu? Həmin hallarda necə davranırsınız?
- Üzvü olduğunuz qrupun digərlərini çıx-daş etdiyini düşündüyünüz gündəlik hallar olurmu? Həmin hallarda necə davranırsınız?

***Dəyişən***

Bu tapşırığın məğzi odur ki, özümüzə hörmət olunduğunu hiss etdikdə, öz ehtiyaclarımız, qorxularımız, nöqsanlarımız və məhdudiyyətlərimizə hörmət olunduğunu hiss etdikdə digər şəxslərə də hörmət etmək daha asan olur.

Bu tapşırığı fərqləndirən məsələ iki yad insanın seçilməsidir: onlardan biri dairənin kənarında dayanır və içəri keçməyə çalışır, digəri isə dairənin içərisində dayanır və oradan çıxmaq istəyir...

Mənbələr

Conseil de l’Europe, Tous différents — tous égaux. Kit pédagogique, Centre européen de la jeunesse, Strasbourg, 1995.

Centre d’Information et de Documentation pour Jeunes (CIDJ Belgique), Mes tissages de vie. Une réflexion sur les identités jeunes. Dossier pédagogique, Bruxelles, 2005.

www.bounce-resilience-tools.eu crée par le SPF Intérieur en collaboration avec l’ASBL Arktos.

Əlavə məlumat üçün:

Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be.

COUNCIL OF EUROPE
CONSEIL DE L’EUROPE

cidj info jeunesse

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

## 2.3.3. MƏZLUM

**Məqsədlər**

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Vəziyyəti nəzərdən keçirmək üçün fərqli vasitələri təhlil etmək (subyektiv/obyektiv vəziyyət).**
- **Qrupun təcrid etdiyi şəxslərə nəzər yetirərək onların seçiminin səbəblərini aşkara çıxarmaq.**
- **Səhnəciyi oynamaqla fərdlərin təcrid olunmağına qarşı mübarizə aparmaq üçün həll yollarını axtarıb tapmaq.**

**Hədəf auditoriya**

**12-18 yaş.**

**Qrup həcmi**

**15-20 nəfər.**

**Materiallar**

- **3 şəkil, eyni iri şəklin bir hissəsi olaraq (bax: tapşırıq üçün material 1, 2 və 3).**
- **Əsas şəkil (bax: tapşırıq üçün material 4).**
- **Açar sözləri qeyd etmək üçün iri vərəqlər və markerlər.**
- **Açar sözlərin qoyulduğu masa (tapşırıq üçün material 5), rollu oyun üçün çərçivə və hər bir iştirakçı üçün təhlil (bax: tapşırıq üçün material 6 və 7).**

**Vaxt**

**1.5 saat.**

1-ci hissə

***Hazırlıq***

Qrupu üç hissəyə bölün. Yardımçı materialdan istifadə edərək: əyilən uşaq şəkli 1-ci qrupa, üç gənc şəkli 2-ci qrupa, ayaq üstə dayanan adam şəkli isə, 3-cü qrupa verilir.

***Tapşırıq***

- Hər bir iştirakçı şəkli bir neçə sözlə təsvir etməyə çalışaraq, həmin şəklə ən çox uyğun gələn 5 əsas sözü qeyd edir.
- İştirakçıların şəkildə təsvir olunan şəxsi/adamları tanımadığını nəzərə alaraq, ona ünvanlanan bir cümləni yazır.
- Qrupu bir araya gətirin. Masadakı hər bir şəklə aid müsbət, mənfi və ya neytral olmasından asılı olmayaraq açar sözlərini toplayın. Bunu siz etməlisiniz.
- Müşahidələrin təfsiri: şəkillərin eyni qaydada təfsir edilib-edilmədiyini görə biləcəksiniz, məsələn:
  - Hər üç şəkil üçün istifadə olunan açar sözlər eynidirmi?
  - Eyni deyilsə, iştirakçılar belə qeyri-tarazlığı izah edə bilirmi?

2-ci hissə

***Hazırlıq***

- İştirakçılar 5 nəfərlik qrupa bölünür.
- Tapşırıq materiallarından istifadə etməklə, növbəti rollu oyuna hazırlaşarkən əsas şəkli (fərdi şəkillərdən ibarət) və rollu oyun üçün yardımçı suallar toplusunu iştirakçılara paylayın.
- Sonra hər qrup şəklə baxıb sualları cavablandırmalıdır.

- Hər bir qrup üzvünün öz rolu olan 5 dəqiqəlik rollu oyun hazırlanır (diqqət! 5 dəqiqə kifayət qədər vaxt deməkdir).
- Qrup şəkli necə başa düşdüyünü nümayiş etdirməyi və vəziyyəti dəyişmək üçün müvafiq yollar təklif etməyi bacarmalıdır.
- Tapşırıq materiallarından istifadə edərək iştirakçılar rollu oyun üçün öz ssenarilərini seçməkdə sərbəstdir.

### *Tapşırıq*

- Hər bir qrup öz oyununu oynamalıdır (5 dəqiqə x qrupların sayı).
- Qalan iştirakçıların təfsir və reaksiyalarını qiymətləndirməyə vaxt ayırın:
  - İştirakçılara öz təcrübələrini paylaşmağa şərait yaradaraq, hər bir kəsin şəkil üzrə təfsiri ilə bağlı müzakirəyə başlayın. İştirakçılar belə bir halla reallıqda qarşılaşdıqda necə davranmaq olar və ya reaksiya vermək lazım gəldiyi barədə düşünür.
  - Ola bilər ki, şəklin çox sayda təfsirləri bildirilsin. Bütün qruplar belə ümidsiz vəziyyətlərdən bezə bilər. Alternativ olaraq, ssenaridə digər şəxslərdən qorxan, qorxudulan və bununla da özünə qapanan şəxs məhz oğlandır. Bir sıra təfsirlər səsləndirilə bilər.

### *Dəyişənlər*

“Beyin fırtınası” texnikalarından istifadə bu tapşırığın yerinə yetirilməsinə kömək edə bilər:

- İştirakçılara tapşırın ki, şəkillərdə təsvir olunan vəziyyəti sadəcə bir sözlə icmallaşdırsınlar, məsələn: məzlum, qisas, fantaziya, oyun, təxəyyül, ədalətsizlik, “çirkin ördək balası”, utancaqlıq, müdafiə...
- Məsələn, şəkildə nə qədər obraz olduğunu iştirakçılardan soruşmaqla şəkillərin arxasında dayanan elementlərə də diqqət edə bilərsiniz. Ehtimal ki, iştirakçılar 5 obrazın olduğunu deyəcək, buna görə də onların diqqətini orada 5 obrazın olduğu faktına çəkməlisiniz (kölgəni nəzərə alaraq).
- Bu müzakirələr vasitəsi ilə qrupun təxəyyülü və ya əyilən oğlan şəklindən yeni bir obraz meydana gələ bilər.

### *Tapşırığın qiymətləndirilməsi*

Müzakirə üçün aşağıdakı suallardan istifadə etmək olar:

- Bu ssenari sizə hər hansı spesifik hadisələri və ya tarixi hekayələri xatırladırmı?
- Buna bənzər vəziyyəti özündə əks etdirən hər hansı hekayə bilirsinizmi?
- Hekayəni keçmişdə danışacaq bir natiq (mən...) seçməklə şəklin mövzusu ilə əlaqədar bir hekayə hazırlayın. Bu, onların öz başına gəlmiş və yaxud şahidi olmuş hadisə ola bilər. Belə fərdi iş iştirakçıların tapşırıqla bağlı bəzi emosiyalarını kənarlaşdırmağa kömək edə bilər.

Mənbə

Centre d’information et de documentation pour jeunes (CIDJ Belgique), Racismes et discriminations. Fiches pédagogiques, Bruxelles, 2006, www.cidj.bewp-content/uploads/2014/01/animations.pdf.

cidj info jeunesse

1-ci material: **Şəkil 1**



2-ci material: **Şəkil 2**



3-cü material: **Şəkil 3**



4-cü material: **Birləşdirilmiş şəkil**



## Tapşırıq üçün 5-ci material: **Açar sözlər cədvəli**

1. Müzakirə zamanı meydana gələn açar sözləri stolun üzərinə qoyun, onları neytral, müsbət və mənfiliyinə görə düzün.

| Açar söz | Şəkil 1 | Şəkil 2 | Şəkil 3 |
|---|---|---|---|
| Neytral | | | |
| Müsbət | | | |
| Mənfi | | | |

2. Bütün qrupların açar sözlərini stolun üzərinə qoyun.
Müşahidələr:

## Tapşırıq üçün 6-cı material: **Rollu oyun üçün suallar toplusu**

Bu suallar rollu oyun üçün rolların bölüşdürülməsinə və ssenarinin qurulmasına yardım edəcək.

- 3 gənci kim oynayacaq?
- Əyilən oğlan obrazında kim çıxış edəcək?
- 5-ci şəxsi kim oynayacaq?
- Əyilən oğlanın bu səhnəcikdəki rolu nədən ibarətdir?
- 3 gənc ona nə deyir?
- Oğlan necə reaksiya verir?
- Ayaq üstündə dayanan şəxs kimdir?
- O, vəziyyətlə bağlı öz münasibətini bildirirmi? Necə reaksiya bildirir?
- Bu müdaxiləyə və ya müdaxiləsizliyə hər bir obrazın reaksiyası necədir?

## Tapşırıq üçün 7-ci material: **Təhlil üçün suallar toplusu**

- Şəkildə nə qədər obraz var? Fərqli obrazlara ad verin.

- Belə bir səhnə ilə qarşılaşsaydınız, necə reaksiya verərdiniz?

- Sizcə, şəkildə təsvir olunan səhnə üçün ən uyğun söz nədir?

# 2.3.4. MƏDƏNİ VƏ İQTISADİ MÜNAQİŞƏLƏR I

**Məqsədlər**

**Bu tapşırığın məqsədi mədəni fərqlərin əsas münaqişə mənbəyi olmadığı, əksinə, müəyyən əhali qruplarına təsir edən həssas sosial və iqtisadi şərait olduğu barədə məlumatlılığı artırmaqdır.**

**Hədəf auditoriya**

**15-18 yaş.**

**Qrup həcmi**

**15-25 nəfər.**

**Materiallar**

**Hər bir iştirakçı üçün mətnlərin bir surəti (bax: tapşırıq materialları 1 və 2); mümkün olarsa, iştirakçılar tapşırıqdan öncə mətnlə tanış olsunlar.**

**Həmçinin öz ölkənizə xas olan digər hərəkətləri də seçə bilərsiniz.**

**Vaxt**

**Təqribən 50 dəqiqə.**

***Hazırlıq***

- 2-ci materiala aid mətni paylayın, (mümkündürsə, əvvəlcədən) tapşırığa hazırlaşmaq üçün iştirakçılar həmin mətni oxumalıdır.
- Fadela Amaranın “Nə pozğunam, nə müti” adlı kitabını təqdim edin və iştirakçılara bu başlığın mənasını izah edin (1-ci materialdan istifadə etməklə).

***Tapşırıq***

İlk çıxarışı oxuyun, yaxud iştirakçılardan birinə oxumağı tapşırın (2-ci material), aşağıdakı şablondan istifadə edərək iştirakçılarla onun təhlilini aparın:

- “Sosial və siyasi çevriliş” nə deməkdir?
- Son illərdə böyük şəhərlərin şəhərkənarı zonalarında yaşayışın necə formalaşdığı barədə bu mətn nələri deyir?
- Bu mətn əslində sizin ölkənizdən fərqli olan Fransa nümunəsini nəzərdən keçirir. Bu hallar arasında hər hansı əlaqə qura bilərsinizmi? Yaxud hansısa əsas fərqləri görə bilərsinizmi?
- Bu bir neçə səhifəyə əsaslanaraq, mədəni fərqlərin münaqişə mənbəyi olduğunu fikirləşirsinizmi? Münaqişə və sosial təcridolunmanın qavranılması zamanı hansı aspektlər nəzərə alınmalıdır?

Mənbə

Centre d’information et de documentation pour jeunes (CIDJ Belgique), Racismes et discriminations. Fiches pédagogiques, Bruxelles, 2006, www.cidj.bewp-content/uploads/2014/01/animations.pdf.

## 1-ci material: **Fadela Ameranın «Nə pozğunam, nə müti» kitabını təqdim etmək**

**Yürüş**

“Ni Putes, Ni Soumises” Fransada gettolar əleyhinə və bərabərlik lehinə 2003-cü il, 1 fevral - 8 mart tarixlərində təşkil olunan qadın yürüşləri zamanı meydana gələn bir hərəkat idi. Sohan adlı 19 yaşlı qız Balzak şəhərinin zibil poliqonunda diri-diri yandırılaraq özünün azadlıq arzusunun qurbanına çevrilmişdi. Daha susmaq istəməyən, Fransanın 23 bölgəsindən olan beş qız və iki oğlan qadın və qızların həyat şəraiti, habelə onların şəhər qanununun qurbanlarına çevrilməsi ilə bağlı beş həftə boyunca ictimaiyyəti və lazımi qurumları məlumatlandırdılar. Fransa Baş nazirinin dinləməsindən sonra bu yürüşlər Beynəlxalq Qadınlar Günündə Parisdə 30 000 insanın iştirak etdiyi nümayişlə yekunlaşdı. Bu, söz azadlığını təşviq etmək və sükutu pozmaq üçün bir vasitə ondan ötrü oldu ki, bu gün heç kəs onlar kifayət qədər iş görməmişdir deməsin.

**Hərəkat**

Həbsdən sonra yenidənqurma vaxtı gəlib çatdı...və Fadela Amaranın sədrlik etdiyi “Ni Putes, Ni Soumises” hərəkatının yaradılması. Ailəsi dağılan gənc qız və qadınları hədəfə alan bu hərəkat təxirəsalınmaz vəziyyətlərdə müdaxilə edə biləcək hüquqşünas və könüllülər tərəfindən dəstəklənirdi. Bundan başqa, kütləvi sayda əhalinin milli petisiyanı imzalayaraq göstərdiyi dəstək sayəsində (65,000 imza) bu hərəkata 60 yerli komitə də qoşuldu. Bu komitələr sözügedən sahənin ehtiyaclarına mümkün qədər tez reaksiya vermək üçün tam təchiz edilmişdi. Onların məqsədi dünyəvilik dəyərlərini yaymaq, sosial fərqliliyi və cəmiyyətdə multikulturalizmi müdafiə etmək naminə fəaliyyət göstərməkdi. (‘Ni Putes, Ni Soumises’dən çıxarış)

**Kitab**

Sükutu pozmaq və 2003-cü ildəki qadın yürüşündən sonra debatı davam etdirmək məqsədi ilə 2003-cü ilin sentyabrında çıxan bu kitab “Ni Putes, Ni Soumises” hərəkatının maraqlarına uyğundur. Bu hekayə boyu minlərlə gənc qadın öz səsini duyurdu, suallarını və nifrətini ifadə etdi. Fərqli bölgələr arasındakı sosial əlaqələrin yoxa çıxmasını - kişi və qadınlar arasındakı əlaqələrin pisləşməsinin nəticəsini müşahidə etməklə, kişilərlə münasibətlərdə sülhməramlı və bərabərhüquqlu əlaqələr naminə qızların şəhər zonalarında öz azadlığına nail olduğunu görən Fadela Amara qəzəb, mübarizə və ümid mesajını verməyə çalışır. (www.niputesnisoumises.com saytında Fransız dilində verilmiş mətn).

## Tapşırıq üçün 2-ci material: **«Nə pozğunam, nə də müti»dən çıxarış, Fadela Amara, The Discovery, 2003**

*"Mənə elə gəlir ki, şəhərkənarı zonalarımızda sosial və siyasi tənəzzül getdikcə daha geniş yayılır. Bu proses yeni olmasa da, 1990-cı illərdə baş vermiş iqtisadi böhranla daha da genişləndi.*
*1990-cı illərin ortalarında baş verən iqtisadi dirçəliş şəhərkənarı zonalardan yan keçdiyi üçün bu axın kənar bölgələrdə artan yoxsulluğun inikasıdır. İşsizlik azalsa da, fransızların alıcılıq qabiliyyəti artsa da, mikrorayonların sakinləri bu sistemdən kənarda qalmış və yoxsul həyata davam etmişdir. Problemi cəld dəf edə bilənlər bu vəziyyətdən çıxmışdır. Bunlar adətən fransız ailələri, habelə Məğrib, Türkiyə və son illərdə Afrikadan gələn ilk uğurlu miqrantlar idi. Bu vəziyyətə reaksiya vermək əvəzinə, hökumət sosial təcridolunma siyasətini davam etdirmiş, bununla da həmin bölgələrdə yoxsulluq səviyyəsi daha da kəskinləşmişdir. Həm şəhər icra başçıları, həm də ucuz mənzil təminatı idarələri şəhər kənarında yaşayan sosial siniflərin birləşdirilməsi və onların mikrorayonlara istiqamətləndirilməsi üçün heç bir cəhd göstərmədilər. Və əlbəttə ki, belə etinasızlığın ciddi nəticələri meydana gəldi. Təcridolunma, məhdudlaşma, yoxsulluq, yoxsulluğun azalması, imkanlı şəxslərin çıxıb getməsi və s. çıxılmaz bir vəziyyəti meydana gətirmişdir.*
*Dövlət təhsil proqramlarının azalması ilə sakinlərdə məhdudlaşdırma təəssüratlarını daha da artırdı. Ümumi böhran yarandığına görə dövlət orqanları şəhərkənarı bölgələrdə çalışan sosial işçilərin sayını eyni anda və sistematik şəkildə azaltdı. Mənim gəncliyimlə hazırkı dövr arasındakı fərq heyranedicidir. Mən də elə bir şəhərkənarı massivdə doğulmuşam ki, sakinlərinin təqribən 90 faizini əlcəzairli miqrantlar, 10 faizini avropalı ailələri təşkil etsə də, onların hamısı bir-biri ilə problemsiz yaşamışdır. Uşaqları ciddi nizam-intizam qaydaları əsasında böyüdürdülər və böyüklərə hörmət etməyi aşılayırdılar. Bizim mikrorayonlarımızda da yerli assosiasiyaların rəhbərliyi altında müəyyən ictimai infrastruktur, dövlət təhsili, gənclər klubu var idi; bizim nəslin gəncləri bu fəaliyyətlərdən istifadə edə bilirdi. Bu zaman bizə nəzarət edənlər olurdu. Yaşayış komplekslərinin küçələrində gəzən gənclər sektorunun işçiləri öz işlərinin öhdəsindən mükəmməl şəkildə gəlir və hətta bizim ailələrimizlə görüşürdülər. Sonra isə - 1981-ci ildə Fransua Mitteranın prezident seçilməsindən sonra miqrantlar özləri üçün çoxsaylı birliklər yarada bildilər. Birliklərin həddən artıq artması ilə yaşayış massivlərində mədəniyyət fəaliyyətləri yarandı, bu da Fransa Respublikasına inteqrasiyaya yardım etməklə sosial birliyi gücləndirdi.*
*Dövlət tədricən gənclər sektorunda çalışan işçilərin sayını azaltdı, müəyyən yaşayış massivlərindəki ictimai xidmətləri bağladı və şəhərkənarı zonalardan geri çəkildi. Birliklərə gəldikdə isə, onlar maddi vəsait əldə etmək üçün "çəpərləri aşmalı" olurdu, çünki müraciət etmək daha da mürəkkəbləşmişdi və ödənişlər uzun müddət gecikirdi. Nəticədə, real bir dəstək olmadan bir çox şəhərkənarı birliklər yoxa çıxdı. Bu zonaların qoçaqları və sakinləri vəziyyətin pisləşdiyini görərək yerli və milli qurumları bu barədə xəbərdar etdilər, lakin sonuncuların bu tənəzzüllə mübarizə aparmaq üçün insan və maliyyə resurslarını axtarıb tapmağa siyasi həvəsi yox idi. Hətta belə vəziyyətdə də lazımi imkan var idi: ailələrdə ayrı-seçkilik hallarını dayandırmaq, yaşayış massivlərində sosial və etnik müxtəlifliyi yeniləmək, gənclər sektorunda çalışanların qarşısında yeni vəzifələr qoymaqla sosial əlaqələri yenidən qurmaq. Lakin şəhər siyasəti kontekstində həyata keçirilən və yaşayış massivlərinin sakinlərinə az təsir edən cüzi sayda tədbirlərdən başqa, siyasi qurumlar görüləcək işlərin miqyasını dəyərləndirmədi. Müəyyən vaxt ərzində bir sıra təşkilat və assosiasiyalar şəhərkənarı zonaların sakinləri üçün real bir dəyişikliyi meydana gətirmək və bir vaxtlar evfemistik şəkildə "şəhərkənarı süstlük" adlandırılan problemi həll etmək üçün şəhərkənarı yaşayış zonalarına yönləndirilən "Marşal Planı"nı tələb etmişdir. Lakin bu kimi xəbərdarlıq siqnalları duyulmadı."*[2]

2 Amara, Fadela. *Sükutu pozmaq - Qettolardan gələn fransız qadınların səsi.* Tərcümə Harden Çenat, Helen. "Ni Putes Ni Soumises" adı ilə ilk dəfə Fransada nəşr edilmişdir *("Nə pozğunam, nə müti")*, Kaliforniya Universiteti nəşriyyatı, 2006.

# 2.3.5.

# MƏDƏNİ VƏ İQTİSADİ MÜNAQİŞƏLƏR II

**Məqsədlər**

**Bu tapşırığın məqsədi münaqişənin mədəni fərqlərdən deyil, çox vaxt iqtisadi və sosial problemlərdən yarandığı faktına diqqət çəkməkdir.**

**Hədəf auditoriya**

**15-18 yaş.**

**Qrup həcmi**

**15-25 nəfər.**

**Materiallar**

- **1-ci hissəyə aid tapşırıq materialının hər bir iştirakçı üçün nəzərdə tutulmuş fotosurəti; mümkün olarsa, iştirakçılar tapşırığa başlamazdan öncə həmin çıxarışı oxusun.**
- **Sosial, iqtisadi və mədəni münaqişələrə aid yeni qəzet hekayələrinin fotosurətləri.**

**Vaxt**

**50-60 dəqiqə.**

***Tapşırıq***

1-ci hissə

- Qəzetdən götürülmüş çıxarışın surətini iştirakçılara paylayın. Həmin çıxarışla tapşırığın mövzusunu səsləndirin. İştirakçılar həmin çıxarışı diqqətlə oxuyur.
- Hekayə barədə onların təfsirlərini müzakirə edin və bu zaman iştirakçıların şahidi olduğu, yaxud başlarına gələn digər hekayələri də müzakirə edə bilərsiniz.

2-ci hissə

- “Nə pozğunam, nə müti” kitabından çıxarışı hər bir iştirakçıya verin. İştirakçılar çıxarışı diqqətlə oxumalıdır (əvvəlki materiala və/ya aşağıdakı materialda təklif olunan çıxarışa baxın).
- İştirakçılardan xahiş edin ki, çıxarışı ucadan oxusunlar, yaxud özünüz qrup üçün həmin çıxarışı oxuyun.
- Təhlil təlimatı kimi aşağıdakı suallardan istifadə edərək, iştirakçıların çıxarışa necə reaksiya verdiyini müzakirə edin.
    - Son illərdə nə kimi təkamül yaşanıb?
    - 1990-cı illərdə hansı spesifik hərəkat qeydə alınmışdır?
    - Bu bir neçə səhifəyə əsaslanaraq, mədəni fərqlərin münaqişə mənbəyi olduğu qənaətinə gələ bilərikmi? Münaqişə və sosial təcridolunmanın qavranılması zamanı hansı aspektləri xüsusilə nəzərə almalıyıq?
    - Tapşırığın 1-ci hissəsi ilə 2-ci hissəsi arasındakı fərqləri təhlil edin.

Mənbə

Centre d’information et de documentation pour jeunes (CIDJ Belgique), Racismes et discriminations. Fiches pédagogiques, Bruxelles, 2006, www.cidj.bewp-content/uploads/2014/01/animations.pdf

## Material: **«Nə pozğunam, nə də müti»dən çıxarış, Fadela Amara, The Discovery, 2003**

*"Fransada çox vaxt "zirzəmi İslam" birləşməsini vurğulayırlar". Hazırda İslamın dini obskurantizm kölgəsi olduğunu bildirən bu söz birləşməsini başa düşmək üçün bilmək lazımdır ki, vaxtilə bu birləşmə Fransa Respublikasında yenicə yaranan qərəzsiz və əfv edən İslam dini demək idi. 1928-ci ildə tikilmiş heyrətamiz Paris məscidi göstərir ki, istək olarsa və bütün tərəflər razılığa gələrsə, hələ də inkişafa nail olmaq mümkündür. Yürüşdən sonra Paris məscidinin axundu Dalil Bubəkir ilə söhbət zamanı mən bu tikilinin ecazkarlığını özümdə kəşf etdim. Hər bir ziyarətçi kimi, məni də həzin atmosfer valeh etmişdir. Axundla söhbətimiz səmimi və məhsuldar olduğuna görə bu, daha da yaddaqalan bir xatirəyə çevrilmişdir. Dalil Bubəkir bizə hərtərəfli dəstək göstərəcəyinə söz verdi və bizi kampaniya keçirməyə həvəsləndirdi.*

*Yeni siyasi İslamın meydana gəlməsi. İbadət üçün maliyyə vəsaiti və ya yer olmadan ilk miqrantlar müəyyən yerləri ibadət otaqlarına çevirmişdir. Belə yerlər adətən yaşayış komplekslərinin menecerləri tərəfindən onlara istifadə üçün verilən boş otaqlar və hətta zirzəmilərdən ibarət olurdu. Bəzən Katolik Kilsəsi müsəlman icmasına bir otaq verirdi. Klermon-Ferrandakı məscid də bunlardan idi. Və məncə, dinlər arasındakı dialoqu təşviq etmək üçün hər bir bölgədə oxşar fəaliyyətləri həyata keçirməliyik. Valideynlərimizin toplaşdığı belə ibadət otaqları həmçinin sosial həyatın bir hissəsi idi. Əslində ibadətdən sonra insanlar bir yerə toplaşıb söhbət edir və qərara gəlirdilər ki, müəyyən ailə problemlərini birlikdə həll edə bilərlər. Həmin dövrdə həmrəylik adi bir hal idi və belə zonalarda yaşayan bütün valideynlərin əsas dərdi uşaqların məktəbdə yaxşı oxuması idi. Yadımdadır ki, kimsə diplom alanda bütün qonşular bu hadisəni fəxrlə qeyd edirdi. Yaşayış kompleksimiz salınandan bəri orada yaşayan madam Düfrez təbrik əlaməti olaraq tələbələrə şokolad paylayırdı. Və kimsə - kişi və ya qadın universitetə girsəydi, bunu hər kəs, hətta uşaqlar da özünün qələbəsi kimi qəbul edərdi. Həmin dövrdə universitet təhsili çox arzuolunan idi, lakin bu fürsətdən müəyyən elita daha çox istifadə edə bilirdi. Buna görə də qonşularımızdan kiminsə universitetə qəbul olunmağı bizim üçün əsl sevinc idi. Bir atanın - iş qəzası səbəbindən "sınmış qol" ləqəbli tikinti işçisinin özünü qürurlu və xoşbəxt hiss etdiyini xatırlayıram. Onun qızı Yasmina bakalavr dərəcəsinə nail olmuş və təhsilini universitetdə davam etdirmiş, bununla da Birləşmiş Ştatlara qədər gedib çıxmışdır. Hazırda o xanım öz möhtəşəm karyerasını iri bir fransız şirkətində davam etdirir. Digərləri kimi, onun atası da öz uşaqlarının daha yaxşı gələcəyi olması üçün müəyyən qurbanlar vermişdir. Belə bir mühit 1980-ci illərin sonlarına - demək olar ki, hər kəsin öz işini itirdiyi və şəhərkənarı yaşayış massivlərinin batdığı dövrə qədər davam etdi. Hər bir yaşayış səmti və bütün tədbirlər tədricən itməyə başladı. Və belə bir sosial boşluqda obskurantizm kök saldı.*

*Beləliklə də, 1990-cı illərdə fundamentalist İslam meydana gəldi. Müsəlman Qardaşlığının yaranması ilə daha da dərinləşdi, Quran yanlış təfsir olundu və sanki təsadüfmüş kimi, müqəddəs mətnin qadınlara aid hissələri yanlış qələmə verildi. Fransada xüsusilə də "zirzəmi imamları" kimi tanınan əleyhdar moizəçilər fərdin məhdudlaşdırılması istiqamətində kişilər üzərində mərkəzləşmiş siyasi debatlara başladı. "Zirzəmi İslamı"nın necə yayıldığı və şəhərkənarı yaşayış massivlərinə necə nüfuz etdiyi bu kontekst çərçivəsində izah oluna bilər: yaşayış məskənlərinin daha çox gənci tamamilə məqsədsiz olduqda, məktəbdə uğursuzluğa düçar olduqda, işsizlik və ayrı-seçkiliklə üzləşdikdə bu, daha çox genişləndi. Onların hamısı şəhərkənarı zonaya xas əlamətləri daşıyır və heç bir vaxt onları tərk etməyəcək təəssüratlara malik idi. Şəxsiyyətin təsdiqlənməsi axtarışında olarkən mübariz İslam onların tapdığı azsaylı cavablardan olmuşdur. Əvvəlcə hər kəs əmin idi ki, həyatda yeni bir nəzər nöqtəsini - ibadət pulu və insan alverini aradan qaldıran bir nəzər nöqtəsini tapıblar. İşsiz gənclərin təqsirkar hərəkət etməsinin qarşısını almaq üçün İslam yeni mənəvi idarəetmə sisteminə çevrilmişdir. Beləliklə də, 1995-ci ilə qədər bəzi bölgələrdə yerli orqanlar və siyasi spektrdə seçilmiş nümayəndələr, xüsusilə də şəhər icra başçıları radikal imamları tanıdı və onları əsas nümayəndə olaraq seçdilər.*

*Bu, dini qurumların dövlət işlərinə heç bir zaman qarışmadığını qəbul edən bizim nəslin mübarizləri üçün dəhşətli bir zərbə idi. Bizə məlum idi ki, belə bir müdaxilə ümumi əhali, xüsusilə də gənc qadınlar üçün mənfi nəticələr doğura bilər. Bu təhlükə etiqadından asılı olmayaraq, bütün dini ekstremistlərə şamil edilir. Cinsi mənsubiyyətindən asılı olmayaraq bütün insanların hüquqları naminə mübarizə aparmaq üçün universalizm dilindən istifadə edən aktivistlər olaraq hamımız birdən-birə özümüzü təcrid olunmuş vəziyyətdə tapdıq. Siyasi qurumlar artıq bizi massivdə potensial nümayəndə kimi görmür və ya tanımırdı; biz onlar üçün sadəcə imamların nüfuzu əleyhinə mübarizə aparan araqarışdıranlar idik. Həmin vaxtdan etibarən yaşayış massivlərində hansısa bir problem olardısa, həmin problemin həlli nə gənclərlə iş sektorunda çalışanlara, nə massiv koordinatoruna, nə də dünyəvi birliklərə deyil, məhz yerli imama tapşırılırdı.*

*Yerli orqanlar birbaşa həmin dindarlarla və ya təsir dairələrində saxladıqları gənclərlə işləməyə başladı; insanların öz dərdlərini danışa biləcəyi yeni ictimai rəy liderləri peyda oldu. İmam yeni sosial idarəçi kimi davranmağa başladı. Onun nüfuzunun kənar şəxslər tərəfindən qəbul edilməsi yaşayış massivlərindəki hökmünü daha da gücləndirdi. Valideynlər hesab edirdi ki, gənclərin küçədə veyllənib, dava-dalaşa qoşulmağındansa, məscidə gedib ibadət etməyi daha yaxşıdır. Lakin həmin dindarlar bizim valideynlərin bildiyi dinc İslamı təşviq etmirdi. "Zirzəmi İslamı"nın zərərli nüfuzu bəzi ailədaxilə təfriqələrə aparıb çıxardı. Radikal və təhlükəli davranışlar barədə az məlumata sahib valideynlərlə onları savadsızlıq və Quranı dərindən mənimsəmədikləri səbəbindən "etinasızlıq"da günahlandıran övladları arasında narazılıqlar artırdı.*

*"Zirzəmi İslamı" rasist və anti-semitik nüanslarla, habelə ayrı-seçkilik və ədalətsizlik hissləri ilə işsizlik, massivlərin gettolaşmağı, təriqətçi siyasət kimi faktorlardan yararlanırdı. Dini dözümsüzlüyün yayılması ilə "zirzəmi İslamı" gənc qadınları sıxışdırması üçün gənc kişilərə nəzəri baza və resurslar təklif etdi. Gənc qadınlar müəyyən qəbul edilmiş bir qəlibə uyğun davranmasaydı, onlar "bütpərəst" və ya "pozğun" adlandırılardı. Bu, hər şeydən əvvəl, dini ritorikanın hökmünü göstərir. Onun qəbul edilməsi deyil, məhz yeritdiyi hökm daha vacibdir.*

*İmamların yaşayış massivlərinə yerləşdiyi andan etibarən gənc kişilərin bəziləri gənc qadınları xüsusilə də ev dustaqlarına çevirməyə cəhd etməklə, onlara qarşı radikal davranışlar nümayiş etdirməyə başladılar. "Mixité" (fransız dilində) - həm kişi, həm də qadınların olduğu tədbirlərdə iştirak məsələsi öz aktuallığını itirdi. "Zirzəmi İslamı"nın ətrafında yaranan aktivist azlığı hər yerdə nəşriyyatlara, yayım stansiyalarına, intellektuallara və reklam agentliklərinə malikdir. Bütün imkanlar əldən verilib. Aidiyyəti vəkillər Fransanın hicabla bağlı fərmanı kimi hüquqi qərarlardan dəstək ala bilmişdir. Yaxud başqa nümunə göstərək: işdə hicab geyilməsinin iş yerinə uyğun olması barədə qərar. Və ya işdə Bermud şortunun geyilməsinin iş yeri üçün uyğun olmamağı barədə başqa bir qərar.*

*Burada üzə çıxarılan kompleks problemlər məndə müəyyən suallar yaradır. Bundan başqa, digər aktivist azlıqlar beynəlxalq səviyyədə əxlaq prinsiplərinin yenidən qurulmasını təşviq edərək özlərinə dəstə toplayır. Fransada abortlara qarşı mübarizə edən fundamentalist katolik briqadaları var. Halbuki yahudi və müsəlman mədəni birliklər ictimai hovuzlar üçün xüsusi saatların tətbiq olunmasını tələb edir və bu, hələ son deyil. Fransa Respublikası dini həmlələrə güc gəlmək üçün bütün cəbhələrdə sınaqdan keçir."* [3]

3 Amara, Fadela. Sükutu pozmaq - Qettolardan gələn fransız qadınların səsi. Tərcümə Harden Çenat, Helen. "Ni Putes Ni Soumises" adı ilə ilk dəfə Fransada nəşr edilmişdir ("Nə pozğunam, nə müti"), Kaliforniya Universiteti nəşriyyatı, 2006.

## 2.3.6. DÖRD KVADRAT

*Məqsədlər*

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **İştirakçılar qərəz və ayrı-seçkiliyi canlı olaraq yaşamalı və başa düşməlidir.**
- **Qərəzlə bağlı informasiya və təcrübələri ifadə etmək və bölüşmək.**
- **İnsanların ayrı-seçkiliyə məruz qaldığı vəziyyətlərdə başqa birinin verə biləcəyi reaksiyanı təhlil etmək.**
- **Ayrı-seçkilik xarakterli davranışlara qarşı effektiv əks münasibətləri öyrənmək.**

*Hədəf auditoriya*

**Yaşı 15-dən yuxarı olan şəxslər.**

*Qrup həcmi*

**Maksimum 50 nəfər.**

*Materiallar*

- **Saat.**
- **İki nəfərə 1-ci materialın fotosurətləri.**
- **Hər kəs üçün 2-ci materialın fotosurətləri (Dörd Kvadrat).**

*Vaxt*

**30-60 dəqiqə.**

*Təlimçidən tələb olunan bacarıqlar\biliklər*

**Stereotip və qərəz anlayışları barədə tam məlumata malik olmaq. Ünsiyyət, xüsusilə də fəal dinləmə bacarıqlarına malik olmaq.**

### *Hazırlıq*

- İştirakçılar özünə tərəf müqabili axtarır (yaxşı olardı ki, bir qız - bir oğlan, gənc-yaşlı qruplar yaradılsın).
- 1-ci materiala aid sualları paylayın.
- İzah edin ki, bir-birinə 4 sual (1-ci materialda verilib) ünvanlasınlar və verdikləri cavabları müzakirə etsinlər.

### *Tapşırıq*

1-ci hissə

- İzah edin ki, 1 şəxs suala cavab verərkən qarşı tərəf - dinləyən tərəf müqabili fəal dinləmə bacarıqlarını nümayiş etdirməlidir. Dinləyən şəxs tərəfindən heç bir qeyri-şifahi reaksiya verilməməli, müdaxilə olunmamalı və ya şərh bildirilməməlidir. Nə demək istədiklərimizi fikirləşmək deyil, məhz qarşı tərəfin təcrübələri, hiss və fikirlərini dinləməyi öyrəndiyimiz mədəniyyətlərarası anlaşma və ünsiyyəti təkmilləşdirmək üçün bu, zəruri aspektdir.
- Danışmağa kimin başlayacağına dair qərarı məhz cütlük özü verməlidir. Danışan şəxsə 2 dəqiqə vaxt verilir və rollar paylaşdırıldıqdan sonra danışmağa başlayır.

2-ci hissə

- 2-ci materialı paylayın: “4 kvadrat”.
- Aşağıdakı sualları iştirakçılara ünvanlayın və onlara cavablarını stoldakı kvadratlardan birinə yazmağı tapşırın (ya açar sözlər, ya da qısa cümlələr şəklində).

- Kiminsə sözləri və ya davranışları nə vaxtsa sizi incidibmi?
- Nə vaxtsa "gərək elə deməzdim və ya etməzdim" dediyiniz bir söz və ya etdiyiniz hərəkət olubmu?
- Qərəzə qarşı nə zaman müdaxiləyə keçmisiniz?
- Qərəzə qarşı nə zaman müdaxiləyə keçməmisiniz?

İştirakçılar öz cavablarını yazdıqdan sonra onların verdiyi cavablardan birini kiçik qrupla və ya iki nəfərlik qrupla müzakirə edin. Fəal dinləmə qaydaları barədə onlara xatırlatma verin: bir nəfər danışarkən digərləri tamamilə səssiz olmalı və qarşı tərəfi dinləməlidir.

Seçilmiş cavabını müzakirə etmək üçün hər kəsə 3 dəqiqə vaxt verin. Hər kəs danışdıqdan sonra qrupu yenidən bir araya gətirib aşağıdakıları soruşun:

- Kəlmə belə kəsmədən qarşı tərəfi dinləyə bildinizmi? Qarşı tərəfi dinləyərkən/özünüz danışarkən hansı hisslər keçirdiniz?
- Xatırladığınız və ya paylaşdığınız nüanslardan təəccüblənirsinizmi?
- Bəzi suallar digərlərinə nisbətən daha qəliz idi. Ayrı-seçkilik və qərəz mövzularının müzakirəsi zamanı nə hisslər keçirdiniz?

***Tövsiyələr***

Bu çalışma iştirakçıların vicdanına və qeyri-iradi cavablarına bağlıdır. Biz özümüzü, bir-birimizi tanıyırıq və öyrənməyi öyrənirik: bunu etmək üçün qrup üzvləri özlərini "təhlükəsiz" hiss etməlidir.

Mənbə:

© 2011 Antidiffamasiya Liqası, www.adl.org/education. Bütün hüquqlar qorunur. Nəşriyyatçının icazəsi əsasında yenidən dərc edilmişdir.

ADL

## Tapşırıq üçün 1-ci material

- Kimsəni öz qərəzi ilə sizi incitdiyi hadisə barədə tərəf müqabilinizə danışın.
- Kiməsə qarşı ayrı-seçkilik edildiyi zaman, yaxud kiməsə qabaqcadan əmələ gəlmiş yanlış fikirlə yanaşıldığı zaman müdaxilə etdiyiniz hadisə barədə öz tərəf müqabilinizə danışın.
- Nə vaxtsa kiməsə qabaqcadan əmələ gəlmiş yanlış fikirlə yanaşdığınız və ya kiməsə qarşı ayrı-seçkilik nümayiş etdirdiyiniz, lakin hazırda buna görə peşman olduğunuz hadisə barədə öz tərəf müqabilinizə danışın.
- Kiməsə qarşı ayrı-seçkilik edildiyi zaman, yaxud kiməsə qabaqcadan əmələ gəlmiş yanlış fikirlə yanaşıldığı zaman müdaxilə etmədiyiniz hadisə barədə öz tərəf müqabilinizə danışın.

Tapşırıq üçün 2-ci material: **«4 kvadrat»**

| | |
|---|---|
| **QURBAN**<br>Kiminsə sözləri və ya davranışlarının sizi incitdiyi vaxt | **TƏQSİRKAR**<br>Nəyisə dediyiniz və ya etdiyiniz, lakin buna görə peşman olduğunuz vaxt |
| **ETİRAZÇI**<br>Qabaqcadan əmələ gəlmiş yanlış fikrə müdaxilə etdiyiniz vaxt | **ŞAHİD**<br>Qabaqcadan əmələ gəlmiş yanlış fikrin olduğunu gördüyünüz, lakin heç bir müdaxilə etmədiyiniz vaxt |

# 2.4. Mədəniyyətlərarası əlaqələr



**Kim olduğumu, digərlərinin məndən fərqlənə biləcəyini, belə fərqli mədəniyyətlərə (həmçinin bundan irəli gələn anlaşılmazlıq və çətinliklərə) malik bir cəmiyyətdə birlikdə yaşamağı qəbul etməyi bir yerdə başa düşməliyik.**
**Bunun öhdəsindən gəlmək üçün biz bu çətinliklərə müsbət tərəfdən baxmalı və alternativ mübarizə vasitəsi kimi birliklərin yaradılmasının mümkünlüyünü qəbul etməliyik. Bu, hər kəs üçün zəngin bir təcrübə olmaqla, bir-birimizi olduğumuz kimi qəbul etməyə səbəb olacaq.**

Fərqli mədəniyyətlərin cəmiyyətə necə bir töhfə verə biləcəyinə diqqət çəkmək məqsədi ilə aşağıdakı tapşırıqlar gənclər arasında dinamik mübadiləni təşviq edir. Bu tapşırıqlar fərqli fərdlərin üzləşdiyi çətinliklərin bəzilərinin iştirakçılar tərəfindən qavranılmağına və mümkün həll yolları barədə danışmağa imkan verir.

# 2.4.1.

# ƏRİDİCİ QAZAN

***Məqsədlər***

**Bu tapşırıqların məqsədi iştirakçılara aşağıdakılarla bağlı yardım etməkdir:**

- **Multikulturalizm əlamətlərini müəyyənləşdirməyi və sosial baxımdan cəmiyyətdə yeni bir perspektivi formalaşdırmağı bacarmaq.**
- **Digər mədəniyyətlərin necə təsir etdiyini və cəmiyyətə necə töhfə verdiyini müəyyənləşdirmək.**
- **Bu təsirləri müsbət perspektivdən qiymətləndirmək.**

***Hədəf auditoriya***

**12-18 yaş.**

**Qrup həcmi**

**16-24 nəfər.**

***Materiallar***

- **Kağız və qələm.**
- **İstəyə görə: şəkil çəkmək, yaxud audiolentə yazmaq üçün kamera, mobil telefon və ya tablet.**

***Vaxt***

**Hazırlıq: 30 dəqiqə.**

**Tapşırıq (1-ci hissə): 3 saat.**

**Tapşırıq (2-ci hissə): 1.5 saat.**

1-ci hissə

***Hazırlıq***

- İştirakçıları ən azı 4 nəfərlik qruplara bölün.
- Hər bir qrupa izah edin ki, onlar öz yaşadıqları zonanı (yaşayış kompleksi, şəhər) tədqiq etməli, kəşflərinin siyahısını hazırlamaq üçün digər millət və mədəniyyətlərin “izləri”ni axtarmalı, obyekt, təsvir, şəkil və mümkün olarsa, videoyazılardan istifadə edərək onları təsvir etməli olacaq. Bu tapşırığı yerinə yetirmək üçün qrup müvafiq resurslara malik olmazsa, araşdırıb tapdıqları nüansları sadəcə siyahılaşdıra bilərlər.
- Aidiyyəti izlərin aşkar edilə biləcəyi fərqli zonalar barədə fikir yürütmək üçün iştirakçılara vaxt verin. Məsələn:
  - Kulinariya: hazırda mətbəximizdə geniş şəkildə istifadə edilən digər ölkələrə xas məhsul və ədviyyatlar; əcnəbi restoranların olmağı və s.
  - Geyim və dəb: digər ölkə və mədəniyyətlərə xas geyim və aksesuarlar, idxal edilən ayaqqabı, geyim və s.
  - Musiqi: FM radio stansiyalarındakı proqramları dinləmək imkanı, spesifik musiqi janrlarında ixtisaslaşmış fərqli mədəniyyətlərin, ölkələrin incəsənət ustalarını görmək və onları dinləmək.
  - Kütləvi mətbuat vasitələri: fərqli televiziya kanallarını və onların təklif etdiyi xarici proqramları, eynilə də kinoları müqayisə etmək.
  - Dil: digər dillərdən alınaraq öz dilimizdə gündəlik istifadə etdiyimiz kəlmələr.
  - Tikililər: əcnəbi arxitektura nüanslarının bizim tikililərdəki izləri və s.

***Tapşırıq***

İştirakçılar şəhərin fərqli bölgələrindəki massivləri araşdırmaq, digər mədəniyyətlərə və millətlərə xas "izləri" axtarmaq üçün günorta saatlarından istifadə edir.

2-ci hissə

- Hər bir qrup araşdırmanın nəticələrini təqdim edir və qısa məlumat verir.
- İştirakçıların aşkar etdikləri nüansları təsvir edən bir sərginin hazırlanmasında onlara yardım edir. Bu, onların əldə etdikləri nəticələrinin daha dərin təhlilinin hazırlanmağına imkan verəcək.
- Təqdimatı müzakirə ilə yekunlaşdırın. Hər kəsin görülmüş işlərə dair fikrini paylaşın. Aşağıdakı suallardan istifadə edərək fikir mübadiləsinə kömək edə bilərsiniz:
  - Nəyəsə təəccübləndinizmi?
  - Digər mədəniyyət və ölkələrin "izləri" ilə əhatə olunmaq nə deməkdir?
  - Digər mədəniyyət və cəmiyyətlər barədə bilikləriniz hətta süni və cüzi informasiyaya əsaslansa belə, bu barədə nə düşünürsünüz?
  - Bu biliklərdən necə yararlana bilərik? Biliklərimizi necə artıra bilərik?
  - Digərləri ilə müqayisədə, bəzi ölkələrə aid "izlər" daha çoxdurmu? Bunun səbəbi, sizcə, nə ola bilər?

***Tövsiyələr***

Bu tapşırığın dəyərli mahiyyətinin qrup üzvləri tərəfindən tam qavranıldığını təmin etməyiniz çox vacibdir. Məsələn, bu tədqiqat işini xəfiyyə araşdırması, kəşfiyyat səyahəti və ya macəra ilə müqayisə edərək iştirakçıları həvəsləndirə bilərsiniz. Eynilə, bu işin birlikdə həyata keçirilməli olduğunu vurğulamaq da vacibdir. Fikir mübadiləsi zamanı aşağıdakı nəticələrə gətirib çıxara biləcək aspektlərə xüsusi diqqət edin:

- Biz qarşılıqlı asılılığa malik olan bir dünyada yaşayırıq və yaşadığımız ölkələr bir-birindən asılıdır. Bütün cəmiyyətlərdə fərqli mədəniyyətlərin izlərini tapa bilərik.
- Texnologiya və rabitə sahəsindəki inkişaf səbəbindən fikir mübadiləsi və digər insanlarla görüşmək üçün geniş imkanlara malikik.
- Fərqli mədəniyyətlər arasında əlaqələrin qurulması və onların bir-birinə təsir göstərmə vasitələri zənginləşmək üçün əla bir mənbədir.
- Fəlsəfə və din kimi məsələlər yerinə, qida və içki kimi müəyyən ictimai töhfələri qəbul etmək daha asan olur. Həmçinin digərləri ilə müqayisədə (xüsusilə də inkişaf etməkdə olan ölkələr), müəyyən ölkələrin (məsələn, Birləşmiş Ştatlar) təsirlərini qəbul etmək də daha asan olur. Nəhayət, xüsusilə də bizdən çox fərqli adət-ənənəyə malik olan insanlarla müqayisədə, fikirləri/məhsulları qəbul etmək daha asandır.

Mənbə

Avropa Şurası - Təhsil Paketi "hər kəs fərqlidir - hər kəs bərabərdir", Gənclər və İdman Direktoratlığı, Avropa Şurası, 2-ci nəşr, 2004.

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

## 2.4.2.
# “BİRLİKDƏ YAŞAYIŞI TƏSVİR EDƏN AĞAC”

*Məqsədlər*

**Bu tapşırığın məqsədi cəmiyyətdə necə birlikdə yaşadığımız və bu yaşayışın necə yaxşılaşdırıla biləcəyinə dair öz fikir və münasibətlərini bildirməsi üçün iştirakçıları həvəsləndirməkdir.**

*Hədəf auditoriya*

**Bütün yaş qrupları.**

*Qrup həcmi*

**İstənilən sayda.**

*Materiallar*

- **Material: “birlikdə yaşayışı təsvir edən ağac” posteri (posteri divardan asmaq üçün maqnitlər və ya iri yapışqan kağız).**
- **Yapışqan vərəqlər (3 fərqli rəng).**
- **Qələm, marker.**

*Vaxt*

**Minimum 45 dəqiqə.**

*Hazırlıq*

- Tapşırığı izah edin: Bu, “birlikdə yaşayışı təsvir edən ağac”dır. Bu ağac cəmiyyətimizi təmsil edir; həmçinin üzvü olduğumuz qrupu da (sinfi, məktəbi, kilsə qupunu və ya daha iri hərəkatı) ifadə edə bilər. Bu ağac eləcə də hər birimizi bir fərd kimi ifadə edə bilər. Lakin mövzumuz “birlikdə yaşamaq” olduğuna görə biz bu ağaca ayrı-ayrı fərdlərdən ibarət bir cəmiyyətin təmsili kimi baxacağıq. Ağac kimi, cəmiyyətin də yaşaması üçün aşağıdakılar olmalıdır:
  - Ağacı qidalandıran və evin özülünə bənzəyən köklər.
  - Ağacın düzqamətli olmasına yardım edən və onurğa sütununa bənzəyən gövdə. Gövdə şirənin ağacın köklərindən budaqlarına və yarpaqlarına ötürülməsinə, bununla da budaqların canlanmasına kömək edir.
  - Fəsildən-fəslə dəyişən budaqlar, yarpaqlar, güllər və meyvələr. Ağacın bu hissələri günəşli və ya əlverişsiz hava şəraiti kimi elementlərə məruz qalır, onların ağacda olub-olmamağından asılıdır. Təkrar istehsalı təmin etmək üçün onlar əsas elementlərdir və buna görə də ağacın gələcəyi hesab olunur.
- Müxtəlif rəngli yapışqan kağızları paylayın: köklər üçün mavi (yaxud başqa rəng), gövdə üçün qəhvəyi (yaxud başqa bir rəng), budaqlar/yarpaqlar üçün yaşıl (yaxud başqa rəng). Kiçik bir qrupla işləyirsinizsə, alternativ olaraq birbaşa posterdə də yaza bilərsiniz.

*Tapşırıq*

- Ağacın hər bir hissəsinə - köklər, gövdə və budaqlara aid sualları verərək qrup şəklində müzakirə aparın. Qrupdakı tələbələrin, böyüklərin bir-birini yaxşı tanıyıb-tanımadığından asılı olaraq, qrupun növünü dəyişdirə bilərsiniz.
  - Köklər: məndə başqa insanlarda olmayan və başqaları ilə birlikdə yaşaya bilməyimə imkan verən spesifik nə var? (Nümunə: doğma mədəniyyət, təhsil, zövq, şəxsi tarixçəm, istedad və zəif cəhətlər...)

- Gövdə: bizim qrupun bir araya gəlib birlikdə yaşamasını təmin edən element hansıdır? Fərqli köklərdən gələn fərqli insanlar vahid bir qrup yaratmaq üçün bir araya necə gəlir? Cəmiyyət bir araya gəlmək üçün nələri tələb edir? (Nümunə: qanunlar, qaydalar, yaşayış vasitələri - məktəb binası, kilsə binası, yaşayış kompleksi, region, ölkə, insan hüquqları, müştərək dəyərlər və s.).
- Budaqlar: "gövdə" ətrafında birləşən fərdlər kimi bir araya gəlməyin hansı faydaları vardır? Birlikdə yaşamağın hansı bəhrələri vardır? (Nümunə: müxtəlif bədii ifadələr, rifah, sülh, birlikdə yaşamaqdan zövq almaq, istedadların üzə çıxması, cəmiyyətə öz töhfəsini vermək...). Bunlar sadəcə nümunədir, lazım gələrsə, siz öz fikirlərinizi bildirə bilərsiniz. Qrupun verdiyi cavablar gözlənilməz bir istiqamətə apara bilər ki, daha sonra iştirakçılar tərəfindən araşdırıla bilər.

• Hər kəsdən öz yapışqanlı kağızını yapışdırmağı və demək istədikləri nəsnələri qısaca izah etməyi xahiş edin. Köklərlə başlayıb gövdə, budaqlar və yarpaqlara keçin.
• Daha sonra müzakirəyə başlayın:
  - Deyilənlər haqqında qrup üzvlərinin hər hansı sualı varmı?
  - Qrupda - cəmiyyətimizdə nə baş verir? Birlikdə yaşamağın qarşısında dayanan təhlükə nədən ibarətdir? Kök və ya gövdədə ağacın qalan hissəsinin çiçəklənməməyinə səbəb ola biləcək nəsə varmı?
  - Cəmiyyətin fərqli səviyyələrində (sinifdə, məktəbdə, dostlar qrupunda, qonşuluqda...və daha geniş desək, cəmiyyətdə aidiyyəti auditoriyaya uyğun olaraq fəaliyyət miqyasını tənzimləmək) özünüzdə nələri dəyişə biləcəyinizi müəyyənləşdirə bilərsinizmi?
• Qrup şəklində həyata keçirilən bir və ya iki fəaliyyəti seçmək olar. Alternativ olaraq, hər bir iştirakçı cəmiyyətdə daha yaxşı şəkildə birlikdə yaşamağa dair öz fikirlərini ifadə edərək yapışqan kağızlarını ağacın üzərinə yapışdıra bilər.

## Tapşırıq üçün material: **Ağacın metafizikası**

*Ağac göy ilə yer, maddi və mənəvi məfhumlar, daha səthi narahatlıqlarımız və ilhamverici istəklərimiz arasındakı əlaqədir...*

*Ağac bir fərddir, müəyyən bir varlıqdır, onun haradan başlayıb harada bitdiyini görə bilirik. Və o, öz mühiti ilə daimi əlaqədədir: köklərdən yarpaqlara qədər davamlı olaraq qidalanmağa ehtiyacı vardır. Su və qidalandırıcıları torpaqdan alır; yarpaqları vasitəsi ilə oksigeni buraxmaq üçün işıq və karbonu udur. O, quşların sığınacağıdır, həşəratlar onun çiçəklərini tozlandırır, dibində onu qidalandıran göbələklər yetişir, həmçinin bizim yediyimiz meyvələr verir. Yarpaqları arasında heyvanlar yaşayır, qızmar günəş şüalarından gizlənmək üçün həm heyvan və insanlar, həm də digər bitkilər üçün kölgə verir. Onun quruyub düşən yarpaqları digər bitkilərin böyüməsi üçün zəruri olan üzvi maddəyə çevrilir. Ağaclar torpaq eroziyasının və daşqınların qarşısını almağa kömək edir.*

*Ağac spesifik bir zonanı paylaşan cəmiyyəti, məsələn, bir ölkəni təmsil edə bilər. Cəmiyyət dağılarsa, bir daha xilas ola bilməz. Onun kənar yardıma ehtiyacı var, eynilə də cəmiyyətin miqrantlar kimi vasitələrə ehtiyacı olur. Xarici mədəniyyətlərlə qidalandırılan ağac ticarət, incəsənət, mədəniyyət, təfəkkür və mənəviyyat vasitəsi ilə dünyanın digər bölgələri ilə daimi ünsiyyətdə olur...*

*Köklər cəmiyyətin və ölkənin tarixini, onu viran qoymuş müharibələri və insanların mübarizələrini təmsil edir (sosial inkişafa və ya insan hüquqlarına nail olmaq üçün...). Onun özünəməxsus mədəni ənənələri vardır və incəsənət, din, mətbəx və etiket qaydalarını; istifadə olunan dilləri, coğrafiyasını və iqlimini ehtiva edir.*

*Gövdə isə cəmiyyəti bir arada saxlayır. Cəmiyyətin strukturları, dəyərləri və sosial təminat sistemi bura daxildir. Gövdə ən azı bir neçə il davamlı olsa da, bıçaq və hətta oxla zərər görə bilər (cəmiyyətdə bu, sərt tədbirlərin görülməsi və ya rasist, yaxud elitist partiyaların yaranması ola bilər).*

*Budaqlar cəmiyyətdə mövcud olan, günəş şüalarına, külək və əlverişsiz hava şəraitinə məruz qalan fərqli "zonalar"ı ifadə edir.*

*Yarpaqlar isə eyni ağacda bir araya gələn, lakin fərqli budaqların məhsulu olan insanları ifadə edir. Real bir varlıq olan ağac öz-özlüyündə tam müstəqil deyil, o həmçinin özünün həmtayları ilə ünsiyyətə girir. Bioloq Jan-Mari Pelt özünün "Təbiətin dəyərli hədiyyələri" adlı kitabında izah edir ki, xüsusilə də yüksək hündürlüklərdə əlverişsiz hava şəraitində ağaclar bir-birinə kömək edə bilir.*
*Eynilə də, ağac nə möhkəmdir, nə ölümsüz. Parazitlərin ağacı yeyib bitirdiyi kimi, nifrət və rasizm də cəmiyyəti kökündən məhv edə bilər. İldırım ağaca zərbə vurduğu kimi zəlzələ, vulkan püskürməsi və sunami kimi təbiət hadisələri də şəhəri və ya regionu darmadağın edə bilər. Bu, baş verdikdə digər ağaclar meşəni qorumaq üçün həmrəy olur - eynilə insanlar kimi. Spesifik zonalarda problemlər yarandıqda insanlar da bir-birinə əl uzatmalıdır.*
*Ağacı həm də insana bənzədə bilərik. Onun kökləri insanın şəxsi tarixçəsinin simvoludur. İnsanın mənsub olduğu mədəniyyət və sosial qrupu, habelə müəyyən vaxtdan sonra əldə etdiyi irsi əks etdirir (mədəniyyət, təhsil, dəyərlər və s.).*
*Gövdə isə insanı ayaqda saxlayır: maddi və emosional təhlükəsizlik, cəmiyyət tərəfindən qəbul olunma, geniş mənada isə, əldə etmək istədiyiniz dəyərlər.*
*Nəhayət, budaq və yarpaqlar köklər vasitəsi ilə qidalanır və gövdə vasitəsi ilə ayaqda qalır. Onlar iş, hobbilər, ailə, yaradıcılıq, inanclar və münasibətləri təmsil edir. Görürsünüz, hər kəs özünəməxsusdur - lakin eyni zamanda, digər ağaclarla, dünya ilə, maddi həyatla, arzu və mənəviliyi ifadə edən səma ilə daimi münasibətdə olur.*

Mənbə

Vivre ensemble-éducation, Bruxelles, https://vivre-ensemble.be/IMG/pdf/animation_l_arbre_du_vivre-ensemble.pdf.

VIVRE ENSEMBLE

Tapşırıq üçün 2-ci material: **Birgə yaşayışı təcəssüm etdirən ağac**



Bölmə 3.

# ŞƏXSLƏRARARASI ÜNSİYYƏT

Fərhad Xosroxavar özünün 2014-cü ildə “Maison des Sciences de l'Homme” tərəfindən nəşr olunmuş “Radikallaşma” adlı kitabında radikallaşma prosesini hər hansı bir fərd və ya qrupun oturuşmuş qaydaları aradan qaldırmaq məqsədi ilə yerinə yetirdiyi zorakı xarakterli hərəkətlərini ehtiva edən bir keçid kimi müəyyənləşdirmişdir. Demokratiya konteksti baxımından radikal ideologiyaya sadiq qalmaq fərqli fikir sahiblərinin bir araya gəlməsinə mane olmadığı təqdirdə, problem kimi nəzərə alınmır. Bu yalnız o zaman problem kimi qəbul olunar ki, zorakılığa çevrilsin və ya zorakılığa təkan versin.

Məhz bu səbəbdən də bələdçinin bir bölməsini ünsiyyət məsələlərinə həsr etmişik. Həqiqətən də, adətən yaşadığımız cəmiyyətlə bağlı şəxsi fikrimizi, narahat qaldığımız məqamları, narazılığımızı və ya qəzəbimizi dilə gətirmək hüququmuz əlimizdən alınan zaman zorakılıq meydana gəlir. Söz azadlığı əsas hüquqlardandır və hətta qeyri-qanuni səslənə biləcək fikirlərin dilə gətirilməsi zamanı da hər kəsi dinləmək lazımdır. Bu, o zaman baş verir ki, şəxsi təfəkkürümüzə mənsub olan fikirlərimizin əksi ilə qarşılaşırıq. Onu da nəzərə almalıyıq ki, özünüifadə üçün uyğun yer tapa bilməmək növbəti ümidsizliyə səbəb ola bilər ki, bu da potensial təhlükəyə aparıb çıxarar.

*Gənclərin öz fikirlərini aşkar şəkildə ifadə edə bilməsi üçün müsbət bir mühiti dəstəkləyən tapşırıqlar silsiləsini bu bölmədə nəzərdən keçiririk. Bu tapşırıqlarla iştirakçılar öz fikirlərini ifadə edə, hiss-həyəcanını, narahat qaldıqları məsələləri və narazı olduğu məqamları paylaşa biləcək. İştirakçılar bildirdikləri fikirlərə hörmət edilmədiyini, yaxud “siyasi cəhətdən düzgün” olmaq məcburiyyətini hiss etsələr, bu zaman tapşırığın ümumi məqsədinə nail olunmayacaq. Buna görə də təlimçi iştirakçıların özlərini tam ifadə edə bilməsi, həmçinin onların dediklərinin dinlənilməsi və hörmətlə yanaşılmasını təmin etməyə xüsusi diqqət yetirməlidir. Həmçinin bütün təlim iştirakçılarının bir-birinə qarşı hörmətlə yanaşmasını təmin etmək lazımdır.*


Mə-
nim
öz
fikrimi
bil-
dir-
məyə
hüququm
çatır!

# 3.1.Özünüifadə (kreativlivlik, emosiyalar, hisslər, ehtiyaclar, düşüncələr, ideyalar...)



**Fikirlərimi ifadə edə bilirəmsə, bu, o, deməkdir ki, olduğum məkan məni qəbul edir;**

**Fikirlərimi ifadə edə bilirəmsə, bu, o, deməkdir ki, başqaları ilə paylaşa biləcəyim nələrsə var və mən yaşayıram;**

**Fikrimizi sizin yanınızda ifadə edə bilmirəmsə, bu, o, deməkdir ki, nə deməyimdən və kimlərlə olmağımdan asılı olmayaraq, yaşadğımı hiss etmək üçün başqa bir yerə üz tutacam...**

Qrupun bir üzvü kimi fikirlər, hiss-həyəcan və ehtiyaclar barədə danışmaq və onların dinlənilməsi əhəmiyyətini aşağıdakı tapşırıqların icrası ilə araşdıracağıq.

Hər kəsin özünəməxsus yeri olan və qarşılıqlı hörmətə əsaslanan bir cəmiyyətin qurulması üçün **emosiyalarımızı idarə etməyi və empatiya ilə yanaşmağı öyrənməliyik.**

“Oxford English” lüğətində verilir ki, emosiya *bir şəxsin vəziyyəti, əhval-ruhiyyəsi və başqaları ilə münasibətlərindən irəli gələn güclü hisslərdir”.* Hiss-həyəcan bir enerjidir və hər bir enerji kimi, o da konstruktiv olması üçün istiqamətləndirilməlidir. Özünü digərinin yerinə qoya bilmək - empatiya ilə yanaşmaq ətrafımızdakı insanların ehtiyac və emosiyalarını daha yaxşı başa düşməyimizə kömək edə bilər. **Empatiya göstərən zaman digər şəxslərin ətrafdakı dünyanı qavramasını və ona reaksiya göstərməsini daha yaxşı başa düşmək üçün özümüzün şəxsi dəyərlərimizi, inanc və mühakimələrimizi bir kənara qoyuruq.** Başqalarını və onların reaksiyasını başa düşmək məqsədi ilə verilmiş vəziyyət daxilində özümüzün emosiyalarımız və s.-ni deyil, məhz həmin şəxslərin emosiyalarını müəyyənləşdirə bilməliyik.

Lüksemburqda Meditasiya Mərkəzinin meditasiya rəhbəri və koordinatoru Pol Demaret qarşı tərəfin empatiya ilə və mühakiməsiz dinlənilməsinin tərəfdarıdır. Onun fikrincə, emosiyanı müvafiq qaydada adlandırmaq (qəzəb, ikrah, qəm-qüssə), həmin şəxsə öz fikrini bildirməsinə imkan vermək və onun ehtiyaclarını müəyyənləşdirmək lazımdır. P. Demaret qeyd edir ki, zorakılığa məruz qalmış gənclərlə işləyərkən adətən həssas və tez mütəəssir olan gənclərin qarşılaşdığı və özünüifadəsinə əngəl törətdiyi emosional çarpışmasının (ədalətsizlik hissi, zorakı xarakterli reaksiyalar) qarşısını almaq məqsədi ilə onlara qarşı sakit və diplomatik qaydada yanaşmaq lazımdır. Etimad və aşkar ünsiyyətə əsaslanan münasibətlərin qurulması vaxt aparan bir məsələdir. Gənclərlə iş sahəsində çalışan əməkdaş (təhsilverən, sosial işçi, gənclərin məlumatlandırılması sahəsində çalışan işçi, çöl şəraitində işləyən sosial işçi və başqaları) empatiya göstərməklə başqa birisi danışarkən ziddiyyətli məqamları tuta biləcək. Daha sonra bu kimi paradokslara həmin şəxslə birlikdə **münasibət bildirmək, onun emosiyasını** müəyyənləşdirmək və əsas ehtiyaclarına diqqət çəkmək məhz həmin əməkdaşın cavabdehliyidir.

**Empatiya** ilə yanaşaraq qarşı tərəfi dinləmək gənclərlə iş sektorunda çalışan bir peşəkar işçi üçün zəruri bir vasitədir. Bu, həmin işçilərin zəruri nüansları nəzərdən qaçırmamağına və özlərini hazırlıqsız hiss etməməsinə imkan verir. Demaretin fikrinə görə, işçinin gənclə qurduğu münasibət ən mühüm vasitədir.

## 3.1.1. FİKRİNİ ƏSASLANDIRMAQ

***Məqsədlər***

**Bu tapşırığın məqsədi öz fikrini əsaslandırmaq üçün dəlil-sübutlar toplamaqla sosial cəhətdən çətin olan vəziyyətlərlə qarşı-qarşıya dayanmaqdır. Tapşırığın qarşısında qoyulan hədəf isə, iştirakçılara aşağıdakı məsələlərlə bağlı yardım göstərməkdir:**

- **Mövzuya dair fərqli fikirlərin olduğunu bilmək.**
- **Sosial cəhətdən çətin olan vəziyyətlərdə göstərdikləri davranışlardan xəbərdar olmaq.**
- **Sosial cəhətdən çətin olan vəziyyətlərdə onların özünəinamını artırmaq.**
- **Öz fikrini əsaslandırmaq üçün dəlil-sübutları toplamaq.**

***Hədəf auditoriya***

**Yaşı 15-dən yuxarı olan şəxslər.**

***Qrup həcmi***

**8-16 nəfər.**

***Materiallar***

- **İri vərəqlər və markerlər (bir qrup üçün bir ədəd), iki xətt çəkmək üçün material, tabaşir.**
- **Tapşırıq üçün material.**

***Vaxt***

**1.5-2 saat.**

***Tapşırıq***

- İp və ya tabaşirlə təxminən iki metrlik məsafədə iki xətt çəkin.
- Qrupu iki və ya dörd nəfərlik yarımqruplara bölün. Hər bir yarımqrupa ayrı bir rol verin: məsələn, “video oyunların lehinə/əleyhinə” olan qrup. Hər yarımqrup video oyunlarla bağlı fikrini əsaslandırmaq üçün arqumentləri (bir iştirakçı ən azı bir arqument gətirməlidir) birlikdə axtarıb tapır. Onlar bunu iri vərəqdə hazırlayır.
- Hansı arqumentin (arqumentlərin) kim tərəfindən istifadə edilməsi, qarşı qrupla üzləşdikdə iştirakçıların hər bir arqumenti təqdim etmə metodu (poza, fikrini bildirmək üsulu, qapalı və ya barışdırıcı davranış və s.) qrup tərəfindən hazırlanır.
- Qarşılaşma: “Lehinələr” təqribən 2 metrlik iki cərgə yaradaraq “əleyhinələr”lə qarşılaşır. Bir iştirakçı irəliyə bir addım çıxaraq və öz arqumentini səsləndirərək qarşılaşmaya start verir. Öz sözünü yekunlaşdırdıqdan sonra geri çəkilir və qarşı qrupdan bir nəfər iştirakçı onun arqumentinə münasibət bildirə, yaxud başqa bir arqument gətirə bilər.
- Aşağıdakı qaydalara riayət etmək lazımdır:
  - Eyni anda yalnız bir nəfər irəli addımlayaraq danışa bilər.
  - Arqumentə münasibət göstərilməsi belə ola bilər: münasibət göstərəcək şəxs irəli çıxır və qarşı tərəfin sözünü yekunlaşdırıb öz yerinə çəkilməsini gözləyir.
  - İştirakçı öz arqumentini və ya münasibətini bildirib yekunlaşdırdıqdan sonra öz yerinə qayıdır.

***Tapşırığın qiymətləndirilməsi***

- Öz fikrini əsaslandırarkən və ya qarşı tərəfi inandırmağa çalışarkən hansı davranış daha uğurlu olur?
- Kim inandırdı və ya əmin etməyə çalışdı?

- Başqalarının gətirdiyi arqumentləri dinləmək nə dərəcədə asandır\çətindir? Öz münasibətinizi bildirməzdən əvvəl başqalarının sözünü deməsinə imkan vermək nə dərəcədə çətin məsələdir? Onların öz sözünü deyib bitirməsini gözləyərkən nə kimi hisslər keçirdiniz?
- Arqumentlərinizi qapalı, yoxsa barışdırıcı davranış nümayiş etdirərkən bildirməyə üstünlük verirsiniz?
- Qrup qarşısında öz fikrinizi əsaslandırmaq nə dərəcədə asandır/çətindir?
- Yaxşı arqument hansı idi və nəyə görə belə fikirləşirsiniz? Bunun səbəbi arqumentin kontentidir, yoxsa təqdim edilməsi üsulu?
- Əsaslı arqument, yaxud arqumentin əsaslı şəkildə təqdim edilməsi mövzunu qavramağınıza təsir göstərirmi? Hər hansı mövzu ilə bağlı fikirlərinizə nə vaxtsa kənar ünsürlər təsir göstəribmi? Göstərilən təsir niyə görə əsaslı ola bilər?

Nəhayət, tapşırıqdan irəli gələn əsas fikirləri icmallaşdıraraq və özünəəminlik prinsipini işə salaraq tapşırığı yekunlaşdırın.

***Tövsiyələr***

- Qarşılaşma zamanı iki iştirakçının uzun müddət davam edə biləcək müzakirəsi ola bilər. Müdaxilə edə və sözü digər iştirakçılara verə bilərsiniz. Bütün iştirakçılara öz sözünü demək imkanı verilir.
- Qarşılaşmaya hazırlaşarkən iştirakçıları həvəsləndirin ki, özlərini fikir bildirən şəxsin yerində hiss etsinlər.
- Öz yolunda gedən və ya getməyən debatlardan videogörüntülər, yaxud audioyazılardan istifadə etməklə, əminliklə edilən təqdimatlar və ya qarşılaşmalara dair tarixi və ya müasir nümunələr gətirin.

***Dəyişənlər***

- Qarşılaşmaya hazırlaşarkən uyğun arqument tapmaqda çətinlik çəkən qruplara müəyyən nümunələr gətirməklə kömək edə bilərsiniz.
- Belə qarşılaşmanın aparılmasının çox təhlükəli nəticələr verə biləcəyi qruplardan isə könüllülər seçin ki, bütün iştirakçılar deyil, məhz həmin könüllülər qarşılaşmanı idarə eləsinlər.
- Dörd yarımqrupun yaradılması üçün qrup həddən artıq kiçik olarsa, iki hissəyə ayıra bilərsiniz: "lehinə" olan gənclər və "əleyhinə" olan valideynlər, yaxud əksinə.

*Mənbə*

www.bounce-resilience-tools.eu, ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

Əlavə məlumat üçün:

Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be

www.ithaquecoaching.com

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

## Tapşırıq üçün material: **Özünəəminlik**

Öz fikrinizi başqaları qarşısında bildirərkən onlarla konstruktiv münasibətləri saxlamaq həmişə asan olmur. Bu işdə özünəəminlik xüsusi rol oynayır. Psixoloq və sosioloq Dominik Şalvin qeyd edir ki, "ətrafdakılarda özünüzə qarşı ədavət hissi yaratmadan şəxsi fikirlərinizi ifadə edə bilirsinizsə, deməli, özünüzü təqsirli hesab etmədən "yox" deyə bilirsiniz, özünəinam hissiniz var, qəliz və geniş yayılmayan qərarların necə verildiyini bilirsiniz". Buna görə də əsas məsələ başqalarına hörmətlə yanaşmaqla yanaşı, özünə sərbəst surətdə əmin olmaqdır. **Özünəəminliyə əsaslanan ünsiyyət doğruluğu və digərlərinə hörməti ehtiva edir. Qısası, bu, fikirləri bildirərkən "qətiyyətli" olmaq, insanlarla ünsiyyətə girərkən isə "nəzakətli" davranmaq bacarığıdır. Nəticədə, özünəəminlik aşağıdakı diaqramda verilmiş digər üç ünsürdən fərqlənir: aqressivlik, hürən it və armud (Yoel Berqer, Management: Adhésion et Cohésion).**



Özünəəminlik “təbii” bir münasibət deyil. Bu ya verilmiş mövzu ilə bağlı fikirlərimizin qəbul edilməyəcəyindən qorxduğumuz zaman vəziyyətimizi çətinləşdirə bilər, ya da əksinə, bildirdiyimiz bəzi fikirlərə dair “razılıq” əldə edilə bilər, bununla da qarşı tərəflə münasibətlərimizə xələl gəlməz. Ünsiyyət zamanı özünəəmin olmaq üçün bir sıra texnikalar mövcuddur:

1. Fəal dinləmə: qarşılıqlı etimada əsaslanan münasibətləri qurmaq üçün başqa bir şəxsin dediklərinə maraq göstərin.
2. Yorğan metodu: debata qoşulmadan və hər hansı narazılıq üçün səbəb yaratmadan həmsöhbətin dedikləri ilə bağlı qeyd götürmək. Bu, öz mövqeyinizi əldən vermədən və qarşıdurmaya səbəb olmadan tənqidi yanaşmanı yumşaltmağa kömək edir: *«Nə demək istədiyinizi başa düşürəm, bilirəm...»*
3. Kompakt disk: həmsöhbət bezənə qədər arqumentləri yorulmadan təkrarlamaq.
4. Sfinks texnikası: özünəinamlı poza ilə neytral qalaraq həmsöhbətinizə baxmaq: başqası deyəcək, «siz heç nə demirsiniz...» Cavab verin: «Mən diqqətlə sizə qulaq asıram».
5. Kölgə texnikası: həmsöhbətin arqumentinin əslində narazı olduğunuz hissəsini təkzib etməzdən öncə onun arqumentinin bir hissəsi ilə razılaşmaq. «Bir tərəfdən, sizinlə razıyam ki...lakin hesab edirəm ki, ...»
6. Mənfi xarakterli müraciət texnikası: təndiq olunduqda bu texnika daha çox tənqidi mövqeyin bildirilməsindən, yaxud bildirilən tənqidi fikirlərə aydınlıq gətirilməsindən ibarətdir.
7. Səmimilik: istənilən tənqidi münasibətə son qoymaq üçün özünüz haqqında və zəif cəhətlərinizdən hər hansı biri barədə danışın.
8. Nəhayət: Faktların təsviri; Hisslərinizin bildirilməsi; Həll yolunun təklif edilməsi; Nəticələr (hər kəs üçün müsbət nüansların araşdırılması).

# 3.1.2. KONSENTRİK DAİRƏLƏR

*Məqsədlər*

**Bu tapşırığın məqsədi şəxsiyyət, qərəz, ayrı-seçkilik və rasizm kimi məsələləri müzakirə etmək üçün iştirakçılara müvafiq bir struktur verməkdir. Tapşırığın sonunda iştirakçılar:**

- **Mövcud stereotiplər barədə daha çox məlumata malik olmalıdır.**
- **Diqqətlə dinləməyi bacarmalıdır.**
- **Şəxsiyyət, qərəz, ayrı-seçkilik və rasizm kimi mövzularla bağlı özlərini ifadə edə bilməlidir.**

*Hədəf auditoriya*

**Yaxşı olardı ki, çoxmillətli qrup olsun və qrup üzvlərinin yaşı 15-dən yuxarı olsun.**

*Qrup həcmi*

**12-20 nəfər.**

*Materiallar*

**Konsentrik dairə suallarının siyahısı (tapşırıq materialı).**

*Vaxt*

**Verilən sualların sayından asılı olaraq, 30-60 dəqiqə.**

*Təlimçidən tələb olunan bacarıqlar/biliklər*

**Qərəz, stereotiplər və ayrı-seçkilik anlayışları barədə məlumatlı olmaq. Bu anlayışlar arasındakı fərqləri izah edə bilmək. Öz ölkəsində ayrı-seçkilik probleminin necə həll olunduğunu bilmək.**

*Hazırlıq*

- Qrupu iki hissəyə ayırın və 2 qrup yaradın.
- Birinci qrup otağın mərkəzinə doğru istiqamətlənmiş xarici dairəni, ikinci qrup isə daxili dairəni çəkir.
- Hər bir şəxs qarşı dairədəki şəxslə üzbəüz dayanmalıdır. İştirakçı sayı bərabər deyilsə, əlavə cütlüyü yarada bilərsiniz, yaxud üç nəfərlik qrupla idarə etmək olar.

*Tapşırıq*

- İştirakçılara bildirin ki, onlara müəyyən sayda sual verəcəksiniz (tapşırıq materialına baxın); sualların sayı barədə qərarı özünüz verə bilərsiniz, lakin diqqət edin ki, bu say 10-u keçməsin. Daha sonra isə hər bir cütlüyə (bir-birinin qarşısında dayanan iki nəfər) sualları cavablandırmaq üçün 2 dəqiqə vaxt verin.
- Bu, o, deməkdir ki, hər bir iştirakçıya bir sualı cavablandırmaq üçün bir dəqiqə verilir. İştirakçılara bildirin ki, bir dəqiqə başa çatdıqda "Dəyiş!" əmri ilə vaxtın bitdiyinə işarə verəcəksiniz. Hər bir dəqiqə bitdikdən sonra nitq söyləyən tərəfdaş dinləyici mövqeyinə keçir. Hansı şəxsin - xarici dairədəki, yoxsa daxili dairədəki iştirakçının sualı cavablandıraraq başlamasına siz özünüz qərar verin.
- İştirakçıları təlimatlandırın ki, məqsədəmüvafiq dinləmə bacarıqlarından istifadə etsinlər və danışan şəxsin sözünü kəsməsinlər.
- İştirakçılara deyin ki, iki dəqiqə başa çatdıqda "Növbəti!" əmrini verəcəksiniz və xarici dairədəki bir şəxs sola keçməlidir. Daxili dairə hərəkət etmir. Bu qayda ilə hər bir sualı cavablandırmaq üçün yeni cütlük yaranır.
- Bütün sualları soruşub qurtardıqdan sonra (yaxud xarici dairə tam növbələşib qurtardıqdan sonra) iştirakçılardan öz yerlərinə qayıtmağı xahiş edin.

***Tapşırığın qiymətləndirilməsi***

Aşağıdakı suallardan istifadə etməklə bütünlükdə qrupla müzakirəyə başlayın:

- Özünüz haqqında bu şəxsi informasiyanı ayrı-ayrı şəxslərlə paylaşmaq necə bir hissdir?
- Ad çəkmədən deyin: Dediklərinizi yaxşı dinlədiyini hesab etdiyiniz şəxsin hansı hərəkəti belə düşünməyinizə səbəb oldu?
- Eşitdiyiniz hansısa məsələ sizin üçün təəccüb doğurdumu, yaxud yeni bir məlumat oldumu?
- Bəzi sualların cavablandırılması digərlərinə nisbətən daha qəliz ola bilər. Sizə görə, hansı sualı cavablandırmaq xüsusilə çətin oldu? Bunun səbəbi nədir? Hansı sualları cavablandırmağı xüsusilə sevdiniz?
- Bu tapşırıqdan nə öyrəndiniz?

Müzakirədən irəli gələn əsas fikirləri icmallaşdıraraq tapşırığı yekunlaşdırın və qərəz (nədən yaranır, necə yayılır və s.), ayrı-seçkilik (öz ölkənizdə necə həll edilir), habelə ünsiyyətin (empatiya, fəal dinləmə, özünəəminlik...) əsaslarını iştirakçılara xatırladın.

***Tövsiyələr***

- İştirakçılar sualları cavablandırarkən cütlüklər arasındakı fikir mübadiləsinin müzakirəyə yox, məhz hər iki iştirakçının növbə ilə, bir-birinin sözünü kəsmədən öz fikrini bildirdiyi tapşırığa çevrildiyini təmin edin.
- Qrupdakı iştirakçılar fərqli etnik mənşədən olsalar, bu tapşırıq xüsusi maraq kəsb edər.
- Bəzi suallar iştirakçıların özünü narahat hiss etməsinə səbəb ola bilər. İştirakçılar sualı cavablandırmaqdan imtina edirsə, israr etməyin.
- Dairələr qurulduqda iştirakçılar arasında kifayət qədər məsafənin olduğuna diqqət edin (“şəxsi məkan” anlayışına hörmət prinsipi).

Mənbə

© 2011 Antidiffamasiya Liqası, www.adl.org/education. Bütün hüquqlar qorunur. Nəşriyyatçının icazəsi əsasında yenidən dərc edilmişdir.

ADL

## Tapşırıq materialı: **konsentrik dairələr üçün sual siyahısı (təkliflər)**

1. Adınız, soyadınız və ya atanızın adı barədə bir məlumat verin.
2. Ən sevdiyiniz bayram hansıdır və nə üçün?
3. İbtidai məktəbinizi təsvir edin. Ən sevimli müəlliminiz kim idi? Nə üçün?
4. Kiminsə sizin ana dilinizdən fərqli bir dildə danışdığını eşidəndə hansı hisslər keçirirsiniz?
5. Özünüzün irqi, dini və ya etnik tarixçəniz barədə, habelə həmin tarixçənizə aid olan fəxr etdiyiniz hər hansı bir nüans haqqında tərəf müqabilinizə danışın.
6. İrqi, dini və etnik qrupunuzla bağlı sizi narahat edən bir stereotip barədə öz tərəf müqabilinizə məlumat verin.
7. Fərqli etnik qrupdan olan şəxslərlə ünsiyyətinizə dair ilk xatirənizi və ya məlumatlılığınızı tərəf müqabilinizlə paylaşın.
8. Heyranı olduğunuz, hörmət etdiyiniz və zövq aldığınız, habelə sizinkindən fərqli olan etnik və ya mədəni qrup barədə tərəf müqabilinizə danışın.
9. Böyüyərkən öyrəndiyiniz bir qərəz haqqında tərəf müqabilinizə danışın.
10. Mənsub olduğunuz cinsiniz səbəbindən nə vaxtsa nəyi etməkdən çəkindiyiniz vaxtları təsvir edin.
10. Yaşınıza görə nə vaxtsa nəyisə etməkdən çəkindiyiniz vaxtları təsvir edin.
12. Kiməsə qarşı qərəzli hərəkət və ya ayrı-seçkilik xarakterli davranışın nümayiş etdirildiyinin şahidi olduğunuz vaxtı təsvir edin. Necə reaksiya bildirdiniz?
13. Qərəzə qarşı çıxmadığınız vaxt barədə tərəf müqabilinizlə danışın.
14. Və s.

# 3.2. Debat (kontekst, metodlar, alətlər...)




**Deyiləsi hər hansı bir söz qalmadığı an zorakılıq baş qaldırır! Mübahisə yox, müzakirə etmək sadə görünə bilər, lakin bu bölmədə məhz bu məsələ barədə danışırıq!**

Aşağıdakı tapşırıqlar iştirakçıları fəal müzakirələr aparmağa və dəstəkləyici bir mühitdə öz fikirlərini bir-birinə çatdırmağa çağırır.

**Kim danışır?**

Müzakirə olmadan demokratiya da olmur və bir-birini dinləmədən müzakirə də olmur. Dinləmək bacarığı özünüifadə qədər mühüm keyfiyyətdir. Bununla belə, bir-birini tanımayan insanlar qrupu ilə işləyərkən bu iki aspekt hər zaman özünü doğrultmur. Beləliklə, hər bir iştirakçının səsinin hesablandığını və bütün fikirlərin, o cümlədən azlıqların ifadə etdiyi fikirlərin dinlənildiyini təmin etməklə, söz azadlığına necə təkan verərdiniz? Bu, gənclərlə iş sektorunda çalışanlar üçün xüsusi əhəmiyyət kəsb edən bir sualdır.

«Adətən danışan şəxs kim olur?» deyə San-Loran İnstitutunun (Belçika) professoru Jerar Pirotton öz bloqunda yerləşdirdiyi məqaləsində soruşur: «Demək olar ki, həmişə proqnozlaşdırıla bilən və qəti fikrə sahib olan eyni şəxslərdir. Bəs danışmayan şəxs kimdir? Müzakirəni idarə edən şəxslərə əsaslanaraq, mövzu ilə bağlı çətinlik çəkə, məlumatsız ola biləcək, söhbətin istiqamətinin nədən ibarət olduğunu tapmaqda çətinlik çəkə biləcək istənilən şəxs...»

Buna görə də qrup daxilində səs çoxluğunu dəstəkləməklə idarə olunan demokratik debat fikir mübadiləsinin keyfiyyətini müəyyən dərəcədə azaldır. Bu isə bütün mümkün fikirlərin dilə gətirilməsinə şərait yaratmaq məqsədi ilə qrup tapşırıqları üçün yeni metodların araşdırılmasına sövq edir.

Qrup tapşırıqları üçün spesifik texnikalarla bağlı bəzi təkliflər aşağıdakı tapşırıqlarda təqdim edilir.

## 3.2.1. QRUP TAPŞIRIQLARI ÜÇÜN BİR NEÇƏ TEXNİKA

### 1. Hərəkətli debat

***Məqsədlər***

**Hərəkətli debat adətən tapşırığın əvvəlində - iştirakçılar onları nələrin gözlədiyini bilmədikdə istifadə edilir. Bu tapşırıq iştirakçılara aşağıdakılarla bağlı yardım edəcək:**

- **Sual verməyə başlamaq.**
- **Öz mövqeyini müəyyənləşdirmək.**
- **Mübahisə etmək və müzakirə aparmaq.**

***Hədəf auditoriya***

**12-25 yaş.**

***Hazırlıq***

Spesifik bir mövzu ilə bağlı bir neçə bəyanat seçin və neytral mövqe tutun. Debatı canlandırmaq üçün müvafiq bəyanatlar diqqətlə seçilməlidir. Həmin bəyanatların təfsirə ehtiyacı ola bilər. Seçilmiş mövzuya dair on ikiyə yaxın bəyanat hazırlayın. Debatın gedişatı zamanı bəzi bəyanatlar lüzumsuz olduğuna görə çıxarıla bilər. Sonda altı bəyanat kifayət edir.

***Tapşırıq***

1-ci mərhələ, məkanın hazırlanması:

- Yerdə üç zona çəkin: “bəli”; “neytral” və “xeyr”.
- Bütün iştirakçılar neytral zonadan başlayır.
- İştirakçıların verəcəyi cavabları göstərmək üçün iki sütunlu diaqram çəkin (“bəli” və “xeyr”).

2-ci mərhələ, oyunun qaydaları:

- Hər bir bəyanat oxunduqdan sonra iştirakçılar ya “bəli”, ya da “xeyr” zonasına keçəcək. Cavab verməkdə tərəddüd etsələr, “neytral” zonaya keçməlidir.
- Əsas diqqətinizi azlıqda qalan qrupa yönləndirin. Qrup öz arqumentini məsləhətləşməli və təqdim etməlidir.
- Qarşı qrup cavab verə bilər. Digər iştirakçılar isə öz fikirlərini dəyişməkdə sərbəstdir və göstərilən arqumentləri əsaslı hesab etdikləri təqdirdə, fikir mübadiləsi zamanı bir zonadan digərinə keçə bilərlər.
- “Neytral” zonada qalan iştirakçıların konkret mövqe tutmasına çalışın. Alınmasa, neytral zonanı seçməklərinin səbəbinə izah gətirməyi xahiş edin.
- Fikir mübadiləsi zamanı çoxluq qrupunun sütununu işarələyin.
- Sonra iştirakçılar neytral zonaya qayıdır. Daha sonra yeni bəyanat təqdim edilir...

***Tapşırığın qiymətləndirilməsi***

Yekun cədvəldə konkret cavab təqdim edilmir, çünki konkret cavab olmur. “Düzgün cavab sizin verdiyiniz cavabdır” prinsipinə əsaslanan debat: hər kəsin öz fikri var və bütün fikirlər düzgündür. Hazırlanan cədvəl debat prosesi və gedişatının bir məcmusudur.

***Tövsiyələr***

- Bəyanatları auditoriyanın yaş aralığına uyğunlaşdırın.
- Neytral mövqe seçin. İştirakçılar bir fərd olaraq öz mövqeyini təkbaşına seçməlidir. Sizin şəxsi düşüncələrinizin təsiri altında qalmamalıdırlar.

- Növbəti addım kimi arqumentləri yenidən hazırlaya və ya hələ fikir bildirməmiş bir iştirakçıya sözü verərək debatı yenidən başlada bilərsiniz. Bu da hər kəsin qarşıdakını dinləməyinə kömək edir.

## 2. Demokratiyanın rəngləri

*Məqsədlər*
**Bu tapşırıq hərəkətli debatın başqa bir variantıdır. Bu metodun məqsədi fikir razılığının əldə edilməsi deyil, fikir azadlığına şərait yaratmaqdır. Ən son məqsəd isə odur ki, razılıq və ya narazılıq deyil, məhz debat prosesinin özü ön plana çıxarılsın.**

*Tapşırıq*
Bu tapşırığın məğzi odur ki, debat mövzusu səsləndikdə yalnız bir neçə şəxs öz fikrini - adətən proqnozlaşdırıla bilən fikrini səsləndirir. Buna görə digərlərinin də öz fikrini bildirməsinə şərait yaratmaq üçün innovativ yanaşmadan istifadə etməliyik.
Öz fikrini şifahi formada bildirməyə ehtiyac qalmadan hər kəsin debat mövzusu barədə öz mövqeyini bildirməsi üçün bu tapşırıqda rəngli kartlar qaldırılır. Həmin rənglər razılığı, narazılığı, tərəddüdü, məlumatsızlıq səbəbindən qərar verməkdə çətinlik çəkdiyimiz fikri və nəhayət, sualın düzgün verilmədiyini hesab etdiyimizi ifadə edir. Həddən artıq konnotasiyalara malik olduğu üçün qırmızı rəngdən qaçmağı tövsiyə edərdik.
Rənglə bağlı təkliflər:
- Razılıq: yaşıl
- Narazılıq: sarı
- Tərəddüd/əsaslandırılmış bir qərar vermək üçün kifayət qədər məlumat yoxdur: narıncı
- Sual/məsələ düzgün qoyulmayıb: mavi

Hər kəsə rəngli kartlar verin. Bu kartlar kimsənin öz fikrini şifahi formada bildirməyə ehtiyacı qalmadan qrupun çoxluq fikrini ifadə edəcək. Müzakirəni çoxluğun fikrinə uyğunlaşdırmalı olacaqsınız:
- Çoxluq “qərarsızdır” və ya “sualın/məsələnin düzgün qoyulmadığı” qənaətindədir

Çoxluq qərarsızdırsa və ya bəziləri suala aydınlıq gətirilməsini tələb edirsə, müzakirəyə başlamaq tövsiyə olunmur. Bu halda, müzakirə mövzusu iştirakçılar üçün aydınlaşdırılmalıdır. Mövzu ilə bağlı əvvəl bir-biri ilə qarşıdurmada olan razı və narazı tərəflərin mövzuya aydınlıq gətirilməsi üçün bir araya gəlməsi ilə qrupun dinamikası dəyişəcək. Daha sonra iştirakçılar kartlarının rəngini dəyişərək yeni “maarifləndirilmiş” qrup yaradırlar. Növbəti addım kimi qərarsız şəxslərə söz verə bilərsiniz. Bu, ənənəvi gedişatı dəyişdirmək və hər bir qrupun sözünün dinlənilməsinə yer ayrıldığına diqqət çəkmək üçün bir metoddur.
- “Razılar” və ya “narazılar”

İlk sözü azlıqda qalan qrupa verin. Beləliklə, adətən azlıqda qalan qrupu bir küncdə dayanaraq çoxluğun fikrini dinləməyə təhrik edən ənənəvi gedişatı dəyişəcək. Bu həmçinin azlığı müzakirə mərkəzinə gətirəcək və daha müstəqil fikir mübadiləsinə səbəb olacaq. Müzakirə irəlilədikcə iştirakçılar öz mövqeyini dəyişə və yeni fikirlərini bildirə bilərlər. Deməli, hələ ki öz fikrini səsləndirməmiş şəxslər də seçdikləri rəngli kartı, hətta kartları yelləməklə söz ala bilər. Çünki onlar müzakirə boyu rəngli kartlarını dəyişməkdə azaddırlar. (Jerar Pirottondan bəhrələnmişdir, users.skynet.be/gerard.pirotton/Textes-site-DW08/esperluette-2006-couleurs-viveret.pdf).

### 3. Yarımqruplar

Bəzi iştirakçılar təkbətək qarşılaşmada, yaxud kiçik qrup daxilində, bəziləri isə böyük qrupda özlərini daha rahat hiss edə bilər. Buna görə də bütün iştirakçıların özünü rahat hiss etməsi üçün müzakirə boyu iştirakçı sayı fərqli olmalıdır. Bu, həmçinin müzakirənin ahəngini də dəyişməyə kömək edəcək.
Hər bir iştirakçının ehtiyaclarını qarşılamaq məqsədi ilə yarımqruplar iki, üç, dörd nəfərlik (hətta daha çox sayda) qruplardan ibarət ola bilər.
Yarımqrupların yaradılması üçün bir çox yanaşma mövcuddur: iştirakçıların səciyyəvi cəhətlərini tapmaq və ya qərarı iştirakçıların öhdəsinə buraxaraq qrupu təsadüfi şəkildə formalaşdırmaq.

### 4. Dəyirmi masa

Bu tapşırıq üçün qrup üzvləri dairə formasında düzülür. Lazımi sayda dairələr yaradılır (hər dairədə 5-8 iştirakçı olmalıdır). İştirakçıların bu cür düzülməsi vizual və şifahi fikir mübadiləsini sadələşdirəcək.
Debata başlayın; sadə bir sual və ya məsələnin ortaya atılması ilə start verə bilərsiniz. Həmçinin oyunun mərhələləri və qaydalarını da təqdim etməlisiniz (dinləmə, bir-birinə hörmətlə yanaşma, mühakimə etməmə):

- Məsələ ilə əlaqədar hər bir iştirakçıdan növbə ilə şəxsi fikrini soruşun və ya sualı cavablandırmasını xahiş edin. İştirakçıdan asılı olaraq müddət dəyişə bilər, yaxud hər bir iştirakçının fikrini səsləndirməsi üçün ayrılan vaxt əvvəlcədən müəyyənləşdirilə bilər (xüsusilə də bəzi iştirakçıların danışmağa, yaxud qrupda hakim mövqe tutmağa meylli olduğu hallarda). Bu vaxt ərzində bildirilən fikirlərə və verilən cavablara qarşı hər hansı reaksiyanın (təsdiq və ya narazılıq) verilməməsinə diqqət edin.
- Hansısa iştirakçı danışmaq istəməzsə, bu, onların seçimidir. Lakin bunu bir qayda kimi təqdim etməyin, çünki maksimal sayda iştirakçının öz sözünü deməsi bu tapşırığın əsas məğzində dayanır.
- Müzakirənin ilk dövrəsindən sonra fərqli fikirləri bir araya gətirin və iştirakçıları münasibət bildirməyə həvəsləndirin. Fikirlərin səsləndirilməsini tənzimləyin və vaxta diqqət edin. Hər bir iştirakçı müzakirəyə girişməklə deyil, məhz qrupun bildirdiyi münasibətlərə dair öz fikrini səsləndirməklə yalnız bir dəfə müdaxilə edə bilər. Lazım olarsa, təfərrüatları dəqiqləşdirmək üçün araya girin.
- Bundan sonra dəyirmi masa müzakirəsinin ikinci dövrəsini təklif edin ki, hər bir kəs ən yeni rəylərlə bağlı öz fikrini dəqiqləşdirə bilsin. İştirakçılar yeni fikirlər səsləndirə və ya məxsusi olaraq onlara yönləndirilmiş qeydə öz münasibətini bildirə bilər.
- Sonda isə fərqli fikirlərin əsas məqamlarını vurğulamaqla, qrupun mövqeyini və ümumi tendensiyasını icmallaşdırın. Burada məqsəd konkret konsensusa gəlmək deyil, məhz bütün fikirlərin səsləndirildiyini təmin etməkdir.

Bu metod iştirakçıların öz fikirlərini aydın və dəqiq formada ifadə etməsini, bir-birini dinləməsini, zəruri hallarda öz fikrini dəyişməsini, eyni zamanda, istənilən birbaşa və şəxsi qarşılaşdırma olmamasını tələb edir. Müzakirə mövzusu həssas xarakterli və ya potensial münaqişə mənbəyi olarsa, bu tapşırıq daha yaxşı nəticələr verər.

**5. Söhbət ağacı**

Söhbət ağacı sub-Sahara Afrikasında yerləşən bir kəndə dəlalət edir. Bu kənddə axşam düşərkən insanlar böyük bir ağacın altına yığışır, müzakirələr edir, həmçinin şəhərlə bağlı planlar qurur və o qədər də ciddi olmayan məsələlər barədə danışır... Bu, müzakirə, öz fikrini bildirmə və dinləmə üçün bir yerdir.

Cənubi Afrikanın keçmiş prezidenti Nelson Mandela söhbət ağacını "öz hüquqları çərçivəsində demokratik institut" adlandırırdı. O, özünün avtobioqrafiyasında bu cür toplantıların siyasi mühitə təsir göstərdiyini vurğulayır. Bildirir ki, "danışmaq istəyən hər kəsə söz verilir: bu, ən real demokratiya formasıdır".

Hazırda dinləmə və bir-birinə hörmət nüanslarını diqqətdə saxlamaqla, cəəmiyyətin əsas problemlərini müzakirə etmək üçün Qərb ölkələrində "söhbət ağacı" geniş yayılmaqdadır. Bu xüsusilə də gənclərlə iş sektorundakı fəaliyyət və tədbirlər üçün uyğundur. Parisin yaxınlığında yerləşən Qut Dordakı "La Salle" gənclər mərkəzində "söhbət ağacı"ndan ilhamlanaraq məkan ayrılmışdır: *"Bizə çox təsir göstərmiş və bəzi gənclərin mübarizə apardığı ən son terror hücumları kimi daha ciddi məsələlər, eyni zamanda, hobbilər kimi mövzuları ehtiva edərək, mərkəzdəki və ətrafdakı həyat barədə danışması üçün insanlara ayda iki dəfə müəyyən vaxt ayırırıq".*

"Söhbət ağacı"nın mərkəzi prinsipi çox sadədir; o, hər kəsin öz sözünü deməsi hüququnun olduğuna və bütün sözlərin bərabər dəyərə malik olduğuna dəlalət edir. Afrika cəmiyyətlərindəki ənənə belədir ki, böyüklər danışmaq növbəsi gələnlərə cavabdehlik edir. Bu tapşırığı icra edərkən böyüklük funksiyasını öz üzərinizə götürə və ya bu öhdəliyi hər hansı bir iştirakçıya verə bilərsiniz. Belə məsul bir şəxs qrupdaxili vəhdətin formalaşmasına kömək edəcək və müzakirə zamanı heç kəs öz fikrinin yanlış olduğu qənaətinə gəlməyəcək.

# 3.2.2. "FRİZBİ"

*Məqsədlər*

**"Frizbi" Kanada metodundan bəhrələnən tapşırıq texnikasıdır. Debatı canlandırmaq üçün ifadələr (frizbi kimi) ortaya atılır. "Frizbi" tapşırığının əsas vəzifəsi spesifik mövzularla bağlı gənclərin fikir mübadiləsi aparmağına təkan verməkdir. Əlavə məqsədlərə həmçinin aşağıdakılar daxildir:**

- **Tənqidi təfəkkür bacarıqlarını inkişaf etdirmək, aidiyyəti mövzuya dair şəxsi münasibətlərini bildirmək və perspektivə nail olmaqda gənclərə şərait yaratmaq.**
- **Məlumatlılığın əhəmiyyətini vurğulamaq və debat zamanı gənclərdə özünəəminliyi aşılamaq.**
- **Fikir mübadiləsini təşviq etmək.**
- **Müsbət yönümlü özünəhörməti dəstəkləmək.**

*Hədəf auditoriya*

**Bu texnika bütün yaş kateqoriyalarına açıqdır, lakin xüsusilə də 14-18 yaşlı auditoriyada daha yaxşı nəticələr verir.**

*Qrup həcmi*

**10-25 nəfər.**

*Materiallar*

**8 bəyanat (təlimçi tərəfindən əvvəlcədən hazırlanır).**

*Vaxt*

**Arada bir fasilə ilə təqribən 1.5 saat. Daha az cümlə istifadə etməklə tapşırıq vaxtını azalda bilərsiniz.**

*Təlimçidən tələb olunan bacarıqlar/biliklər*

**"Frizbi" texnikası üçün seçilmiş mövzu ilə əlaqədar hərtərəfli məlumata malik olmalısınız.**

*Hazırlıq*

- İlk növbədə, mövzunu seçin. Mövzunu siz, yaxud iştirakçılar seçə bilər. Kimin seçməyindən asılı olmayaraq, həmin mövzu gənclərə aid olmalıdır; əks halda, müzakirəyə başlamaq çətin ola bilər.
- Mövzu ilə bağlı müəyyən araşdırma aparın. Debatı formalaşdırmaq və verilən sualları cavablandırmaq məqsədi ilə mövzuya dair "ekspert"i dəvət edə bilərsiniz.
- Spesifik hədəfləri müəyyənləşdirin. Məsələn, "Debatın sonunda iştirakçıların .... bilməsini istərdim".
- 8 bəyanat seçin (çox vaxtınız yoxdursa, daha az bəyanat seçə bilərsiniz). Bu bəyanatlar debatı canlandırmalıdır. Onlar müzakirəyə təhrik etməli və mövcud fikirlərdən sual doğurmalıdır, eyni zamanda, iştirakçıları danışmağa və fikirlərini səsləndirməyə həvəsləndirməlidir. "Düzgün cavab" və "mühakimə" deyə bir qiymətləndirmə olmamalıdır. Müzakirənin arzuolunan nəticələrindən asılı olaraq, bəyanatları hazırlaya bilərsiniz.
- Bəyanatların uyğun olub-olmadığını qiymətləndirmək məqsədi ilə dostlar və ya həmkarlarınızla onları yoxlaya bilərsiniz.

*Tapşırıq*

- İlk əvvəl debat üçün müəyyən qaydaları səsləndirin:
  - Məxfiliyin qorunması ("burda deyilənlər elə burda qalmalıdır")
  - Səsləndirilən bütün fikirlərə hörmətlə yanaşmaq (mühakimə etməmək)
  - Dediyiniz sözlərə görə məsuliyyət daşımaq

- İştirak etmək
- Dinləmək və müzakirəni davam etdirmək
- Qrupun adından çıxış etmək üçün iştirakçılar sizdən icazə istəyə bilər. Lakin burada ehtiyatlı olun, çünki bu, iştirakı və tapşırığın spontanlığını məhdudlaşdıra bilər.
- Debata başlamazdan öncə iştirakçılar bu qaydalarla tanış olmalıdır.

- “Frizbi” prinsipini və onun necə işlədiyini izah edin.
- İştirakçıları 4-5 nəfərlik yarımqruplara ayırın.
- Tapşırıq vərəqələrini qrupa paylayın. Hazırladığınız bütün bəyanatlar bu vərəqələrdə olmalıdır.
- Hər 8 bəyanat üzrə yarımqruplar aşağıdakıları seçməlidir:
  - razılaşdıqları 2 bəyanat.
  - razılaşmadıqları 2 bəyanat.
  - qismən razılaşdıqları 2 bəyanat.
  - Xüsusilə də qrup üçün hər hansı bir maraq kəsb etmədiyi təqdirdə, digər 2 bəyanat kənarda saxlanılır.
  - Səsvermə aparılmır - qrup müzakirə aparmalı və götür-qoy etməlidir.
  - Qrup tapşırığın nəticəsini yazılı surətdə hazırlamalıdır. Mükəmməl formada yazılmağına ehtiyac yoxdur, öz seçimlərini izah etmək və müzakirəni yekunlaşdırmaq üçün sadəcə bir neçə söz yazmalıdırlar (bu bəyanatı seçmək asan oldu? Nə üçün? Hər kəs razılaşdımı? və s.)
- Müvafiq dinamikanı qoruyub saxlamaq üçün yarımqrupları vəhdətdə saxlamaqla bütünlükdə qrupu yenidən bir araya gətirin. Tapşırığın bu hissəsinin məqsədi daha böyük qrup olaraq debat aparmaqdır. Burada məqsəd hansısa razılığa gəlmək deyil, məhz hər kəsin fikrini dinləmək və potensial olaraq düşüncə tərzlərini dəyişməkdir. Yarımqruplar danışmaq üçün heç bir natiq təyin etməməlidir. Hər kəs öz sözünü şəxsən ifadə etməlidir.
  - Aşağıdakıları soruşa bilərsiniz: *“Yarımqrup şəklində müzakirə təcrübəniz necə oldu?” “Özünüzü necə hiss etdiniz?” “Müəyyən bir razılığa gəlmək çətin oldu?” ...*
  - Qrupların birindən razılaşdıqları bəyanatı soruşun və həmin cümləni lövhədə qeyd edin. Qrup öz nəzər nöqtəsini müdafiə etməlidir. *“Nə üçün belə fikirləşirsiniz?”, “Bu, təcrübədə nə deməkdir?” və s.* sualları verməklə müzakirəni davam etdirə bilərsiniz.
  - Səsləndirilən arqument şərti və ya siyasi cəhətdən düzgün nəzər nöqtəsinə əsaslanırsa, daha tənqidi fikirlərin bildirilməsini aşılayın.
- Debata yenidən başlayın:
  - Qrupun digər üzvlərinin fikri ilə razılaşmaqda çətinlik çəkən kimsə varmı? Nəyə görə çətinlik çəkdiniz? Hansısa əks-arqumentlər səsləndirildimi?
  - Cümlələrdən hər hansı biri ilə bağlı çoxsaylı qruplar eyni qənaətə gəldimi? Bunun səbəbi, sizcə, nə idi? Hansısa fikirlər digərlərindən çox fərqli oldumu?
  - Eyni cümləyə fərqli nəzər nöqtəsi ilə yanaşmaq olardımı? Kimsə əks fikir yürüdə bilərdimi? Nə üçün?
  - Bəzən hansısa lətifə, xəbər başlığı, tövsiyə məktubu və ya statistik məlumat da debatı canlandıra bilər.
- İştirakçıların yorulduğunu görsəniz, bəzi nəticələri səsləndirin.
- Bacardığınız qədər daha çox cümlədən istifadə etməklə debatı təkrarlayın.

- Müxtəlif mövzuları və iştirakçıların öyrəndiklərini müzakirə etməklə tapşırığı yekunlaşdırın.
- Müzakirədən irəli gələn bütün arqument və fikirləri əhatə etməyə çalışın.
- Qrup xahiş edərsə və ya cavab tapmaqda çətinlik çəkərsə, başqa bir mənbədən daha çox informasiya seçin..

***Vaxt aralığı***

- Giriş: 10-15 dəqiqə.
- Yarımqrup işi: 30 dəqiqə.
- Fasilə: 5 dəqiqə.
- Böyük qrupla debat: 50 dəqiqə.

***Tövsiyyələr***

- İştirakçıların öz fikrini bildirməsi üçün özlərini sərbəst hiss etməsi lazımdır. İştirakçıları yaxşı tanımırsınızsa, sizin qarşınızda fikir bildirmələri onlar üçün çətin ola bilər. Eynilə də, əgər onlar sizi çox yaxşı tanıyırlarsa, sizi naümid etmək və ya gözləntilərinizə cavab verməmək qorxusu ilə müzakirədə iştirak etmək onlar üçün yenə də çətin ola bilər. Müzakirəyə mane olacağınızı düşünürsünüzsə, bu tapşırığın idarə edilməsini üçüncü tərəfə həvalə edə bilərsiniz.
- İştirakçıların öz fikrini sərbəst şəkildə bildirməsi üçün onların bir-birini yaxşı tanıması yerinə düşərdi.

***Mənbələr***

Mutualité chrétienne, Et toi, t'en penses quoi? 2013, www.et-toi.be.

***Əlavə məlumat***

www.et-toi.be veb səhifəsində (fransız və alman dillərində) yuxarıdakı tapşırığın əsaslandığı «frizbi» prinsipinin tam təsviri verilir. Debatı necə aparmaq, necə canlandırmaq, özünü qaydalara uyğun aparmayan iştirakçını necə idarə etmək və s. mövzularla bağlı praktik informasiyanı da bu səhifədən əldə edə bilərsiniz. "Tematik" bölmədə isə alkoqol, narkotik və əlavə vasitələr, hiss-həyəcan, gərginlik və sosial şəbəkələr kimi əsas mövzularla bağlı bir neçə cümlə ("Frizbi") verilir. Həmçinin tapşırığın qiymətləndirilməsi metoduna dair təkliflərə də xüsusi yer verilib.

# 3.2.3. HARADA DAYANMISINIZ?

***Məqsədlər***

**Bu tapşırığın məqsədi ünsiyyət və özünəəminlik bacarıqlarını artırmaqdır. Bu tapşırıq nəticəsində iştirakçılar aşağıdakıları bacaracaq:**

- **Öz mövqeyini bildirmək və onu qrup daxilində müdafiə etmək.**
- **Qrupun bir üzvü olaraq, arqument səsləndirmək.**
- **Özünə əmin olmaqla, şəxsi fikrini səsləndirmək.**
- **Şifahi və qeyri-şifahi ünsiyyət mexanizmlərini başa düşmək.**

***Hədəf auditoriya***

**Bütün yaş qrupları.**

***Qrup həcmi***

**12-20 nəfər.**

***Materiallar***

**2 poster: Razıyam və narazıyam.**

**2 oturacaq.**

***Vaxt***

**45-50 dəqiqə.**

***Təlimçidən tələb olunan bacarıqlar/biliklər***

**Demokratiya, fikir azadlığı və ünsiyyət üçün başlanğıc məqamlar barədə müəyyən məlumatlara malik olmalısınız.**

***Hazırlıq***

- "Razıyam" və "Narazıyam" posterlərini otağın arxa hissəsinə bir-birindən aralı şəkildə yerləşdirin ki, iştirakçılar onların arasındakı düz xətti (xəyali) görə bilsin.
- Otağın mərkəzi hissəsində iki stulu üzbəüz yerləşdirin və iştirakçılardan xahiş edin ki, həmin stulların ətrafına cəmlənsinlər.
- Tapşırığın qaydalarını izah edin:
  - Hər bir iştirakçının öz mövqeyini bildirməsini tələb edən cümlələr səsləndiriləcək.
  - Hər cümlə səsləndikdə həmin cümlə ilə bağlı razı və ya narazı olduqlarından asılı olaraq, iştirakçılar iki stul arasında öz mövqelərini tutmalıdır.

***Tapşırıq***

Cümlələri səsləndirməklə start verin:

- Seçkilərdə səs vermək hüququnuzdan istifadə etməyə mənəvi borcunuz var.
- Ədalətsiz olduğunu hesab etsəniz belə, bütün qanunlara əməl etməlisiniz.
- Demokratiyada hakim rola malik olan yeganə şəxslər siyasətçilərdir.
- Vətəndaşlar malik olduqları rəhbərlərə layiqdir.
- Öz nümayəndələrinin gündəlik fəaliyyətlərinə nəzarət etmək məhz vətəndaşların cavabdehliyidir.
- Mən həmişə dostlarımın seçdiyi mövqeni və ya çoxluğun fikrini dəstəkləyirəm. (Qrupun müti davranışına nəzakətli formada işarə etmək üçün bu cümlədən yararlanmaq olar. İştirakçıların öz

düşüncələrinə deyil, məhz qrupun digər güclü üzvlərinin fikirlərinə əsaslandığını sezsəniz, bu tip cümlələr daha tez-tez səsləndirilə bilər.)

- Azadlığı dəstəkləməyənlərə heç bir azadlıq verilməməlidir. Ekstremist tərəfdarlara küçələrdə yürüş keçirməyə icazə verməməliyik.

Əlbəttə ki, başqa mövzularla da işləmək olar. Əsas məqam odur ki, həmin cümlələr işlədiyiniz qrup üçün mübahisəli görünsün.

***Arqumentlər***

- Daha çox mübahisəyə səbəb olan cümlələrə qayıdın və iştirakçılardan seçdikləri mövqeni tutmağı xahiş edin.
- Bir-birinə tam zidd olan mövqeyə malik iki iştirakçını otağın mərkəzinə qoyulmuş oturacaqlarda əyləşməyə dəvət edin. Digər iştirakçılar isə öz yerində gözləməlidir.
- Əyləşmiş hər iki iştirakçının hərəsinə bir dəqiqə vaxt verin ki, cümlə ilə bağlı razılığı və ya narazılığının səbəblərini izah etsinlər. Onların sözünü heç kəs kəsməməli və ya onlara heç kəs yardım göstərməməlidir.
- Sonra qrupun digər üzvləri daha inandırıcı arqumentlər gətirdiyini hesab etdikləri şəxsin arxasında dayanır, bununla da, “lehinə” və “əleyhinə” tərəfdarlar meydana gəlir.
- Hər iki qrup öz mövqeyini müdafiə etmək məqsədi ilə bir arqument hazırlamaq üçün 10 dəqiqə ərzində birlikdə fikir yürüdür. Onlar fikirlərini səsləndirmək üçün bir nümayəndə (lakin əvvəl danışan şəxs olmamalıdır) seçə bilər.
- Hər iki yeni nümayəndə öz yerində əyləşir. Ətrafında komanda olmaqla, öz arqumentlərini təqdim etmək üçün onlara 3 dəqiqə vaxt verilir.
- Təqdimatların sonunda iştirakçılar qarşı qrupun dediklərini daha inandırıcı hesab etsələr, tutduqları mövqeni dəyişə bilər.
- Daha sonra meydana gələn yeni qruplara 5 dəqiqə vaxt verilir ki, yeni arqument hazırlasınlar. Hər iki qrup yenə də yeni bir nümayəndə seçməlidir.
- Əvvəl olduğu kimi, qarşı qrupun dediklərini inandırıcı hesab edən iştirakçılar öz mövqelərini dəyişməkdə sərbəstdir.

***Tapşırığın qiymətləndirilməsi***

- Seçilmiş cümlə ətrafında uzun-uzadı debat aparmağa deyil, məhz iştirakçıların debatla bağlı münasibətini bilməyinə, onun plüralistik bir cəmiyyətdəki məqsəd və dəyərləri barədə fikirləşməyinə diqqət yönəltmək lazımdır. Narazılıq və hətta münaqişəni demokratiyanın hərəkətverici amillərindən biri və cəmiyyətin təkamülü vasitəsi kimi nəzərdən keçirmək vacibdir.
- Qiymətləndirmə prosesinə başlamaq üçün bəzi ideyalar:
  - Müzakirə zamanı bəzi iştirakçılar öz fikirlərini dəyişdilərmi? Bəzi iştirakçılar öz fikirlərini dəyişdilərsə, onları buna inandıran əsas arqumentlər hansılar oldu? Onların seçiminə ən çox nə təsir etdi - arqumentin özü, yoxsa fikrin təqdim edilməsi metodu?
  - İştirakçılar arqumentin özünün deyil, məhz qrup təzyiqi, emosional dil və ya rəqabət hissi kimi faktorların təsirinə düşdüklərini hesab edirmi?
  - Müzakirə boyu eyni mövqedə qalan iştirakçılar bu müzakirədən nələri əldə etdiyi qənaətindədir? Məsələ ilə bağlı yenə də eyni mövqedə qalırlarmı? Onların fikrini dəyişmiş ola biləcək hər hansı bir arqument varmı?
  - Nə üçün insanlar fərqli düşüncələrə malikdir və belə bir hal demokratik cəmiyyətdə necə idarə edilə bilər?
  - Demokratik bir cəmiyyətdə bütün fikirlər dinlənilməlidirmi?

### *Tövsiyələr*

Bu tapşırığın siyasi foruma çevrilməməsinə diqqət edin.

***Mənbə***

Avropa Şurası, *Kompas: Gənclərlə insan hüquqları sahəsində maarifləndirmə tədbirlərinə dair təlimat,* Strasburq, 2002.

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# 3.3. Münaqişələrin idarə edilməsi




**Cəmiyyətin, ümumiyyətlə, heç bir münaqişə olmadan fəaliyyət göstərə biləcəyinə və yaxud belə bir vəziyyətin hətta arzuedilən ola biləcəyinə inanmaq cəfəngiyyat olardı... Başqalarına və özümüzə, öz fərqli cəhətlərimizə hörmətlə yanaşmaq, dözümlülük nümayiş etdirmək, debat və dialoqlar üçün açıq məkanlar hazırlamaq - bütün bunlar mübahisəli vəziyyətləri potensial surətdə genişləndirməyə təkan verir. Münaqişədən tam olaraq yan keçmək mümkün deyil; bu, cəmiyyətdəki birgə həyatın bir hissəsidir və hətta yaxşı idarə edildiyi təqdirdə, cəmiyyətin inkişafı üçün faydalıdır!**

Cəmiyyətin hər hansı bir münaqişə olmadan fəaliyyət göstərə biləcəyinə və yaxud bunun hətta arzuedilən ola biləcəyinə inanmaq cəfəngiyyat olardı. Özünəhörmət və dözümlülüyü aşılamaqla, insanların fərqli cəhətlərinə hörmətlə yanaşmaqla, **açıq debat və dialoqlar üçün məkanlar yaratmaqla** münaqişənin genişləndirilməsi mümkündür. Buna baxmayaraq, münaqişədən tam olaraq yan keçmək mümkün deyil; bu, cəmiyyətdəki həyatın bir hissəsidir və hətta yaxşı idarə edildiyi təqdirdə, cəmiyyətin inkişafı üçün faydalı ola bilər.

Münaqişəli vəziyyətləri genişləndirmək və onlara bağlı qalmamaq onların aradan qaldırılma metodlarını bilməyi, onların qarşısının alınması üçün xüsusi metodu qəbul etməyi və ya zəruri hallarda, münaqişəli vəziyyətdən çıxış yollarını axtarıb tapmağı tələb edir. Həmçinin hər şeydən əvvəl, **münaqişələrin necə və nə üçün meydana gəldiyini başa düşmək** lazımdır. Eləcə də münaqişə ilə bağlı şəxsi münasibəti müşahidə etmək və sorğulamaq metodlarını da bilmək tələb olunur.

20-ci əsr boyu psixoloqlar münaqişə mexanizmlərini daha yaxşı qavramağa maraq göstərmiş və nəticədə, fərd üzərinə köklənmişdir: münaqişə öz şəxsi ehtiyaclarını qarşılamaq istiqamətindəki dərk edilən maneə səbəbindən ümidsizliyin (qorxu və ya qəzəbin) ifadəsidir. Aidiyyəti fərdin şəxsiyyəti, fərqli maraqları, hakimiyyətlə bağlı sualları, mədəniyyət və ya fərqli inamlar bu dərketmənin əsasında dayana bilər. Ehtiyaclarını qarşılaya bilməmək təhlükəsi ilə üzləşdikdə verilən reaksiya adətən emosional xarakterli olur. Bu emosiya və onun təkan verdiyi davranış çox vaxt fərdin münasibət bildirməsindən əvvəl baş verir. Çünki həmin an fərd özünü təhlükədə hiss edir, göstərdiyi davranış da aqressiv olur.

Buna görə də münaqişənin qarşısını almaq məqsədi ilə emosiyalara uyğun hərəkət etmək, öz fikrini ifadə etmək və bütün ehtiyacların qarşılandığını təmin etmək, başqalarının ehtiyaclarını dinləmək və başa düşmək, yeni davranış formalarını qəbul etmək zəruridir.

Münaqişəli bir vəziyyətdə "vəziyyəti daha da pisləşdirməmək" naminə hərəkətsiz qalmaq bəzən yerinə düşür. Mövcud vəziyyətə müdaxilə etməməliyik. Ən yaxşı halda, münaqişə süni olaraq süst vəziyyətə gətirilə bilər, lakin heç bir həll yolu tapılmasa, həmin münaqişə gec, ya tez yenidən alovlanacaqdır. Münaqişənin həll olunması üçün həmin vəziyyəti dəyişdirmək lazımdır.

Bu çətin missiyanın öhdəsindən gəlmək üçün fərqli yanaşmalar mövcuddur:

Amerikalı humanist psixoloqlar Avram Maslou (1908-1970) və Karl Rocers (1902-1987) bir addım geri çəkilməyin, habelə fərdi **dinləməyə köklənməyin əhəmiyyətini vurğulayır.** Hiss və ehtiyacların ifadə edilməsini dəstəkləmək, qarşı tərəfin hisslərini başa düşmək üçün özünü onun yerinə qoymaq, ünsiyyəti yeniləmək və qəbulolunan bir həll yolunu tapmaq münaqişənin qarşısını almağa və ya ona son qoymağa yardım edəcək.

**Qeyri-zorakı ünsiyyət** (QZÜ) prinsipi ilə yenicə təklif olunan münaqişələrin idarə edilməsi texnikaları müxtəlif maraqlı tərəflər arasında çox geniş yayılmağa başlamışdır. Qeyri-zorakı ünsiyyət prinsipinin yaradıcısı, Karl Rocersin keçmiş tələbəsi olan və onun yaradıcılığından bəhrələnən Marşal Rozenberqə görə, qeyri-zorakı ünsiyyət prinsipi qarşı tərəfi və onun ehtiyaclarını dinləməklə münaqişəni dialoqa çevirər. Qeyri-zorakı ünsiyyət texnikası aşağıdakı dörd prinsipə əsaslanır:

- Mühakimə etmədən dinləmək bacarığı;
- Aqressivlik nümayiş etdirmədən öz fikirlərini səsləndirmək;

- Öz ehtiyaclarını səmimi bir formada dilə gətirmək;
- Başqalarından gözlənilən nəsnələri sülhməramlı şəkildə ifadə etmək.

Qeyri-zorakı ünsiyyət və münaqişələrin idarə edilməsində bundan bir metod kimi yararlanan müxtəlif strukturlar barədə çoxsaylı kitablar nəşr olunmuşdur. Münaqişələrin idarə edilməsi baxımından Rozenberqin təklif etdiyi texnikalara diqqət yetirmək lazım olsa da, onun metodlarını təşviq edən strukturlar barədə ehtiyatlı davranmaq tövsiyə edilir. Həqiqətən də, fərdlər arasındakı münasibətlərə təsir etdiyi güman olunan digər ünsiyyət texnikaları kimi, qeyri-zorakı ünsiyyət texnikası da özünün ilkin məqsədindən yayına bilər. Qeyri-zorakı ünsiyyət nə mistik bir texnikadır, nə də qlobal problemlərə cavabdır.

***Əlavə oxu***

Bax: biblioqrafiya, səh.37

# 3.3.1. QATAR

***Məqsədlər***

**Bu tapşırığın məqsədi iştirakçılara aşağıdakılarla bağlı yardım etməkdir:**

- **Münaqişəli vəziyyətlə birgə yaşamaq.**
- **Münaqişəli vəziyyətlərdə nümayiş etdirilən davranışları müəyyənləşdirmək.**
- **Münaqişələri həll etmək məqsədi ilə onların iş prinsipini başa düşmək.**

***Hədəf auditoriya***

**12-15, yaxud 16-25 yaşlı şəxslər.**

***Qrup həcmi***

**10-15 nəfər.**

***Materiallar***

- **4 stul, bir-birinə qarşı qoyulmuş 2X2.**
- **Sərnişin(tapşırıq materialları 1-5)**
- **Müşahidəçi (tapşırıq materialı 6)**

***Vaxt***

**İştirakçı sayından asılı olaraq, rollu oyun üçün 10-15 dəqiqə, sorğu-sual üçün 15-30 dəqiqə vaxt nəzərdə tutun.**

***Hazırlıq***

- Qrupda 5 nəfər seçin və onlara “sərnişin” rolunu verin.
- Digər iştirakçılara isə “müşahidəçi” rolunu verin.
- 5 sərnişin üçün yalnız 4 yer nəzərdə tutulduğuna görə münaqişəli vəziyyət yaranacaq.

***Tapşırıq***

- İştirakçılara vəziyyəti başa düşməyə şərait yaradın. Çünki onların reaksiyaları təbii və spontan olmalıdır.
- Bir təlimçi kimi nəzarətçi rolunda çıxış edirsiniz.
- Aşağıdakı elanı verməklə tapşırığa başlayın:
  - “Xanımlar və cənablar, Amsterdama yola düşəcək qatara xoş gəlmisiniz. Məlumat vermək istərdik ki, qatarda yerlər doludur, ayaq üstdə dayanan sərnişinlərdən qatarı tərk etməyi xahiş edirik. Bir dayanacağımız Brüsseldə olacaq, sonra isə qatar Amsterdama doğru hərəkət edəcək. 10 dəqiqəyə yola düşəcəyik”.
  - 5 dəqiqə sonra aşağıdakı elanı sələndirin: “Xanımlar və cənablar, Amsterdama yola düşən qatarımıza qoşulmuş sərnişinləri salamlayırıq. Qatar 5 dəqiqəyə yola düşəcək”.
  - 3 dəqiqə sonra aşağıdakı elanı səsləndirin: “Xanımlar və cənablar, qatar yola düşməyə hazırdır. Sərnişinləri müşayiət edən şəxslərdən qatarı tərk etməyi xahiş edirik. Xatırladırıq ki, qatarımızda yerlər dolub, ayaq üstdə dayanan şəxslərdən qatarı tərk etməyi xahiş edirik”.
  - 2 dəqiqə sonra: “qatar”a qayıdın və ayaq üstdə dayanan şəxsə deyin: Xanım (yaxud cənab), qatar bir azdan yola düşəcək. Sizin qatarı tərk etmək üçün vaxtınız var”. İştirakçı mübahisə etməyə çalışırsa, o zaman: “Heç nə eşitmək istəmirəm, xahiş edirəm, qatarı tərk edəsiniz. Gedib platformada izah edə bilərsiniz. Qatardan enməsəniz, qatar yola düşməyəcək”.

*Tapşırığın qiymətləndirilməsi*

- Hər bir iştirakçıdan nə hisslər keçirdiyini soruşun.
- Münaqişənin bütün elementləri nə üçün bu tapşırıqda birləşdirildi?
  - Hər kəsin real bir səbəbi vardır.
  - Hər kəs öz səbəbinin digər səbəbə nisbətdə daha real olduğunu düşünür.
  - Qatarda elanlar verilərkən vəziyyət daha da gərginləşdi.
  - Məhdud resurslar şəraitində münaqişə yaranır.
- Daha sonra münaqişəli vəziyyət üzrə 5 davranışı təqdim etmək məqsədi ilə müşahidəçi qismində çıxış edənlərə bildirin ki, müşahidə cədvəlindən (tapşırıq materialı) istifadə edərək gördükləri mənzərəyə dair şərh versinlər.

*Tövsiyələr*

Bu tapşırıq münaqişələrin idarə edilməsi üzrə ardıcıllıq prinsipinə dəlalət edir. Münaqişənin qarşısını almaq üçün mümkün həll yollarının təklif olunması ilə bu tapşırığı yekunlaşdıra bilərsiniz: emosiyalar əsasında hərəkət etmək, ehtiyacları qarşılamaq, psixi obraz əsasında hərəkət etmək, yeni davranışları formalaşdırmaq. Mövzu ilə bağlı daha dərinə getmək üçün real həyatdan götürülmüş (iştirakçılardan birinin təklif etdiyi) vəziyyəti təsəvvürünüzə gətirə bilərsiniz. Daha kiçik qruplar üçün alternativ olaraq müşahidəçilərin sayını 3 nəfərə azaltmaq olar.

***Mənbə***

Institut Supérieur de la Formation, Paris, www.institut-superieur-formation.fr.

***Əlavə məlumat***

Marsan Kristin, Gérer et surmonter les conflits, Paris, Dunod, 2010.

Şalvan Dominik Tensions et conflits dans les relations personnelles, Paris, ESF Éditeur, 2012.

## Tapşırıq üçün material 1: **1-ci sərnişin**

Avqustun 1-idir. Parisdən Amsterdama yola düşən qatardasınız. İndicə Parisə çatmısınız. 6 aylıq təcrübə proqramında iştirak etdiyiniz Torontodan qayıdırsınız. Səyahət etdiyiniz üçün və vaxt fərqi səbəbindən yorulmusunuz. Cəmi 2 günlük Amsterdama gedirsiniz, orada tərəfdaşınızla görüşəcəksiniz.

# Oturacaq:

# 41.

## Tapşırıq üçün material 2: **2-ci sərnişin**

Avqustun 1-idir. Parisdən Amsterdama yola düşən qatardasınız. 8 aydır ki, iş axtarışında idiniz. İş müsahibəsi üçün Amsterdama gedirsiniz. Bu müsahibə sizin üçün çox vacibdir, aidiyyəti iş həm sizin peşəkar istəklərinizə, həm də səriştələrinizə uyğundur. Artıq Parisdə müsahibədən keçmisiniz və müsahibə nəticələri çox yaxşı olub.

# Oturacaq:

# 42.

## Tapşırıq üçün material 3: **3-cü sərnişin**

Avqustun 1-idir. Parisdən Amsterdama yola düşən qatardasınız. Çox xəstə olan nənənizi görməyə gedirsiniz. Babanızın vəfatından sonra nənəniz tək qalmışdır. Onu həkimə aparmaq üçün bu qatardasınız.

# Oturacaq:

# 43.

## Tapşırıq üçün material 4: **4-cü sərnişin**

Avqustun 1-idir. Siz müştərilərlə iş üzrə baş menecersiniz. Hollandiyadakı ən mühüm müştəriniz ilə illik iclas keçirmək üçün Parisdən Amsterdama gedirsiniz. Ora gedib-qayıtmaq üçün bir gün vaxtınız var. Təqdimatınızı hazırlamaq üçün qatarda üç saat vaxtınız var.

# Oturacaq:

# 44.

## Tapşırıq üçün material 5: **5-ci sərnişin**

Avqustun 1-idir. Parisdən Amsterdama yola düşən qatardasınız. Hansısa məşhur bayram münasibəti ilə Nyukasla bu axşam qayıqla gedəcəksiniz. Qatarla getməsəniz, qayığı qaçırmış olacaqsınız.

# Oturacaq:

# 45.

## Tapşırıq üçün 6-cı material: **Müşahidəçi**

Hansı münaqişə mərhələlərini müşahidə etdiniz?
Hansı davranışların aşağıdakı münasibətlərə uyğun gəldiyini qeyd edin:

| | |
|---|---|
| **Tormozlama** | |
| **Aqressivlik** | |
| **Passivlik** | |
| **Manipulyasiya** | |
| **Özünəəminlik** | |

Müşahidəçi üçün:

- **Tormozlama.** Hücum zamanı bizi "o, özündən çıxanda mən elə şoka düşdüm ki, nə deyəcəyimi və ya nə edəcəyimi bilmədim" kimi fikirləşməyimizə səbəb olan tormozlayıcı reaksiya. Bu, qısa və keçid mərhələsidir, bu mərhələ yoxa çıxanda hansı addımı atacağımıza dair qərar veririk.
- **Aqressivlik.** Aqressiv münasibət insanı haqlı olduğunu, haqlı mövqedə dayandığını və haqlı cavabları olduğunu nümayiş etdirməyə məcbur edir.
- **Passivlik.** Passiv münasibət gözdən itməklə xarakterizə olunur. Bu, münasibət bildirmək, nəsə demək və münaqişəyə qoşulmaq qorxusudur. Passivlik vəziyyətdən qaçmaq deməkdir və münaqişəyə səbəb ola bilər.
- **Manipulyasiya.** Yaltaqlanmaqla, aldatmaqla, gizli sövdələşməklə, əzizləməklə təzahür edən manipulyativ davranış özünün həqiqi məqsədinə asanlıqla yönələ bilər. Münaqişə zamanı belə davranış sülhə səbəb olmur. Çünki həmin şəxs digərləri haqqında yox, yalnız özünün şəxsi maraqları haqqında düşünür.
- **Özünəəminlik.** Münaqişə zamanı yeganə müsbət davranış özünəəminlikdir. Belə ki, həmin şəxs mübahisədəki şəxsi məsuliyyətini qiymətləndirə bilir. Şəxs başqalarını və ümumi çətinlikləri başa düşmək istəyir. O, hər iki tərəfə uyğun olan həll yollarını axtarır və başqaları ilə dürüst münasibət saxlamaqla, öz məqsədlərini dilə gətirir.

# 3.3.2. MÜNAQİŞƏ OYUNU

*Məqsədlər*

**Bu tapşırıq əvvəlkinin davamıdır (qatar). Burada iştirakçılar aidiyyəti mexanizmləri daha yaxşı başa düşmək üçün münaqişə nümunəsini müşahidə edir. Bu tapşırığın məqsədi iştirakçılara aşağıdakılarla bağlı yardım etməkdir:**

- **Münaqişə zamanı fərdlərin qəbul edə biləcəyi fərqli davranışları başa düşmək.**
- **Münaqişənin üstün və mənfi cəhətlərini bilmək.**
- **Özünəəminliklə münaqişənin qarşısını almağın və onun idarə edilməsinin mümkünlüyündən xəbərdar olmaq.**

*Hədəf auditoriya*

**16 yaşdan yuxarı. Fərqli davranışları nümayiş etdirmək üçün bu tapşırıqda sərbəstlik tələb olunur.**

*Qrup həcmi*

**15-20 nəfər.**

*Vaxt*

**Təxminən 45 dəqiqə.**

*Təlimçidən tələb olunan bacarıqlar\biliklər*

**Münaqişələrin idarə edilməsi və özünəəminliklə bağlı anlayışları başa düşmək. Əlavə material üçün 3.1.1 və 3.3.1-ci tapşırıqlara baxın.**

*Tapşırıq*

- Əvvəla, münaqişənin cəmiyyətdə oynadığı rolu təqdim edin:
  - Münaqişə bütün cəmiyyətlərdə mövcuddur: başər övladları bir-biri ilə münasibətdə olduqlarına görə yaşayır, həmin münasibətlər nəticəsində isə, gərginlik və münaqişələrin meydana gəlməsi qaçılmaz olur. Bu münaqişənin kökünü kəsməli olsaq, fərdlərin öz fikrini bildirməsi hüququ məhdudlaşar, totalitar və durğun bir dünya meydana gələr. Fərdlər və ya sosial qruplar arasındakı düşmənçilik səbəbindən münaqişələr baş qaldırır. Belə düşmənçilik isə, fərdlərin ziddiyyətlərlə bağlı həll yollarını tapmağa çalışdığı zaman yaranır. Münaqişələr məqsədəmüvafiq şəkildə idarə edilir, yəni ki, savaş mərhələsinə gəlib çatmırsa, o zaman fərdlərə öz fikrini səsləndirməyə və qrupun yaranmasına imkan verməklə, sosial problemləri sakitləşdirə bilər.
  - Münaqişənin müsbət təsir göstərməsi üçün fərdlər problemlə bağlı qənaətbəxş və hətta məhsuldar bir həll yolu fikirləşməlidir. Həll yolu olmadan həmin münaqişə dağıdıcı təsir göstərə bilər.
- İştirakçıları 4-5 nəfərlik komandalara bölün və sonra rollu oyunu qurun.
- Hər bir qrupda iki iştirakçı münaqişəli vəziyyəti oynayacaq: konsertdən əvvəl bir nəfər digər şəxsi qarşısında dayandığı üçün günahlandırır, beləliklə, hər ikisi konserti buraxmalı olur. Onlardan biri biletlərə külli miqdarda pul xərcləyir; digəri isə, konsertə nəqliyyatda gediləcəyini deyir. Onlardan heç biri musiqi qrupunu görə bilmədi, bir daha görəcəyi də ehtimal edilmir.
- Bir iştirakçı mübahisəyə başlayır və digəri aşağıdakı dörd qaydada ona reaksiya verir. Bu fərqli reaksiyalar eyni şəxs və ya bir neçə iştirakçı tərəfindən oynanıla bilər:
  - Passiv (baş verənlərə görə bütün məsuliyyəti öz üzərinə götürmək)
  - Aqressiv (bütün məsuliyyəti qarşı tərəfin üzərinə yıxmaq)
  - Manipulyasiya (vəziyyəti öz xeyrinə çıxarmaq, həyasız və vicdansız davranmaq, lakin bu

xüsusiyyətlər yaxşıca gizlədilə bilər)
- Özünəəmin (başqalarının hisslərini rədd etmədən öz fikrini asanlıqla və konkret surətdə ifadə etmək)

- Yuxarıdakı davranışların açıqlaması üçün "Qatar" tapşırığına nəzər yetirin.
- Rollu oyun üçün 1-2 dəqiqə vaxt ayırmaq kifayətdir. Bu tapşırığın məqsədi problemin asan həlli yolunu ("Eybi yoxdur, başqa konsertə gedərik") tapmaq deyil, məhz narazılıq vəziyyətini yaşamaqdır.
- Bu iki iştirakçının ssenarini necə oynadıqları digər iştirakçılar tərəfindən diqqətlə müşahidə edilməlidir. Dörd hal müşahidə edildikdən sonra münaqişəyə qarşı dörd fərqli reaksiyanın üstün və mənfi cəhətlərini müəyyənləşdirmək üçün komandalar qrup şəklində işləməlidir.
- Daha sonra iştirakçılar aidiyyəti vəziyyətlərə dair öz fikirlərini bildirə və münaqişənin həlli üçün ən uyğun həll yolunu təklif edə bilər.
- Münaqişənin həlli üçün hər bir dörd reaksiya ilə əlaqədar aşağıdakı sosioloji prinsipləri təqdim etməklə tapşırığı yekunlaşdıra bilərsiniz:
  - Passiv şəxs vəziyyətdən qaçmağa çalışır; o, göstərə biləcəyi reaksiyadan qorxaraq qaçmağa çalışır. Bunun səbəbi özünü asılı hiss etməsi və ya vəziyyətə sadəcə maraq göstərməməsi ola bilər. Belə davranış əlavə münaqişəyə gətirib çıxara bilər.
  - Aqressiv şəxs son nəticədə haqlı olmaq istəyir (hətta yanlış olduğunu düşünsələr, daha çox haqlı olmaq istəyir). Onun üçün yalnız öz şəxsi fikri dəyərlidir və qarşıdakının fikrini nəzərə almır. Aqressivlik ifrat dərəcədə özünəəminlik kimi qəbul edilə bilər.
  - Nisbətən birbaşa müraciət edən aqressorla müqayisədə, manipulyativ şəxs öz məqsədinə əks istiqamətlə nail olmağa çalışır. Manipulyator yaltaqlanacaq, aldadacaq, gizli planlar quracaq və acıyacaq. O, qarşı tərəfi fikirləşmədən öz istədiyini əldə etmək niyyətindədir ki, bu da münaqişəni həll etmir.
  - Özünəəmin şəxs güzəştə və danışıqlara getməklə, hər kəsə bərabər şəkildə davranır. O, vəziyyəti qiymətləndirə bilir və özünü əzmədən üzərinə düşən məsuliyyəti başa düşür. Bu, münaqişəyə qarşı bildirilən yeganə müsbət münasibətdir. Belə ki, ədalətli münasibətlərə əsaslanmaqla qarşılıqlı şəkildə razılaşdırılan həll yolunun axtarılıb tapılmasına can atılır.

***Dəyişən***

Qrupun həcmindən asılı olaraq, komandaların sayını dəyişdirə bilərsiniz. 10 və daha az nəfərlik qrup üçün hər kəs fərqli mövqelərdən çıxış etməlidir.

***Mənbələr***

Marsan Kristin, *Gérer et surmonter les conflits*, Paris, Dunod, 2010.

Şalvan Dominik *Tensions et conflits dans les relations personnelles*, Paris, ESF Éditeur, 2012.

Hadfild Syu və Hasson Gil, *Développez votre assertivité dans toutes les situations*, Paris, Leduc éditions, 2012.

Université de Paix, Namur, www.universitedepaix.eu.

Université de Paix asbl
De la prévention à la gestion positive des conflits

# 3.3.3. AZADLIQLARIN TOQQUŞMASI

*Məqsədlər*

**Bu tapşırığın vəzifəsi fərqlilik, plüralizm, fikir azadlığı və demokratiyaya aid məsələləri araşdırmaqdır.**

**Bu tapşırıq iştirakçılara aşağıdakılarla bağlı yardım edəcək:**

- **Fikir azadlığının demokratik cəmiyyətə verdiyi töhfəsini nəzərə almaq.**
- **Fikir azadlığı ilə bağlı heç bir məhdudiyyətin qoyulmamasının müsbət və mənfi cəhətlərini müzakirə etmək.**
- **Danışıqlar aparmaqla bağlı bacarıqlarını işlətmək.**

*Hədəf auditoriya*

**Bütün yaş qrupları.**

*Qrup həcmi*

**10-20 nəfər.**

*Materiallar*

- **2 otaq.**
- **Kağız və qələm.**
- **Tapşırıq materialları 1, 2 və 3**

*Vaxt*

**2 saat.**

*Hazırlıq*

- Tapşırıqda simulyasiya olunacağını izah edin və qrupu iki fərqli icmaya ayırın. “İksprat” icması daha böyük olmalıdır: iştirakçıların təxminən 3-də 2-si. Qrupun qalan hissəsi isə “Pastik” icmasını təmsil edəcək. “İkspratlar” adada yaşayır. “Pastiklər” həmin adaya köçmək istəyir.
- Simulyasiyanın birinci hissəsinin ayrı-ayrı icmalarda iş aparılması ilə bağlı olduğunu izah edin. 20 dəqiqədən sonra qruplar bir araya gətirilir.
- Azlıqda qalan qrup ayrı otağa keçir. Hər bir qrup nümayəndəsi müvafiq icma haqqında informasiyanı oxumalıdır və sonra digərlərinə ötürə bilər (bax: tapşırıq materialları).

*Tapşırıq*

- Adadakı həyat barədə iştirakçıların fikrini soruşaraq hər bir qrupda müzakirəyə başlayın. İştirakçılardan adada yaşamaq istəyib-istəmədiyini soruşun. İştirakçılar öz münasibətlərini bildirdikdən sonra qruplardan aşağıdakı suallar soruşulmalıdır:
  - Pastik qrupu: Yeni adaya köçməklə bağlı əsas narahat olduğunuz məsələ nədir?
  - İksprat qrupu: Sizin mədəniyyət və ənənələriniz barədə heç bir məlumata malik olmayan çoxsaylı immiqrantların adaya köçü ilə bağlı əsas narahat olduğunuz məsələ nədir?
- 20 dəqiqədən sonra hər iki qrup bir araya gətirilir. Ada sakinləri özlərini təqdim edir. İstəsələr, qısa cümlələrlə öz fikirlərini ifadə edə bilərlər. Buna 10 dəqiqədən çox vaxt ayırmayın.
- Təxminən 10 dəqiqədən sonra iştirakçılara aşağıdakı məlumatı verin: Bir il keçir və bir sıra problemlər meydana gəlir. İcmalar arasındakı gərginliklər getdikcə kəskinləşməyə və bir çox insan kəskin sosial iğtişaşlardan narahat olmağa başlayır. Prezident bu problemləri həll etmək məqsədi ilə işçi qrupu yaratmaq tapşırığı verir.

- Bütünlükdə icmanı iki kiçik işçi qrupuna elə bölün ki, hər iki işçi qrupunda (təqribən) 2 Pastik və 4 İksprat üzvü olsun. Hər qrupa bir problem həvalə edin (bax: tapşırıq materialı).
- Problemin həllini tapmaq üçün qruplara 20 dəqiqə vaxt verin. İzah edin ki, istənilən təklif səsverməyə qoyulmalı və qəbul olunması üçün iştirakçıların çoxu tərəfindən (işçi qrupunda) təsdiq edilməlidir. İştirakçılara xatırladın ki, yeni qərarı təsdiqləyə bilməsələr, cari vəziyyət olduğu kimi qalacaq! İksprat icmasında iştirakçı sayı çox olduğu üçün təkliflərə səs verə biləcək.
- 20 dəqiqədən sonra verilən qərarları təqdim etmək üçün hər kəsi bir araya gətirin.
- Təklif etdikləri həll yoluna dair fikir bildirmək və onu təsvir etmək üçün hər işçi qrupa 2-3 dəqiqə vaxt verin, qısa cavabların hazılanmağını xahiş edin. Sonra tapşırığın qiymətləndirilməsi mərhələsinə keçin.

***Tapşırığın qiymətləndirilməsi***

İştirakçılar öz rollarından çıxır, bütünlükdə tapşırığı müzakirə etməyə konsentrasiya olurlar. Onlar əvvəlki debatlara qayıtmamağa çalışmalıdır.

- Tapşırıqla bağlı nə fikirləşirsiniz? Nələri xoşladınız və nələri xoşlamadınız?
- Ada sakinləri bir araya gəldikdə öz rolunuzu oynamaq və həmin rolda qalmaq nə dərəcədə asan oldu?
- Danışıqlar prosesi və sonda qərarvermə prosesi ilə bağlı nə düşünürsünüz? Həll yolunu tapmağa çalışarkən sizin üçün ən mühüm məsələlər nədən ibarət oldu?
- İksprat icmasında iştirakçı sayı çox olduğundan onların təkliflə bağlı səsverməni effektiv keçirə bilməsi ədalətli idimi? Azlıqların fikirləri və hüquqlarının “real” həyatda ədalətli surətdə təmsil olunmasını necə təmin edə bilərik?
- Bu tapşırıq sizin hansısa fikirlərinizi dəyişdimi? Əsasən hansı fikirləriniz dəyişdi və nə üçün?
- Bu tapşırığın reallıqla əlaqəsi olduğunu düşünürsünüzmü: bugünkü cəmiyyətdəki problemləri sizə xatırlatdımı?
- Yaralayıcı, qeyri-tolerant və bəzən təhlükəli ifadələr işlədən insanlarla bağlı problemi necə həll etməliyik?

***Tövsiyələr***

- İştirakçıların aid olduqları icmanın üzvü roluna girməsi üçün hər iki adadakı həyatın təsviri nisbətən uzundur. Onlar “informasiya” kimi deyil, daha çox hekayə kimi oxunmalıdır!
- İnternet kampaniyası haqqında problemin həvalə edildiyi işçi qrup problemin onlayn aspektinə diqqət yönəldə bilər. Onlar ən azından istənilən oflayn təkliflər üzrə bu aspekti nəzərə ala bilər.
- Simulyasiyaya az müdaxilə etməyə çalışın. İştirakçılar vaxt məhdudiyyətini və tapşırığın məğzini başa düşməli, lakin tapşırığa ən yaxşı hesab etdikləri metodla yanaşmalıdır. Tapşırığı başa düşmədiklərini görsəniz, yaxud yaranan gərginlik və ya münaqişələr prosesə mane olarsa, yalnız bu zaman müdaxilə edə bilərsiniz.
- İştirakçılar fikir azadlığına dair müəyyən məlumatlardan yararlanacaq. Vaxt qalarsa, həmin məlumatların müəyyən hissəsindən istifadə edin.

### *Dəyişənlər*

Vaxt az olarsa, verilən təsvirlər qısaldıla bilər və yekun danışıqlar zamanı işçi qruplara müzakirə üçün birinci problem həvalə edilə bilər. Bu, danışıqların gedişatını sürətləndirəcək.

Tapşırığın müddətini bir qədər uzatmaq üçün iştirakçılar öz ölkəsindəki əsas immiqrant qruplarını müzakirə edə bilər. Onlar həmin insanların immiqrasiya səbəblərini, onların hüquq və fikirlərinin yaşadıqları cəmiyyət tərəfindən qəbul edilib-edilmədiyini, mətbuatda, onlayn və oflayn formada təmsil olunma üsullarını müəyyənləşdirə bilər.

***Mənbə***

Avropa Şurası, "Bookmarks" - *İnsan hüquqları üzrə maarifləndirmə aparmaqla onlayn mühitdə nifrət nitqi ilə mübarizə haqqında təlimat,* Avropa Şurası, Strasburq, 2014

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

NO HATE
NO HATE SPEECH MOVEMENT

## Tapşırıq üçün material 1: **Pastik adası**

Sərhədləri bağlı olan, heç bir immiqrasiya tarixçəsi olmayan və çox az turistin səfər etdiyi kiçik bir adada yaşayırsınız. Sakit və sülhpərvər cəmiyyətiniz var: sülh və münaqişəsiz şəraitdə yaşamaq əsas ənənə olmuş və "milli prioritet" kimi qəbul edilmişdir. Hətta Konstitusiyada belə bir maddə də vardır: "Heç kəs başqalarını yaralaya və ya məyus edə biləcək heç bir ifadə işlətməməli və ya hərəkət etməməlidir".

Bu maddəyə dəqiqliklə əməl edilir və qanun pozuntuları kəskin surətdə cəzalandırılır. Bu maddə çox nadir hallarda pozulur; qarşı tərəflə razılığa gəlmək çox asandır. Narazılıq halları fikirləri darmadağın etdiyi üçün Pastiklər üçün yaralayıcı olmuşdur.

Ölkəniz özünü demokratik adlandırır. Hər il seçkilər keçirilir və demək olar ki, hər kəs seçkilərdə iştirak edir. Lakin alternativ siyasətlər barədə müzakirələr az olduğu üçün hər dəfə eyni şəxslər seçilir.

Ümumiyyətlə, danışıqlar, ictimai elanlar və hətta mətbuat cəmiyyətin ümumi şəkildə qəbul etdiyi fikirləri sorğu-suala çəkmir, insanlar da buna etiraz etmir. Çünki onlar başqa cür hərəkət etməyi unutmuş və ya bunu təsəvvür belə edə bilmir. Dünyanın digər zonaları barədə cəmiyyət az məlumata malikdir, digər mədəniyyətlərə aid ədəbiyyatlar gətirilmir və çox az sayda dəyişikliklər edilir, çünki dəyişikliklər məyusluq gətirir.

İnsanlar illər sonra diqqət edir ki, sahil xətti dəyişib: dəniz səviyyəsi artıb və əvvəllər məskunlaşmış bir çox ərazilər suyun altında qalıb. Bu elə də problem deyildi: hər kəs üçün kifayət qədər yer var idi və sahil xəttinə yaxın ərazidə məskunlaşmış icmalar sadəcə bir qədər kənar zonalara köçürülmüşdür. Bununla belə, son illərdə bu problem daha kəskinləşdi. Bir neçə insan bu məsələni öz aralarında müzakirə etməyə başladı, lakin bu müzakirələr insanlara məyusluq gətirdiyi üçün hökumət qadağa qoyduğunu bəyan etdi. Həyat əsasən sakit, planlı, münaqişəsiz formada və narazılıq olmadan davam edirdi - dəhşətli küləkli bir gündə şiddətli qasırğa adaya ayaq basana qədər. Tikililər uçdu, bir çox insan həyatını itirdi və adanın böyük bir hissəsi su altında qaldı. Dalğalar sakitləşəndə bəzi əkin sahələri qala bildi və onlar da duzlu suya məruz qaldığı üçün məhv olurdu. Demək olar ki, bütün infrastruktur dağıldı. Ərzaq azaldı, yoluxucu xəstəliklər yayılmağa başladı, tibbi avadanlıqlar isə çatışmırdı. Ada xaos yaşayırdı. İnsanlar hətta nə edə biləcəkləri barədə bir-biri ilə razılaşmamağa başladı.

Bütün ümidlərin itirildiyi bir vaxtda qonşu İksprat adasından məlumat gəldi. Həmin mesajda Pastiklərə görə səmimi narahatlıq sezilirdi və insanlara İksprat adasına köçmək təklif olunurdu. Siz həmin adaya köçməyə qərar verənlər arasındasınız.

## Tapşırıq üçün 2-ci material: **İksprat adası**

Sakit Okeanda və okeandakı qədim dəniz yollarından birinin üzərində yerləşən İksprat adasında yaşayırsınız. Bu ada ənənəvi olaraq digər ölkələrlə ticarət əlaqələri və rabitəyə əsaslanmış, yüz illər boyu "açıq qapı" siyasətini yürütmüşdür. Bu, o, deməkdir ki, bir çox fərqli mədəniyyətlərdən olan səyahətçi və immiqrantlar adadakı həyatın ayrılmaz bir hissəsi olmuşdur. Nəticədə, fərqli fikirlərə, inanc və mədəniyyətlərə malik çox fərqli bir əhali formalaşmışdır.

Milli mədəniyyətiniz belə fərqliliyi qəbul edir: insanlar fərqli işlərin görülməsinə, fərqli inanclara və ideologiyalara maraq göstərir. Əlbəttə ki, belə fərqlilik mühitində hər bir ideya və ya ideologiya hər kəs tərəfindən qəbul edilməyə bilər. Narazılıq və münaqişə İksprat adasındakı həyatın məğzidir. Demək olar ki, iki insanın fikrinin səsləndirildiyi hər bir yığıncaq fikirlərin, inanc və ideyaların savaşına səbəb olur. Bundan başqa, demək olar ki, hər yığıncaq münaqişəsiz ötüşmür və ya narazılıqla başa çatır. Narazılıq sanki milli bir hobbidir. Bu səbəbdən bir şəxsin və ya qrupun qarşı tərəfə deyə biləcəklərini məhdudlaşdıran, yaxud bir şəxsin və qrupun qarşı tərəf haqqında deyə biləcəklərini məhdudlaşdıran bir qanun yoxdur. Bəzi insanlar dəhşətli ifadələr işlədir. Bəzən bu, insanların dəhşətli əməllərinə səbəb olur. Həmin əməllər qanunla cəzalandırılsa da, dəhşətli ifadələrin dilə gətirilməsinin bir cəzası yoxdur.

İksprat adasındakı həyat maraqlıdır, çətindir və daima dəyişir. Siz mədəni zənginliyi və istədiyiniz hər şeyi deyə biləcəyiniz faktını dəyərləndirirsiniz. Sizə məlumdur ki, sonsuz arqument və narazılıq halları hər zaman xoşbəxtliyə səbəb olmur. Əslində narazı halların çox vaxt yorucu və üzücü olduğunu görürsünüz: yanlış olduğunu hesab etdiyiniz nələrinsə başqaları tərəfindən dilə gətirilməsini eşitmək hər zaman asan olmur. Siz həmçinin cəmiyyətdəki bəzi qrupların qəddar və qeyri-tolerant ifadələrlə digər qruplara nisbətən daha tez-tez üzləşdiyinin şahidi olmusunuz. Hətta belə bir vəziyyətdə sizə elə gəlir ki, heç kəsin fikir azadlığı pozulmamalıdır.

Küləkli bir gündə adaya məlumat gəlir ki, Sakit Okeandakı digər adalardan birində çox şiddətli qasırğa olub. Həmin ada haqqında az məlumatınız var; o ada hər zaman özünəqapalı olub. O adada yaşayan insanların çox səfeh olduğu və inkişafdan geri qaldığı barədə şayələr eşitsəniz də, oranın hər hansı sakini ilə heç vaxt qarşılaşmamısınız. Həmin adaya getməyin, demək olar ki, mümkünsüz olduğunu bilirsiniz.

Hökumət elan edib ki, Pastik adası qasırğa nəticəsində o qədər ziyan görüb ki, sağ qalan sakinlərin bir çoxu İksprat adasına köçürüləcək. Onlar sıxıla bilər, lakin bu, o, deməkdir ki, cari sakinlər yeni şəraitə öyrəşmək üçün çox çalışmalı olacaq. İş yerləri onlarla bölüşülməlidir və hər kəs üçün mənzil təminatı kifayət etməyə bilər.

## Tapşırıq üçün material 3: **Qruplar üçün problemlər**

### İşçi qrupu 1

"Pastiklinin dili hardadır" adlı kampaniya keçirilir və bütünlükdə İnterneti bürüyür. Kampaniyaya aşağıdakı şüarlar daxil olur:

- Pastikli müqəvvanı dümsüklə: bax gör səsi çıxırmı!
- Dili də yoxdur, beyni də!
- Pastiklinin dilini tap, smartfon qazan!

İnsanlar Pastiklinin dilinə aid şəkilləri göndərir. Ağızlarını açıb dillərini göstərməyə məcbur edilən, ağızlarına işıq tutulan, teleskopla şəkli çəkilən və dilinə işarə edilən pastiklilərin şəkil və videolarından ibarət "Dil qalereyası" yaradılır. Bu kampaniya bir saniyədə geniş vüsət alır və küçələrdə pastiklilərə hücumların edildiyi çox sayda insidentlər yaşanır. Pastiklilər hörmət etmədikləri insanlarla təhqirəmiz ünsiyyətə girməkdən imtina edir.

### İşçi qrupu 2

Pastik icmasından olan gənc bir xanımın ikspratlı oğlanlar tərəfindən küçədə qarşısı kəsilir. Oğlanlar onu "piyli pinti", "iyrənc fahişə" adlandırır, onun dilinin və beyninin olmadığını deyirlər. Yazıq qız iki həftə boyu evdən çıxmır və heç kəslə söhbət etmir. Üç gün heç nə yemir. Onun valideynləri ümidsizcəsinə narahat olur.

### İşçi qrupu 3:

Hesabat hazırlanır. Həmin hesabatdan görünür ki, pastiklilər arasında işsizlik səviyyəsi yerli əhali ilə müqayisədə daha çoxdur, parlamentdə pastikliləri təmsil edən nümayəndə yoxdur və digər təşkilatlarda çox az sayda pastikli məmur çalışır. Hesabatda həmçinin gərginlik səviyyəsi və psixi xəstəliklər, təhsil kvalifikasiyaları, cinayət göstəriciləri kimi digər sosial faktorlar da nəzərdən keçirilir. Bütün göstəricilər üzrə pastiklilərin nəticəsi cəmiyyətin digər üzvləri ilə müqayisədə daha pisdir. Cəmiyyət daxilində pastiklilərə münasibət də olduqca mənfidir.

Bölmə 4.

# MƏTBUAT VƏ İNFORMASİYA SAVADLILIĞI

Rəqəmsal era özü ilə yeni texnologiyaları gətirmiş, informasiya və biliklərin heç bir məhdudiyyət qoyulmadan istənilən anda təqdim edildiyi dünyaya öz qapılarını açmışdır. Bu yeni informasiya vasitələri biliklərin əldə edilməsi üçün əla imkandır, lakin verilən informasiyanın etibarlı olduğunu təmin etməliyik. Bugünkü günümüzdə informasiya axınına asanlıqla məruz qalmaq və mənbənin izini itirmək mümkündür. Hər birimiz bu yeni və arasıkəsilməz məlumat axınına töhfə verir və xüsusilə də sosial şəbəkələr vasitəsi ilə informasiya axınına əlavə məlumatlar daşıyırıq. Məlumat vasitələri doldurulur; “infobezlik” - “informasiya” və “obezlik” sözlərinin birləşməsi. Belə bir informasiya çoxluğu şəraitində həqiqəti yalandan ayırmaq, etibarlı, təsdiqlənmiş və yeni faktları yanlış informasiyadan, hesabat xətalarından, şayələrdən və hətta yalanlardan fərqləndirmək çox çətin olur. Hər məlumata tənqidi gözlə yanaşmalıyıq.

Bu, hər kəsə aid olan bir tapşırıqdır; *heç birimiz tənqidi gözlə dünyaya gəlməsək də, bunu təhsil və təcrübə ilə formalaşdırmalıyıq.*

Məlumatların belə asanlıqla paylaşılmağı və hər kəsə açıq olmağı müasir dövrün nailiyyətidir, lakin bu inkişaf özü ilə yeni risklər də gətirir. Sosial şəbəkələrdə kimlərinsə paylaşdığı məlumatın həqiqət olduğu qəbul edilən, müasir təşviqat və konspirasiya nəzəriyyələrinin populizmlə, yanlış xəbərlərlə, nifrət nitqi və “alternativ faktlar”la dolu olduğu bir erada tənqidi yanaşmanın xüsusilə də gənclər üçün qəbul edilməsi zəruri məsələdir.

Bu zərurilik ikitərəflidir, belə ki, gənclər təkcə informasiyanı istifadə etmir, həmçinin o informasiyanın yaradılması və yayılmasında əsas rol oynayırlar. Buna görə də əldə etdikləri informasiyanı müzakirə etmək və sorğu-suala çəkmək üçün onlara müvafiq vasitələr vermək lazımdır. Onlar həmçinin informasiyanı mümkün qədər ən təhlükəsiz, fərqli və məsuliyyətli qaydada hazırlaya və yaya bilməlidir.

Müvafiq vasitələr və informasiya savadlılığı olmadan gənclər asanlınla manipulyasiya edilə, aldadıla və mənfi qərarları verməyə sürükləndirilə bilərlər. İnformasiyanı başa düşmək, habelə özlərini müdafiə etmək üçün gənclərə müvafiq bacarıqlar vermək lazımdır. Qısası, onların İnternetin yaxşı məhsullarına çıxışını və mənfi nəticələrindən qorunduğunu təmin etməklə onların tam məlumatlı və öz hüquqlarını bilən vətəndaş kimi yetişməsinə kömək etmək olar. Demokratiyanı, insan hüquqları və əsas azadlıqlara hörmətlə yanaşıldığını təmin etməklə, gənclər tam, obyektiv, etibarlı və aydın informasiyaya çıxış hüququ əldə etmiş olur. Bu, bütün vətəndaşların, əsasən də gənclərin məlumatlandırılması sahəsində çalışanların, gənclərlə iş sektorunun digər əməkdaşlarının və təhsilverənlərin üzərinə düşən bir məsuliyyətdir.

Müxtəlif mətbuat və informasiya formaları ilə əlaqədar gənclərin istifadə etdiyi fikir və tənqidi təfəkkürü inkişaf etdirmək üçün bu bölmədə bir sıra praktik tapşırıqlar verilir. Aşağıdakı məqsədlər ehtiva olunur:

- Əldə etdiyi informasiyanı və onun götürüldüyü mənbələrin etibarlılığını sorğu-sual etmək;
- Mətbuatın iş prinsipini başa düşmək;
- Yanlış informasiyanın ötürüldüyünü aşkar etmək;
- Konspirasiya nəzəriyyələri və “alternativ faktlar”ın arxasında dayanan mexanizmləri başa düşmək;
- Xəbərlər və informasiyaya tənqidi münasibəti artırmaq.



# 4.1. Tənqidi təfəkkür




**Tənqidi təfəkkür hazır olmur! Bu, gördüyünüz və eşitdiyiniz hər şeyə qarşı şübhələnmək demək deyil - lap elə konspirasiya nəzəriyyələrini yaradıb özlərinin zorakı inanclarını əsaslandırmaq üçün onlardan istifadə edən insanlar kimi.**

Xəbərlərə və meyarlara yeni yanaşma üsulları, bununla da informasiyanın yoxlanılması və onunla bağlı sahiblik hüququnun alınması məsələləri aşağıdakı tapşırıqlarda təqdim edilir.

## Görmə qüsurlu kişilər və Fil

Günəşli bir gündə Hindistandan olan görmə qüsurlu altı nəfər kişi ilk dəfə fillə qarşılaşacaqdı. Görmə qüsurlu birinci kişi yaxınlaşır və bu yekəpər heyvanın böyrünə toxunur. "Ay aman, fil divara oxşayır ki!", deyə bildirir.
İkinci kişi filin çıxıntı dişini hiss edir. "Haqlı idim", deyə bildirir. "Bu heyvan nizə kimi iti və öldürücüdür".
Üçüncü kişi əli ilə filin elastik xortumuna toxunur. "Fil nəhəng ilana bənzəyir", deyə bildirir.
Dördüncü kişi əlini səbirsizliklə heyvanın dizinə toxundurur və filin ağaca bənzədiyini əminliklə bildirir!
Beşinci kişi filin nəhəng qulağını hiss edir. "Hətta görmə qüsurlu bir insan üçün bu əcaib fil iri bir yelçəkəndir!", deyə bildirir.
Altıncı kişi isə filin kobud quyruğunu dartır. "Bu sadəcə köhnə bir kəndir parçasıdır", deyə istehza ilə bildirir.
Görmə qüsurlu bu altı kişi özlərinin inandığı həqiqəti israrla təkrarlayaraq, növbəti bir neçə saat ərzində fil haqqında müzakirələr etdi. Onlar bir-birini sanki eşitmirdi, qışqır-bağırları getdikcə daha da yüksəlirdi.
Yoldan ötən müdrik bir kişi onların danışığını eşitdi. "Siz nə barədə danışırsınız?", deyə soruşdu.
"Filin nəyə bənzədiyi ilə bağlı heç cürə razılığa gələ bilmirik!" Onlar yenə də fili nəyə oxşatdıqlarını həmin müdrik kişiyə təkrar deməyə başladılar. Müdrik kişi gülümsəyərək izah etdi: "Hamınız haqlısınız! Hamınız fili fərqli cəhətlərinə görə təsvir edirsiniz, çünki heyvanın cəmi bir tərəfinə toxunmusunuz! Fil çox nəhəng bir heyvandır və sizin təsvir etdiyiniz hər bir xüsusiyyəti özündə daşıyır".
"Ahh", deyə köks ötürdülər. Müzakirə də elə oradaca bitdi! Görmə qüsurlu kişilər öz təsvirlərinə görə sevinirdilər, çünki onların hamısı haqlı idi!

# 4.1.1. NƏ GÖRDÜNÜZ?

***Məqsədlər***

Bu tapşırıq iştirakçılara aşağıdakılarla bağlı yardım edəcək:

- İnformasiya və təfsir arasındakı fərqi bilmək.
- İnformasiyaya köklənmək və\ya təfsir etmək tendensiyasından xəbərdar olmaq.
- Təfsirlərin şəxsi xarakter daşıdığını və hər zaman faktları əks etdirdiyini öyrənmək.

***Hədəf auditoriya***

Yaşı 12-dən çox olan şəxslər.

***Qrup həcmi***

10-15 nəfər.

***Material***

Qələm və kağız.

***Vaxt***

Təxminən 50 dəqiqə.

***Təlimçidən tələb olunan bacarıqlar\biliklər***

İmprovizasiya bacarığı.

***Tapşırıq***

- Dairə yaradın.
- Qrup öz yerini tutduqda danışmadan bəzi hərəkətlər edin: telefonunuza və ya saatınıza baxın, qapıya boylanın, iştirakçıların bəziləri ilə bir neçə saniyəlik göz təmasına keçin, ciddi görkəm alın, inildəyin, soldan sağa bir neçə addım atın, ayağınızın ucu ilə taqqıldadın, yenidən telefon və ya saata baxın, çölə çıxın, qapını bağlayın, bir neçə saniyə sonra geri qayıdın və s.
- Daha sonra dairəyə yaxınlaşın, rahat bir şəkildə dayanın və təhlilə başlayın.
- Hər bir iştirakçıya kağız və qələm verin.
- İştirakçılardan soruşun: Nə gördünüz? Cavablarını iki sütunda yazmağı xahiş edin:
  - Faktlar və informasiya: nə gördüklərini sözlə ifadə etməlidir (məsələn, telefona baxmaq, hərəkət etmək, göz təmasına keçmək və s.)
- İştirakçılardan öz təəssüratlarını qrupla bölüşməyi xahiş edin.
- Hər iki sütunda yazılanlar arasındakı fərqin nədən ibarət olduğunu onlardan soruşun:
  - Faktlar\Nə görürəm?\İnformasiya
  - Fikirlər\Təfsir\İnformasiyadan hansı qənaətə gəlirəm?
- Aşağıdakı sualları verməklə təhlili davam etdirin:
  - Ən çox hansı növ cavabınız oldu?
  - Təsvirlərinizin əksəriyyəti hansı sütundadır?
  - Hansı cavablar tam düzgündür?
  - Hansı cavablar düzgün ola bilər, lakin düzgün olduğu ehtimal edilmir?
  - Gündəlik vəziyyətlərdə insanlara, hadisələrə və s.-ə baxdıqda və onları təsvir etdikdə adətən nə tipdə təsvirlər verirsiniz (faktlar, yoxsa təfsirlər)?
  - Real həyatda kiminsə davranışı barədə verdiyiniz təfsirlərin düzgün çıxdığı vaxt olubmu? Bəs

təfsirlərinizin yanlış çıxdığı vaxt olubmu?
- Faktlara köklənməyin müsbət və mənfi cəhətləri hansılardır? Təfsirlərə köklənməyin müsbət və mənfi cəhətləri hansılardır?
- Təfsir etmək "yanlış" hərəkətdir?

- Təhlili yekunlaşdırın. Gördüklərimizi təfsir edərkən əslində düzgün deyib-demədiyimizi bilmirik. Yanlış təfsirlərə yol verməmək üçün bəzi tövsiyələr:
  - Fikirləşdiyinizi deyil, gördüyünüzü təsvir edin.
  - Təfsir edərkən: təfsirləriniz barədə sual verin, gördüyünüzün düzgün olub-olmadığını yoxlayın.
  - Təfsirlərinizi fakt qismində deyil, sual və ya ehtimal formasında təklif edin.

***Dəyişənlər***

- İştirakçılar hər biri gördüklərini qeyd edir və bütün iştirakçılar qeydlərini qrupla bölüşür.
- Faktlarla təfsirlər arasındakı fərqləri təsvir etmək üçün bu tapşırığın bir qədər qısa versiyası da mümkündür: yumruq tutun, onu göyə qaldırın və iştirakçıların birinin üstünə hücum edin. Faktlar: yumruğu qaldırmaq, iştirakçının üzərinə hücum etmək. Təfsir: "Onu vurmaq istəyirdiniz". "Dəlisiniz".
- Şəkildən istifadə edə bilərsiniz. Onu iştirakçılara göstərin və gördüklərini təsvir etməyi tapşırın.
- Qəzet məqaləsini götürün. İştirakçılar yazıçının istifadə etdiyi fakt və təfsirləri axtarmalıdır.

***Tövsiyələr***

- Başlamazdan öncə iştirakçıları tapşırığa başladığınız barədə məlumatlandırmayın, sadəcə tapşırığa başlayın. "Oyun" zamanı iştirakçıların suallarına reaksiya verməyin.
- Təhlil zamanı: fakt və təfsirlərin bərabər şəkildə təsvir olunduğunu nəzərə alın. Əsas məqsəd bunlardan hər hansı birinə daha çox üstünlük vermək deyil, məhz iştirakçıların hər iki məfhum barədə məlumatlılığını artırmaqdır.

***Mənbə***

www.bounce-resilience-tools.eu ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

***Əlavə məlumat üçün:***

Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

# 4.2. Mətbuat




**İnformasiya mətbuat vasitələri ilə yayılır. Tənqidi təfəkkürü təcrübəyə gətirmək, bu informasiyanın yayılmasının arxasında dayanan səbəb və motivasiyaları təhlil etmək məqsədi ilə bu rabitə və informasiya vasitələrinin iş prinsipini başa düşmək lazımdır.**

Aşağıdakı tapşırıqlar mətbuat aləminin iş prinsipini əyləncəli və konkret yollarla izah etməyə imkan verəcək. Eynilə, iştirakçılar xüsusilə də zorakı ekstremizm kimi spesifik ideologiyalarla əlaqədar dezinformasiya ilə bağlı məlumatlandırılacaq.

# 4.2.1. BAŞLIQ

*Məqsədlər*

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Müxtəlif mətbuat növlərini müəyyənləşdirmək.**
- **Müxtəlif mətbuat vasitələrinin öz təcrübəsinə görə fərqli fikirlərinin\rəylərinin ola biləcəyini başa düşmək.**
- **İnformasiya və təfsir arasındakı fərqi başa düşmək.**
- **Faktların fərqli üsullarla təfsir oluna biləcəyini təcrübədən keçirmək.**

*Hədəf auditoriya*

**Yaşı 12-dən çox olan şəxslər.**

*Qrup həcmi*

**Minimum 10 nəfər.**

*Materiallar*

- **Faktlar (tapşırıq materialı 1) - iki nəfərə bir material.**
- **Mətbuat vasitələrinin növləri (tapşırıq materialı 2) - iki nəfərə bir mətbuat növü (qrup böyük olarsa, bir neçə cütlükdə eyni növ ola bilər).**
- **Kağız və qələm.**

*Vaxt*

**1 saat.**

*Təlimçidən tələb olunan bacarıqlar\biliklər*

**Mətbuat və informasiya savadlılığı anlayışlarına malik olmaq.**

### *Hazırlıq*

- 2-ci materialdan istifadə edərək, fərqli mətbuat növlərinin adı yazılmış kartları hazırlayın (bir kartda bir növ qeyd edilməlidir).
- Həmin kartları elə paylayın ki, yazı görünməsin.
- İştirakçıları cütlüklərə ayırın.

### *Tapşırıq*

- Hər cütlük təsadüfi formada bir kart götürür və onlara vərəqə verilir - baş vermiş zorakı hadisə barədə qısa və obyektiv informasiya vərəqəsi.
- İştirakçılardan biri həmin faktları ucadan oxuyur.
- Hər cütlük qələm və kağız götürür, onlara müəyyən vaxt verilir ki, götürdükləri kartda qeyd edilmiş mətbuat vasitəsi ilə yayımlanacaq faktlar barədə məqalədə istifadə ediləcək başlıq barədə fikirləşib onu qeyd etsinlər.
- Hər bir cütlüyün təklif etdiyi xəbər başlığı bütünlükdə qrupa bəyan olunur.
- Faktlar barədə iştirakçıların şəxsən məlumat verəcəkləri məsələlərə ən yaxın olan başlığı (sonra isə heç yaxın olmayan başlığı) seçmələrini xahiş edin.

### *Tapşırığın qiymətləndirilməsi*

İştirakçılardan aşağıdakı sualları soruşun:

- Fikirləşdiyiniz başlıqlar fərqlidir: məqalələr də fərqli olacaq? Nələr fərqli olacaq? Hansı faktlar

vurğulanacaq və hansı təfsirlər ediləcək?

- Mətbuat vasitəsi, xəbər başlığı və məlumatvermə üsulu sizin mövzu ilə bağlı fikrinizə təsir göstərə bilərmi?
- Mövzularla bağlı məlumat hazırlayan bütün mətbuat vasitələri neytral mövqedə dayanırmı? Bütün mətbuat vasitələri neytral mövqe tutmalıdır? Fərqli mətbuat və mənbələrin fərqli yanaşma nümayiş etdirdikləri real hadisələrə dair misal çəkə bilərsinizmi? (Məsələn, adətən nümayişdən sonra polis təşkilatçılarla müqayisədə daha az iştirakçının olduğunu bildirir).
- Fərqli mətbuat vasitələrinin informasiyası və bizim həyatımıza təsirlərinə qarşı necə davamlı ola bilərik?

***Tövsiyələr***

İnformasiyanın təqdim edilmə üsulunun insanların verilən informasiyaya münasbətinə təsir göstərdiyini bilmək yerinə düşdü. İnformasiyanın arxasında hansısa məqsəd dayanırsa (məsələn, insanları inandırmaq), başqa informasiyanın gizləndiyi, yaxud ən pis halda, informasiyanın dəyişdirildiyi ehtimal olunur. Hansısa informasiya təqdim ediləndə və “həddən artıq real” görünəndə adətən tənqidi yanaşma tövsiyə olunur. Reklamlara, mətbuatda gedən məqalələrə və s.-ə müəyyən dərəcədə sağlam tənqidi münasibətlə yanaşmaq lazımdır.

***Dəyişənlər***

- İştirakçılara uyğun gələn başqa mövzu seçin və onlara başqa faktlar verin.
- İştirakçılar təklif etdikləri başlıqlara uyğun olan şəkil barədə düşünür\həmin şəkli tapmağa çalışır. Şəkillərlə işləyərkən həmçinin onların təhlildəki təsirlərini də əlaqələndirin.
- Hər cütlük iki mətbuat kartını götürür və həmin mətbuat vasitəsi üçün iki alternativ başlıq barədə düşünür (məsələn, fərqli siyasi mövqelər).
- Başqalarına təsir göstərmək üçün informasiyadan sui-istifadə edildiyi hallarda tapşırığı ekstremist təşviqatla əlaqələndirmək maraqlı olardı. Təqdim edilən şəklin seçilməsi, başlıqlar və izahatların verilmə üsulları çox inandırıcı görünsə də, düzgün olmur.

***Source***

www.bounce-resilience-tools.eu, ASBL Arktos ilə əməkdaşlıq əsasında SPF Intérieur tərəfindən hazırlanmışdır.

***Əlavə məlumat üçün:***

Əlaqə vasitəsi: bounce-support@ibz.fgov.be

Avropa İttifaqının Cinayətlə Mübarizə və onun qarşısının alınması üzrə proqramı çərçivəsində birgə maliyyələşdirilmişdir.

## Tapşırıq üçün material 1: **Faktlar**

Cümə axşamı günü, səhər saatlarında məktəb yolunda bıçaqlanma hadisəsi baş verir.
15 yaşlı qız 16 yaşlı oğlanı bıçaqlayır.
Onlar eyni məktəbdə oxuyur. Onların arasında əvvəllər də mübahisələr olub.
Cinayət aləti mətbəx bıçağıdır.
Əməli tutan qız cinayət günündən bir gün əvvəl və cinayət günü silah atışı ilə bağlı videooyun oynamışdır.

## Tapşırıq üçün 2-ci material: **Mətbuat vasitələrinin növləri**

Obyektiv və nüfuzlu bir qəzet: faktları deyir, təfsir etmir.
Qeybətcil jurnal: sensasiya yaradır.
Valideynlər üçün nəzərdə tutulmuş maarifləndirici jurnal: uşaqların tərbiyəsinə kömək edir.
Facebook səhifəsi: zorakılıq əleyhinə mübarizə aparır.
Videooyunlar haqqında jurnal: oyun və zorakılığın bir-biri ilə əlaqəsi olmadığını israrla vurğulayır.
Gənc qızın bloqu: zorakılıq qurbanlarının dəstəklənməsini istəyir.

# 4.2.2. MƏTBUATIN 6 BÖLMƏDƏ TƏHLİLİ

*Məqsədlər*

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **İstənilən mətbuat sənədinin təhlil edilə biləcəyi strukturu təklif etmək.**
- **Mətbuatda verilən motivasiyalar, problemlər və seçimləri sorğulamaq üsullarını iştirakçılara öyrətmək.**
- **İştirakçıları tənqidi təfəkkür bacarıqlarını inkişaf etdirməyə və o bacarıqlardan yararlanmağa həvəsləndirmək.**

*Hədəf auditoriya*

**Yaşı 15-dən yuxarı olan şəxslər.**

*Qrup həcmi*

**İstənilən sayda.**

*Materiallar*

- **1 mətbuat sənədi (video çıxarışı, televiziya proqramı, jurnal, reklam kampaniyası, onlayn platforma və s.), yaxud oxşar və fərqli cəhətlərə nəzər yetirməklə, bir neçə sənədi müqayisə etmək istəsəniz, daha çox sayda mətbuat sənədi.**
- **Tapşırıq üçün material 1: "Mətbuat savadlılığının altı bölməsi", iştirakçıların sayı qədər.**
- **Kağız və qələm.**
- **İri vərəqləri olan flipçart və markerlər.**

*Vaxt*

**Təxminən 1 saat.**

*Təlimçidən tələb olunan bacarıqlar\biliklər*

**Mətbuat və informasiya savadlılığı barədə ümumi məlumata malik olmaq.**

### *Hazırlıq*

- Tapşırıqla bağlı mətbuat sənədini və onun kontekstini təqdim edin.
- Tapşırıq materialını iştirakçılar arasında paylayın: "Mətbuat savadlılığının altı bölməsi".
- İştirakçıları kiçik qruplara bölün (xüsusilə də qrup böyük olarsa). Onlara kağız və qələm verin.

### *Tapşırıq*

- Kiçik qruplardakı iştirakçılar materialdan istifadə edərək sənədi nəzərdən keçirir. Öz təhlillərini qeyd edirlər.
- Qrupları bir araya gətirin. Hər yarımqrup özünün təhlilini təqdim etmək üçün bir nümayəndə təyin edir, qrupun digər üzvləri lazım gəldikdə kömək edə bilər.
- Tapşırıq materialından istifadə edərək, qrupun fikirlərinin icmalını flipçartda qeyd edin. Ayrı-ayrı mövzular yalnız digərləri ilə əlaqəsi olduqda xüsusi bir mahiyyət kəsb edir; məsələn, auditoriyanı məlumatlandırmaq üçün hansı texnologiyalardan istifadə edildiyini başa düşməsək, həmin auditoriyanı öyrənə bilmərik.

***Tövsiyələr***

Mətbuat seçimini dəyişməklə, onu hədəf auditoriya üçün maraqlı və uyğun etməklə, bu tapşırıq fərqli yaş qruplarına uyğun dəyişdirilə bilər.

***Mənbə***

Conseil Supérieur de l'Éducation aux Médias (Fédération Wallonie-Bruxelles), L'éducation aux médias en 10 questions, 2011, www.educationauxmedias.eu/sites/default/files/files/2011-09-26-brochure_10_questions.pdf.

CSEM CONSEIL SUPÉRIEUR de l'éducation aux médias

## Tapşırıq üçün material: **Mətbuat savadlılığının altı bölməsi**

Mətbuatın tənqidi təhlilini həyata keçirmək üçün bir-biri ilə qarşılıqlı əlaqəsi olan altı aspekti nəzərdən keçirə bilərsiniz:

- *İstehsalçılar:* Mətbuat məhsullarının hazırlandığı aləmi, o cümlədən audio-vizual məhsulların bütün formalarını, hətta ənənəvi formatları başa düşmək lazımdır. Bu məlumatı kim hazırlayıb? Bu mətbuat tam müstəqildir, yoxsa hansısa böyük qrupun bir hissəsidir? Hansısa böyük qrupun bir hissəsidirsə, həmin qrup barədə nə bilirsiniz? Bu informasiyanı hazırlayan insanlar xüsusi fəlsəfi və ya siyasi meyllərə malikdirmi? Onlar mətbuat məlumatlarının hazırlanması və yayımlanmasını maliyyə və texniki cəhətdən necə idarə edə bilir?
- *Dil:* Mətn, səs və ya şəkildən ibarət istənilən məlumat mürəkkəbdir. Həmin məlumatlar spesifik mahiyyət kəsb edən çoxsaylı elementlərdən təşkil olunur (çərçivə, əyani vasitələr, səs, plan, istifadə olunan dil...). İnformasiyanı deşifrə etmək, incəlikləri və qeyri-şifahi fikirləri başa düşmək üçün istifadə olunan dili təhlil etmək və anlamaq lazımdır.
- *Texnologiya:* Texnologiya məlumatı göndərmək üçün istifadə olunan vizual və səs avadanlıqlarına dəlalət edir. Mətbuat məhsullarını hazırlamaq üçün istifadə olunan gündəlik avadanlıqlar, habelə yeni və daha müasir texnologiyalar bura daxildir.
- *Məlumatın təqdim edilmə forması:* Bu mövzu mətbuat sənədinin aidiyyəti problemi (hadisə, şəxs, obyekt, vəziyyət) təqdim etmə metoduna və həmin mövzu ilə bağlı auditoriyanın fikrinə istiqamətlənən təsirlərə aiddir. Bu, hansısa bir məlumatın mətbuatda təqdim edilməsi ilə meydana gələn təsirlərin qavranılması barədədir.
- *Auditoriya:* Auditoriyaya baxmaqla, oxucu, oyunçu, dinləyici, tamaşaçı və ya (internet) istifadəçinin mətbuat sənədini qavradığı yanaşmanı nəzərə almalıyıq. Bu, digər faktorlarla yanaşı, həmin şəxslərin öz təhsilindən, mədəni təcrübəsindən, maraq və yaşından da asılıdır.
- *Sənədin kateqoriyası:* Mətbuat sənədini başa düşmək üçün onu kontent (siyasət, idman, xəbərlər...) və janrına (sənədli, fantastika, cizgi filmi...) görə kateqoriyalaşdırmaq lazımdır. Bu kateqoriyalar, əlbəttə ki, homogen xarakterli deyil və hər bir kateqoriya özündə saysız-hesabsız yanaşmaları ehtiva edir. Burada əsas məqsəd insanların oxuduqları sənədləri və ona aid olan assosiasiyaları təsnifatlandıra bilməyidir. Məsələn, bu informasiya elmi “Wikipedia” səhifəsindən götürülübmü? Bu məlumatın məqsədi reklamdır? Hadisə facialəşdirilibmi? Bu informasiya televiziyada tez-tez verilir. Yeni işlərə aid olan xəbərlərdir, yoxsa serialdır? Bu, hesabatdır? Bu, fantastikadır?

# 4.2.3. MƏLUMATLANDIRMA, YOXSA HİYLƏGƏRLİK?

*Məqsədlər*

**İnternetdən, e-mail və sosial şəbəkələrdən müntəzəm şəkildə istifadə edən gənclərin müxtəlif hiyləgərlik və ya şayiə xarakterli məlumatlar (saxta xahiş mesajları, viruslar, linklər...) almaq ehtimalı daha çoxdur. Tənqidi təfəkkürü olmayan gənclər belə tələlərə düşə bilir. Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **İnternet üzərindən yayılan saxta informasiyanı müəyyənləşdirməkdə iştirakçılara yardım göstərmək.**
- **İnternet üzərində yayımlanan informasiyanı sorğu-suala çəkmək üçün zəruri bacarıqları\refleksi formalaşdırmaq.**

*Hədəf auditoriya*

**Yaşı 15-dən yuxarı olan şəxslər.**

*Qrup həcmi*

**Mövcud kompüterlərin sayından asılı olaraq, 2-4 nəfər.**

*Materiallar*

- **İnternetə qoşulma sürəti yaxşı olan kompüterlər.**
- **İştirakçılara göndərmək üçün özündə saxta informasiyanı daşıyan fərqli e-maillər. http://www.hoax-slayer.net/ kimi saxta informasiyanı ifşa edən saytlardan nümunələr götürülə bilər.**
- **Flipçart və markerlər.**

*Vaxt*

**Təxminən 1 saat.**

*Tapşırıq*

- İlk öncə, nə vaxtsa e-mail və ya ümumiyyətlə, İnternet vasitəsi ilə şayiə və hiyləgərlik xarakterli məlumatlarla qarşılaşıb-qarşılaşmadığı, eşidib-eşitmədəyini qrupdan soruşun. Onlar belə bir məlumatla heç vaxt qarşılaşmayıb və bu barədə heç vaxt eşitməyibsə, mətbuatda gedən bəzi məşhur hiyləgərliklər barədə nümunələr verin.
- İştirakçıları 2-4 nəfərlik kiçik qruplara ayırın.
- E-mailə gələn hiyləgər xarakterli mesajın surətini iştirakçıların hər birinə təqdim edin. Həmin mesaj barədə onlar bacardıqları qədər çox məlumat toplamalıdır (xüsusilə də İnternet-axtarış vasitəsi ilə).
- Onların araşdırması bir sıra fərqli məqamlara köklənməlidir:
  - Həmin e-mailin\şayiənin gəldiyi ehtimal edilən mənbə.
  - Yayımlanma (şayiə necə yayıldı - həm İnternet vasitəsi ilə, həm də televiziya və radio mətbuatları ilə).
  - Şayiənin səbəb və naticələri.
  - İnformasiya necə təkzib olundu.

*Tapşırığın qiymətləndirilməsi*

- Tapşırığı yekunlaşdırmaq üçün iştirakçılar aşkar etdikləri faktları paylaşmaq üçün bir araya gəlir. Müzakirə zamanı qrup fərqli şayiələri kateqoriyalar üzrə təsnifatlandırmalıdır. Onlar http://www.hoax-slayer.net/ saytında təklif olunan kateqoriyalardan istifadə edə bilər.

"Hoax Slayer" ("Kələkbazı Öldürək") səhifəsi İnternet istifadəçilərinə imkan verir ki, İnternetdə gedən informasiyanın həqiqəti əks etdirib-etdirməyini yoxlasın və hiyləni üzə çıxarsın. Bu səhifə həmin informasiyanı ya təsdiqləyən, ya da təkzib edən arqumentləri təqdim edir. İnformasiyanı müxtəlif kateqoriyalara bölür, məsələn: saxta xəbərlər, zərərverici, azdırıcı, kələk, yumor, siyasi, fırıldaq, saxta xəbərdarlıq və s.
Xəbərdarlıq: "Hoax Slayer" saytı xətaları tam aşkarlamaya bilər. Bütün hallarda gözüaçıq olmaq və məsələyə tənqidi yanaşmaq lazımdır.

- İnternetdə yayılan şayiənin açıqlamasını verməyi qrupdan xahiş edin.
- Nəhayət, şayiələrin təbliği və ya təkzibi prosesinə iştirakçıların necə cəlb oluna biləcəyini müzakirə edin. Məsələn, saytları, yaxud aidiyyəti mesajın digər potensial istifadəçilərini xəbərdarlıq etməklə.

***Tövsiyələr***

Bu tapşırığın daha rahat formada yerinə yetirilməsi üçün vaxtilə çox müzakirə mövzusuna çevrilmiş şayiələri seçin. İnternetdə kifayət qədər belə material var.

***Mənbə***

Activité extraite et adaptée de l'outil « Educaunet », outil d'éducation aux risques liés à l'usage d'Internet www.educaunet.be.

educaunet
Pour une éducation critique à Internet

# 4.2.4. FAKTLARIN ARAŞDIRILMASI

*Məqsədlər*

**Bu tapşırıq iştirakçılara aşağıdakılarla bağlı yardım edəcək:**

- **İnternetdə rast gəlinən informasiyanın etibarlılığını qiymətləndirmək.**
- **Gənc homoseksualların İnternetdə nifrət nitqi ilə üzləşdiyi çətinliklərdən bəzilərini araşdırmaq.**
- **Onların İnternetdəki məlumatlarla bağlı öz davranışlarına diqqət yetirmək.**

*Hədəf auditoriya*

**18 yaşdan yuxarı şəxslər.**

*Qrup həcmi*

**8-20 nəfər.**

*Materiallar*

- **İnternetə çıxış imkanı.**
- **Kağız və qələm.**
- **Flipçart və markerlər.**
- **Tapşırıq üçün material 1: ssenarilər (iştirakçıların sayı qədər surət).**
- **Tapşırıq üçün material 2: "tədqiqatçılar" və "nəzarətçilər" tapşırığı (iştirakçı sayı qədər surət: yarı hissəsi "tədqiqatçı", qalanı "nəzarətçilər" kimi).**
- **Tapşırıq üçün material 3: nəzarət vərəqəsi (hər bir nəzarət üçün).**
- **Tapşırıq üçün material 4: informasiyanın yoxlanılması.**

*Vaxt*

**Təxminən 2 saat (qrupun həcmindən asılıdır).**

### *Hazırlıq*

- İştirakçılar "tədqiqatçı" roluna girərək, homofob xarakterli həmlələri araşdırır və bu problemi parlamentə qaldırmaq istəyir. Tədqiqatçılar onlayn mənbələrdə yerləşdirilən informasiyanın etibarlılığını qiymətləndirməli və məlumatların etibarlılığını qiymətləndirmək üçün istifadə edilə biləcək strategiyaları işləyib hazırlamalıdır.
- Bu tapşırıqda informasiya mənbəyi kimi İnternetdən istifadənin araşdırılacağını izah edin. Bu məqsədlə İnternetdən istifadə edən iştirakçıların, onların "sevimli" saytlarının olub-olmadığını soruşun.
- Ssenariləri onlara təqdim edin (tapşırıq üçün material 1) və tapşırığın hər kəs tərəfindən başa düşüldüyünü yoxlayın.
- İştirakçılara izah edin ki, 4 nəfərlik qrup şəklində işləyəcəklər. 2 nəfər "tədqiqatçı" kimi çıxış edəcək, 2 nəfər isə tədqiqatçıların metodologiyasını müşahidə edəcəklər: "nəzarətçilər".

### *Tapşırıq:*

- Yarımqruplarda hər kəs öz roluna girəndən sonra onlara məlumat verin ki, tədqiqat məqsədəuyğun metodologiya tələb edir. İştirakçılar tədqiqatın həyata keçirilməsi ilə bağlı bəzi mühüm məqamları təklif edir və siz onları flipçart üzərində siyahı şəklində qeyd edirsiniz. Vaxt az olarsa, bunu özünüz də hazırlaya bilərsiniz.
- Hər yarımqrup 2 "tədqiqat", 2 "nəzarətçi" seçir. Onlara uyğun kart verin (tədqiqatçılar üçün 2-ci material, nəzarətçilər üçün 3-cü material). Tapşırığın hər kəs tərəfindən başa düşüldüyünü təmin edin. İqtidar və müxalif tərəflər üzrə iştirakçı sayının təxminən bərabər olduğunu təmin edin.

- İştirakçıları məlumatlandırın ki, tədqiqatı həyata keçirmək üçün 30 dəqiqə vaxt verilir. Təklif edin ki, müvafiq informasiyanı tapmaq üçün ilk 20 dəqiqədən yararlansınlar, parlament nümayəndəsinə (bir qrupun yalnız bir nəfər siyasətçisi olmalıdır) təqdim edəcəkləri əsas məqamları razılaşdırmaq üçün isə qalan 10 dəqiqə vaxtdan istifadə etsinlər. Yalnız əsas nüanslar təqdim edilə bilər: iştirakçılar elə təsəvvür etməlidir ki, özləri üçün nitq söyləmir, sanki parlament üzvü qarşısında məlumat verirlər!
- Qruplar tapşırığı yekunlaşdırdıqdan sonra kompüterdən kənara çəkilmələrini xahiş edin. Onlara əlavə 5-10 dəqiqə vaxt verin ki, qrupdakı nəzarətçilər özlərinin müşahidə etdiyi başlıca məqamlara dair fikir bildirsinlər.
- Bütünlükdə qrupu bir yerə cəmləyin və tədqiqatçılara tapşırın ki, aşkar etdikləri əsas faktları təqdim etsinlər.
- Hər təqdimatdan sonra nəzarətçilər üçün müəyyən vaxt ayırın ki, əldə etdikləri nəticələri təqdim etsinlər, həmçinin verilən informasiya və ya istifadə olunan strategiyaya dair digər qrupların sualları cavablandırılsın.

***Tapşırığın qiymətləndirilməsi***

Aşağıdakı sualları verməklə iştirakçıların tapşırıq barədə fikrini öyrənin:

**Tədqiqatın həyata keçirilməsi və informasiyanın parlament nümayəndələrinə verilməsi haqqında suallar:**

- *Bu tapşırıq sizin üçün asan oldu?*
- *İnformasiya üçün istifadə etdiyiniz vebsaytları necə seçdiniz? Həmin saytların "etibarlılığı" və ya seçdiyiniz informasiyanın "həqiqətə uyğunluğu" sizi nə dərəcədə maraqlandırdı?*
- *Parlament nümayəndənizin siyasi mövqeyinə uyğun olan informasiyanı tapmağa, yoxsa problemə "obyektiv" yanaşan informasiyanı tapmağa daha çox əhəmiyyət verirsiniz? Əsl tədqiqatçı nə etməlidir?*
- *Homoseksuallara qarşı nifrət nitqinə dair nümunələri axtarmısınızmı? Əgər axtarmamısınızsa, necə düşünürsünüz, bu, lazım ola bilərdimi?*
- *Parlament nümayəndəniz bu tədqiqatdan razı qalardımı? Necə fikirləşirsiniz, bəs onun təmsil etdiyi şəxslər razı qalardı?*

**Tədqiqat məqsədləri üçün İnternetdən istifadə ilə bağlı suallar:**

- *İnternetdən tədqiqat məqsədi üçün istifadə ilə bağlı hansısa mühüm bir faktı aşkar etdinizmi? Tapşırığın əvvəlində hazırlanmış mühüm məqamlar siyahısına əlavə etmək istədiyiniz nəsə varmı?*
- *İnsanların tapa bildiyi fərqli informasiyalar sizi təəccübləndirdimi? Bunu necə izah edərdiniz?*
- *Vebsaytın, yaxud verilən informasiyanın etibarlı olub-olmadığını yoxlamaq üçün hansı vasitələrə əl ata bilərik? Adətən belə edirsiniz?*

**İnformasiyanın keyfiyyətini qiymətləndirmək üçün meyarlar**

İnformasiya və ya sənədin kontentinin keyfiyyətini qiymətləndirmək üçün heç bir vasitə insan mühakiməsini əvəz edə bilməz. Tədqiqat boyu iştirakçılar əldə etdikləri məlumatlara tənqidi yanaşmalı və aşkar etdikləri əsas faktların müqayisə, tənqid və s. vasitəsi ilə təhlilini həyata keçirməlidirlər. Bu informasiya etibarlıdırmı? Həqiqəti əks etdirən faktdırmı? Bəlkə, təfsirdir? Yoxsa şayiə? Bəlkə, fikirdir? Bu mövzuya dair başqa nəzər nöqtələri varmı? Bu, mənə lazım olan informasiyadırmı? Tədqiqat metodologiyam uyğundurmu? ... İnformasiyanın keyfiyyətini qiymətləndirmək üçün əsas meyarlar:

- *Bu informasiyanın mənbəyi göstərilibmi?*
- *Etibarlıdırmı?*
- *Müfəssəldirmi? Dəqiqdirmi? Tamdırmı?*

- *Yeni məlumatlar verirmi?*
- *O məlumatı əldə etmək olurmu?*
- *Məqsədəmüvafiq şəkildə strukturlaşdırılıbmı, təşkil olunubmu, yazılıbmı?*
- *Və s.*

**Onlayn aləmdə homofobiya\nifrət nitqi barədə suallar**

- *Ayrı-seçkilik və təhqir hallarına dair nümunələrə rast gəldinizmi?*
- *Tapdığınız informasiyanın saxta və ya ədalətsiz olduğunu düşünürsünüzmü?*
- *Hər kəsin öz fikrini İnternetdə sərbəst şəkildə bildirməkdə azad olmağının nə kimi riskləri mövcuddur?*
- *Digər insanların belə fikirləri fakt kimi qəbul etməsi riskini azaltmaq üçün gənclər özlərinin edə biləcəkləri barədə düşünürmü?*

***Tövsiyələr***

- "Nəzarətçilər" əvvəlcədən təlimatlandırılsalar, bu tapşırıq daha effektiv nəticə verə bilər. Mümkün olarsa, hər kiçik qrup üçün yalnız bir nəzarətçi təyin edə və "tədqiqatçılar"ın sayını artıra bilərsiniz.
- Tədqiqatçılarda elə hiss yaranmamalıdır ki, sanki nəzarətçilər onları "yoxlayır". Onlara məlumat verə bilərsiniz ki, nəzarətçilərin vəzifəsi fərqli tədqiqat metodlarını nəzərdən keçirməkdir və bu tapşırığa yanaşmağın bir sıra üsulları vardır.
- Nəzarət vərəqələrini tədqiqatçılara göstərməyə bilərsiniz: bu halda, mühüm məqamlar barədə məlumatlandırılmayacaqlar və nəticələr daha maraqlı gələ bilər. Lakin bu həmçinin tədqiqatçılarda əlavə gərginlik də yarada bilər. Nəzarət vərəqəsinin onlara göstərilməsi tədqiqatçı və nəzarətçilərə məqsədəmüvafiq əməkdaşlıq münasibətlərini qurmağa kömək edər.
- Sorğu-sual zamanı tapmaq "istədiyimiz" nəticələrin tədqiqata göstərdiyi təsirlərini araşdıra bilərsiniz. İnformasiyanı görüb, lakin ona inanmaq istəmədikləri halda, iştirakçıların necə davrandığını soruşa bilərsiniz.
- İnternetdə geniş yayılmış dezinformasiya və ya qeyri-obyektivliyin meydana gətirdiyi təhlükələrdən biri odur ki, bu, asanlıqla "fakt" kimi yayıla bilər. İnternetdə rast gəlinən məlumatları "fakt" kimi qəbul edib-etməməsi, həmin məlumatların müvafiq qrup və ya fərdlərlə bağlı mənfi fikirlərin yayılmasına təkan verə bilib-bilməyəcəyi kimi məsələlər araşdırıla bilər.
- İnternetdə yerləşdirilən informasiyanın etibarlılığının yoxlanılması üçün iştirakçıların irəli sürdüyü təkliflərə əlavələr etmək məqsədi ilə İnternet savadlılığı üzrə materiallarda çeklistlərdən istifadə edə bilərsiniz. Gördüyümüz məlumatların əksəriyyətinin fərdi "fikrə" əsaslandığını vurğulamaq lazımdır. İnformasiyanın təqdim olunmasının bir çox üsulu vardır ki, xüsusi nəzər nöqtəsi vurğulansın. Məsələn, homofob nifrət niqtinə dair nümunələrə məhəl qoyulmaması bu məsələnin problem olmadığı təsərrüatını yaradır.
- İnternet kələkbazlarının izlənilməsi haqqında axtarış edə və saxta xəbərlərin nifrət nitqini necə qızışdırdığını müzakirə edə bilərsiniz.

***Dəyişənlər***

- Tədqiqat üçün fərqli "hədəf qrupu"nu seçə bilərsiniz. Məsələn, qaraçı qadınlar və ya başqa etnik azlıqlar, sığınacaq axtarışında olanlar və b.
- Bu tapşırığı həmçinin "nəzarətçilər" olmadan da yerinə yetirə bilərsiniz. Hər kəs özünün "nəzarətçi"si ola bilər. Bu halda, nəzarət vərəqəsini qrupla birlikdə əvvəlcədən gözdən keçirməlisiniz və onlar tədqiqat zamanı öz şəxsi metodlarını sınaqdan keçirməlidir.

***Mənbə***

Avropa Şurası, “Bookmarks” - ***İnsan hüquqları üzrə maarifləndirmə aparmaqla onlayn mühitdə nifrət nitqi ilə mübarizə haqqında təlimat***, Avropa Şurası, Strasburq, 2014

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

NO HATE
NO HATE SPEECH MOVEMENT

***Əlavə məlumat üçün***

Dezinformasiya strategiyalarına dair digər öyrədici fəaliyyətlər üçün baxın: mediasmarts.ca/sites/default/files/tutorials/facing-online-hate/index.html.

## Tapşırıq üçün material 1: **Ssenari**

Xüsusilə də İnternet saytları və videogörüntülərində gənc geylərə qarşı həyata keçirilən bir sıra homofob hücumlardan və QHT-lərin geniş vüsətli lobbiçiliyindən sonra bu problemlə əlaqədar parlamentdə debat olmalıdır. Homofob davranışlara qarşı mübarizə aparmaq məqsədi ilə maarifləndirmə işləri istiqamətində büdcədən vəsait ayırmaq və gənc geylərə dəstək göstərmək üçün hökumət qanun layihəsini təklif etmişdir. Bütün müxalif yönlü partiyalar bu yeni qanuna qarşı çıxır. Fərz edin ki, debatda nitq söyləmək istəyən siyasətçinin tədqiqatçısısınız. Həmin siyasətçi debatda vurğulanacaq bəzi əsas məqamları ehtiva edəcək nitqi üçün qısa məlumat hazırlamağı sizə həvalə edir. Müəyyən ilkin tədqiqat aparmaq üçün 20 dəqiqə vaxtınız var.

## Tapşırıq üçün 2-ci material: **“Tədqiqatçılar» (siyasətçi üçün çalışanlar) və «nəzarətçilər” üçün tapşırıq.**

**1-ci siyasətçinin “tədqiqatçılar”ı**

Sizin siyasətçiniz hökumət üzvüdür. O, yeni qanun layihəsinin lehinə əsaslı çıxış etməlidir. Onun nitqində faydalı ola biləcək hər hansı informasiyanı əldə etmək üçün İnternetdə axtarış edin. Sonra onun vurğulamalı olduğunu düşündüyünüz təxminən 5 ədəd əsas məqamın siyahısını hazırlayın.

**2-ci siyasətçinin “tədqiqatçılar”ı**

Sizin siyasətçiniz müxalifət üzvüdür. O, bu problemin həlli üçün büdcədən vəsait ayrılmasının əleyhinədir. Onun nitqində faydalı ola biləcək hər hansı informasiyanı əldə etmək üçün İnternetdə axtarış edin. Sonra onun vurğulamalı olduğunu düşündüyünüz təxminən 5 ədəd əsas məqamın siyahısını hazırlayın.

**3-cü siyasətçinin “tədqiqatçılar”ı**

Sizin siyasətçiniz azlıq partiyasının üzvüdür. Bu partiya sözügedən qanun layihəsini dəstəkləyib-dəstəkləməməyi hələ qərarlaşdırmamışdır. Sizin siyasətçinizin konkret bir qərar verməsində faydalı ola biləcək hər hansı informasiyanı əldə etmək üçün İnternetdə axtarış edin. Sonra onun vurğulamalı olduğunu düşündüyünüz təxminən 5 ədəd əsas məqamın siyahısını hazırlayın.

**“Nəzarətçilər”**

Sizin vəzifəniz tədqiqatçıların yanaşmasını təhlil etməyə cəhd göstərməkdir. Nəzarət vərəqəsində verilmiş suallara dair bacardığınız qədər çox informasiya toplamağa çalışın. Tədqiqatçıların diqqətini çox yayındırmadan onların nə etdiyini, yaxud müvafiq yanaşmadan nə üçün istifadə etdiyini soruşa bilərsiniz!

## Tapşırıq üçün material 3: **Nəzarət vərəqəsi**

| | |
|---|---|
| İnformasiyanın tapılması üçün istifadə olunan axtarış terminləri | |
| Saytın adı | |
| Saytda sərf olunan dəqiqələrin təxmini sayı | |
| Saytın "siyasi meyli" (geylərin leyihə, geylərin əleyhinə, neytral) | |
| Bu sayt niyə seçilib? | |
| Saytın "rəhbərliyi": nə üçün bu sayta etibar edilməlidir? Qrup bunu yoxlayıb? Yoxlayıbsa, nəticə nədən ibarət olub? | |
| Çıxarılmış istənilən informasiyanın mənbəyi və ya istinadı verilibmi və qrup bunu yoxlayıbmı? | |
| Tədqiqatçıların öz vəzifəsi ilə bağlı tətbiq etdikləri yanaşma ilə bağlı əlavə məlumatlar | |

## Tapşırıq üçün material 4: **İnformasiyanı yoxlamaq**

**Arqumenti yoxlamaq**

- Verilmiş bəyanatların mənbələri göstərilibmi? Yoxsa arqumentlər sadəcə "sağlam düşüncə"yə əsaslanıb?
- Aidiyyəti mənbələr mövzu ilə bağlı rəsmi mənbələrdirmi?
- Arqumentlər faktla sübut olunubmu, yoxsa başqa qənaətə gəlməyə şərait yaradılıb?
- Arqumentlər "faktlar"a əsaslanıb, yoxsa emosiyalara, ənənəvi inanclara, bəlkə, sadəcə ehtimal olunan nəticələrə?
- "Faktlar" və ya tutarlı arqumentlər yoxlanıla bilərmi?
- Arqumentlər fərd və ya qruplara aid ümumiləşdirmələri ehtiva edirmi?
- Rasist və ya ayrı-seçkilik xarakterli ümumiləşdirmələr varmı?
- Başqa perspektivlərdən yanaşmaq mümkündürmü və həmin perspektivlər arqumentin yanlış olduğunu göstərə bilərmi?
- Verilən bəyanatlar *şəxsi-qərəzliyə* əsaslanırmı? Başqa sözlə desək, arqumentlər qarşı tərəfin dediklərinə, yoxsa qarşı tərəfin mövqeyinə əsaslanır?
- Təqdimat, məsələn, gözəgəlimli şəkillər və ya multimediadan istifadə arqumenti daha da inandırıcı edirmi?

**Etibarlılığın yoxlanılması**

- Bu sayt informasiya və ya fikir mənbəyi kimi qəbul edilibmi? Digər mənbələr bu sayta istinad edirmi?
- Saytın sahibləri və müəllifləri məlumdurmu? Nə üçün onlara güvənməliyik?
- Sayt öz məqsədlərini açıqlayırmı?
- Saytın yerləşdiyi zona, müəlliflərinin şəxsiyyəti və missiyası ona təsir göstərirmi?
- Saytda sayı birdən çox nəzər nöqtəsi verilirmi?
- Sayt hansı tezlikdə yenilənir və yeni kontenti varmı?
- Eyni kontentə digər saytlarda rast gəlirik?
- Məsələn, kommersiya maraqları və siyasi mənsubiyyətlə əlaqədar maraq toqquşması ola bilərmi?
- Saytda verilən kontentin istinad və mənbələri göstərilirmi?
- Saytın rasist və ayrı-seçkilik xarakterli kontent haqqıda siyasəti varmı?
- Saytda bu növ kontent necə idarə edilir və gələn şikayətləri necə cavablandırır?

# 4.3. Təbliğat




**Hər bir ekstremist ideologiya çox effektiv kommunikasiya strategiyalarından, qarışıq manipulyasiyadan, faktların təhrifindən, şəkillərlə müdaxilə etməkdən yararlanır... Gənc bir adam əlinə keçən məlumatları təhlil etmək üçün zəruri bacarıqlara malik deyilsə, onun bu tipli mesajların təsirinə düşməməsi çətin olardı.**

Təbliğat məsələsi ilə bağlı müəyyən pedaqoji alətlər bu fəsildə verilir.

# 4.3.1. TƏBLİĞAT POSTERİNİN TƏHLİLİ

*Məqsədlər*

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Təbliğat posterini müəyyənləşdirmək.**
- **Təbliğat posterinin digər posterlərdən (siyasi, reklam, kino) nə ilə fərqləndiyini müəyyənləşdirmək.**
- **Təbliğatın nədən ibarət olduğunu başa düşmək və müəyyənləşdirmək.**
- **Təbliğatın vizual və semantik elementlərini müəyyənləşdirə bilmək.**
- **Təbliğatın tərifini müəyyənləşdirmək.**

*Hədəf auditoriya*

**Yaşı 15-dən yuxarı olan şəxslər.**

*Qrup həcmi*

**6-25 nəfər.**

*Materiallar*

- **Kağız və qələm.**
- **Təbliğat posterləri (seçilmiş posterin hər yarımqrup üçün bir surəti). Qrupun xüsusiyyətlərini nəzərə alaraq, posterlər arasından seçim edə bilərsiniz. Tapşırıq materiallarında bəzi nümunələr verilmişdir.**
- **Tapşırıq üçün material: Açıqlamalar.**

*Vaxt*

**Təxminən 1 saat 15 dəqiqə.**

*Təlimçidən tələb olunan bacarıqlar\biliklər*

**Təbliğat anlayışını başa düşmək.**

***Tapşırıq***

- İnternetdən fərqli posterlər (bəziləri təbliğat, bəziləri qeyri-təbliğat) toplayın. Tapşırıq materiallarında bəzi nümunələr verilmişdir.
- Yarımqruplar yaradın, kağız və qələmləri paylayın.
- Yarımqruplar şəklində toplanmış iştirakçılardan “təbliğat” sözünün onlar üçün nə demək olduğunu soruşun, habelə ağıllarına gələn istənilən fikri, şəkil və sözləri yazmağını xahiş edin.
- Hər yarımqrupa bir neçə poster verin. O biri qruplara da eyni posteri və ya fərqli bir posteri verə bilərsiniz; bu isə tapşırıq nəticəsində gəlmək istədiyiniz qənaətlərdən asılıdır.
- İştirakçılar posterlərə nəzər yetirməli və qrup şəklində aşağıdakı sualları cavablandırmalıdır:
  - *Ümumi təəssüratınız nədir?*
  - *Bütün bu sənədlərə dair hansı xarakteristikalar ümumidir?*
  - *Sizcə, bu posterlərdən hansıları “təbliğat” kateqoriyasına düşür?*
- Böyük bir qrup yaradın. İştirakçılar öz cavablarını bölüşür və müzakirə edir. Oxşar və fərqli fikirlər varmı? Bunun səbəbi nədir?
- İştirakçılar “təbliğat” kateqoriyasına salınan posterlərin hər birinə bir daha nəzər yetirir və bəzi əsas cəhətləri müəyyənləşdirməyə çalışır.
- Yenə eyni yarımqrupları yaradın və tapşırıq verin ki, seçdikləri posterin üzərində təbliğat ifadəsinin

təriﬁni versinlər. Onlar ﬁkirləşməli və təbliğatın xüsusiyyətlərini əhatə etməlidir.

- Bütün posterləri nümayiş etdirin və müvaﬁq informasiyanı qrupa təqdim edin: qrupların yürütdüyü ﬁkirlərdə oxşar və fərqli cəhətlər varmı? Bunun səbəbi nə ola bilər?
- Qrupa tapşırın ki, təbliğat ifadəsi ilə bağlı vahid təriﬁ müəyyənləşdirmək məqsədi ilə yarımqrupların təklif etdiyi fərqli təriﬂərdən istifadə etsinlər.
- Həmin təriﬁ digər mənbələrdə, məsələn, lüğət, ensiklopediya və İnternetdə verilən açıqlama ilə müqayisə edin. Tapşırıq materialında həmin açıqlamalar veriləcək. Həmin təriﬂərdən ən dəqiqi qrup tərəﬁndən müəyyənləşdirilir.
- Müzakirə üçün təbliğatın bəzi ümumi xüsusiyyətlərini təqdim edirik (daha çoxunu əlavə edə bilərsiniz!):
  - *Müəyyənləşdirilmiş düşmən, bir çox cəhətdən qurban.*
  - *Mürəkkəb bir problem, çox sadə təqdim edilmişdir.*
  - *Təzadlı reallıq.*
  - *İnsanları hər kəsin eyni ﬁkirdə olduğunu düşünməyə vadar edilməsi.*
  - *Gizli qorxuların üzə çıxması, yaxud keçmişdə məşhur olan simalara istinad edilməsi.*
  - *Və s.*

***Mənbə***

Zorakılıq əleyhinə tədbirlər, Università degli Studi di Firenze layihəsi: e-engagementagainstviolence.eu/

With financial support of the DAPHNE Programme of the European Union

Tapşırıq üçün 1-ci material: **Posterlər**



Tapşırıq üçün 1-ci material: **Posterlər**



Tapşırıq üçün 1-ci material: **Posterlər**



Tapşırıq üçün 1-ci material: **Posterlər**



## Tapşırıq üçün 1-ci material: **Posterlər**







Daha güclü təhlükəsizlik naminə: Xaricdən gələn cinayətkarların gəldikləri yerə geri göndərilməsi üçün məşhur təşəbbüs

Tapşırıq üçün 1-ci material: **Posterlər**



Tapşırıq üçün 1-ci material: **Posterlər**




Dayanın! Minarələrin qadağan edilməsinə

## Tapşırıq üçün material: **Açıqlamalar**

- Oksford İngilis dili lüğəti: Siyasi bir səbəbin və ya nəzər nöqtəsinin təbliği üçün istifadə edilən, xüsusilə də əsassız və ya azdırıcı xüsusiyyətlərə malik informasiya.
- Kembric lüğəti: Arqumentin yalnız bir hissəsini təcəssüm etdirən, əhalinin fikrinə təsir göstərmək niyyəti ilə yayımlanan, nəşr edilən və ya başqa vasitələrlə yayılan informasiya, ideya, fikir və ya şəkillər.
- Kollins İngilis dili lüğəti: Təbliğat siyasi bir təşkilatın əhaliyə təsir etmək məqsədi ilə nəşr etdiyi və yayımladığı adətən qeyri-dəqiq informasiyadır.
- Sizin verdiyiniz tərif:

# 4.3.2. TƏBLİĞAT NİTQİNİN TƏHLİLİ

*Məqsədlər*

**Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:**

- **Təbliğatın nədən ibarət olduğunu başa düşmək və müəyyənləşdirmək.**
- **Müxtəlif təbliğat texnikalarını müəyyənləşdirmək.**

*Hədəf auditoriya*

**Yaşı 15-dən yuxarı olan şəxslər.**

*Qrup həcmi*

**Maksimum 20 nəfər.**

*Materiallar*

- **Rəngli markerlər.**
- **Sizin seçdiyiniz təbliğat nitqi və mümkün olarsa, həmin nitqin olduğu videogörüntü.**
- **Tapşırıq üçün material: təbliğat texnikaları (iştirakçıların sayı qədər surət).**
- **Sürətli İnternetə qoşulmuş və keyfiyyətli səsi olan kompüter, zəruri hallarda, projektor.**

*Vaxt*

**Təxminən 1.5 saat.**

***Tapşırıq***

- İnternetdən təbliğat nitqləri ilə bağlı audio və videoyazıları toplayın.
- Tələb olunarsa, materiala qulaq asmaq və ya baxmaq üçün cihazı quraşdırın.
- Seçilmiş təbliğat nitqinə iştirakçılarla birgə qulaq asın və ya baxın.
- Müxtəlif rəngli markerlərlə yanaşı, həmin nitqi yazıldığı formada da hər bir iştirakçıya təqdim edin.
- İştirakçılar ya fərdi, ya da yarımqrup şəklində:
  - *İstənilən informasiyanı sarı rənglə işarələyir.*
  - *İstənilən kommunikasiya vasitəsini yaşıl rənglə işarələyir.*
  - *İstənilən siyasi vədi mavi rənglə işarələyir.*
  - *İstənilən təbliğat vasitəsini qırmızı rənglə işarələyir.*
- İştirakçılar işarələnmiş sözlərin arasından informasiya, kommunikasiya, vəd və təbliğat elementlərini müəyyənləşdirir.
- İştirakçılardan öz təhlillərini qrupla bölüşməyi xahiş edin.
- Nitqin qırmızı rəngli hissələrinə qayıdın və iştirakçıların adətən təbliğat prosesində istifadə olunan texnikaları uğurla müəyyənləşdirib-müəyyənləşdirmədiyinə diqqət yetirin. Yardım üçün tapşırıq materialını (təbliğat texnikaları) paylaya bilərsiniz.

***Mənbə***

Zorakılıq əleyhinə tədbirlər,  Università degli Studi di Firenze layihəsi:
e-engagementagainstviolence.eu

## Tapşırıq üçün material: **Təbliğat texnikaları**

| **Texnikalar** | **Təsvir** | **Seçilmiş nitqdən nümunələr** |
|---|---|---|
| Qorxuya aiddir | Qorxmuş cəmiyyət fikirləri daha asanlıqla qəbul edir. | |
| Hökmə aiddir | Müəyyən fikri dəstəkləmək üçün mühüm şəxslərdən sitat gətirmək və ya keçmiş modellərə müraciət etmək: səbəbi əsaslandırmaq üçün nağıl danışmaq. | |
| Şahidlik | Təbliğat mesajının əhəmiyyətini vurğulamaq məqsədi ilə ekspertlərə və tanınan şəxsiyyətlərə istinad etmək. | |
| Sürü davranışı | Nüfuzlu kütləvi hərəkatın artıq bu ideyanı dəstəklədiyi barədə yalan danışmaq (qrupun fərdlərə qarşı konformist təzyiqi ilə yekdillik prinsipi). | |
| Revizionizm | Sözlərin tərifini yenidən vermək və ya hadisəni saxtalaşdırmaq. | |
| Narazılıq | Müəyyən fikrin və ya hərəkatın rəqib qrup tərəfindən qəbul edildiyini bildirməklə, bu barədə heç bir real informasiya olmadan auditoriyanın həmin fikrə narazı yanaşmasına nail olmaq. | |
| Comərd sözlər | Auditoriyanın tənqidi təfəkkürünü məhdudlaşdıran vətənpərvərlik, sülhməramlılıq, azadlıq, ədalət, şərəf və s. kimi sözlərdən istifadə. Bütün bunlar birlikdə natiqin konsepsiya və proqramlarının əsaslandığı ideyalar məqsədyönlü, ilhamlandırıcı və comərd səslənəcək. | |
| Qəsdən qeyri-dəqiqlik yaratmaq | Faktları yanlış formada təqdim etmək və ya mənbə göstərmədən statistik məlumatlara istinad etmək. Burada niyyət ondan ibarətdir ki, həmin nitqin faktlara əsaslandığı təəssüratı yaransın. | |
| Müqayisə | Hər hansı şəxsin, qurumun və ya qrupun (fərd, qrup, millət və s.) müsbət və ya mənfi cəhətlərini üçüncü tərəflə müqayisədə təbliğ etmək. Məqsəd həmin ikinci qurumun daha çox (və ya az) qəbul edilməsinə nail olmaqdır. | |
| İfrat dərəcədə sadələşdirmə | Mürəkkəb problemlərin sadə həlli yollarını təklif etmək üçün ümumi cümlələrdən istifadə. | |
| Adi insan | Adi insanların sözlərindən və davranışından (geyim, jest, ləhcə) istifadə etmək. | |
| Stereotip | Auditoriyanın qərəz və stereotiplərindən istifadə etmək. | |
| Məzlum | Problemin əsl günahkarının kim olduğu barədə danışıqlardan yan keçərək və problemin məğzinə varmayaraq, problemin yeganə günahkarı kimi yalnız bir düşməni - fərd və ya fərdlər qrupunu seçib onu günahlandırmaq. | |
| Şüar | İdeyaları auditoriyanın yadda saxlaya biləcəyi qısa ifadələrlə çatdırmaq. | |
| Semantik mənaya meyllənmək | Faktları faciələşdirmək və ya şişirtmək, yaxud əksinə, bir qədər həlimləşdirmək məqsədi ilə bir ifadəni digəri ilə əvəzləmək. Məsələn, "iqtisadi böhran vəziyyətində" birləşməsini "viranə vəziyyətə düşən ölkə" ilə, "hava zərbəsi" biləşməsini "bombardman", "dinc sakinlərin ziyan görməsi"ni "sadə vətəndaşların qurban getməsi" ilə əvəz etmək. | |

# 4.3.3. NİFRƏT NİTQİNİN QAVRANILMASI

***Məqsədlər***

Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:

- Onlayn aləmdə yayılan nifrət nitqinin müxtəlif formalarını, habelə həmin nitqlərin öz qurbanları və bütünlükdə cəmiyyətə istiqamətlənən təsirlərini daha yaxşı başa düşmək.
- Onlayn aləmdə yayılan nifrət nitqlərinə verilən mümkün cavabları araşdırmaq.

***Hədəf auditoriya***

Yaşı 15-dən yuxarı olan şəxslər.

***Qrup həcmi***

10-25 nəfər.

***Materiallar***

- Kağız və qələm.
- İki stol, flipçart və markerlər («Qurbanlara yönəlik təsirlər» və «Cəmiyyətə yönəlik təsirlər» adlı iki stol hazırlayın).
- Tapşırıq üçün material: Nifrət nitqinə dair nümunə (hər yarımqrup üçün bir surət).

***Vaxt***

Təxminən bir saat.

***Tapşırıq***

- Onlayn aləmdə yayılan nifrət nitqi dedikdə iştirakçıları nə başa düşdüyünü soruşun.
- Kiminsə nə vaxtsa onlayn aləmdə birbaşa şəxsə və ya xüsusi qrupların nümayəndələrinə qarşı nifrət nitqi ilə qarşılaşıb-qarşılaşmadığını soruşun (məsələn, geylər, qaradərililər, müsəlmanlar, yəhudilər, qadınlar və b.). Belə halla qarşılaşarkən nə hisslər keçirdiniz? Bəs sizcə, qurbanlar nə hiss keçirib?
- İştirakçılara izah edin ki, “nifrət nitqi” terminindən genişmiqyaslı məqsədlər üçün istifadə olunur:
  - Əvvəla, bu, sağlam düşüncədə “nitq” sözünü aşır, digər kommunikasiya formaları, məsələn, videolar, şəkillər, musiqi və s.-ə aid istifadə edilə bilər.
  - Çox alçaldıcı və hətta hədələyici davranışı, habelə “sadəcə” xoşagəlməz fikirləri təsvir etmək bu termindən istifadə oluna bilər.
- İştirakçılara izah edin ki, onlar xüsusilə də qurbanların özlərinə və cəmiyyətə istiqamətlənən təsirləri diqqətdə saxlamaqla, onlayn nifrət nitqinin real nümunələrini təhlil edəcəklər.
- İştirakçıları qruplara ayırın. Hər bir qrupa onlayn nifrət nitqinə dair bir nümunə verin.
- İştirakçılar həmin nümunəni müzakirə edir və aşağıdakı sulları cavablandırır:
  - Bu nümunədə nifrət nitqinin qurbanları kimdir? Həmin nitqin qurbanlara istiqamətlənən təsirləri nədən ibarətdir?
  - Bu nifrət nitqinin hədəflərini icma ilə birlikdə müəyyənləşdirən şəxslərə və ümumiyyətlə, cəmiyyətə bu nitqin hansı təsirləri ola bilər?
- Sualları cavablandırmaq üçün iştirakçılara 15 dəqiqə vaxt verin.

***Tapşırığın qiymətləndirilməsi***

- Bütün iştirakçıları yenidən bir araya gətirin.
- Qruplar öz cavablarını təqdim edərək hər bir nümunəni paylaşırlar. Suallara verilən cavabları flipçart üzərində qeyd edin. Qruplar eyni cavabları verərsə, həmin cavabın təkrarlandığını göstərmək üçün altından xətt çəkin və ya sadəcə yanında rəqəmlər yazın. Bütün qruplar öz nəticələrini təqdim edib bitirdikdən sonra iki flipçart vərəqəsinə nəzər yetirin və bütün iştirakçılarla birlikdə tapşırığa dair fikir yürütmək üçün aşağıdakı suallardan istifadə edin:
  - Tapşırıqla bağlı nə fikirləşirsiniz? Təhlil etdiyiniz nümunələrlə bağlı nə hisslər keçirdiniz?
  - Qrupların sadaladığı nifrət nitqinin ümumi təsirlərindən bəzilərini qeyd edə bilərsinizmi?
  - Nümunələrdəki nifrət nitqinin hədəfində duran qrupların ümumi cəhəti nədədir?
  - Nifrət nitqinin hədəf qrupundan asılı olmayaraq, həmin nitqin göstərdiyi təsirlərlə bağlı oxşar cəhətlər varmı?
  - Belə bir davranış onlayn mühitdə yayılarsa və bu problemin həlli istiqamətində heç bir iş görülməzsə, hansı nəticələr meydana gələ bilər?
  - Onlayn nifrət nitqinin qarşısını almaq üçün hansı vasitə və metodlar yararlı olardı?
  - İnternetdə belə bir davranışla qarşılaşanda nə edə bilərik?

***Dəyişənlər***

- Kifayət qədər vaxt olarsa, iştirakçılar nifrət nitqinin qurbanlarına (müzakirə olunan nümunələrdə) istiqamətlənmiş həmrəylik mesajlarını hazırlaya bilər.
- Nifrət nitqi və fikir azadlığı arasındakı əlaqələri nəzərdən keçirmək üçün praktik təhlillərdən istifadə edə bilərsiniz. Bu zaman hər bir halda tətbiq edilə biləcək məhdudiyyətləri iştirakçılarla müzakirə edə bilərsiniz.

***Əlavə oxu***

- Onlayn nifrət nitqinə qarşı əlavə informasiya: www.nohatespeech.org.
- İştirakçılar hərəkatı aşkarlamaq və ona qoşulmaqla öz müxalif fikirlərini ifadə edir.

***Mənbə***

Avropa Şurası, “Bookmarks” - *İnsan hüquqları üzrə maarifləndirmə aparmaqla onlayn mühitdə nifrət nitqi ilə mübarizə haqqında təlimat,* Avropa Şurası, Strasburq, 2014

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

NO HATE
NO HATE SPEECH MOVEMENT

## Tapşırıq üçün material: **Nifrət nitqinə dair nümunələr**

1. Gənc oğlan özünün sosial şəbəkə profilində bir millətçi partiyasının iri bayrağının şəklini qoyur və “İslam mənim ölkəmdən çıxmalıdır - Öz millətimizi qorumalıyıq” tipli şərhlər yerləşdirir. O, aypara və ulduz simvollarının şəklini qadağa işarəsi ilə paylaşır. O, bu informasiyanı özünün sosial şəbəkə səhifəsində və şəxsi vebsaytında da paylaşır.

2. X. yəhudi soyqırımının “heç vaxt baş vermədiyi”ni bildirməklə kifayətlənməyib, yəhudilər barədə təhqiramiz və rasist sözlər deyərək məlumat yazır. A. həmin məlumatı öz bloqunda və yəhudi əleyhinə idarə edilən bir sıra vebsaytlarda paylaşır. A. həmin məlumatı həmçinin onlayn ensiklopedik saytlara yerləşdirərək, onu yəhudi soyqırımı barədə “elmi informasiya” kimi qələmə verir.

3. Tanınmış bir jurnalist hakim siyasi partiya meylli qəzetdə yazdığı məqaləsində qaraçıları “heyvan” adlandırır və onların cəmiyyətdən təcrid olunmasını dəstəkləyir. Qəzetin onlayn versiyasının forum bölməsində yazılan əksər şərhlərdə insanlar jurnalistin fikirləri ilə razı olduqlarını ifadə edir. Qəzet jurnalistin qeydlərinə görə üzrxahlıq etmir və ya heç bir izahat vermir. Eyni mövqeni dəstəkləyən başqa məqalələr də İnternetdə yayılır və həmin məqalələrdə də oxşar ifadələrdən istifadə edilir. Forumda şərh yazanların sayı getdikcə artır.

4. İmmiqrant və qaçqınların ölkədəki iqtisadi böhranın günahkarları olduğunu vurğulayan onlayn kampaniya təşkil edilir. Sosial şəbəkə platformalarında postlar paylaşılmağa başlayır: qaçqını aqressiv adam kimi göstərən şəkillər, qaçqınların alçaldıcı vəziyyətlərdəki şəkilləri, onların iş yerlərini yerli əhalinin əlindən aldığına dair şərhlər. Külli miqdarda dezinformasiya, o cümlədən immiqrantların zorakı olduğunu və problemlər yaratdığını göstərən saxta statistik məlumatlar bütünlükdə sosial media saytlarını bürüyür.

5. Əcnəbi vətəndaşların ölkə daxilində heç bir hüquqlarının olmadığını iddia edən təhqiramiz şərhlər müxtəlif xəbər saytlarına yerləşdirilir. Həmin şərhlərin bəziləri isə qaradərili əcnəbilərə qarşı zorakılığı tətbiq etməyə çağırır.

6. LGBT şəxslərin “anormal” və “xəstə” olduqlarını, ənənələri və millətin nəsil davamiyyətini pozması səbəbindən onların cəmiyyətdən təcrid olunmasını təklif edən videogörüntülər internetdə yayılır. Həmin görüntülərdə “elmi tədqiqatlar”a istinad edilsə də, düzgün sitatlar gətirilmir və ya özlərinə lazım olan sitatlar gətirilir. Videoların bəzilərində LGBT ailələrinin uşaqları ilə birlikdə şəkilləri təqdim edilir.

7. Azarkeşlər tərəfindən oyunçulardan birinə qarşı “zənci” kimi təhqiramiz ifadələr işlədildiyinə görə futbol dayandırılır. Təhqiramiz ifadələrin işlədildiyi və oyunun dayandırıldığı həmin video internetdə paylaşılır və bir andaca geniş vüsət alır. Bir sıra vebsaytlarda rasist şərhlər yazılır. Şikayətlər gəldikdə isə həmin şərhləri dəstəkləyən bir qrup şəxs senzura qurbanları olduqlarını iddia edir.

8. Mavi cins haqqında reklam müəyyən vaxt internetdə davam etdi. Həmin reklamda qadının ətrafına kişilərin yığışdığı bir səhnə göstərilir. Həmin səhnə cinsi məzmunlu mənanı ifadə edir, lakin cinsi zorakılıq və zorlama verilən ümumi təəssüratdır. Bir ölkədə bir sıra təşkilatlar şikayət göndərir. İnternetdəki hadisə ilə bağlı yazılan xəbərlərə bir sıra şərhlər gəlir. O şərhlərin hamısında isə belə bir fikir dəstəklənir ki, sanki qadınlar, həqiqətən də, kişilərin məzələnə və zorakı hərəkətlər edə biləcəyi məxluqlardır.

9. Bir siyasətçi qızlara qarşı mövcud cinayətlərin əsas səbəbkarı kimi müsəlmanları günahlandırır. O, “ümumi fakt”larla danışır, çox az nümunə gətirir. Məqalədə verilən video bəzisi rasist və zorakı məzmuna malik olan çoxsaylı şərhlərə gətirib çıxarır. Həmin nitq eyni fikri dəstəkləyən digər insanlar tərəfindən də şərh edilir, diqqətəlayiq və əsaslı fikir kimi təqdim olunur.

10. İki ölkə arasında keçmişdə baş vermiş zorakı münaqişələr barədə videolar onlayn videokanalda qalır. Ölkələrdən birinin xalqı haqqında rasist ifadələrdən istifadə etməklə, bir çox şərhlər əlavə olunur. Bu iki cəmiyyətin nümayəndələri arasında rasizm və təhqir uzun müddət davam edir.

11. Millətçi məzmunlu musiqi onlayn musiqi kanalında yayımlanır. Əvvəllər zorakı münaqişədə olan iki etnik icma üzvləri tərəfindən bəzi musiqilər paylaşılır. Həmin musiqilərdə digər etnik qruplara qarşı zorakılıq tərənnüm edilir.

# 4.4. Konspirasiya nəzəriyyələri




**İkiüzlü konspirasiyaları ifşa edərək bizi manipulyasiya edənlərin tərsliyi danılmazdır!**

**Ən pisi odur ki, onlar öz istəyinə nail olur... xüsusilə də öz şəxsiyyətini formalaşdırmağa, yoxlamağa, bir fərd kimi formalaşmaq üçün ətrafını sorğulamağa çalışan gənclərə yönəldikdə!**

'"Konspirasiya nəzəriyyələri"nin müəyyənləşdirilməsi bu mövzu barədə məlumatlılığın, həqiqətən də, yüksəldilməsi üçün kifayət etmir. Aşağıda verilmiş tapşırıqlarda konspirasiya nəzəriyyələrinin təcrübədə necə işlədiyinin şahidi olacaqsınız.

# 4.4.1. KONSPİRASİYAYA İNANIRIQMI?

***Məqsədlər***

Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:

- İştirakçılar tərəfindən konspirasiya dilinin daha yaxşı başa düşülməsinə nail olmaq.
- Konspirasiya nəzəriyyələri vasitəsi ilə təfsir olunan hadisələr barədə iştirakçıları məlumatlandırmaq və həmin təfsirləri müzakirə etmək.

***Hədəf auditoriya***

Yaşı 15-dən yuxarı olan şəxslər.

***Qrup həcmi***

9-25 nəfər.

***Materiallar***

Sürətli internetə qoşulmuş kompüterlər.

***Vaxt***

Təqribən 50 dəqiqə.

***Tapşırıq***

- Qrup 3-5 nəfərlik yarımqruplara bölünür.
- Konspirasiya nəzəriyyəsinin mövzusu olmuş bir hadisəni həmin yarımqruplara verin. Bu vasitə ilə təfsir olunmuş hadisələrin siyahısı aşağıda verilir (nəzərə almaq lazımdır ki, bu siyahı tam deyil):
  - *11 sentyabr 2001*
  - *Madrid qatarının bombardman edilməsi, 11 mart 2004*
  - *Norveçə hücumlar, 22 iyul 2011*
  - *Çarli Hebdo, Monruj və hiper Koşer hücumları - 7-9 yanvar 2015*
  - *Paris hücumları (Bataklan, Stade de France və restoranlar), 13 noyabr 2015*
  - *Brüssel bombardmanı (Maalbeek stansiyası və Zaventem hava limanı), 22 mart 2016*
  - *Mançester arenasının bombardman edilməsi, 22 may 2017*
- Hər bir yarımqrup tədqiqatı həyata keçirmək üçün internetdən istifadə etməklə, aşağıdakı sualları cavablandırmaq üçün müxbir seçir və birlikdə işləyir:
  - *Nə barədə danışırıq? Hansı faktlar mövcuddur?*
  - *Kim haqqında danışırıq? Tərəfdarlar kimlərdir?*
  - *Onlar barədə nə bilirik?*
  - *Bu, harada baş verib?*
  - *Nə vaxt baş verib?*
  - *Hadisələrin təfsirinə cəlb olunmuş şəxslərin marağı nədir?*
- Bütün iştirakçıları yenidən bir araya gətirin.
- Hər bir yarımqrup həyata keçirdiyi tədqiqatın nəticələrini təqdim edir.

***Tapşırığın qiymətləndirilməsi***

Təqdimatlar yekunlaşdıqdan sonra konspirasiya nəzəriyyələri mövzusuna və mətbuatdan informasiyanı necə axtardığımıza dair açıq debatla tapşırığı davam edə bilərik. Debatı canlandırmaq üçün tövsiyə olunan suallar:

- *Fakt nədir? “Fakt”la onun “izahı”, “təfsirləri” arasında nə kimi fərq var?*
- *“Konspirasiya” sözü sizin üçün nə məna kəsb edir?*
- *İnformasiyanı necə axtarırsınız?*
- *Etibarlı və etibarsız informasiya arasındakı fərq nədən ibarətdir?*
- *Təqdim etdiyiniz informasiyanı haradan götürmüsünüz?*
- *İnformasiyanın etibarlı olub-olmadığını necə bilirsiniz?*

***Mənbə***

BePax, Déconstruire les théories du complot, www.bepax.org/files/files/OUTILS/bepax-deconstruire-les-theories-du-complot-fiches-pedagogiques.pdf

## 4.4.2. İNDİ SİZ ÖZÜNÜZ KONSPİRASİYA NƏZƏRİYYƏSİNİ YARADIN!

***Məqsədlər***

Bu tapşırığın məqsədi aşağıdakılardan ibarətdir:

- Müstəqillik və yaradıcılıq hissini formalaşdırmaq.
- Konspirasiya nəzəriyyələrini daha dərindən başa düşmək.
- Tənqidi təfəkkürü formalaşdırmaq.

***Hədəf auditoriya***

15-18 yaş.

***Qrup həcmi***

15-25 nəfər.

***Materiallar***

- Karton lövhə və markerlər.
- Kağız və qələm.
- Videonu göstərmək üçün avadanlıq (kompüter, projektor və s.), sürətli internet.
- Tapşırıq üçün material.

***Vaxt***

İki ayrı-ayrı 50 dəqiqəlik sessiya.

***Hazırlıq***

- Texniki materiallarınız olarsa, konspirasiya nəzəriyyələrinə dair parodiya məzmunlu videonu nümayiş etdirməklə tapşırığa start verə bilərsiniz. Bəzi nümunələr aşağıda verilir. Özünüz də müvafiq nümunələri axtarıb tapa bilərsiniz:
  - *1-ci nümunə: https://www.youtube.com/watch?v=fNS4lecOaAc&t=64s*
  - *2-ci nümunə: https://www.youtube.com/watch?v=RD8naYLDtiI*

***Tapşırıq***

- Sonra aşağıdakı suallar ətrafında müzakirəyə başlayın:
  - *Auditoriyanı inandırmaq üçün videoda hansı texnikalardan istifadə edilir?*
  - *Bu video ilə konspirasiya nəzəriyyəsi barədə digər videolar arasında hansı ümumi cəhətlər vardır?*

  Tapşırığın növbəti hissəsində istifadə etmək məqsədi ilə bu debatdan meydana gələn fərqli aspektləri qeyd edə bilərsiniz.
- Qrupu 4-5 nəfərli yarımqruplara bölün və hər yarımqrup özünün konspirasiya nəzəriyyəsini yaratmaq üçün birlikdə işləyir.
- İştirakçılar öz nəzəriyyəsini (məqalə, ssenari, plan və s.) təqdim etmək üçün müvafiq bir metod seçir. Konspirasiyanın süjetini müəyyənləşdirmək üçün hər qrup aşağıdakı ilkin sualları cavablandırmaq məqsədi ilə birlikdə işləməlidir:
  - *Kəşf etdiyiniz konspirasiya nəzəriyyəsinin başlanğıc məqamı hansı hadisədir?*
  - *Kim və ya hansı qrup bu konspirasiya nəzəriyyəsindən yararlanmağa çalışır?*
  - *Konspirasiya nəzəriyyəsinin məqsədi nədir?*

Qrupun etnik və dini qrup deyil, məhz sosial bir qrup olmasına diqqət edin. Məsələn, peşə kateqoriyaları üzrə fermerlər, müəllimlər, yaş qrupları üzrə böyüklər, yeniyetmələr, hətta fövqəltəbii qüvvələr\ heyvanlar üzrə yadplanetlilər, cırtdanlar, kenqurular və s.

- *Hazırladığınız süjet xəttinin arxasında hansı hekayə dayanır? Süjet boyu nə baş verir?*

- Hər bir qrup əsas ideyanı formalaşdırdıqdan sonra "konspirasiya inqrediyentləri" tapşırığının elementlərini əlavə edə bilərlər. Onlar həmçinin ilkin debat zamanı araşdırılan fikirləri də əlavə edə bilər. "Konspirasiya inqrediyentləri"ni bir neçə kağız parçalarına ayırmaq olar. Hər bir qrup həmin kağız parçalarını təsadüfi şəkildə seçməli və sonra inqrediyentlərdən bir hekayə hazırlamalıdır.
- Hekayə hazırlandıqdan və yoxlandıqdan sonra yarımqruplar hazırladıqları məhsulu digər qrup üzvlərinə təqdim edir.

**Tövsiyələr**

- Bu tapşırıq konspirasiya nəzəriyyələrinə pedaqoji səyahət etməyə imkan verəcək. Tövsiyə edərdik ki, mövzu ilə bağlı əvvəlcədən müəyyən məlumatlar verəsiniz.
- Həmçinin etnik və dini qrupları hədəfə almağı, hətta istehza ilə olsa belə, hər hansı həssas stereotiplərə meyl göstərməməyi tövsiyə edərdik.

**Dəyişən**

- Vaxt, vasitə və texniki bacarıqlar olarsa, iştirakçılar həmçinin özləri də video hazırlaya bilər.

***Mənbə***

BePax, Déconstruire les théories du complot, www.bepax.org/files/files/OUTILS/bepax-deconstruire-les-theories-du-complot-fiches-pedagogiques.pdf

BePax
Dialogue & Diversité

## Tapşırıq materialı: **konspirasiya nəzəriyyəsi üçün inqrediyentlər**

# TAPŞIRIQ 13



1. Qruplar əsas mövzusunu seçdikdən sonra “konspirasiya nəzəriyyəsi inqrediyentləri”ni ilkin debatda müzakirə etdiklərinə əlavə etməlidir. Kağız parçası kiçik hissələrə kəsilə və iştirakçılar öz konspirasiya nəzəriyyəsinə daxil etmək üçün təsadüfi şəkildə üç kağız parçasını seçə bilər.

| | | | |
|---|---|---|---|
| Ritorik suallardan istifadə edin | Öz nəzəriyyənizi dəstəkləyən məlumatları (həqiqi və ya saxta) toplayın | “Faktlar”la nəzəriyyə arasında bir çox məsələlərin üst-üstə düşdüyünü nümayiş etdirin | Aidiyyəti hadisənin nəticələrinin nədən ibarət ola biləcəyini nümayiş etdirin |
| Hekayəni hazırlayın: tarixi məlumat verin və sonu gözlənilməz olsun | Arqumentlərinizi göstərərkən aqressiv olun və hökmünüzü nümayiş etdirin | Bir neçə cümlə seçin: arqumentinizi dəstəkləməsi üçün “gözlənilməz faktor”lu söz birləşmələrindən istifadə edin | Şərt və əmr formalarından istifadə edin |
| Stereotiplərdən istifadə edin | Təəccüb yaradan şəkillərdən istifadə edin | | |

Qrupun video hazırlamaq üçün vaxtı\texniki vasitələri olarsa, aşağıdakı inqrediyentləri əlavə etmək də mümkündür:

| | | | |
|---|---|---|---|
| Dramatik musiqidən istifadə etmək | Səsləndirmədən istifadə etmək və narahat tonlu səsi işə salmaq | Anonim aparıcıdan istifadə etmək | Tünd rənglərdən istifadə etmək |

2. İştirakçılar konspirasiya nəzəriyyələrini yekunlaşdırdıqdan sonra hər bir qrup hazırladıqları məhsulları qrupun digər üzvlərinə təqdim edir.

# LÜĞƏT

### Konspirasiya nəzəriyyəsi

Mövzunun konspirasiya öhdəliyi nəticəsində yarandığını izah edən yanlış təfsirdir. Məsələn, konspirasiya nəzəriyyəçisi iddia edə bilər ki, millət faktiki hökumətin deyil, hansısa siyasi manevrin gizli olaraq nəzarəti altındadır. Əslində nisbətən aşkar xüsusiyyətlərə malik olan insidentlərin daha dərin və mürəkkəb səbəblərini axtarıb tapmaq istəyindən konspirasiya nəzəriyyələri meydana gəlir. Bu nəzəriyyələr həmçinin arzuolunmaz hadisələrin legitimliyini aradan qaldırmağa çalışan insanlar tərəfindən də yaradıla bilər.

https://www.adl.org/resources/glossary-terms/conspiracy-theory

Antidiffamasiya Liqası (ADL)

### Tənqidi təfəkkür

İnformasiya və fikirləri verildiyi kimi qəbul etmək əvəzinə, onların daşıdığı dəyəri və ehtimalları başa düşüb qiymətləndirmək məqsədi ilə həmin informasiya və fikirləri yoxlamaq və təhlil etmək bacarığıdır. Hər kəsin qərarvermə və ümumiyyətlə, öyrənmə prosesi zamanı tənqidi mövqeyi tutmasını təlqin etmək məqsədi ilə mətbuat savadlılığı xüsusilə tənqidi təfəkkürü formalaşdırır.  (?)

### Mədəni mənsubluq

Mədəni mənsubluq anlayışı bir sıra fərqli təfsirlərə malik təzadlarla dolu bir mövzudur. Bu, ümumi şəkildə fərdin yaşadığı zonadakı kökləri ilə müəyyən edildiyi prinsip kimi başa düşülür. Son vaxtlar isə xüsusilə də miqrasiya köçləri kontekstində mədəni mənsubluq doğulduğu ölkənin mədəniyyətinə və ya ailə mədəniyyətinə, ölkəsi ilə, yaxud onun valideynlərinin ölkəsi ilə əlaqələrinə görə müəyyən edilir. Mədəni mənsubluq anlayışının bu cür məna təkamülü identlikliyin bütün fərdi vasitələrdən üstün olduğu fikrinin əksidir.

### De-radikallaşma

Fərdin zorakı radikallaşma öhdəliyi və ona cəlb olunması o dərəcədə azaldılır ki, zorakı fəaliyyətə qoşulmaq kimi bir risk artıq mövcud olmur. De-radikallaşma belə bir sosial və psixoloji prosesdir. Zorakı fəaliyyətlərə qoşulmaq kimi problemləri həll edərək yeni riskin qarşısını almağa çalışan istənilən təşəbbüs də de-radikallaşma hesab edilə bilər. De-radikallaşma idrakın dəyişməsinə - qavrayışın əsaslı dəyişməsinə dəlalət edir.

Avropa Komissiyası, *İnkişaf naminə çalışmaq, zorakılıq və ekstremizmə qarşı davamlılığı gücləndirmək, Avropa İttifaqının Nəşriyyat İdarəsi*, Lüksemburq, 2015,

https://ec.europa.eu/europeaid/sites/devco/files/strive-brochure-20150617_en.pdf

### Rəqəmsal era

Rəqəmsal kod vasitəsi ilə məlumat mübadiləsinin genişləndiyi və qlobal xarakter aldığı dövr rəqəmsal era hesab olunur. Bəziləri bu dövrü şumerlərin yazını, Qutemberqin çap maşınını kəşf etdiyi dövr qədər inqilabi tarix hesab edir.

### Rəqəmsal savadlılıq

İnformasiyanı yerləşdirmək, qiymətləndirmək, istifadə etmək və yaratmaq üçün texnologiya, kommunikasiya vasitələri və şəbəkələrindən istifadə bacarığı. Bu həmçinin kompüterlər vasitəsi ilə təqdim edildiyi zaman genişmiqyaslı mənbələrdən gələn çoxsaylı formatlardakı informasiyanı başa düşmək və istifadə etmək bacarığına, yaxud rəqəmsal mühitdə tapşırıqları effektiv surətdə yerinə yetirmək bacarığına dəlalət edir. İnternet məlumatlarını oxumaq və təfsir etmək, rəqəmsal manipulyasiya ilə məlumat və şəkilləri hazırlamaq, rəqəmsal mühitdən öyrənilən yeni bilikləri qiymətləndirmək və tətbiq etmək bacarığı rəqəmsal savadlılıq məfhumuna daxildir.

Akyemponq Kvame, Çeunq Çi-Kim, Qrizl Elton, Tuazon Remon, Uilson Karolin, *Mətbuat və informasiya savadlılığı. Siyasət və strategiya təlimatları. UNESCO*, Paris, 2012,

http://unesdoc.unesco.org/images/0022/002256/225606e.pdf

### Ayrı-seçkilik

*Ünvanlı ayrı-seçkilik:* öz irqinə, etnik mənsubiyyətinə, dininə və ya dini inanclarına, sağlamlıq imkanlarının məhdud olduğuna, yaşına və ya cinsi orientasiyasına görə müəyyən bir şəxsə müqayisə zamanı digərinə nisbətdə daha əlverişsiz münasibət göstərilməsi. “Sağlamlıq imkanları məhdud olan şəxslər müraciət edə bilməz” cümləsini vurğulamaqla, iş təklifi etmək ünvanlı ayrı-seçkilikdir. Buna baxmayaraq, əslində ayrı-seçkilik bir qədər incə formada təzahür edir. Bu səbəbdən də ünvansız ayrı-seçkilik də getdikdə artır.

*Ünvansız ayrı-seçkilik:* fərdlər qrupunun irq, etnik mənsubiyyət, din və dini inancları, məhdud sağlamlıq imkanları, yaş və cinsi orientasiyası səbəbindən mövqe, meyar və ya təcrübə həmin fərdlərin qarşısını alırsa, ünvansız ayrı-seçkilik halı meydana gəlir. Həmin mövqe, meyar və ya təcübə yalnız legitim bir məqsədlə obyektiv surətdə əsaslandırıldıqda belə hal aradan qalxır. Məsələn, müəyyən bir iş üçün müraciət edən şəxsdən xüsusi bir dil imtahanını verməsini tələb etmək - hətta həmin dilin o iş üçün zəruri olmadığını bildikdə belə. Bu, ünvansız ayrı-seçkilik nümunəsidir. Doğma dilləri fərqli olan şəxslər isə bu imtahandan keçməyə bilər.

### Dezinformasiya

Xüsusilə də dövlət təşkilatı tərəfindən rəqib tərəfə və ya mətbuata qarşı hazırlanmış təbliğat xarakterli, azdırıcı yanlış informasiya. Xüsusilə də dövlət təşkilatı tərəfindən rəqib tərəfə və ya mətbuata qarşı hazırlanmış təbliğat xarakterli, azdırıcı yanlış informasiya.

Oksford, https://en.oxforddictionaries.com/definition/disinformation

### Ekstremizm

Hərfi mənada “ekstremizm” “kütlənin əksər hissəsinin düzgün və ya məqsədəuyğun olduğunu hesab etdiyi düşüncə tərzindən çox uzaq olan fikirlərə inanmaq və həmin fikirləri dəstəkləməkdir”. “Ekstremizm” normadan kənara çıxan münasibət və davranışlara aid edilir. Adi lüğətdə bu sözün subyektiv xüsusiyyəti vurğulanır ki, bu da normanın kim tərəfindən müəyyənləşdirilməsindən və nələrin arzuedilən, nələrin arzuedilməyən olduğuna dair qərarın kim tərəfindən verilməsindən asılı olaraq, fərqli mənalarda qəbul oluna bilər.

UNSECO, *Maarifləndirmə vasitəsi ilə zorakı ekstremizmin qarşısının alınması. Hökumət nümayəndələri üçün təlimat*, UNESCO, Paris, 2017.

http://unesdoc.unesco.org/images/0024/002477/247764e.pdf

### Saxta xəbər

Həqiqəti əks etdirməyən və zərər vermək məqsədi daşıyan informasiya. “Le Monde” fransız qəzetinin faktaraşdırıcı bölməsi olan “Les Décodeurs”ə görə, saxta xəbər “özünü jurnalist kimi qələmə vermək üçün ənənəvi mətbuat şifrələri və formalarından istifadə edir”.

UNESCO, https://en.unesco.org/courier/2017-july-september/lexicon-digital-age

### Nifrət nitqi

Nifrət nitqi dedikdə dözümsüzlük, ayrı-seçkilik və düşmənçilik zəminində azlıqlara, immiqrantlara və immiqrant valideynlərdən dünyaya gələn insanlara, o cümlədən dinlərə qarşı irqi nifrət, ksenofobiya, seksizm və yaxud nifrətin digər formalarını, habelə fərqli cinsi oriyentasiyaya malik olan insanlara qarşı ayrı-seçkiliyi təbliğ və təşviq edən, buna şərait yaradan və ya əsaslandıran bütün ifadə formalarını əhatə edir

### Mədəniyyətlərarası əlaqələr

Mədəniyyətlərarası əlaqələr dinamik bir konsepsiyadır və mədəni qruplar arasında formalaşan münasibətləri ehtiva edir. Bu terminin tərifi belə verilmişdir: “Fərqli mədəniyyətlərin mövcudluğu və bərabərhüquqlu münasibətləri, habelə dialoq və qarşılıqlı hörmət əsasında birgə mədəni özünüifadə formalarının yaradılması imkanı”. Mədəniyyətlərarası əlaqələr multikulturalizmi ehtiva edərək, yerli, regional, milli və beynəlxalq səviyyələrdə “mədəniyyətlərarası” mübadilə və dialoqlar nəticəsində meydana gəlir.

UNESCO, *Mədəniyyətlərarası Təhsil üzrə Təlimat,* UNESCO, Paris, 2006

http://unesdoc.unesco.org/images/0014/001478/147878e.pdf

### Birgə yaşamaq

Müxtəlif fərd və icmalarda səmimi yaşayış. Avropa Şurasının verdiyi tərifə görə, birgə yaşamaq aşağıdakı mənaya gəlir: fikir azadlığı və fikir plüralizmi; dözümlülük və anlaşmanı təmin etmək məqsədi ilə insan ləyaqətinə, mədəni müxtəlifliyə və “digərlərinin hüquqları”na hörmətlə yanaşmaq; bütün vətəndaşların ictimai işlərə cəlb olunması, onların informasiya və mətbuata çıxış hüquqlarının təmin edilməsi.

Avropa Şurası, *Birgə yaşamaq*. Sosial yekdilliyə mətbuatın verdiyi töhfələr, mədəniyyətlərarası dialoq, anlaşma, dözümlülük və demokratik iştirak üzrə Avropa Şurasının standartlarına dair Təlimat. Avropa Şurası, Strasburq, 2009. səh.50.

https://rm.coe.int/1680483533

### Təcridolunma

Bu, elə bir prosesdir ki, öz mənşəyinə, etnik kimliyinə, dini və ya cinsi orientasiyasına görə fərdlər və ya fərdlər qrupu yoxsulluq, sağlamlıq məhdudiyyətləri, təhsilsizlik, rasizm və ayrı-seçkilik səbəblərindən cəmiyyətdən təcrid olunub sıxışdırılır.

Avropa Komissiyası, *Təcridolunma və zorakı radikallaşmanın qarşısını almaqda gənclərlə iş sektorunun verdiyi töhfələr. Gənclərlə iş sektorunun əməkdaşları üçün praktik bələdçi və hökumət nümayəndələri üçün tövsiyələr*, Office des publications de l'Union européenne, Lüksemburq, 2017.

### Mətbuat və informasiya savadlılığı

Demokratik cəmiyyətlərdə mətbuatın rolu və funksiyalarının qavranılmasına, mətbuatda gedən məlumatların tənqidi cəhətdən qiymətləndirilməsinə, özünüifadə, mədəniyyətlərarası dialoq və demokratik proseslərdə iştirak məqsədləri ilə mətbuatla əlaqələrin qurulmasına aparıb çıxaran praktik bacarıqlar, bilik və münasibətlər mətbuat savadlılığına malik olmaq deməkdir. Mətbuat savadlılığına malik olan şəxslər mətbuatın və digər informasiya daşıyıcılarının əhəmiyyətini, onların təqdim etdiyi mesaj və informasiyanın zəif və güclü cəhətlərini daha yaxşı başa düşə bilir.

Akyempong Kvame, Çeunq Çi-Kim, Qrizl Elton, Tuazon Remon, Uilson Karolin, *Mətbuat və informasiya savadlılığı. Siyasət və strategiya təlimatları*. UNESCO, Paris, 2012.

http://unesdoc.unesco.org/images/0022/002256/225606e.pdf

### Multikulturalizm

Vahid cəmiyyət, region və ya dövlət daxilində fərqli mədəniyyət, dini təcrübələr və millətlərin qorunması və prevendiv ofilaktik formada proseslərə cəlb edilməsi deməkdir. Bu, vahid bir siyasət ola, yaxud yerli hakimiyyət dairələri və vətəndaşlar tərəfindən tərənnüm edilə bilər. Bu həm bir təcrübə, həm də normativ hədəf kimi qəbul edilə bilər.

Avropa Komissiyası, *İnkişaf naminə çalışmaq, zorakılıq və ekstremizmə qarşı davamlılığı gücləndirmək, Avropa İttifaqının Nəşriyyat İdarəsi*, Lüksemburq, 2015,

https://ec.europa.eu/europeaid/sites/devco/files/strive-brochure-20150617_en.pdf

### Populizm

Öz problemlərinin müvafiq elitalar tərəfindən məhəl qoyulmadığını hesab edən adi insanlara yönləndirilmiş siyasi yanaşmadır.

Oksford, https://en.oxforddictionaries.com/definition/populism

### Psevdohəqiqət

Oksford lüğətləri tərəfindən "2016-cı ilin sözü" seçilən bu terminə aşağıdakı kimi tərif verilir: "emosiya və şəxsi inanclarla müqayisədə, ictimai rəyin formalaşmasında obyektiv faktların daha az təsir göstərdiyi hallar". Bu termin ilk dəfə 1990-cı illərdə istifadə edilmiş, 2016-cı il Breksit və Amerikada prezident seçkiləri kampaniyası zamanı daha geniş yayılmışdır. Psevdohəqiqət termini daha faktlara bağlı olmayan və ictimaiyyətin ənənəvi mətbuat və təşkilatlara olan inamının itdiyini göstərən siyasi bir ritorikadır.

UNESCO https://en.unesco.org/courier/2017-july-september/lexicon-digital-age

### Profilaktik tədbir

Aİ-nin zorakı ekstremizmlə mübarizəni əsas diqqət mərkəzində saxlayan Terrorizmə qarşı mübarizə strategiyasının bir hissəsi. Məqsədi fərdlərin terrorizmə qoşulması risklərini azaltmaq və ya aradan qaldırmaqdır. Zorakı ekstremizmə qarşı həssas olan şəslərin müəyyənləşdirilməsi və müvafiq müdaxilə tədbirlərinə cəlb edilməsi profilaktik tədbirlərdir. Bu müdaxilə tədbirlərinin məqsədi həssas şəxslərin radikallaşmadan çəkindirilməsidir.

Avropa Komissiyası, *İnkişaf naminə çalışmaq, zorakılıq və ekstremizmə qarşı davamlılığı gücləndirmək, Avropa İttifaqının Nəşriyyat İdarəsi*, Lüksemburq, 2015,

https://ec.europa.eu/europeaid/sites/devco/files/strive-brochure-20150617_en.pdf

### Təbliğat:

İcmanın müəyyən səbəb və mövqeyə qarşı münasibətinə təsir etmək məqsədini daşıyan kommunikasiya formasıdır. Kifayət qədər mətbuat və informasiya savadlılığına malik olmayan vətəndaşlar informasiyadan qeyri-etik istifadə edən şəxslərə çevrilə bilir. Məsələn, internetdə təbliğat apararaq, mətbuat və internetə potensial surətdə mənfi təsirlər göstərə bilər.

Akyempong Kvame, Çeunq Çi-Kim, Qrizl Elton, Tuazon Remon, Uilson Karolin, *Mətbuat və informasiya savadlılığı. Siyasət və strategiya təlimatları*. UNESCO, Paris, 2012,

http://unesdoc.unesco.org/images/0022/002256/225606e.pdf

### Radikallaşma:

"Ekstremizm" terminində olduğu kimi, "radikallaşma" termini də zorakı ekstremizm kontekstində istifadə edildikdə mübahisəli vəziyyət yaranır. Problem ondadır ki, bu terminin istifadəsi söz azadlığına qoyulan məhdudiyyətləri əsaslandıra bilər. Əlbəttə ki, "radikal" sözünün özü müxtəlif vəziyyətlərdən asılı olaraq, fərqli kontekstlərdə müəyyənləşdirilə bilər. Müəyyən kontekstlərdə bu sadəcə "siyasi dəyişiklik istəyi" mənasına gələ bilər. Zorakı ekstremizmin qarşısının alınması istiqamətində görülən tədbirlər kontekstində isə zorakılıqdan istifadəni legitimləşdirənə qədər müəyyən bir şəxsin ekstremal baxış və ya təcrübələri qəbul etdiyi prosesləri təsvir etmək üçün ümumi şəkildə "radikallaşma" terminindən istifadə olunur. Burada əsas məqam zorakılığın qəbulu prosesidir. Bir fərdin zorakı ekstremistə çevrildiyi prosesə işarə vermək üçün "zorakılığa səbəb olan radikallaşma" söz birləşməsi ideoloji olaraq zorakılığa istiqamətlənmiş "zorakı ekstemizm"lə müqayisədə daha uyğundur.

UNSECO, *Maarifləndirmə vasitəsi ilə zorakı ekstremizmin qarşısının alınması. Hökumət nümayəndələri*

*üçün təlimat*, UNESCO, Paris, 2017.

http://unesdoc.unesco.org/images/0024/002477/247764e.pdf

### Zorakılığa səbəb olan radikallaşma

Sosial transformasiya vasitəsi kimi ideologiyanı, siyasi bir layihəni və ya məqsədi təşviq etmək üçün insanlarının ekstremist inanc sistemini, o cümlədən zorakılıqdan istifadə, onu həvəsləndirmə və dəstəkləmə niyyətini qəbul etdiyi prosesdir.

### Radikalizm

Radikalizm status-kvonu dəstəkləyən ənənəvi və prosedural məhdudiyyətlərin aradan qaldırılması məqsədi ilə radikal dəyişikliklərin, siyasi və sosial təsisatların yenidən qurulmasının himayə edilməsi və yerinə yetirilməsidir.

Avropa Komissiyası, *Təcridolunma və zorakı radikallaşmanın qarşısını almaqda gənclərlə iş sektorunun verdiyi töhfələr. Gənclərlə iş sektorunun əməkdaşları üçün praktik bələdçi və hökumət nümayəndələri üçün tövsiyələr, Avropa İttifaqının Nəşriyyat İdarəsi*, Lüksemburq, 2017.

### Müqavimət qabiliyyəti

Emosional və fiziki rifahına mənfi təsir göstərən problemlərin fərd tərəfindən aradan qaldırılması müqavimət qabiliyyəti deməkdir. Zorakı ekstremizm kontekstində “müqavimət qabiliyyəti” dünyanı nifrət və zorakılıqdan istifadəni legitimləşdirən müstəsna həqiqətlər çərçivəsində nümayiş etdirən fikir və düşüncələrə sinə gərmək və yaxud tabe olmamaq bacarığı deməkdir. Təhsil sahəsində bu termin aşağıdakı kimi ifadə edilir: tələbələrin zorakı ekstremist qrupların təbliğ etdiyi ən sadə və bir-istiqamətli dünya görüşlərinin qurbanına çevrilməməsi məqsədi ilə onların tənqidi təfəkkürü, soruşmaqla öyrənmək (sual verməklə öyrənmə) və faktları təsdiqləmək bacarıqlarını artırmaqdır. Zorakı ekstremizmin yayılmasının qarşısını almaq məqsədi ilə təhsil sektorunun həyata keçirə biləcəyi başlıca tədbirlərdən biri də tələbə və gənclər arasında müqavimət qabiliyyətinin gücləndirilməsidir.

UNSECO, *Maarifləndirmə vasitəsi ilə zorakı ekstremizmin qarşısının alınması. Hökumət nümayəndələri üçün təlimat*, UNESCO, Paris, 2017.

http://unesdoc.unesco.org/images/0024/002477/247764e.pdf

### Dünyəvilik

Dünyəvilik siyasi hakimiyyətin dini hakimiyyətdən ayrı olduğu bir prinsipdir. Bu həm dövlətin neytrallığını, həm də dini münasibətlərə qarışmamasını təmin edir.

### Sosial kimlik

Sosial kimlik şəxsi keyfiyyətlərlə (yaş, cins, iş...) və statusla (tələbə, gənc, rəhbər...) xarakterizə olunur. Bu

səbəbdən hər hansı bir qrupa və ya yarımqrupa mənsubluq kimi müəyyənləşdirilir. Şəxsi kimlikdə olduğu kimi, sosial kimlik də müvafiq təcrübələrdən (müsbət və ya mənfi) asılı olaraq, fərdin həyatı boyu inkişaf edir.

### Terrorizm

"Terrorizm" siyasi hədəfə nail olmaq üçün qəbul edilmiş, qəsdən xof yaradan və xof tətbiq edən məqsədli bir strategiyadır. BMT-nin Baş Assambleyasının qəbul etdiyi qətnaməyə görə (A/RES/64/297), kim tərəfindən, harada və hansı səbəblərdən həyata keçirildiyinə baxmayaraq, *beynəlxalq sülh və təhlükəsizliyin qarşısında dayanan ən ciddi təhlükələrdən biri olduğuna görə istənilən forma və təzahürlərdə meydana gələn terrorizm ölkələr tərəfindən əsaslı və birmənalı şəkildə rədd edilməlidir*. Bu bələdçi terrorizm anlayışına daxil ola biləcək fəaliyyətlərin hər birini əhatə etmir. İdeoloji olaraq zorakılıqdan istifadəyə yönləndirilmiş tədbirlərin aradan qaldırılması ilə məhdudlaşdırılır. "Zorakı ekstremizm" və "terrorizm" çox vaxt yanlış olaraq eyni mənalarda işlədilir. Terrorizm zorakı ekstremizm foması olduğuna və adətən ideoloji cəhətdən dəstəkləndiyinə görə terrorizmi zorakı ekstremizmdən fərqləndirən konseptual məqam nəyəsə son qoymaq üçün xof yaratmaq və terror hadisəsini törətməkdir.

UNSECO, *Maarifləndirmə vasitəsi ilə zorakı ekstremizmin qarşısının alınması. Hökumət nümayəndələri üçün təlimat*, UNESCO, Paris, 2017

### Gənclərlə iş sektoru

Gənclər tərəfindən, gənclərlə birlikdə və gənclər naminə həyata keçirilən geniş miqyaslı sosial, mədəni, maarifləndirmə və siyasi fəaliyyətlərdir. Həmçinin idman və gənclər üçün nəzərdə tutulmuş xidmətləri (yəni gənclərin məlumatlandırılması), məktəbdənxaric təhsil, informal və ya rekreasiya fəaliyyətlərini də ehtiva edə bilər. Bu fəaliyyətlər yerli, regional, milli və Avropa səviyyələrində həyata keçirilə bilər.

Avropa Komissiyası, *Təcridolunma və zorakı radikallaşmanın qarşısını almaqda gənclərlə iş sektorunun verdiyi töhfələr. Gənclərlə iş sektorunun əməkdaşları üçün praktik bələdçi və hökumət nümayəndələri üçün tövsiyələr, Avropa İttifaqının Nəşriyyat İdarəsi*, Lüksemburq, 2017.



*“Güc birlikdədir”* sənədinin məqsədi zorakı ekstremizmin xüsusiyyətlərini izah və təhlil etmək deyildir. Əvvəla, *“Güc birlikdədir”* bələdçisi gənclərin zorakı ekstremizmə məruz qalmasının qarşısını almaq məqsədi ilə müvafiq problem və konsepsiyaların gənclərlə çalışan əməkdaşlarla müzakirə edilməsi üçün (gənclərlə iş sektorunun əməkdaşları, gəncləri məlumatlandıran işçilər, təhsilverənlər, müəllimlər, sosial işçilər, dəstə başçıları, könüllülər və b.) istifadə edilə biləcək **praktik bir resursdur.**

Bu bələdçi **kimlik, fərqlilik, özünüdərk, müzakirə mədəniyyəti, mətbuat və informasiya savadlılığı** kimi məsələləri nəzərə alaraq, dərin və uzunmüddətli yanaşmanı təklif edir. Bu, iddialı bir vəzifədir, çünki məqsədi **gəncləri aşağıdakı mövzular barədə məlumatlandırmaqdır:**

- Fərqlilik müsbət keyfiyyətdir;
- Fikir müxtəlifliyi **sərbəst fikir mübadiləsinə** şərait yaradır və cəmiyyətə dəyişiklik gətirir;
- **Tənqidi təfəkkür** müstəqillik və azadlığı təşviq edir;
- **Özünəinam** özünürealizənin təməlində dayanır və fərdin cəmiyyətdə öz yerini tapması üçün zəruri şərtdir;
- Bu elementlərin hamısı (və digərləri) birgə yaşamaq üçün mühümdür, müvafiq olaraq, ehtiramlı və proqressiv multikultural cəmiyyətin qurulmasında zəruridir.

Gənclərlə iş sektorunda çalışan peşəkarlar gənclərlə qurduğu yaxın münasibət və etimad əsasında risk faktorlarını müyyənləşdirə, radikallaşma və zorakı ekstremizm tendensiyalarının qarşısını ala bilər. Bu, əlbəttə ki, çətin bir tapşırıq olsa da, cari sosial problemlərin həlli üçün çox zəruridir. Nəticə etibarilə, ümid edirik ki, *“Güc birlikdədir”* bələdçisi gündəlik fəaliyyətlərdə qarşılaşdıqları problemlərin bəzisinin həll edilməsində gənclərlə işləyən şəxslərə yardım göstərəcək.

european youth information
and counselling agency

info@eryica.org
www.eryica.org

ISBN 978-2-9199585-5-9